DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

# AZƏRBAYCAN DİLİ

# 9

5 | 6 | 7 | 8 | 9 | 10 | 11



- YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI
- TEST TAPŞIRIQLARI

ABİTURİYENT
jurnalının xüsusi buraxılışı

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

DÖVLƏT İMTAHAN MƏRKƏZİ

www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

# AZƏRBAYCAN DİLİ

9

5 6 7 8 9 10 11

ABİTURİYENT
jurnalının xüsusi buraxılışı

- YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI
- TEST TAPŞIRIQLARI

**«ABİTURİYENT»**
jurnalının xüsusi buraxılışı

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, K.R.Aydazadə, F.Ş.Bədəlbəyli, G.Ç.Gəraybəyli, A.M.Məhərrəmov, A.M.Paşayev, V.R.Misirov.

**REDAKSİYA HEYƏTİ**
M.Ə.Bədəlov (baş redaktor), İ.M.Allahverdiyev, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, T.A.Bədəlov, M.Ə.Əkbərli, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova, A.E.Həbibov, N.Z.Hüseynova, Ç.C.Xəlilov, X.Z.Kərimova, A.Ə.Qasımov, S.S.Mərdanov, C.F.Orucov, O.Y.Şelaginov, H.R.Zeynalov.

Ümumi təhsil müəssisələrində tədris prosesində mənimsənilmiş bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi məqsədilə nəşr edilən bu vəsait Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri, texnika üzrə fəlsəfə doktoru M.M.Abbaszadənin ümumi rəhbərliyi ilə hazırlanmışdır.

Vəsaitin metodiki və texniki cəhətdən hazırlanmasına texnika üzrə fəlsəfə doktoru T.A.Bədəlov və A.H.Batıyeva rəhbərlik etmişlər.

Vəsait buraxılış imtahanlarına hazırlaşan IX və XI sinif şagirdləri, eləcə də qəbul imtahanlarına hazırlaşan abituriyentlər üçün etibarlı mənbədir.

Vəsaitdən ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.

**Dil və üslub üzrə redaktor:**
N.M.Musayev, Ç.İ.Rüstəmov.

**Texniki redaktor:**
C.F.Orucov (DİM-in sektor müdiri)

**Üz qabığının tərtibatı və dizayn:**
Laura Abdulla

**Kompüter və dizayn:**
İ.İ.Cəfərov, E.M.Əliyev

**Redaksiyanın ünvanı:**
AZ1025, Bakı şəhəri, Y.Səfərov küçəsi, 27.

**Telefon:**
1653 (DİM-in çağrı mərkəzi),
(+99412) 489-02-59 (Redaksiya).

**Elektron poçt:** abiturient.journal@gmail.com
**Web sayt:** www.abiturient.az

**© DİM – «Abituriyent» – 2017**

**Elmi redaktor:**

| | |
|---|---|
| T.M.Hacıyev | BDU-nun Azərbaycan dilçiliyi kafedrasının professoru, filologiya üzrə elmlər doktoru |

**I hissə**
YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI

**Müəlliflər:**

| | |
|---|---|
| S.H.İbrahimov | Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin müəllimi |
| A.H.Hüseynova | Bakı şəhəri 286 nömrəli tam orta məktəbin müəllimi, f.ü.f.d, dos. |
| F.İ.Osmanova | Bakı şəhəri 281 nömrəli tam orta məktəbin müəllimi, f.ü.f.d |
| N.Ş.Abdulov | Bakı şəhəri 282 nömrəli tam orta məktəbin müəllimi |
| Z.M.Zərbəliyev | Bakı şəhəri 7 nömrəli tam orta məktəbin müəllimi |

**Rəyçilər:**

| | |
|---|---|
| Ş.F.Zahidova | Bakı şəhəri 282 nömrəli tam orta məktəbin müəllimi |
| S.A.Alxasova | Bakı şəhəri 168 nömrəli tam orta məktəbin müəllimi |
| G.Ş.Piriyeva | T.İsmayılov adına 6 nömrəli məktəb-liseyin müəllimi |

**II hissə**
TEST TAPŞIRIQLARI

**Müəlliflər:**

| | |
|---|---|
| İ.Ə.Əhmədzadə | |
| M.H.Vəliyeva | Akademik Zərifə Əliyeva adına liseyin direktoru, f.ü.f.d. |
| S.H.İbrahimov | Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinin müəllimi |
| R.K.Əliyeva | DİM-in əməkdaşı |
| F.C.Ellazov | Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın müəllimi |
| M.Ə.Hüseynov | Sumqayıt şəhər 3 nömrəli tam orta məktəbin müəllimi |
| Ə.İ.Əsədov | Qubadlı rayonu Fərcan kənd tam orta məktəbin muəllimi |

**Rəyçi:**

| | |
|---|---|
| S.B.Əhmədova | Heydər Əliyev adına MTK-nın əməkdar müəllimi |


# AZƏRBAYCAN DİLİ

(ümumi təhsil müəssisələrinin 9-ci sinfi üçün vəsait)

**© DİM – "Abituriyent" - 2017**

Dövlət İmtahan Mərkəzinin rəsmi razılığı olmadan kitabın
və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron
və ya mexaniki üsulla surətinin çıxarılması
**QADAĞANDIR!**

*Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır.*

**HEYDƏR ƏLİYEV**

# ÖN SÖZ

Müasir mərhələdə təhsil sahəsində həyata keçirilən islahatlar biliyin qiymətləndirilməsi sistemi qarşısında yeni tələblər qoyur. Qiymətləndirmə təhsilalanların biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması rolunu yerinə yetirir. Təlim prosesində məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyəti izləməyə, yoxlamağa, eyni zamanda bu prosesdə qarşıya çıxan problemləri, uğursuzluqların səbəblərini araşdırmağa xidmət edir. Qiymətləndirmə təhsilalan və təhsilverənlərin fəaliyyətini istiqamətləndirməkdə, təhsilin keyfiyyətinə nəzarəti təmin etməkdə vacib amildir. Mühüm cəhət ondan ibarətdir ki, islahatların həyata keçirilməsi prosesində qiymətləndirmənin məzmun və forması da xeyli dəyişikliyə məruz qalır. Bu dəyişiklik, ilk növbədə qiymətləndirmənin bilik və bacarıqları aşkara çıxarmaqla yanaşı, qabiliyyət və kompetensiyaları müəyyən etməyə imkan yaratmasında da özünü göstərir. Dəyişikliklərin inkişafa, tərəqqiyə doğru istiqamətlənməsi, sözsüz ki, müsbət haldır. Ancaq bu, dəyişikliklər prosesinin, ümumiyyətlə, təhsil islahatlarının rəvan, problemsiz getməsi demək deyildir. Xüsusilə məktəbdaxili qiymətləndirmənin üsul və vasitələrinin islahatların tendensiyasına uyğun qurulması istiqamətində xeyli işlər görülməlidir. Qiymətləndirməyə ciddi elmi-metodiki prinsiplərə əsaslanan, özünəməxsus standartları, formaları, üsulları, vasitələri və bunların reallaşdırılmasına aid prosedurları olan bir sistem kimi yanaşmaq lazımdır. Nəzərə alınmalıdır ki, qiymətləndirmə standartı – təhsilalanların bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbidir. Odur ki, yeni təhsil proqramları (kurikulum) əsasında məktəb dərsliklərini və metodiki vəsaitləri hazırlayan mütəxəssislər bu kimi məsələlərin həlli üzərində çox ciddi işləməlidirlər.

Ümumtəhsil müəssisələrinin V, VI, VII və VIII sinif şagirdləri üçün keçirilən monitorinq imtahanlarının məzmununun müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən işlər ölkədə məktəb təhsili sahəsində aparılan islahatları izləməyə və qiymətləndirməyə imkan verir. Buna uyğun olaraq mövcud qiymətləndirmə vasitələri təkmilləşdirilir, yeniləri hazırlanıb tətbiq edilir. Onların yalnız bilikləri deyil, həm də bacarıq və qabiliyyətləri aşkara çıxarmaq imkanları araşdırılır. Belə qiymətləndirmə tapşırıqları işlənib hazırlanarkən qapalı (çoxseçimli) və açıq tipli test tapşırıqları ilə yanaşı, diaqramlar, sorğular, esselər, sxemlər, cədvəllər, mətnlər, situasiya tapşırıqlarından istifadə olunması da diqqət mərkəzində saxlanılır.

Hörmətli müəllimlər! Əziz şagirdlər və abituriyentlər! Sizə bu vəsaitdə müvafiq fənn və sinif üzrə tədris materialları əsasında hazırlanmış qiymətləndirmə tapşırıqları təqdim olunur.

Vəsait 2 hissədən ibarətdir: I hissədə yeni tipli qiymətləndirmə tapşırıqları, II hissədə isə qapalı (çoxseçimli) test tapşırıqları dərc edilib. Həmçinin vəsaitdə ümumi (9-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları üçün tapşırıq nümunələri və qiymətləndirmə meyarları verilmişdir.

Bəs eyni bir sinif üçün qiymətləndirmə vasitələrinin bu iki formasına aid sual və tapşırıqların təqdim olunmasına nə ehtiyac var?

Məsələ burasındadır ki, ölkənin ümumtəhsil məktəblərində 2008-ci ildən tətbiqinə başlanılan yeni təhsil proqramları (kurikulumlar) hələlik yalnız I-X siniflər üçün dərsliklərdə öz əksini tapıb. Ötən müddət ərzində hər il aşağıdan yuxarıya doğru növbəti bir sinif üçün kurikuluma əsaslanan dərsliklər nəşr edilir. Hazırda XI sinifdə oxuyan şagirdlər tam orta təhsili kurikulum əsasında təlim keçmədən, ənənəvi proqram materiallarını öyrənməklə başa vuracaqlar. Qarşıdan gələn ildə isə onlar buraxılış və qəbul imtahanları verməli olacaqlar. Kitabın ikinci hissəsində test tapşırıqlarının təqdim edilməsi məhz bu zərurətdən irəli gəlir. O ki qaldı müasir məktəb təcrübəsində qiymətləndirmənin müxtəlif formalarından istifadə edilməsi məsələsinə, qeyd edək ki, eyni bir mövzuya və ya məzmuna aid bilik və bacarıqların yoxlanılmasında qiymətləndirmənin müxtəlif üsul və vasitələrinin tətbiqi normal haldır. Əsas şərt odur ki, qiymət qiymətləndirilən keyfiyyətə maksimal dərəcədə uyğun olsun, onu dürüst, obyektiv əks etdirsin.

Müəllif kollektivi beynəlxalq miqyasda baş verən bütün yeniliklərə də həssaslıqla yanaşır, onları araşdırır, pozitiv və effektiv olan nə varsa, onları öz işlərində yaradıcılıqla tətbiq etməyə çalışır. Təqdim olunan materialların məzmun, mündəricat, tərtibat və təqdimat forması baxımından müxtəlifliyi məhz belə yanaşma tərzindən qaynaqlanır.

Vəsaitin hər iki hissəsində müəlliflər tərəfindən şagird, abituriyent və fənn müəllimlərinə ünvanlanmış "İzahat vərəqi" təqdim olunub. Burada vəsaitdən istifadə qaydalarına dair məlumat və tövsiyələr verilib.

Ümidvarıq ki, vəsait həm şagirdlər, həm abituriyentlər, həm də fənn müəllimləri üçün faydalı olacaqdır. Şagird və abituriyentlər ondan istifadə etməklə öz hazırlıq səviyyələrini yoxlayacaq, intellektual bacarıqlarını inkişaf etdirəcək, təhlillər, müqayisələr aparmağa həvəslənəcəklər. Müəllimlər isə vəsaitdən yararlanmaqla az vaxt ərzində daha çox şagirdin biliyini aşkara çıxara, təkcə ayrı-ayrı mövzuların deyil, bütövlükdə hər bir bəhsin, bölmənin, yarımillik və illik materialların şagirdlər tərəfindən necə mənimsənildiyini müəyyənləşdirə biləcəklər. Bununla da hər bir şagirdin hazırlığının yoxlanılmasına yanaşma imkanları xeyli genişlənəcəkdir.

Vəsait qüvvədə olan tədris proqramına və fənn kurikulumlarına uyğun tərtib olunub.

Vəsait buraxılış imtahanlarına hazırlaşan şagirdlər, eləcə də qəbul imtahanlarına hazırlaşan abituriyentlər üçün də etibarlı mənbədir.

Hörmətli oxucular!

Vəsaitlə bağlı qeyd və təkliflərinizi redaksiyaya göndərə bilərsiniz (elektron poçt ünvanımız: *abiturient.journal@gmail.com*). Sizə əvvəlcədən təşəkkürümüzü bildiririk.

**M.M.Abbaszadə,**

Dövlət İmtahan Mərkəzi
Direktorlar Şurasının sədri

# I

# HİSSƏ

YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI

# İZAHAT VƏRƏQİ

Azərbaycan Respublikasında 2008-ci ildən başlayaraq hər il fənn kurikulumlarının tələblərinə uyğun müvafiq siniflər üçün dərslik komplektləri nəşr edilir. Kurikulumun tətbiqi dərslik komplektlərinin hər fənn üçün müəyyən olunmuş məzmun xətləri və məzmun standartlarının tələblərinə uyğunluğunu zəruri edir. Həmin tələblərə əsaslanan qiymətləndirmə tapşırıqlarının hazırlanması da bu zərurətdən irəli gəlir. Odur ki, fənn kurikulumunun Azərbaycan dili fənni üçün müəyyən etdiyi **"Dinləyib-anlama və danışma", "Oxu", "Yazı", "Dil qaydaları"** məzmun xətlərinə aid olan bütün məzmun standartları, o cümlədən 19 alt standartın hamısı və 9-cu siniflər üçün Respublika Təhsil Nazirliyi tərəfindən rəsmən təsdiq olunmuş mövcud "Azərbaycan dili" dərsliyi təqdim olunan bu vəsait üçün əsas olmuşdur.

"Azərbaycan dili – 9 **(Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları)**" indiyə qədər ənənəvi dərslik əsasında nəşr edilən, yalnız test tapşırıqlarından ibarət olan qiymətləndirmə vasitələrindən bir çox xüsusiyyətlərinə görə fərqlənir.

Təqdim olunan yoxlama vasitələri həm ***diaqnostik***, həm ***formativ***, həm də ***summativ*** qiymətləndirmə üçün nəzərdə tutulmuş, eləcə də bütün tədris vahidlərini, alt standartları əhatə etmiş və bloklar şəklində verilmişdir. Vəsait hər bölmə üzrə məzmun xətləri və alt standartlara uyğun şəkildə hər biri 10 sual və tapşırıqdan ibarət olmaqla, formativ və summativ qiymətləndirmədə istifadə edilə bilən 24 variantdan, eləcə də həm diaqnostik, həm də böyük summativ qiymətləndirmədə istifadə oluna bilən hər biri 20 sual və tapşırıqdan ibarət olmaqla 9 variantdan, bütövlükdə isə 33 variantdan və 38 mətndən ibarətdir. Hər bir varianta aid sual və tapşırıqlar bir-birini təkrarlamayan, janrına, məzmununa, üslubuna, aktuallığına görə fərqlənən mətnlər üzərində qurulmuşdur. Bəzən tapşırıqların tələbinə uyğun olaraq mətnlərin həcmi ixtisar olunmuş, bəzən də onun tərkibinə müəyyən ifadələr daxil edilmişdir.

Tapşırıqların tərkibində mətnlərdən istifadə edilməsi həm də ayrı-ayrı məzmun xətləri əsasında öyrənilmiş bilik və bacarıqların yoxlanılmasına və qiymətləndirilməsinə geniş imkan yaradır.

**"Dinləyib-anlama və danışma"** məzmun xətti əsasında hazırlanmış yoxlama vasitələri ilə hər bir şagirdin danışanı dinləyə bilmək, dinlədiyini anlaya bilmək, mövzu ilə bağlı xarakterik suallar vermək, dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif tipli rabitəli mətnlər qurmaq, nitq prosesində danışığı ilə ifadə tərzini uzlaşdırmaq, ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim etmək bacarığını yoxlamaq və qiymətləndirmək mümkündür **(audio vasitələrin olmamasını nəzərə alaraq, bu məzmun xəttinə aid tapşırıqlar oxuyub-anlama imkanlarına uyğun formada təqdim edilmişdir)**.

**"Oxu"** məzmun xətti əsasında hazırlanmış yoxlama vasitələri şagirdin oxuduğu mətndə tanış olmadığı sözlərin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh etmək, həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını işlənmə məqamına uyğun şərh etmək, mətni düzgün və intonasiya ilə oxumaq, tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirmək, mətndə irəli sürülmüş fikirləri dəqiqləşdirmək bacarığını yoxlamağa və qiymətləndirməyə imkan yaradır.

**"Yazı"** məzmun xətti əsasında hazırlanmış yoxlama vasitələri hər bir şagirdin hesabat, akt, müxtəlif tipli və formalı mətnlər yazmaq, mətnin hissələri arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirmək, formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirməklə əsaslandırmaq bacarığını yoxlamağa və qiymətləndirməyə yönəldilib.

**"Dil qaydaları"** məzmun xətti əsasında hazırlanmış yoxlama vasitələri ilə şagirdlərin mürəkkəb cümlənin növlərini fərqləndirmək, söz və söz birləşmələrini müxtəlif sintaktik vəzifələrdə işlətmək, mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə etmək, dialoqlarda, vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflə yazılış qaydalarına əməl etməklə bağlı bilik və bacarıqlarını yoxlamaq və qiymətləndirmək mümkündür.

Vəsaitin yeni xüsusiyyətlərindən biri də sual və tapşırıqların bloklarda yerləşdirilməsi formasıdır. Hər bir blokda əvvəlcə dərslik üzrə bölmənin sıra nömrəsi, tədris vahidinin adı, həmin tədris vahidinə aid hissədə yer almış dil qaydaları ilə bağlı ümumi başlıqlar, alt standartlar, sonra mətn və ona uyğun sual və tapşırıqlar təqdim olunur. Hər bloka daxil olan sual və tapşırıqlar sadədən mürəkkəbə doğru prinsipinə uyğun olaraq sadə, orta və çətin səviyyəlidir.

Sual və tapşırıqlar məzmun və formasından asılı olaraq, hər bir şagirddən problemi həlletmə, mühakiməyürütmə və əsaslandırma, ünsiyyət, tədqiqetmə, tətbiqetmə bacarığı tələb edir. Əzbərçiliyə, hafizəyönümlüyə əsas verməyən bu tapşırıqların bir yox, bir neçə cavabı olur. Bu doğru cavablar boş **xanalara** **(✓)** işarəsi ilə qeyd edilir. Hər bir şagird bilməlidir ki, çoxcavablı tapşırıqların ən doğru cavabı bütün doğru cavabların işarə olunması ilə müəyyən olunur.

9-cu siniflər üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsində Venn diaqramı –



,

BİBÖ –

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

,

klaster –



(şaxələndirmə) üsulları, müxtəlif cədvəl, sxem, diaqram və s.-dən istifadə edilmişdir ki, bu da yeni interaktiv (fəal) təlim üsulları ilə bağlıdır.

Vəsaitə ilk baxışdan sadə görünən və cavabı **"Doğrudur"**, yaxud **"Yanlışdır"** sözləri ilə müəyyən olunan tapşırıq nümunələri də daxil edilib. Şagird seçdiyi cavabın qarşısındakı boş xanaya **(✓)** işarəsi qeyd etməklə işini bitmiş hesab etməməlidir. Onun tapşırıqlarda niyə məhz həmin cavabı seçdiyini əsaslandıraraq yazması üçün lazımi qədər yer nəzərdə tutulmuşdur. Bu da şagirdin cavabının təsadüfi olub-olmadığını dəqiqləşdirməyə imkan verir.

Ənənəvi test tapşırıqlarından fərqli olaraq, bəzi tapşırıq nümunələrində doğru cavab təqdim olunmuş cavablar içərisindən seçilmir. Cavabı bilik və bacarığı sayəsində şagirdin özü yazır. Bir sözlə, o öyrəndiyi biliyi bacarığa çevirməyə qadir olduğunu sübut edir.

Müəllim qiymətləndirmə apararkən "Müəllim üçün metodik vəsait"də hər mövzunun sonunda verilmiş qiymətləndirmə meyarlarına əsaslana bilər.

**Müəlliflər**

# IV–VIII siniflərdə öyrənilmiş bilik və bacarıqlara aid diaqnostik qiymətləndirmə

## Azərbaycan bayrağı

Şanini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər öpər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı, –
Azərbaycan bayrağı!

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı, –
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
(Dərbəndin dərd hıçqıran sükutuna bələndin
O tayımda Savalan, bu tayımda Şah dağı,)
Azərbaycan bayrağı!

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
▲ Dalğalı ləngərlərin yelpiklənən yarpağı,–
Azərbaycan bayrağı!

**1**

Sənsən Azadlıq eşqim, sənsən Hürr, – deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı!
Azərbaycan bayrağı!

*(R.Qusarçaylı, "Bir uzun küçə",*
*Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı: 2015, səh. 178)*

**1. Venn diaqramı əsasında şeirdə adı çəkilən dövlət rəmzini Azərbaycan Respublikasının digər hər hansı bir dövlət rəmzi ilə müqayisə edin.**



**2. Müəllif niyə məhz çərçivə daxilində verilmiş məkanın adını çəkir?**

**3. Şeirin məzmununa əsasən cədvəli tamamlayın.**

| Problem | Problemin həlli yolu |
|---|---|
| | |

**4. M.Ə.Rəsulzadənin "Bir daha yüksələn bayraq bir daha enməz!" aforizmini şeirin məzmunu ilə əlaqələndirməklə fikirlərinizi yazın.**

5. Mötərizə daxilində verilmiş misralardakı məcazi mənalı sözləri qeyd edin.

______________________________________________

6. Lügətdən istifadə edərək üzərində “1” rəqəmi yazılmış sözün leksik mənasını müəyyən edib yazın.

______________________________________________

7. İkinci bəndin məzmunu ilə bağlı üç sual tərtib edib yazın.

1 ______________________________________________

2 ______________________________________________

3 ______________________________________________

8. Altından dalğalı xətt çəkilmiş ifadəni boş xanaya köçürməklə mənasını sxemə uyğun şəkildə şərh edin. (✓)

[ ] → ☐ Həqiqi mənadadır Çünki ______________________

☐ Məcazi mənadadır ______________________

______________________

9. Qarşısında ▲ işarəsi qoyulmuş misranı tələffüz qaydasına uyğun şəkildə yazın.

[______________________]

10. Gələcək zaman feili ilə başlayan misranı söz sırasını gözləməklə köçürün. İlk söz hansı sözdən sonra yazıldı? Səbəbini yazın.

______________________________________________

______________________________________________

**11. Şeirdə daha yüksək intonasiya tələb edən ifadəni və yüksək intonasiya tələb etməsinin səbəbini qarşısında yazın.**

______________________ → ______________________________________________________

______________________________________________________

**12. Mətndəki 5 coğrafi obyektin adını əlifba sırası ilə yazın.**

______________________________________________________________________________

**13 Azərbaycan Respublikasının sərhədlərindən kənarda yaşayan bir həmyaşıdınıza ad günü münasibətilə göndərəcəyiniz teleqramın mətnini yazın.**

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

______________________________________________________________________________

**14. Mətnin nəticə hissəsini əhatə edən plan tərtib edib yazın.**

1.____________________________________________________________________________

______________________________________________________________________________

2.____________________________________________________________________________

______________________________________________________________________________

**15. Mətndə adı çəkilən coğrafi ərazilərdən biri hal-hazırda Qərbi Azərbaycanda yerləşir. Həmin coğrafi məkanla bağlı mətndə olmayan 2 fakt yazın.**

______________________________________________

______________________________________________

**16. Mətndə adı çəkilən ərazilərdən biri hazırda işğal altındadır. Bunu əsaslandıran 2 fakt yazın.**

| | Faktlar |
|---|---|
| | 1. |
| | |
| | 2. |
| | |

**17. "Qonaq" sözünü elə sözlə işlədin ki, sonuncu "q" cingiltili tələffüz olunsun.**

______________________________________________

______________________________________________

**18. Ancaq qrammatik əsasdan ibarət cümlə yazın.**

______________________________________________

**19. Özündən sonra vergül işarəsi tələb etməyən modal sözləri cümlənin ortasında işlədərək yazın.**

______________________________________________

**20. Həmcins üzvlərdə hal şəkilçilərinin ixtisar olunduğu cümlə tərtib edib yazın.**

______________________________________________

______________________________________________

Tədris vahidi: **1**

## V-VIII siniflərdə keçilmişlərin təkrarı

Bölmə: **DİL, TƏHSİL VƏ CƏMİYYƏT**

Alt standartlar:

| | |
|---|---|
| **1.1.1** | Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. |
| **1.1.2** | Dinlədiyi fikirlərə münasibət bildirir. |
| **1.2.1** | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| **1.2.2** | Müxtəlif tipli rabitəli nitq nümunələri qurur. |
| **1.2.3** | Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (pauza, jest, mimika) uzlaşdırır. |
| **1.2.4** | Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. |
| **2.1.1** | Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir. |
| **2.1.2** | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir. |
| **2.2.1** | Mətni düzgün intonasiya ilə oxuyur. |
| **2.2.2** | Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. |
| **2.2.3** | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. |
| **3.1.1** | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |
| **3.1.2** | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |
| **3.1.3** | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |

## A variantı

### Azərbaycan dili

Türk dilləri ailəsinə daxil olan Azərbaycan dili qədim dillərdən biridir. Dili yaşadan xalqdır, o dildə danışanlardır. Deyilənə görə, bu dildə indi dünyada 50 milyona yaxın adam danışır. Qədim dövrlərdən başlamış günümüzə qədər bu dildə zəngin ədəbiyyat yaradılmışdır. Əlimizə gəlib çatan "Dədə Qorqud" kitabı, müxtəlif janrlı zəngin folklor örnəkləri məhz Azərbaycan dilindədir. Müxtəlif dövrlərdə işğalçı müharibələr nəticəsində Azərbaycan dilində olan yazılı abidələr məhv edilməsə idi, indi bu dildə daha çox abidələr qalmış olardı. "Dədə Qorqud" dastanlarından da aydın olur ki, X-XI əsrlərdə mövcud olan

belə bir təkmil dil birdən-birə yarana bilməzdi. Deməli, Azərbaycan dilinin kökləri daha qədimdir. Bu dilin inkişafında yad təsirlər də olmuşdur. Lakin tarix boyu Azərbaycan dili ▲ assimilyasiyaya qarşı davamlı olmuş, öz sabitliyini və özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir.

Azərbaycan dilinin qrammatik quruluşu olduqca möhkəmdir. Onun morfoloji quruluşunda sabit qanunlar var: bütün isimlər eyni qayda ilə hallanır, hallanmadan kənarda qalan isim yoxdur; bütün feillər eyni cür təsrif olunur, təsrif qaydasına tabe olmayan feil yoxdur. Bu dilin sintaktik quruluşu da zəngindir. Hər cür cümlə quruluşları bu dildə var. Azərbaycan dili başqa türk dilləri kimi, xoş səslənən, ahəngdar bir dildir. Onu dinləyən adam dilin musiqili bir dil olduğunu həmin an hiss edir.

+ Azərbaycan dili bir zamanlar xalqlararası dil rolunu da oynamışdır. Məsələn, Dağıstan xalqları ötən əsrin əvvəllərinə qədər Azərbaycan dilindən xalqlararası dil kimi istifadə edirdilər. A.A.Bestujev-Marlinskinin dediyinə görə, bu dili bilməklə bütün Şərqi gəzib dolanmaq mümkündür. Bunu M.Y.Lermontov da başa düşmüş, Tiflisdə və Azərbaycanda olarkən Azərbaycan dilini öyrənməklə məşğul olmuşdur. Onun əsərlərində türk sözlərinin işlənməsi də bununla əlaqədar idi. Lermontov Azərbaycan dilinin Şərqdəki mövqeyini fransız dilinin Avropadakı mövqeyinə bərabər tutur. "Tatarca (azərbaycanca) öyrənməyə başlamışam, bu dil burada və ümumiyyətlə, Asiyada, fransız dili Avropada vacib olan qədər lazımdır. Heyif ki, indi öyrənib başa çatdıra bilməyəcəyəm, sonra lazım ola bilərdi".

*(Əlövsət Abdullayev. "Azərbaycan dili məsəllələri", BDU nəşriyyatı. 1992)*

**1. *"və Azərbaycan Respublikasının dövlət dili olan"* ifadəsi ilə birinci abzasın hansı sözlə başlayan cümləsini genişləndirmək olar?**

A) Dili B) Qədim C) Əlimizə
D) Müxtəlif E) Türk

**2. Mətndə "Dədə Qorqud" dastanları haqqında verilən məlumatla nəyi əsaslandırmaq olar?**

A) dilin xalqı yaşatdığını
B) dil ailələrinin mövcudluğunu
C) eposun birdən-birə yaranmadığını
D) ədəbiyyatımızın zənginliyini
E) dilimizin qədimliyini

**3. Qarşısında ▲ işarəsi qoyulmuş sözün mətndəki mənasına uyğun şərh hansıdır?**

A) Dildə elə sözlər var ki, onun tərkibindəki səs yanındakı səsə bənzəyir. Məsələn, [açarrar]
B) Assimilyasiya uğramaq bəzi canlıların ən xarakterik xüsusiyyətidir.
C) Bir fikri təkrarlamaqla kiminsə beyninə yeritmək doğru deyil.
D) İstənilən bir xalq başqa bir xalqın adət-ənənəsinə, dilinə hörmətlə yanaşa bilər.
E) Azərbaycan xalqının dili, adət-ənənəsi yad təsir nəticəsində əriyib getməmişdir.

**4. Hansı aforizm mətndəki fikirləri ümumiləşdirilmiş şəkildə yığcam ifadə edir?**

A) Dil mənəviyyatla birgə boy atır. (L. Tolstoy)
B) Hər xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. (H. Əliyev)
C) Hikmətin kökü qəlbdə, meyvəsi dildədir. (Ptolomey)
D) Bir millətin bütün idarəçiliyini mənə versə idilər, ilkin olaraq dilini düzəldərdim. (Konfutsi)
E) Dil insanlara öz fikirlərini gizlətmək üçün verilmişdir. (Taleyran)

**5. Fikirlərdən biri ikinci abzasda çərçivə daxilində verilmiş ifadənin şərhi ilə bağlıdır.**

A) Həqiqi mənadadır, "bərk", "yumşalmayan"deməkdir.
B) Məcazi məna ifadə etməklə "daş kimi olan" mənasında işlənib.
C) Həqiqi mənada olan, "bərk", "dözümlü" mənasında işlənən sözdür.
D) Məcazi mənadadır, "möhkəm", "dəyişməyən" anlamındadır.
E) Həqiqi mənadadır, "davamlı", "dəyişməyən" deməkdir.

**6. Azərbaycan dili haqqında əvvəlki biliklərinizə və mətndən öyrəndiklərinizə əsaslanmaqla BİBÖ (Bilirəm / İstəyirəm biləm / Öyrəndim) cədvəlini tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**7. Altından xətt çəkilmiş cümlələrdəki fikri həyatdan gətirdiyiniz faktlarla əsaslandırıb yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

8. **Qarşısında + işarəsi qoyulmuş abzasda ifadə olunan mülahizələri Azərbaycan dilinin bügünkü təsir dairəsi ilə əlaqələndirərək fikirlərinizi əsaslandırılmış şəkildə yazın.**

___

___

___

___

9. **Azərbaycan dilinin tərcüməçilik fəaliyyəti üçün əlverişli olduğunu mətndə ifadə olunan hansı fikirlərlə sübut etmək olar?**

___

___

___

___

10. **"*Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir*" mövzusunda mühakimə xarakterli esse yazın.**

___

___

___

___

___

___

___

___

___

# B variantı

## Orxon-Yenisey əlifbası

Əlifba insan zəkasının ən böyük möcüzələrindən biridir. Elmi, mədəniyyəti, tərəqqini əlifbasız təsəvvür etmək mümkün deyil. Mövcud olan, araşdırmalar nəticəsində məlum olan əlifbaların müxtəlifliyi onu göstərir ki, bütün xalqlar heç də eyni əlifbadan istifadə etməyiblər.

Türk xalqlarına gəldikdə isə onlar bir neçə əlifbadan istifadə etmişlər. Bunların bəzilərindən çox, bəzilərindən isə az istifadə edilmişdir. Bu əlifbalar sırasında Orxon-Yenisey, uyğur, soğdi, alban, ərəb, latın, kiril əlifbalarını qeyd etmək olar.

Qədim türklərin bir çox abidələrində Orxon-Yenisey əlifbasından istifadə edildiyi də məlumdur.

Orxon-Yenisey əlifbasının mənşəyi ilə bağlı müxtəlif fikirlər var. Bəziləri onun aramey, finikiya əlifbası əsasında düzəldildiyini, bəziləri isə onun türk damğaları əsasında yarandığını söyləyirlər. Azərbaycanın Qobustan, Gəmiqaya, Soyuqbulaq və b. yerlərində tapılan qayaüstü şəkil yazıları – piktoqramlar ölkəmizdə yazının qədim tarixə malik olduğunu söyləməyə əsas verir.

Əldə olan bəzi əsaslara görə, Orxon yazısına Oğuz əlifbası da demək olar. Orxon-Yenisey əlifbasının mövcudluğu üçün Şərqi Monqolustanda Orxon və Yenisey çaylarının sahillərində qəbir daşlarına yazılan yazılar təkzibedilməz sübutlardandır. Türkoloq A.Sokolov Şərqi Monqolustanın VI-VIII əsrlərdə Oğuz-türk çarlığının tərkibində olduğunu deyir. Qəbir daşlarındakı həmin yazılar da VI-VIII əsrlərə aiddir.

Türk alimi Faruq Sümər də Orxon-Yenisey əlifbasını Göytürk dövləti zamanına aid etməklə yazır: "Türklər ilk dəfə olaraq bu dövrdə milli bir əlifbaya sahib olmuşlar".

Təəssüflər olsun ki, dövlətçilikdə, mədəniyyətdə, elmdə, idmanda və s.-də sözünü demiş bir xalq özünün yaratdığı əlifbadan indi istifadə etmir. Bu gün soyu, kökü, dili bir olan bütün türk xalqları öz qədim Orxon-Yenisey əlifbamızdan istifadə etsələr, bizi birləşdirən yollar daha hamar, daha uğurlu olar.

*(Əlövsət Abdullayev. "Azərbaycan dili məsəllələri", BDU nəşriyyatı. 1992)*

**1. Altından dalğalı xətt çəkilmiş sözün mətndə daşıdığı mənaya uyğun şərhi müəyyən edin.**

| | *Mənası* | *Nümunə* |
|---|---|---|
| A) | tanıma – fərqləndirmə nişanı | Ən qədim damğaların 500 il yaşı var. |
| B) | nal | Nalbənd atın iki ayağının altını dəyişdirən. |
| C) | möhür | Sənəd möhürlü və imzalı idi. |
| D) | dəmir üzərinə, qızdırılmış dəmirə vurulan nişan | Atın sol budundakı damğa qarşı tərəfi çıxılmaz vəziyyətə saldı. |
| E) | təhqiredici söz | Bu sözlə hər kəsə damğa vurmaq olmaz. |

**2. Haqqında söhbət gedən əlifbanın çayların adları ilə bağlı olması hansı anlamı ifadə edir?**
A) qədimliyi B) müəllifliyi C) tapıldığı ərazini
D) araşdırmaların dəqiqliyini E) türklərin bacarığını

**3. Mətndən çıxan əsas nəticə:**
A) Dünyada müxtəlif əlifbalar var.
B) Bəzi alimlər əlifba haqqında da fikir bildirirlər.
C) Bir xalq bir neçə əlifbadan istifadə edə bilər.
D) Türklər də əlifba yaradıblar.
E) Bir neçə xalq eyni əlifbadan istifadə edə bilər.

**4. *"Mətndəki sonuncu abzası düzgün intonasiya ilə oxunduqda müşahidə edilər ki,"* ... cümləsini tamamlayan ən uyğun ifadədir:**
A) fasilələrin sayı çoxalır.
B) get-gedə səs tonu aşağı düşür.
C) həyəcan artır.
D) temp yüksəlir.
E) bütün sözlər eyni tonda deyilməyə başlayır.

**5. Mətnin nəticə hissəsi ilə bağlı doğru fikir:**
A) Türklərin də milli əlifbası olmuşdur.
B) Əlifba xalqın tarixini özündə yaşadır.
C) Bu əlifba bütün türk xalqlarına aiddir.
D) Türk xalqları yenidən birləşməlidir.
E) Vahid əlifba bizi birləşdirə bilər.

**6. Mətnin nəticə hissəsi ilə bağlı 2 sual tərtib edib yazın.**

☐ ______________________________

☐ ______________________________

**7. *"Son 200 ildə Azərbaycanda müxtəlif qrafikalı əlifbalardan istifadə edilmişdir"* fikrini əsaslandırın.**

______________________________

______________________________

______________________________

8. *"O öz mövqeyini inandırıcı sübutlarla təsdiqləyir"* fikri qarşısında ■ işarəsi qoyulmuş abzasda hansı ifadənin şərhi ilə bağlıdır? Həmin ifadəni çərçivə daxilində yazın və müəyyən edin. (✓)

☐ Həqiqi mənadadır

☐ Məcazi mənadadır

9. Klasteri mətnə əsasən tamamlayın.

Orxon-Yenisey əlifbası
- VI-VIII əsrlərdə yaradılıb.
- Monqolustan ərazisində aşkarlanıb.
- ____________________
- ____________________

10. Mətnin sonluq hissəsini onun məzmununa uyğun 2 cümlə ilə genişləndirin.

☐ ____________________

☐ ____________________

# C variantı

*İranda Azərbaycan xalqının milli varlığını danan,*
*xalqımızı farslardan dönmə hesab edən*
*milliyyətcə azərbaycanlı "alim" Yəhya Zəkaya*

**CAVAB**
**(ixtisarla)**

Özgə qapısına daş atan – azğın,
Sən özgə daşını özünə atdın.
Özgəyə qənimi çox eşitmişik,
Özünə qənimi sənmi yaratdın?
Nədir bu böhtanlar, bu uydurmalar?

Sənin şanın hanı, şərəfin hanı?
Əyilmə özgəyə öz mənzilində.
Nənən bayatını, anan laylanı
Niyə çağırmadı bəs fars dilində?
Altay dağlarını baban aşanda,
Ağan bu cürəti heç danmamışdı.
Qorqud öz dilində nəğmə qoşanda
Sədinin qəzəli yaranmamışdı.
Tarixlər yaradıb tarixdən qədim
Bu xalqın qılıncı,
Bu xalqın sözü.
Bəs necə oldu ki, ey dönük alim,
Biz olduq özgənin tör-töküntüsü?
"Cırtdan" nağılını danışdı nənən,
Bu nağıl qanana ibrətdir bu gün.
Divə əyilmədi Cırtdan...
Amma sən
Qarğa qabağında sərçəyə döndün.
Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,
Babanın ocağı çıxdı yadından?

.....................................................

Dayaq olmalıykən öz elinə sən,
Elin kürəyində bir bıçaq oldun.
Sən igid olmalı, ər olmalıykən,
Özgənin əlində oyuncaq oldun.
Yağanda zamanın gur yağışları.
Bu halda sən kimsən, nəçisən, düşün,
Xalqının başında özgə yumruğu!
Ömrünü-gününü qoltuqda sürdün,
Səni isitdimi özgə qoltuğu?
Su töküb özgənin dəyirmanına,
Özün inandınmı öz yalanına?
Çəkdiyin boyalar pozuldu yenə,

Tarix şillə kimi çəkdi üzünə
Özgədən aldığın o alqışları.
De, hardan öyrəndin sən bu oyunu?
Qamış tapılmadı, ölçəm boyunu.
Sən öz bostanının kəsib suyunu,
Özgə bostanını sulama, Yəhya.
Onsuz da özgəyə sən yadsan, oyan,
Canını versən də, boyatsan, oyan.
Sən onun əlində alətsən, oyan,
Özünü özgəyə calama, Yəhya!
Ağan hökm elədi... haqq bildin onu,
Yerinə yetirdin hər buyruğunu.
Söyüb öz dədəni, sən quyruğunu
Özgənin önündə bulama, Yəhya!
Qatma yad mayası sən öz nehrənə,
Söymə təndirinə, söymə təhnənə.
Özgə məhləsindən sən öz məhlənə
Belə cani-dildən ulama, Yəhya!

*(B.Vahabzadə. "Seçilmiş əsərləri" I cild."Öndər" nəşriyyatı. 2004)*

**1. Çərçivə daxilində verilmiş parçada hansı söz, yaxud ifadəni mətnə açar söz kimi işlətmək *olmaz*?**

A) özgə qapısı  B) özünə qənim  C) böhtan
D) uydurma  E) özünə atılan daş

**2. Altından xətt çəkilmiş sözün kontekstə uyğun mənasında işlənən cümlə:**

əyilmək

A) Ağacın budaqları ağırlıqdan əyilmişdi.
B) Artıq günəş üfüqə doğru əyilmişdi.
C) Ucuz şöhrətlərə əyilmərəm mən.
D) Pəhləvan güc verdi, dəmir əyildi.
E) Əyilib yerə diqqətlə bir də baxdı.

**3. Doğru və yanlış cavabları müəyyənləşdirin.**

1. Yəhya Zəka öz əslini, kökünü dandı.
2. Zəif insanlar yad təsir altına düşürlər.
3. Yadlara quyruq bulamaq ləyaqətsizlikdir.
4. Yəhya Zəka gec-tez həqiqəti dərk etdi.
5. Doğma dilini dananlar cəzasına çatdılar.

• doğru
• yanlış



**4. Mətndə nöqtələrin yerinə hansı misralar yazılmalı idi?**

A) Mən yaxşı bilirəm məqsədin nədir,
Uydurma tarixin məramı nəymiş.

B) Siyasət fitinə könülsüz, naçar,
Zaman oynasa da, tarix oynamaz.

C) Zamanın süzgəci narından narın,
Keçirir hər sözü neçə ələkdən.

D) Anan duasında dedi: "Ya Allah,
Balamın həmişə üzü ağ olsun".

E) Özünə qalacaq uydurmaların,
Gördünmü, zir-zibil keçə ələkdən?

**5. Şeirdə dilimizə, milli varlığımıza böhtan atanlara qarşı müəllifin hansı hisləri ifadə olunmuşdur?**

1. mərhəmət 2. qəzəb 3. can yanğısı 4. nifrət
5. istehza 6.təəssüf 7. doğmalıq 8. qorxu

A) 1, 3, 4, 6 B) 1, 3, 5, 8 C) 2, 4, 6
D) 1, 5, 7 E) 2, 4, 5, 7

**6. Yəhya Zəkaya aid olanları yazmaqla klasteri tamamlayın.**




**7. Altından xətt çəkilmiş misralarda şair nə demək istəyir?**

______________________________________________

______________________________________________

______________________________________________

**8. Sizcə, şairin hiddətlənməsinin səbəbi nədir?**

______________________________________________

**9. Mətnin sonuna nəsrlə iki-üç cümlə əlavə etməklə onu genişləndirin.**

______________________________________________

______________________________________________

______________________________________________

**10. “*Yalan ayaq tutar, amma yeriməz*” (Atalar sözü) mövzusunda verilən həcmdə mətn yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

# D variantı

## Maarif fədaisi

*"...Azərbaycanlılardan görkəmli maarif və mədəniyyət xadimləri daha çox yetişəcək. Onlar ana dillərində dərsliklər yazacaqlar, bu xalqın zəngin ədəbiyyatından, tarixindən cild-cild əsərlər hazırlayacaqlar. Bu gün mənim elədiklərim o zaman çox cüzi görünəcək. Mən bunu hər bir azərbaycanlı seminaristin simasında görürəm".*

Bu sözləri milliyyətcə rus, ata-babaları vaxtilə Həştərxandan köçüb Şamaxının Mərəzə kəndində məskunlaşmış Aleksey Osipoviç Çernyayevski yazıb. O, 1840-cı ildə Mərəzə kəndində anadan olub. Ağlı kəsəndən Azərbaycanın adət-ənənəsini, məişətini, dil və ədəbiyyatını incəliklərinə qədər öyrənib, ömrünü maarifçiliyə həsr edib. Azərbaycanlıları seminariyada oxuyub təhsil almağa, maarifə, mədəniyyətə çağırıb. Uşaqlarını Qoriyə göndərmək istəməyən valideynlər, mədrəsədəki mollalar bu "uzunsaqqal urusu" görəndə tükləri biz-biz olar, "Allahu Əkbər" deyib üç dəfə salavat çevirər, arvadlar yaşmağını gözlərinə qədər çəkərmiş.

Çernyayevski isə bu soyuq münasibətdən nə cana gələr, nə də ruhdan düşərdi. İnanırdı ki, uşağını gətirib ona təhvil verib, "apar oxut mənim balamı", - deyən tapılacaq. Onun nəzərində hər bir xalqın inkişafı müəllimdən asılıdır. Maarifə, təhsilə bu qədər önəm verən Çernyayevski Azərbaycan müəllimlərinin böyük bir dəstəsinin müəllimi olmuşdur. 1918-ci ildə Qori seminariyasının Azərbaycan bölməsi Qazaxa köçürülür.

1879-cu ilin mayında Gürcüstanın Qori şəhərində fəaliyyətə başlayan Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılması üçün Qafqaz canişini birtəhər yola gətirilmiş, A.O.Çernyayevski Azərbaycan şöbəsinə inspektor təyin edilmişdi. Qalırdı məktəbə uşaq yığmaq, canişini peşman etməmək. Əgər sentyabr ayında bir neçə nəfər uşaq yığılmasa, Qafqaz Təhsil Dairəsi şöbəni bağlaya bilərdi. Bu fikirlər Çernyayevskini bir an belə rahat buraxmırdı: "Necə olursa-olsun, məktəb açılmalıdır, bu fürsəti əldən vermək olmaz".

Odur ki, adamlarla təkbətək görüşür, Qoridə açılan məktəbin məqsəd və məramını açıqlayırdı. Nəhayət, istədiyinə nail olmuşdu. Şuşadan Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Lənkərandan Teymur bəy Bayrambəyov, Rəşid bəy Əfəndiyev, Qazaxdan İsmayıl ağa Vəkilov və Məmmədağa Şıxlinski seminariyanın Azərbaycan şöbəsini ...................... .

*(Z.Mehdizadə. "A.O.Çernyayevskinin həyatı və pedaqoji fəaliyyəti", "Maarif" nəşriyyatı, Bakı: 1983)*

**1. Mətndə hansı suala cavab *yoxdur*?**

A) Azərbaycanlı seminaristlərin gələcəyi necə görünürdü?
B) Aleksey Osipoviç Çernyayevski kim idi?
C) Seminariyanın Azərbaycan şöbəsi necə açıldı?
D) Tələbələr A.O.Çernyayevskini necə xatırlayırdılar?
E) A.O.Çernyayevskinin təhsilə önəm verməsinin səbəbi nə idi?

**2. Çərçivə daxilində verilmiş parça ilə neçənci abzası genişləndirmək olar?**

İftixar edirəm ki, "Vətən dili" kitabını müsəlman balaları üçün mən tərtib etmişəm. Bu kitab vasitəsilə təkcə Qori seminariyasında deyil, ölkənin bütün qəzalarında olan ibtidai rus-Azərbaycan məktəblərində uşaqlar savad öyrənirlər.

A) 3 B) 2 C ) 1 D) 4 E) 5

**3. Sonuncu abzasdakı fikrə uyğun olaraq mətni necə tamamlamaq olar?**

A) əla qiymətlərlə bitirdilər.
B) bağlanmaqdan xilas etdilər.
C) təsis etdilər.
D) Qazaxa köçürdülər.
E) şöhrətləndirdilər.

**4. Klasteri tamamlaq üçün verilənlərdən biri *səhvdir*:**

A) azərbaycanlıların istedadına inanırdı.
B) müəllimlər müəllimi idi.
C) azərbaycanlılar üçün məktəb açmışdı.
D) mollaların qənimi idi.
E) milliyyətcə azərbaycanlı idi.




**5. Altından xətt çəkilmiş sözün kontekstə uyğun mənasında işlənmiş nümunə hansıdır?**

A) Gecədən xeyli keçmiş qatar stansiyaya yetişdi.
B) Meyvələr yetişəndə yığıb sənə göndərərəm.
C) Üç gün əvvəl məktub sahibinə yetişdi.
D) Abşeronda da çox yaxşı zeytun yetişir.
E) Bu mərtəbəyə döyüşlərdə yetişərək çatmışıq.

**6. Mətnə əsasən A.O. Çernyayevskinin şəxsi keyfiyyətləri barədə fikir yazın.**

________________________________________

________________________________________

________________________________________

**7. Altından xətt çəkilmiş cümlədə üç ifadə məcazi mənada işlənmişdir. Çərçivə daxilinə həmin ifadələri, qarşısında isə kontekstə uyğun izahlarını yazın.**

**8.** ***"Elmli olan güclü olar"*** **fikrini mətnlə əlaqələndirib yazın.**

**9. Mətndə məzmuna uyğun olmayan bir cümlə işlənmişdir. Həmin cümləni müəyyənləşdirib yazın.**

**10.** ***"Cəmiyyətin rifahı üçün çalışanlar xoşbəxtdirlər"*** **mövzusunda verilən həcmdə mətn yazın.**

# E variantı

## Mir Möhsün Nəvvab

XIX əsrin 80-ci illərindən başlayaraq mütərəqqi maarifçilər Bakı, Naxçıvan, Nuxa və s. şəhərlərdə anadilli məktəblər açmaqda davam edirdilər. Belə görkəmli şəxsiyyətlərdən biri də Mir Möhsün Nəvvab (1833-1913) idi. Azərbaycan mədəniyyəti, pedaqoji fikir tarixində özünəməxsus yer tutan Nəvvab Şuşada ibtidai təhsil almış, şəxsi mütaliəsi əsasında bir çox elm sahələrini mənimsəmiş, alim, rəssam, musiqi nəzəriyyəçisi, tarixçi, nəqqaş, xəttat, şair, ədəbiyyatşünas, astronom kimi tanınmışdır. O həmçinin memarlıq, dülgərlik və fotoqraf peşələrini də öyrənmişdir.

Şuşada təşkil etdiyi "Məclisi-fəramüşan" adlı ədəbi məclis[1] üzvlərini yeniliklərlə tanış etmək üçün Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül" qəzetlərini, Hindistanda fars dilində nəşr olunan "Həblül-Mətin" məcmuəsini[2] alırdı. Digər şəhərlərlə əlaqə saxlayan Nəvvab və məclisin digər üzvləri ana dilində yazdıqları şeirlər ilə ana dilinin təravətinin mühafizə edilməsinə kömək etmiş, "ana dili məktəbi" ideyasını inkişaf etdirmişlər.

Nəvvab XIX əsrin 90-cı illərində Şuşada yeni üsullu ana dili məktəbi açmışdır. Orada Azərbaycan dili və ədəbiyyat, fars dili və bir çox dünyəvi elmlər tədris edilirdi.

▲ M.M.Nəvvabın çox mühüm xidmətlərindən biri S.Ə.Şirvani və M.T.Sidqi kimi tədris vəsaitləri tərtib etməsidir. Onun "Kəşf-ül-Həqiqə", "Kifayət-ül-Ətval", "Nəsihətnamə" və "Vüzuh-ül-Ərqam" adlı dörd dərsliyi var.

"Kəşf-ül-Həqiqə" üç cilddən ibarətdir. Burada səxavət, düzgünlük, qonaq qəbul etmək və s. haqqında təmsillər, hekayələr toplanmışdır. Kitaba qızıl suyu ilə yazılmış başlıqlar xüsusi gözəllik verir.

Həm ərəb, həm də Azərbaycan dilində yazılmış 18 vərəqdən ibarət olan "Kifayət-ül-Ətval" kitabı on iki məqalədən ibarət olub, müxtəlif xalqlara məxsus ay adlarını şərh edir, səyyarələrin[3], bürclərin adlarından və xüsusiyyətlərindən danışır. Burada Günəş sistemindəki planetlərin dövretmə müddəti, Ayın və Günəşin tutulması izah edilir, habelə şəkillər də verilir.

"Vüzuh-ül-Ərqam" əsəri də həm fars, həm Azərbaycan dilindədir. Azərbaycan dilində olan nüsxə 31 səhifədən ibarət bir risalədir. Kitabçada musiqi tarixindən bəzi məlumatlar verilir, musiqinin insan orqanizmi üçün müalicəvi əhəmiyyətindən də bəhs olunur. M.M.Nəvvabdan fərqli olaraq, S.Ə.Şirvani və M.T.Sidqinin təşkil etdiyi yeni tipli məktəblərdə musiqi tədris edilməmişdir.

M.M.Nəvvabın diqqəti cəlb edən ən dəyərli pedaqoji əsərlərindən biri də 800 bənddən ibarət olan "Nəsihətnamə"dir. Burada elm və ədəbin faydaları, övlad böyütmək, ata-anaya hörmət etmək və s. məsələlərdən bəhs edilirdi.

Onun "Təzkireyi-Nəvvab" kitabı ədəbiyyatşünaslarımızın istifadə etdiyi mühüm məxəzlərdən [4] biridir.

M.M.Nəvvabın çap dəzgahı, iki teleskopu da olmuşdur. Şuşada ilk qiraətxana [5] təşkil etmişdir.

O, sevimli qoca yaşlarında da müəllimlik edə bilmədiyi peşəsindən və uşaqlardan ayrılmamışdır, əlvan rəngli bəzənmiş şəkillərlə bayramlarda və vətəni, elmi ortasında tərənnüm edən vərəqələr hazırlayar, paylayardı uşaqlara.

M.M.Nəvvab dövrünün əsas elm sahələrinin, demək olar ki, hamısına aid kitablar yazan, onları öz evində əlinin zəhməti ilə çap edən, həmin kitablara bədii tərtibat verən, bu kitabları öz məktəbində tədris edən nadir şəxsiyyətlərdən olmuşdur.

*(Hüseyn Əhmədov."Avrasiya xalqlarının məktəb və pedoqoji fikir tarixinə dair oçerklər", Bakı: 2012)*

**1. Hansı fikirlə M.M.Nəvvabın həyat və fəaliyyətini yığcam şəkildə ümumiləşdirmək olar?**

A) Görkəmli mətbuat işçisi kimi daha çox tanınıb.
B) Ensiklopedik bilik sahibi olub.
C) İlk dəfə Azərbaycan ədəbiyyatını tədqiq edib.
D) Tarixə ilk pedaqoq kimi daxil olub.
E) Ömrünün ən mənalı hissəsini dil öyrənməyə sərf edib.

**2. Mətnə əsasən doğru hesab etmək olar:**

1. Bir şəxs bir neçə sənəti öyrənə bilər.
2. XIX əsrdə Azərbaycanda ancaq anadilli mətbuat oxunurdu.
3. M.M.Nəvvabın yaşadığı dövrdə Azərbaycan ərazisində yeni üsulla fəaliyyət göstərən məktəb olub.
4. Vaxtilə göy cisimləri ilə maraqlanmaq və onları tədqiq etmək günah sayılıb.

A) 2, 4 B) 3, 4 C) 1, 3 D) 1, 2,3 E) 2, 3, 4

**3. *"Həqiqi mənadadır, yerinə görə "yığıncaq" anlamında işlənmişdir"*. Bu fikirlər üstündə rəqəm yazılmış hansı sözün şərhi ilə bağlıdır?**

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**4. Hansı sualı M.M.Nəvvabın həyat və yaradıcılığı əsasında cavablandırmaq *olmaz*?**

A) Konkret olaraq hansı səma cisimləri ilə bağlı fikirlər söyləyib?
B) Nəyin əsasında bir çox elm sahələrini mənimsəyə bilmişdir?
C) Hansı əsəri Azərbaycan dilindədir?
D) Hansı əsərləri dərslik kimi istifadə olunub?
E) Fars dilini kimdən öyrənmişdir?

**5. Q.Sallyustinin "*Hər bir insan öz uğurunun memarıdır*" fikrinin doğruluğunu hansı hadisə ilə əsaslandırmaq olar?**

A) S.Ə.Şirvani və M.T.Sidqinin pedaqoji fəaliyyəti ilə
B) Mətbuat orqanlarının Azərbaycana gətirilməsi ilə
C) Ədəbiyyatşünaslığa aid əsərin yazılması ilə
D) M.M.Nəvvabın nailiyyətləri ilə
E) Şuşanın hərtərəfli fəaliyyət üçün əlverişli mühit olması ilə

**6. İkinci abzasda altından xətt çəkilmiş ifadəni əvəz edə bilən söz yazın, sonra həmin sözü başqa cümlədə mətndəki mənasında işlədin.**

______________________________

______________________________

**7. Cədvəli qarşısında ▲ qoyulmuş abzasda adı çəkilən 4-cü dərslik əsasında tamamlayın.**

| Adı | Dili | Həcmi | Haqqında bəhs etdiyi sahə |
|---|---|---|---|
| | | | |

**8. Çərçivə daxilində verilmiş parçanı elə təkmilləşdirib köçürün ki, hissələr arasında əlaqə pozulmasın.**

______________________________

______________________________

**9. İki cümlə artırmaqla mətnin nəticə hissəsini genişləndirin.**

______________________________

______________________________

**10. Mətndəki faktlardan da istifadə etməklə "*Xalqımızın ziyalı övladı*" mövzusunda təsviri xarakterli mətn yazın.**

______________________________

______________________________

______________________________

______________________________

# F variantı

## Maarifçi Üzeyir Hacıbəyli

Müasir Azərbaycan professional musiqisinin banisi Ü.Hacıbəylinin adı tarixə böyük musiqi nəzəriyyəçisi, alim, yazıçı, publisist, tarixçi, dirijor, müəllim-pedaqoq kimi daxil olmuşdur. O, hər şeydən əvvəl, ixtisasca müəllim olmuşdur, ömrünün 40 ildən artıq bir dövrünü müəllimlik işinə sərf etmiş, xalqının maariflənməsi və təhsili üçün çox faydalı işlər görmüşdür.

1899-cu ildə təhsilini Şuşada başa vuran Ü.Hacıbəyli Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Seminariyanı bitirərkən sinif rəhbəri Miropyev ona belə bir xasiyyətnamə vermişdi: "Üzeyir Hacıbəyovdan bacarıqlı müəllim, əla musiqiçi çıxacaqdır".

Seminariyanı müvəffəqiyyətlə başa vuran gənc kənd məktəbinə ibtidai sinif müəllimi təyin olunur. 1905-ci ildə Bakıya gəlir və müəllimlik etməyə başlayır. Üzeyir bəy təkcə pedaqoq kimi qalmamış, coşqun ehtirası ilə maarif mübarizəsinə qoşulmuşdur. "İrşad", "Həyat", "Tərəqqi" və s. qəzetlərdə müxtəlif imzalarla məqalə və felyetonlar çap etdirmişdir. O, maarif və ana dilinin tədrisinə dair yalnız məqalələr yazmaqla kifayətlənməmiş, həm də irihəcmli əsərlər yazıb nəşr etdirmişdir. Onun 1907-ci ildə Bakıda çap etdirdiyi "Türki-Rus və Rusi-Türki" adlı kitabı Azərbaycan lüğət tərtibi tarixində irəliyə doğru atılan böyük addımlardan biri idi.

1907-ci ildə 22 yaşlı Üzeyir bəyin "Hesab məsələləri" adlı riyaziyyata aid ilk anadilli dərslik tərtib etməsi də təqdirəlayiq hadisədir.

Ü.Hacıbəyli didaktik prinsiplərə möhkəm riayət edərək dərsliyi düzgün pedaqoji tələblər əsasında qurmağa müvəffəq olmuşdur. Doğma dilini sevən və onun bütün incəliklərini bilən Ü.Hacıbəyov belə bir vacib anlamı da etiraf etməyi unutmur: "Dil cəhətinə gəlincə, məsələlərin sırf türk dili ilə yazılaraq cümlələrin rus dilinə mənsub xüsusiyyətlərdən azad olmasına artıq səy etdim". Dərslik sadədən mürəkkəbə, asandan çətinə prinsipi gözlənilməklə və çoxlu misal verilmiş 105 səhifədən ibarətdir. Diqqət çəkən ən çətin elementlərdən biri də çalışmaların arasında qoyulan Şərq üslubu ornamentidir. Dərslikdə əvvəl sadə misaldan başlayıb məsələ həllinə keçilir. Şagirdlərin yaş və məntiqi psixologiyasına yaxından bələd olan Üzeyir bəy əvvəlcə uşaqlara rəqəmlər üzərində əməlləri misal vasitəsilə həll etdirir. Bununla da nitq qabiliyyətini inkişaf etdirir, məntiqi cümlələr qurub mühakimələr yürütməsi üçün müəyyən vaxt əldə edir. Sonra şifahi məsələlərə keçilir.

"Hesab məsələləri" kitabının üstün cəhətlərindən biri məsələ və misalların qruplaşması, onların həllinin çox qısa, aydın, məntiqi və münasib qaydada izah edilməsidir. Məsələn, ikirəqəmli ədədlərin toplanması üçün belə bir izahat verilir: "Əvvəl onluqları, sonra təklikləri cəm elə: 15+16; 10+10=20; 5 və 6 = 11, 20 və 11=31 ".

Maraqlı faktdır ki, Ü.Hacıbəyli terminləri Azərbaycan dilində işlətməyə cəhd edərək hesab əməllərinin o dövrdə işlədilən cəm, tərh, zərb, təhsin ifadələrindən sonra mötərizədə müvafiq olaraq üstəgəl, çıxma və bölmə terminlərini işlətmişdir. Ü.Hacıbəylinin dərsliyinin üstünlüyü həm də ondadır ki, o, mürəkkəb məsələləri sadə quruluşda verməklə yanaşı, məsələni necə həll etməyin metodik yollarını da göstərmişdir.

Kitabın **məziyyətlərindən** biri də budur ki, dərsliyə daxil edilən materiallar əxlaqi-mənəvi əhəmiyyət kəsb edir. Dərslikdəki məsələlər təkcə şagirdlərin riyazi biliklərini artırmaqla qalmır, eyni zamanda onların dünyagörüşünün formalaşmasına və mənəviyyatının inkişafına xeyli dərəcədə təsir edir.

*(Hüseyn Əhmədov."Avrasiya xalqlarının məktəb və pedoqoji fikir tarixinə dair oçerklər", Bakı:2012)*

**1. Tünd-qara hərflərlə verilmiş sözün işlənmə məqamına uyğun şərhi müəyyən edin.**

1. Həqiqi mənadadır.
2. "Xüsusiyyət" anlamındadır.
3. Məcazi mənadadır.
4. "İqlimi" anlayışını ifadə edir.
5. Qrammatik qaydalar deməkdir.

A) 1, 4  B) 3, 5  C) 1, 2, 5  D) 2, 3  E) 1, 4, 5

**2. Hansı cümlələr mətnin uyğun abzaslarına artırılsa, tərkib hissələri arasında əlaqə *pozular*?**

1. Ü.Hacıbəyov ana dilinin tədrisi ilə bağlı publisistik əsərlər də yazmışdır.
2. O, SSRİ Xalq artisti adına layiq görüləndə bir çox yerlərdən təbrik teleqramları gəldi.
3. Onun fəaliyyəti həmişə dövlət rəhbərlərinin diqqət mərkəzində olmuşdur.
4. Maariflə əlaqədar olan bu məqalə və felyetonlarında mühüm məsələlərin həllinə çalışmışdır.

A) 1, 2  B) 1, 4  C) 2, 4  D) 3, 4  E) 2, 3

**3. Mətnin məzmunundan çıxan ümumi nəticəni yığcam ifadə edən fikirdir:**

A) Əzmlə işləyən insanın günləri qısa, ömrü uzun olur. (Didro)
B) Böyük işlər, mühüm cəhdlər ancaq səy göstərməklə əldə edilə bilər. (Atatürk)
C) İnsanın biliyi artdıqca narahatlığı da artır. (Höte)
D) Xoşbəxtliyə şəfqət və mərhəmətlə çatmaq olar. (Bethoven)
E) Təcrübə elmdən üstündür. (İbn Sina)

**4. Mətnə görə doğru fikirdir:**

1. XX əsrin əvvəllərinə qədər Azərbaycanda anadilli riyaziyyat dərsliyi olmamışdır.
2. Dərslik müəllifi mətbuatla da əməkdaşlıq edə bilər.
3. Üzeyir Hacıbəyov qəzet redaktoru da olmuşdur.
4. Müəlliminin Ü.Hacıbəyov haqqında verdiyi xasiyyətnamədə onun tərcümeyi-halı öz əksini tapmışdır.
5. Bir ildə müxtəlif adda kitablar çap etdirmək mümkündür.

A) 1, 2, 5  B) 2, 3, 4  C) 1, 3, 5  D) 2, 4  E) 4, 5

**5. Mətndə adı ardıcıl çəkilən hər iki kitabın adını yazın və onlarla bağlı uyğunluğu müəyyən edin.**

1. ________________________________________

2. ________________________________________

a) Tarixi əsərdir.
b) Lüğətdir.
c) 105 səhifədən ibarətdir.
d) Dərslikdir.
e) Bədii əsərdir.

A) 1– a, c; 2 – b    B) 1– b, d; 2– a, c    C) 1– e; 2– a, d
D) 1– c; 2– a    E) 1– b; 2– c, d

**6. İlk cümlənin 1, 3, 5-ci və sonuncu sözlərini elə ifadələrlə əvəz edib yazın ki, mətnin tərkib hissələri arasında əlaqə pozulmasın.**

________________________________________

________________________________________

________________________________________

**7. Altıncı abzasda çərçivə daxilində verilmiş sözün yerinə uyğun mənasını şərh edib yazın.**

*Söz* → *Mənasının şərhi*

**8. Mətnə əsaslanmaqla verilən fikirləri davam etdirib yazın.**

1. Mötərizədə bir çox terminlərin qarşılığını göstərməklə ____________________

2. "Hesab məsələləri" kitabı nəşr olunmaqla ____________________

3. Ü.Hacıbəyov Qori Müəllimlər Seminariyasını bitirməklə ____________________

**9.** *"Dərsliklər hərtərəfli şəxsiyyət yetişdirməkdə mühüm rol oynaya bilər"* **mülahizəsini Ü.Hacıbəyovun "Hesab məsələləri" dərsliyi ilə əlaqələndirməklə fikrinizi yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**10.** *Maarifçi, əxlaqi-tərbiyəvi, XX əsrin əvvəlləri, görkəmli ziyalılar, lüğətçilik, qəflət yuxusu, təhsilin əhəmiyyəti, oyatmaq* **kimi ifadələrdən də istifadə etməklə rabitəli mətn yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

Tədris vahidi: **2**

# Mürəkkəb cümlə
# Tabesiz mürəkkəb cümlələr

Bölmə: **MÜVƏFFƏQİYYƏT VƏ CƏMİYYƏT**

Alt standartlar:

| | |
|---|---|
| **1.1.1** | Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. |
| **1.1.2** | Dinlədiyi fikirlərə münasibət bildirir. |
| **1.2.1** | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| **1.2.2** | Müxtəlif tipli rabitəli nitq nümunələri qurur. |
| **1.2.3** | Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (pauza, jest, mimika) uzlaşdırır. |
| **1.2.4** | Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. |
| **2.1.1** | Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir. |
| **2.1.2** | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir. |
| **2.2.1** | Mətni düzgün intonasiya ilə oxuyur. |
| **2.2.3** | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. |
| **3.1.1** | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |
| **3.1.2** | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |
| **3.1.3** | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |

## A variantı

### Ürək döyüntüləri

(*İxtisarla*)

Rübabə xəstəxanaya çatan kimi əllərini yudu, xalatını geyindi, sonra qapını açıb:

- Buyurun, - deyə xəstələrə müraciət etdi.

Xəstə cavab verməyə hazırlaşırdı ki, birdən qapı açıldı, içəri girən tibb bacısı:

- Doktor, sizi müdir çağırır, - dedi.

Rübabə xəstədən üzr istəyib tələsik müdirin kabinetinə getdi.

- Rübabə xanım, nazirlik sizin haqqınızda ...

Müdir sözünü tamamlamadı, çəkisi bir misqaldan çox olmayan kağız parçasını verərək, ağır bir yük altından çıxmış kimi dərindən nəfəs aldı:

- Oğlunuz Nadirin xahişi ilə nazirlik məsləhət görmüş ki, siz təqaüdə...
- ***Necə?*** **-** Rübabənin qaşları çatıldı.

O, bir anlığa Nadirin vağzalda dediyi sözləri xatırladı: "Ana, daha yorulmusan, işdən çıx, gəl. Mən də təkəm". O zaman Rübabə nə edəcəyini bilməmiş, yol boyu bu haqda düşünmüşdü. İşdən çıx! Niyə? Çünki sənin artıq 65 yaşın var, sənə dincəlmək lazımdır. Bu, əlbəttə, ana qayğısını çəkən yaxşı bir övladın haqlı tələbi idi. Bəs Rübabə niyə bu tələbə etiraz edirdi? O bu fikirdə idi ki, nə isə bir iş görmək, zəhmət çəkmək, xeyir vermək lazımdır. Bunsuz həyat mənasız olmazdımı? Həyatda bir iş üçün tələsmədin, bir arzunun yolunda çalışmadın, bəzən kədərlənib, bəzən sevinmədin, onda bu nə həyat oldu?!

Rübabə ömrünün 40 ilini ürəkləri dinləməklə keçirmişdi. Dinlədiyi hər ürəyin döyüntüsündə təzə bir səs, təzə bir duyğu, təzə bir arzu eşidən Rübabənin ömrü saat vurğularına bənzəyən bu döyüntülər içərisində ərimişdi. İnsan dərdinə əlac etməkdən yaxşı, dərdə dərman yazmaqdan şirin – bir sözlə, insana xidmət etməkdən müqəddəs nə ola bilər?

Rübabənin rayona gəldiyi 4 ay idi. Rübabə tez-tez rayon xəstəxanasının yanından ötür, pəncərədən içəridəki ağ xalatlı həkimləri xeyli süzürdü. Hətta bir çox xəstələrin dərdi ilə maraqlanır və çarəsini də göstərirdi. Rübabə bir xəstənin reseptinə baxmaq istəyirdi ki, kimsə ona müraciət etdi:

- Buyurun, növbə sizindir.
- ***Nə növbə?*** – deyə Rübabə xəbər aldı.

Həkim:

- ***Necə nə növbə?*** Bəs siz niyə gəlmisiniz?

O yalnız indi pis vəziyyətə düşdüyünü hiss etdi. Doğrudan da, o, buraya niyə gəlmişdi? Həkim mehriban səslə:

- Buyurun, ana, nədən şikayətlənirsiniz?

Bu gənc həkim onu müayinə etdikcə Rübabə də onu müşahidə edirdi. Müayinə üsulundan, verdiyi suallardan və hətta <u>fonendoskopu</u> tutmağından həkimin o qədər də təcrübəli olmadığını və hələ çox gənc olduğunu müəyyən edən Rübabə xəfifcə gülümsündü. Lakin həkim qızın son dərəcə mehriban rəftarı – "ana" deyə müraciət etməsi ona xoş gəlmişdi. Buna görə də həkimə kömək etmək üçün:

- Məndə qan təzyiqi də yüksəkdir, həkim. Həkimlik böyük və şərəfli sənətdir. Elə mən də həkiməm, - dedi.

Heyrətdən Sevilin gözləri böyüdü.

Bu əhvalatdan bir həftə keçdi. Rübabə gündə 2-3 saat xəstəxanada olur, xalatını geyinir, fonendoskopunu əlinə alıb Sevilə kömək edirdi. O sevinirdi.

*(B.Vahabzadə. "Ədəbiyyat və incəsənət". 1954, 12 iyun)*

**1. Tünd hərflərlə fərqləndirilmiş cümlələr hansı intonasiya və emosiya ilə deyilməlidir?**

1. təəccüb 2. sadalama 3. sevinc
4. qəzəb 5. sual

A) 1, 5 B) 3, 4 C) 1, 2 D) 1, 3, 5 E) 2, 4, 5

**2. Altından xətt çəkilmiş sözün düzgün izahını müəyyənləşdirin.**

A) bəzi orqanlara qulaq asmaq üçün mükəmməl tibb aləti
B) tibdə isifadə olunan qayçı alətinin bir növü
C) iş prinsipi Paskal qanununa əsaslanan, qazların və mayelərin təzyiqini ölçən alət
D) insan bədəninin temperaturunu ölçən cihaz
E) tibdə cərrahiyyə əməliyyatlarının aparılmasında istifadə olunan alət

**3. Hansı sualın cavabı mətndə öz əksini *tapmayıb*?**

A) Rübabənin oğlu kimdir və bir övlad kimi necədir?
B) Rübabə həkim Sevillə nə zaman tanış olur?
C) Təqaüdə çıxarılmasını Rübabə necə qarşıladı?
D) Rübabənin gənc həkimə münasibəti necə idi?
E) Rübabə təqaüdə çıxdıqdan sonra harada işləyir?

**4. Mətnə əsasən *yanlış* fikirləri müəyyənləşdirin.**

1. Rübabə gigiyenik qaydalara əməl edir.
2. Xəstəni dinlədikdən sonra Rübabəni xəstəxananın baş həkimi çağırtdırır.
3. Müdir səbəbini izah etdikdən sonra təqaüdə çıxma kağızını Rübabəyə verir.
4. Rübabə 20 yaşından həkim işləyirdi.
5. Sevil çox təcrübəli və qayğıkeş həkimdir.

A) 2, 5 B) 1, 4, 5 C) 1, 2, 3 D) 2, 4 E) 3, 4

**5. Mətnə əsasən Venn diaqramında *uyğunsuzluğu* müəyyən edin.**




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**6. Verilən hadisələri cədvəldə mətndəki ardıcıllığa görə sıralayın.**

a) Rübabə həkimin təqaüdə çıxarılması
b) Rübabə həkimin rayona getməsi
c) fonendoskopdan istifadə edilməsi
d) Rübabənin düşüncələri ilə bağlı məlumat

| | |
|---|---|
| I | |
| II | |
| III | |
| IV | |

**7. Hippokrat andından götürülmüş aşağıdakı parçanı həkim Rübabənin fəaliyyəti ilə əlaqələndirin.**

*“... And içirəm ki, verdiyim sözə və götürdüyüm öhdəliklərə gücüm və dərrakəm çatdığı qədər əməl edəcəyəm. Gücüm çatdığı qədər müalicəmi heç bir vaxt pislik üçün deyil, kömək üçün istifadə edəcəyəm. ... Sənətimdən tərtəmiz bir şəkildə istifadə edəcəyəm. Hansı evə daxil olaramsa, ancaq xəstənin xeyrini düşünəcəyəm, qəsdli olan bütün pisliklərdən qaçacağam. ... Andıma sadiq olaramsa, qoy həyatımda və sənətimdə nəsibim xoşbəxtlik və insanların rəğbəti, olmaramsa, bunun əksi olsun”.*

**8. "*Həkimin insan həyatında rolu danılmazdır*" mövzusunda mühakimə xarakterli mətn yazın.**

____________________________________________________________

____________________________________________________________

**9. Üzərində ▲ işarəsi qoyulmuş söz** [ ]

☐ **həqiqi mənadadır (✓)**

☐ **məcazi mənadadır (✓)**

Çünki ________________________________________________________

**10. Həyat bilgisi və biologiya fənnindən də öyrəndiklərinizdən istifadə etməklə "*Ürəyin funksiyaları*" mövzusunda mətn yazın.**

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

# B variantı

## Məğlubiyyətin üzünə gülə bilmək...

Baharda münbit torpaqda lobya və noxud toxumu yan-yana yatırmış. Toxumlardan biri: "Mən böyümək istəyirəm, köklərimi torpağın dərinliklərinə və gövdəmi yer üzünə göndərmək istəyirəm. Baharın müjdəçisi olan tumurcuqlarımın açılmasını istəyirəm. Günəşin istisini, səhər mehini hiss etmək istəyirəm",- deyərək böyüməyə başladı.

İkinci toxum isə: "Mən qorxuram. Köklərimi torpağın dərinliklərinə göndərsəm, qaranlıqlarda məni nəyin gözlədiyini bilmərəm. Üstümdəki torpağı dəlib yer üzünə çıxmağa çalışsam, gövdəm zədələnər. **Hələ tumurcuqlarım açmağa başlayanda üzərində ilbizlər gəzib onları yeməyə çalışarsa? Ya tumurcuqlarım açılıb çiçəyə çevrildikdə balaca bir uşaq məni qopararsa?..** Yox, yox! Ən yaxşısı burda qalıb gözləməkdir. Böyümək üçün, bəlkə, daha etibarlı bir zaman tapa bilərəm",- deyib gözləməyə başladı. Birinci toxum köklərini torpağın dərinliklərinə vermək istərkən yumşalmış torpağı eşələməyə başlayan bir toyuq ikinci toxumu tapdı və onu yedi.

"Məğlubiyyətin üzünə gülə bilsən, demək, cəsursan",- deyirdi fransız imperatoru Napoleon Banopart. Həqiqətən, "Cəsurun baxışı qorxağın qılıncından itidir" düşüncəsi insanı uğura aparır. Başqa bir həyat hadisəsinə diqqət yetirək.

Lilian 16 yaşında ikən atası onun yetərincə təhsil aldığını zənn edərək işləyib ailəyə gəlir gətirməsini tələb edir. Lakin biliyi və bacarıqları hələ yarımçıq olduğu üçün Lilianın özünə inamı yox idi. O, hər gün avtobusa minib böyük şəhərlərə gedir, amma bir "köməkçi axtarılır" elanına belə cavab vermək cəsarətini özündə tapa bilmirdi. Hər gün şəhərə gedir, boş-boş dolaşır və gün batanda evə dönürdü... Lilian bir qapını döymək məcburiyyətində qalacağını bilirdi. Bir gün "Katibə axtarılır" yazılan elanı gördü və həmin şirkətə yollandı. Onu qarşılayan idarəçi: "Yaxşı, Lilian, nə qədər bacarıqlı olduğuna bir baxaq", - dedi və bir məktub yazması təlimatını verib otaqdan çıxdı. Lilian həyəcanlandı və saata baxaraq 11:40 olduğunu gördü. Günorta hər kəs yeməyə gedəndə qələbəliyə qarışıb aradan çıxmağı qərara aldı. Amma ən azından məktubu yazmağa səy göstərmək lazım idi. İlk cəhdində bir sətir yaza bildi. Yazdığı beş sözdə dörd xəta vardı. İkinci cəhdində bütöv bir abzası yazdı. Amma yenə xeyli səhvə yol verdi. Yenidən yazmağa başladı. Bu dəfə məktubu tamamladı, amma yazdıqlarında yenə də yanlışlıq vardı. Saata baxdı: 11:55... Aradan çıxmasına beş dəqiqə qalmışdı. Bu an idarəçi içəri girdi. Məktubu oxudu və: "Yaxşı iş görürsən, Lilian", - dedi. Lilian çaşqınlıq içindəydi. Ürəkləndirici sözləri duyunca qaçmaq istəyi yox oldu və özünə inamı artmağa başladı. Öz-özünə: "O, yaxşı olduğunu düşünürsə, yaxşı olmalıdır. Burda qalacağam", - dedi. Lilian 51 il burada işlədi. İki dünya müharibəsi, bir böhran görsə də, müvəffəqiyyətlə işlədi.

Beləliklə, cəsarət, nikbinlik uğur qazanmağın vacib şərtlərindəndir. Bunlarla yanaşı, özünəinam hissinin də olması olduqca vacibdir.

*(Qənirə Paşayeva. "Hesab vaxtı". "Elm və təhsil" nəşriyyatı. 2014)*

**1. Tünd hərflərlə fərqləndirilmiş cümlələr hansı intonasiya və emosiya ilə deyilməlidir?**

1. narahatlıq 2. sadalama 3. sevinc
4. qəzəb 5. sual

A) 1, 5 B) 3, 4 C) 1, 2 D) 1, 3, 5 E) 2, 4, 5

**2. Altından xətt çəkilmiş sözün mənasının düzgün izahını müəyyənləşdirin.**

A) izdiham, tünlük, basabas, çoxlu adam olan yer
B) başqasının işinə qarışma, orada iştirak etmə, işin gedişinə təsir etmə
C) müxtəlif səbəblərdən məcburi və ya könüllü olaraq vətəni tərk etmə
D) gizlincə çıxıb getmək, ötüb keçmək, aradan çıxmaq
E) ortaq xüsusiyyətə malik insan toplusu

**3. Hansı sualın cavabı mətndə öz əksini *tapmayıb?***

A) Lilian nə üçün təhsilini yarımçıq qoyur?
B) İkinci toxumun məhv olmasına səbəb nə idi?
C) Nə üçün əvvəlcə Lilianın özünə inamı yox idi?
D) Birinci toxumdan yaranan bitkidən kimlər faydalandı?
E) Lilian neçə yaşına kimi müvəffəqiyyətlə işlədi?

**4. Mətnə əsasən doğru fikirləri müəyyənləşdirin.**

1. Toxumlarla bağlı əhvalat yaz fəslində baş verir.
2. İkinci toxum birincidən daha nikbin idi.
3. Lilian ona tapşırılan məktubu yazmaq üçün 2 dəfə cəhd göstərdi.
4. Lilianın özünəinam hissinin yaranmasında onu işə götürən şəxsin böyük rolu olmuşdur.
5. Lilian tapşırığı yerinə yetirib idarəçini səbirsizliklə gözləməyə başladı.

A) 2, 3, 5 B) 1, 4, C) 1, 2, 3 D) 2, 4 E) 3, 4

**5. Mətnə əsasən Venn diaqramında *uyğunsuzluğu* müəyyən edin.**




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**6. Verilmiş hadisələri mətndəki ardıcıllığa görə sıralayın.**

a) Liliana həvəsləndirici sözlərin deyilməsi
b) Lilianın təhsili yarımçıq qoyması
c) Lilianın çaşqınlığı
d) işlə bağlı elanın diqqəti cəlb etməsi

| | |
|---|---|
| I | |
| II | |
| III | |
| IV | |

**7.** *"Cəsarətsiz xoşbəxtlik, mübarizəsiz fəzilət yoxdur"* **(J.J.Russo) aforizmini toxumların və Lilianın əhvalatı ilə əlaqələndirin.**

________________________________________

________________________________________

________________________________________

**8.** *"Özünəinam həyatın qüvvəsidir"* **(L.Tolstoy) mövzusunda mühakimə xarakterli mətn yazın.**

________________________________________

________________________________________

**9. Üzərində ▲ işarəsi qoyulmuş söz** [ ]
- ☐ **həqiqi mənadadır (✓)**
- ☐ **məcazi mənadadır (✓)**

Çünki ____________________________________

**10. Ədəbiyyat və həyat bilgisi fənnindən də öyrəndiklərinizdən istifadə etməklə** *"İnsanı qələbəyə doğru aparan müsbət keyfiyyətlər"* **mövzusunda mətn yazın.**

________________________________________

________________________________________

________________________________________

# C variantı

## Dünyanın qəbul etdiyi böyük alim - Murtuza Nağıyev

I 1919-cu ildə Sərabdan gənc bir ailə 11 yaşlı oğlu ilə birlikdə Aşqabada gedirdi. Üç ildən sonra yollar bu ailəni Bakıya qovuşduracaqdı.

II Bakıda Murtuza – çilingər köməkçisi kimi işə başlayan bu yeniyetmə bacarığı və çalışqanlığı ilə ustaları mat qoydu və onu “fərasətli uşaq” kimi tanıdılar. Elə bu ad onun cəmiyyətdəki ilk uğuru oldu. Balaca Murtuza yaşına görə çox diribaş, cəsarətli idi, iti hafizəsi, gözəl danışıq qabiliyyəti var idi. Ailəsindəki zəhmətkeşlik, saflıq, qürurluluq qanına hopmuşdu. Heç kimdən heç nə ummadan, heç kəsə zərər vermədən, inamla, dürüstlüklə məqsədinə doğru gedəcəkdi.

III İlk zəhmət haqqını hələ 11 yaşında alan Murtuza maaşını anasına verəndə cavan qadın **kövrəlmiş**, amma gizlətdiyi göz yaşları ilə hələ çox gənc olan oğlunu sındırmaq istəməmişdi. Məntiqi ilə yaşını qabaqlayan Murtuza anasının gözlərindəki kədərin həm nakam həyat yoldaşı, həm də qovuşa bilmədikləri yurd yeri Sərabla bağlı olduğunu yaxşı başa düşürdü. Xiyabani dövründə yaşananlardan sonra və Sovet hakimiyyəti möhkəmləndikcə cənubla əlaqələrin hər gün uzaqlaşdığını görürdü. Lakin anasını üzməmək üçün ona daim ümid verirdi. Bu nəcib qadın oğlunun onun arzuladığından çox-çox uzaqlara gedəcəyindən – şöhrəti sərhədlər aşan görkəmli kimyaçı alim olacağından xəbərsiz idi.

IV O, zavodda işləməklə yanaşı, həm də təhsil alırdı. İşlədiyi zavodun ictimai həyatını əks etdirən qəzetə məqalələr yazdığından hamı onu jurnalist kimi də tanıyırdı. 1922-ci ildə mətbuatda onun ilk məqaləsi çap olunmuşdu. Həqiqətən, yaxşı jurnalist, nasir, tərcüməçi, yazıçı, şair (gəncliyində şeir də yazırdı) ola bilərdi, ancaq hədəfi humanitar elmlər deyil, dəqiq elmlər olacaqdı: dəqiq elmlər onu öz cazibəsinə salmışdı.

V 1929-cu ildə birdən-birə Moskvanın iki ali məktəbinə: Moskva Ali Texniki Məktəbinə və Mədən Akademiyasına daxil oldu. 1933-cü ildə aid olduğu mövzuda ilk olan elmi məqaləsi (“Bizə antioksidant keyfiyyətli benzin lazımdır”) dərc olunur. Elə həmin ildə ilk kəşfinə də imza atır. Bu kəşf aktual olan məsələ ilə – əlavə benzin alınmasına imkan verən termiki krekinq prosesi ilə bağlı idi. 1 il sonra növbəti yeniliyi – neft emalı qurğularının müxtəlif elementlərinin hesablanması metodlarını işləyib hazırladı.

VI Elmi tədqiqatlarının tətbiq olunmasına və səmərəsini verməsinə baxmayaraq, yenilikçi alimin yolunu müxtəlif süni maneələrlə əngəlləməyə çalışanlar da var idi. O, bir neçə dəfə işdən çıxarılır. Hətta müharibə illərində kimya elminin inkişaf etdirilməsində və

faşizm üzərində qələbənin təmin olunmasında böyük xidmətlərinin olmasına baxmayaraq, 1948-ci ildə Neft İnstitutunun direktoru vəzifəsindən azad olunur. Lakin bütün bu təzyiqlər böyük alimi daha da gücləndirir, elmi işlərini davam etdirir. Nəhayət, elmə olan məhəbbəti nəticəsində yenə qalib gəlir və vəzifəsinə yenidən təyin olunur, hətta növbəti mükafatla təltif olunur.

**VII** Ana dilimizdə neftin texnologiyasına dair ilk dərslik də görkəmli kimyaçı alimin qələminin məhsuludur. Onun monoqrafiyası dünyanın bir sıra dillərinə (ingilis, alman, çin) tərcümə edilmişdir. Alimin adı ilə yeni bir elm sahəsi – kimya texnologiyasının nəzəriyyəsi yaranmışdır. M.Nağıyevin adını əbədiləşdirmək məqsədilə bir zamanlar yaratdığı və rəhbərlik etdiyi AMEA-nın Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutuna alimin adı verilmişdir.

*(Abbasov Vaqif. "Dahilərin, müdriklərin və fatehlərin həyat dərsləri". II cild. "Təhsil" nəşriyyatı, Bakı: 2013)*

**1. Birinci abzasın ikinci cümləsində tələffüz zamanı daha qüvvətli intonasiya ilə deyilən söz hansıdır?**

A) Üç B) sonra C) yollar D) Bakıya E) qovuşduracaqdı

**2. Çərçivə daxilində verilmiş sözün kontekstə uyğun mənasının düzgün şərhini müəyyənləşdirin.**

A) Həqiqi mənalıdır,
B) Məcazi mənalıdır, → *öz ağırlığı ilə basma, sıxma demәkdir.*

C) Məcazi mənalıdır,
D) Həqiqi mənalıdır, → *zorakı təsir, məcburetmə məzmunu ifadə edir.*

E) Həqiqi mənalıdır, → *elastiklik dərəcəsi anlamındadır.*

**3. Altıncı abzasın sonuncu cümləsinin oxusu zamanı hansı sözdən sonra cümlədaxili fasilə tələb olunur?**

1. Nəhayət
2. nəticəsində
3. gəlir
4. olunur
5. mükafatla

A) 2, 3 B) 1, 3, 4 C) 1, 2, 5 D) yalnız 2, 4 E) yalnız 3

**4. Murtuza Nağıyevin piramidanın üçüncü mərtəbəsinə uyğun elmi uğurunu müəyyən edin.**




1. Mətbuatda ilk məqaləsi çap olunur.
2. İki ali məktəbə daxil olur.
3. Neft-qaz yataqları aşkar edir.
4. İlk dəfə elmi kəşfinə imza atır.
5. 2-ci dəfə elmi kəşfini edir.

A) 1　B) 2　C) 3　D) 4　E) 5

**5. Verilənlər içərisində mətnin neçənci abzasını genişləndirən cümlə var?**

1. Axı bu qismət tək onların payı deyildi, Bakıda eyni taleyi yaşayan o qədər azərbaycanlı var idi ki.
2. Onlar müharibənin ən dəhşətli döyüşlərində misilsiz qəhrəmanlıqlar göstərdi.
3. Yeni ruh, yeni nəfəs, yeni ideya bütün dövrlərdə birmənalı qarşılanmayıb.
4. Təsadüf, bəxt, tale – bütün bunlar mənasız sözlərdir, yer üzündə yeganə tale insanın öz ağlıdır.
5. Bu zavodda istehsal olunan müxtəlif çeşidli məhsullar respublikanın müxtəlif ərazilərinə paylanılırdı.

A) **I**　B) **II**　C) **III**　D) **IV**　E) **V**

**6. "Azərbaycanda neft hasilatı"nı M.Nağıyevin fəaliyyəti ilə əlaqələndirməklə fikrinizi yazın.**

______________________________

______________________________

______________________________

______________________________

**7. Tünd-qara hərflə verilmiş sözün kontekstə uyğun mənasını nümunə əsasında şərh edin.**

*Söz* → *Mənası* → *Nümunə*

**8. Mətnin ideyasını müəyyən edin və ona uyğun aforizm (və ya atalar sözü) yazın. (✓)**

☐ Sağlamlığın qorunması → ____________________

☐ Mübarizlik → ____________________

☐ Vətənpərvərlik → ____________________

**9. Mətnə əsasən doğru fikri müəyyənləşdirin (✓) və əsaslandırın.**

☐ Murtuza 1919-cu ildə Bakıya gəlir.

☐ İlk zəhmət haqqını tələbə ikən qazanmışdı.

☐ Hələ yeniyetmə yaşlarından nikbin idi.

☐ M.Nağıyev vəzifə kürsüsü vurğunu olduğu üçün uğur qazandı.

Çünki ____________________

**10.** ***"Azərbaycan kimya elminə töhfələr verən alimlər"*** **mövzusunda faktlara əsaslanmaqla təsviri xarakterli mətn yazın.**

____________________

# D variantı

## Uğurun sirri

I Həyat yolu ilə əsl nümunə olacaq insanlardan biri də ikiqat Əməkdar idman ustası, bir çox beynəlxalq yarışların qalibi, "Şöhrət" ordenli, "Tərəqqi" medallı, "Heydər Əliyev" Fondunun təsis etdiyi Beynəlxalq "Qızıl Çinar" mükafatı laureatı İlham Əzizağa oğlu Zəkiyevdir. 1980-ci il mart ayının 3-də dünyaya göz açan İlham hələ kiçik yaşlarından idmana maraq göstərir, dəfələrlə şəhər çempionu, respublika birincisi, 1998-ci ilin iyun ayında isə Azərbaycan kubokunun qalibi olur. Bir ay sonra həqiqi hərbi xidmətə çağırılır. Xidmətini Füzuli rayonunda yerinə yetirir. Fiziki göstəricilərinə görə digər yoldaşlarından seçilən İlham kəşfiyyatçı təyin edilir. Bir çox təhlükəli döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn gənc əsgər orduda nümunəvi xidmət edir, fəxri fərmanlar alır. 1999-cu ilin fevral ayında növbəti dəfə döyüş tapşırığını yerinə yetirərkən erməni snayperinin açdığı atəş nəticəsində İlham yaralanır və görmə qabiliyyətini tamamilə itirir.

II Dünya işığına həsrət qalmaq ən yaşlı adamı belə mənəvi cəhətdən məhv edə bilərdi, lakin o, yenə də mübarizə aparır və hər dəfə qalib olur.

III Bu gün İ.Zəkiyev idman arenasında vətənə qulluğu ləyaqətlə davam etdirir. 2 dəfə Paralimpiya çempionu (2004, 2008), 2 dəfə Dünya çempionatının (2007, 2010), 5 dəfə Avropa çempionatının (2005, 2007, 2009, 2011, 2015) çempionu olur. Hər dəfə Azərbaycan bayrağını yüksəkliklərə qaldıranda, himnimiz oxunanda biz onunla qürur duyuruq. **"**İlham Zəkiyevin bu uğurunun düsturu varmı, sirri nədədir?" sualına o belə cavab verir:

**-** İnsan hər zaman sevməlidir. Vətənini, işini, peşəsini, ailəsini və bu zaman uğur özü gəlib səni tapacaq. Həmçinin öz üzərində çalışmalıdır.

IV Həyatda çətinliyə qalib gələn insanlardan biri də Morris Qudmendir. O, 1945-ci ildə anadan olub. 1981-ci ildə təyyarə qəzasında yaralanır və tamamilə iflic olmuş vəziyyətdə xəstəxanaya gətirilir. O deyir: "Məni nəfəsalma **aparatına** qoşdular və həkimlər dedilər ki, heç vaxt özüm nəfəs ala bilməyəcəyəm. Lakin daxilimdəki sakit səs deyirdi: «dərindən nəfəs al» və nəhayət, həkimlər məni aparatdan ayırdılar. Məni məqsədimdən uzaqlaşdıracaq heç nəyi ağlıma buraxmırdım. Həmin vəziyyətdə qarşıma məqsəd qoydum ki, Yeni ilə kimi xəstəxanadan öz ayaqlarımla çıxacağam və mən bunu etdim. Həqiqətən, insan düşündüyünə çevrilir..."

V Elə insanlar vardır ki, sağlamlıq imkanları məhduddur. Lakin gözlərində bir işıq müşahidə olunur. Bu, uğurdur.

*Hər iki şəxs həyatının müəyyən mərhələsində baş verən bir qəza nəticəsində sağlamlığını itirsə də, həyata sevgisi və inamı ilə uğurlar əldə etdi. Həyatın hər anında özünüzə olan güvəninizlə istənilən çətinliklərə qalib gələ bilərsiniz. Təki istəyin.*

*(İlham Zəkiyev və Moris Qudmenin həyatı əsasında. İşləyəni: F.Osmanova)*

**1. Üçüncü abzasın ilk cümləsində tələffüz zamanı daha qüvvətli intonasiya ilə deyilən söz hansıdır?**

A) vətənə B) ləyaqətlə C) idman D) arenasında E) davam etdirir

**2. Çərçivə daxilində verilmiş sözün kontekstə uyğun mənasının düzgün şərhini müəyyənləşdirin.**

A) Həqiqi mənalıdır,
B) Məcazi mənalıdır, → *parlaqlıq deməkdir.*

C) Məcazi mənalıdır,
D) Həqiqi mənalıdır, → *işıq mənbəyi məzmunu ifadə edir.*

E) Həqiqi mənalıdır, → *işıq düşən yer anlamındadır.*

**3. Dördüncü abzasda dırnaq içərisində yazılmış ilk cümlənin oxusu zamanı hansı sözdən və ya sözlərdən sonra cümlədaxili fasilə tələb olunur?**

1. qoşdular 2. birləşdirdilər 3. dedilər 4. ki 5. nəfəs

A) yalnız 2 B) 3, 4 C) 1, 2, 3 D) yalnız 2, 4 E) 1, 4

**4. İlham Zəkiyevin piramidanın üçüncü mərtəbəsinə uyğun idman uğurunu müəyyən edin.**




1. Azərbaycan kubokunun qalibi olur.
2. 2-ci dəfə Paralimpiya çempionu olur.
3. Kəşfiyyatçı təyin olunur.
4. İkiqat dünya çempionu olur.
5. 6-cı dəfə Avropa çempionu olur.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**5. Verilənlər içərisində mətnin neçənci abzasını genişləndirən cümlə var?**

1. Həkimlər deyirlər ki, həyatının qalan hissəsini iflic vəziyyətində keçirəcəksən, sağalmağına ümid yoxdur.
2. Məktəb illərinin acılı-şirinli xatirələrini, olub-keçənləri unutmurdu.
3. Həkimlik sənətinin müqəddəsliyi bütün xəstələrin həyatında əhəmiyyətli rol oynayır.
4. Vətənimizin bütövlüyü uğrunda canını qurban verən şəhidlərin ruhu qarşısında baş əymək hər bir idmançının borcudur.
5. Morris Qudmenin iflic olması onun təhsil almasına da mənfi təsir göstərmişdir.

A) **I** B) **II** C) **III** D) **IV** E) **V**

6. *"Azərbaycan Respublikasında əlil idmançılara xüsusi dövlət qayğısı var"* **ifadəsini İ.Zəkiyevin həyatı ilə əlaqələndirməklə fikrinizi yazın.**

______________________________________________________________

______________________________________________________________

**7. Tünd-qara hərflə verilmiş sözün kontekstə uyğun mənasını nümunə əsasında şərh edin.**

*Söz* → *Mənası* → *Nümunə*

**8. Mətnin ideyasını müəyyən edin və ona uyğun aforizm (və ya atalar sözü) yazın. (✓)**

- [ ] Sağlamlığın qorunması → ______________________________
- [ ] Özünəinam → ______________________________
- [ ] Vətənpərvərlik → ______________________________

**9. Mətnə əsasən Venn diaqramını tamamlayın.**

İ. Zəkiyev  Oxşar xüsusiyyətlər  M. Qudmen



10. *"Fiziki qüsur həyatda uğur qazanmağa əngəl ola bilməz"* **mövzusunda faktlara əsaslanmaqla mühakimə xarakterli mətn yazın.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

# E variantı

## Planlı hərəkət etməyin faydaları

Uğur əldə etmək üçün əvvəlcə planlı hərəkət etməyi öyrənməlisiniz.

1953-cü ildə ABŞ-da tələbələr arasında sorğu keçirilmişdi. Sorğu anketi dolduran tələbələrdən yalnız 3 faizi plan üzrə çalışdığını qeyd etmişdi. 1973-cü ildə sorğu keçirən tədqiqatçılar həmin [1]respondentlərlə yenidən görüşüb onların maddi vəziyyətini araşdırdılar. Məlum oldu ki, 3 faiz təşkil edən azlığın maliyyə vəziyyəti və uğurları digər 97 faizdən daha üstündür.

Həqiqətən, hədəfə doğru planla hərəkət edən insanlar başqalarına nisbətən həyatda daha çox uğur qazanırlar.

Gün ərzində gözlədiyinizdən daha çox iş görə bilərsiniz. Ola bilsin, indi dərsə hazırlaşmaqdan dostlarınıza çox vaxt ayıra bilmirsiniz. Gözünüz dərslikdə, fikriniz isə televizorda, kompüterdə, dostlarınızdadır. Planla iş gördükdə isə bunların hamısına lazım olan vaxtı ayırırsınız.

Planla hərəkət etsəniz, işləriniz üst-üstə düşməz, yığılıb qalmaz.

Həyatda uğur yalnız dərslərdən əla qiymətlər almaqla məhdudlaşmamalıdır. Məktəbdaxili və məktəbdənkənar sosial həyatda fəal olmaq insanın uğur göstəricilərindən biridir. Bu da vaxtdan səmərəli istifadə etməklə mümkün olur.

Planlı hərəkət edənlər imtahandan əvvəlki gecələrdə səhərə kimi çalışmaq məcburiyyətində qalmırlar. İmtahan qorxusu və stress belə insanlarda çox vaxt olmur.

Planlaşdırma insanın sağlamlığını da qoruyur. Uzun müddət zövq alaraq çalışmaq, imtahana bir gün qalmış isə dincəlmək əsəblərinizi də xilas edər. **Müəssisədə planın yerinə yetirilməsi ilə bağlı xeyli müzakirə oldu. Hərə bir fikir söylədi. Məlum oldu ki, planı yerinə yetirmək mümkündür.**

Planlı hərəkət edib gündəlik çalışsanız, vicdanınız da rahat olar, şəxsi [2]öhdəlikləriniz və ailəniz qarşısında borcunuzu yerinə yetirmədiyiniz üçün özünüzü günahkar saymazsınız.

Planlı həyatın sizə bəxş etdiyi uğurlar ailənizin də sevincinə səbəb olar, valideynlərinizi bir çox qayğılardan azad edər.

Planla hərəkət etmək insanın xarakterini möhkəmləndirir, onda bir çox müsbət xüsusiyyətlər: məsuliyyət, çalışqanlıq, nizam-intizam formalaşdırır. Belə insan həyata daha çox hazırlıqlı olur. O heç bir şəraitdə vaxt azlığından şikayətlənmir, nəinki dərslərə, əlavə məşğuliyyətlərə: idmana, musiqiyə, digər hobbilərə də vaxt çatdırır.

Plan tutmaq məqsəd deyil, məqsədə çatmaq üçün vasitədir. Hər vasitə məqsədə çatmaq üçün yetərli olmur. Planlı həyat tərzinə vərdiş edən şəxs məqsədinə də uğurla çatar.

*(Ayilin Atmaca. "Zamanı necə idarə etməli", "Altun kitab" nəşriyyatı, Bakı)*

**1. Mətnin sonluğunu hansı fikirlə ümumiləşdirmək olar?**

1.Yaxşı məqsədə pis vasitə ilə çatmaq olmaz.
2. Qayəsi kiçik olan adam  böyük olmaz.
3. Görüləcək iş əsas məqsəddir.
4. Amalı uğrunda ölmək əbədi yaşamaqdır.
5. Qayəsiz bir həyatın mənasız bir sözdən nə fərqi var?

A) 1, 5  B) 2, 3  C) 1, 4, 5  D) 1, 3  E) 2, 4, 5

**2. Çərçivə daxilində verilmiş parça mətndə hansı işarənin yerinə uyğun gəlir?**

> 2013-cü ildə 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunmuş Osman Müslümov uğur qazanmasının səbəbini öyrənmək istəyən müxbirin sualını belə cavablandırır: "İmtahanlara sistemli, ardıcıl və planlı şəkildə hazırlaşdığım üçün müvəffəqiyyət qazandım".

A) ■  B) ▲  C) ▰  D) ◆  E) ●

**3. Mətnin giriş hissəsini genişləndirən cümlədir:**

A) Sabah nə  edəcəyini bilməyən insan bədbəxtdir. (Konfutsi)
B) Bizim bütün ləyaqətimiz düşüncələrimizdir. (Paskal)
C) Ağılın qavradığı və inandığı hər şeyi etmək mümkündür. (Napoleon)
D) Həyat tarlasına nə əkərsən, onu da biçərsən. (Volter)
E) Yaxşı işin mükafatı onun nəticəsidir. (Emerson)

**4. Mətnə əsasən müəyyən edin.**

1. ABŞ-da tələbələr arasında 2 dəfə sorğu keçirilib. •
2. Əsəblərin sakit olması ancaq imtahanlardan asılıdır. •   • doğru
3. Planlı olmaq insanların həyat tərzinə təsir edir. •
4. Valideynlər qayğıdan azaddır. •   • yanlış
5. Ailə qarşısında öhdəliklərin yerinə yetirilməsi də borcdur. •

A) 
B) 
C) 
D) 
E) 

**5. Üzərində rəqəm yazılmış sözlərin kontekstə görə mənası ilə bağlı uyğunluğu müəyyən edin.**

1.________________________________________

2. ________________________________________

a. məqsədə çatmaq üçün vasitə
b. qəzetlə əməkdaşlıq edən şəxs
c. rəyi soruşulan şəxs
d. mütləq yerinə yetirilməli olan iş
e. planın yerinə yetirilməsi

A) 1 – a; c; 2 – b B) 1 – e; 2 – a; d C)1 – c; 2 – d D) 1 – b; 2 – e E) 1 – d; 2 – c

**6. Mətnə əsaslanmaqla işin planlı görülməsinin faydası ilə bağlı 3 sual tərtib edin.**

I → ________________________________________

II → ________________________________________

III → ________________________________________

**7. Tünd-qara rəngdə verilmiş hissə mətnin məzmununa uyğundurmu? (✓)**

☐ Bəli
☐ Xeyr

Çünki ________________________________________

**8.** ***Sabah, hədəf, qeyd dəftəri, gündəlik plan, tərtib etmək, gün ərzində*** **sözlərindən istifadə etməklə ən az 3 cümlədən ibarət mövzuya uyğun mətn qurub yazın.**

________________________________________

________________________________________

________________________________________

**9. Planlı hərəkət etməyin faydaları ilə bağlı mətndən öyrəndikləriniz və daha əvvəl bildikləriniz əsasında BİBÖ cədvəlini tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**10. "*Mənim gün rejimim*" mövzusunda təsviri xarakterli mətn qurub yazın.**

# F variantı

## Xarakteri necə möhkəmləndirməli?

Həyatda müvəffəqiyyət qazanan və uğurlu insan olmaq üçün, ilk növbədə, güclü xarakterə malik olmaq lazımdır. İnsanı şəxsiyyət edən xarakterdir. Xarakteri formalaşdırmanın müxtəlif yolları var. **Bu yollar insanı müxtəlif şəhərlərə aparır. Həmin şəhərlər insanlara xoş güzəran bəxş edir. Hər kəsin bu şəhər yollarına ehtiyacı var.**

Həyatda uğurun yolları əvvəlcə təhsildən, mütaliədən keçir. Təhsil insanın dünyagörüşünü və düşüncələrini istiqamətləndirən başlıca amildir. İnkişafın təməli oxumaqdır. Yalnız dərslikləri deyil, başqa kitabları da oxumaqla hərtərəfli faydalanıb özünüzə zəngin bir xəzinə yarada bilərsiniz. ... ■

Həmişə iradəli olun. Xəta etməkdən qorxmayın. Vacib olan xətalarınızdan dərs almağı bacarmaqdır. Yol verdiyiniz xətalar sizi çəkindirməsin, özünüzə inamınıza mənfi təsir etməsin. Xətalarınızdan təcrübə qazansanız, uğursuzluqlarınız da azalar.

Özünüzə qarşı obyektiv olun, xoşunuza gəlməyən xüsusiyyətlərinizi müəyyən edin, sonra bunları müsbətləri ilə əvəz edin. Düzgün olmayan xasiyyətlərinizə göz yummaq sizə heç nə qazandırmayacaq, əksinə, itirəcəksiniz .... ▲

Əhvali-ruhiyyənizi yüksəltməyə çalışın, daxilinizdəki [1] potensiala inanın. Başqalarının sizə dəyər verməsinə ümid etsəniz, həyatınız boyu gözləyəcəksiniz. Bunu özünüz etməlisiniz. ... ▰

Məqsədinizi əvvəlcədən müəyyənləşdirin. ... ◆

Həyatda hər hansı bir sahədə müvəffəqiyyət qazanmaq üçün mütləq o sahəyə uyğun hədəfiniz olmalıdır. Hədəf dəmiri özünə doğru çəkən maqnit kimi öz sahibini irəliyə, özünə tərəf aparar. Hədəf hər nə qədər aşkar, dəqiq və ali olarsa, bir o qədər öz sahibini özünə yaxınlaşdırar.

Gənclik illərindən xarakterinizi gücləndirsəniz, bu, həyatınız boyu maddi və mənəvi cəhətdən zənginləşmənizə, özünüzün, həm də cəmiyyətin hörmət bəslədiyi insan olmağınıza yol açacaq. Sağlam xarakter üçün məsuliyyətli, fədakar, incə düşüncəli, nəzakətli, dürüst, səbirli olmaq, ehtiyac içində olan insanların halından anlamaq lazımdır. Ailənizə və ətrafınıza fayda vermək, cəmiyyətə gərəkli olmaq, başqalarının fikirlərinə hörmətlə yanaşmaq kimi mənəvi-əxlaqi dəyərlərə yiyələnmək vacibdir. ... ●

[2] Empatik olun: qarşınızdakının sevincini, qəmini anlamağa çalışın.
Sərt və səhv tənqid atəşinə də tutulsanız, bunu öz lehinizə çevirməyi bacarın. Bəziləri tənqiddən sarsılır, özlərinə olan inamı itirir, içlərinə qapanırlar. Lakin güclü şəxsiyyətlər tənqiddən təsirlənməzlər, əksinə, tənqid onların daha da güclənməsinə səbəb olar. Tənqiddən əsəbiləşmək əvəzinə, daha da həvəslənin və özünüzü islah edin. Qazanan yenə siz olacaqsınız.

*(Ayilin Atmaca. "Xarakteri necə möhkəmləndirməli", "Altun kitab" nəşriyyatı , Bakı)*

**1. Sonuncu abzasın məzmunu ilə bağlı ümumiləşmiş fikirdir:**

1.Tənqid insanı inkişaf etdirir.
2. Tənqid etməkdən çəkinmək lazımdır.
3.Tənqid olunmamaq üçün səhv etməməyə çalışmaq lazımdır.
4. Sizi tənqid edən adamla məsləhətləşməyin.
5. Tərifə yol tənqiddən keçir.

A) 1, 5 B) 2, 3 C) 1, 4, 5 D) 2, 3 E) 2, 4, 5

**2. Çərçivə daxilində verilmiş parça mətndə hansı işarənin yerinə uyğun gəlir?**

Mustafa Kamal Atatürkün xidmətçilərindən biri xatirələrində yazır: "Bir gün Atatürk kitab oxuyurdu. Ölkədə o qədər problem var ikən dövlət başçısının oturub kitab oxumasına əsəbiləşən birinin belə dediyini eşitdim: "Paşam! Başınızı qarışdırmayın. Məgər bu qədər qələbəni kitab oxuyaraq qazanmısınız?" Atatürk belə cavab verdi: "Mən uşaq ikən əlimə iki qəpik keçəndə bunun birini kitaba verirdim. Əgər elə olmasa idi, bu etdiklərimin heç biri olmazdı".

A) ■ B) ▲ C) ▰ D) ◆ E) ●

**3. Mətnin giriş hissəsini genişləndirən cümlədir:**

A) Məqsədə çatmaq üçün səylə və planlı şəkildə çalışmaq lazımdır.
B) Xarakter insanın özünümüdafiə, özünüifadəetmə tərzi, davranış və düşüncəsinin birliyidir.
C) Güclü şəxsiyyətlərin də səhvi olur.
D) Bədii ədəbiyyatda xarakter fərdiləşmə əlamətidir.
E) Hədəf əvvəlcədən elə seçilməlidir ki, reallığa uyğun və məqsədəmüvafiq olsun.

**4. Mətnə əsasən müəyyən edin.**

Başqalarının fikrinə hörmət etmək lazımdır.
Həyatda hər şey ancaq təhsildən asılıdır. • doğru
Bədbinlikdən qaçmaq, nikbin olmaq məsləhətdir.
Pis xasiyyətlərinizin üstünü örtməyə çalışın ki, heç kim bilməsin. • yanlış
Zəhmət çəkməyən səfa görməz.

A) 
B) 
C) 
D) 
E) 

**5. Üzərində rəqəm yazılmış sözlərin kontekstə görə mənası ilə bağlı uyğunluğu müəyyən edin.**

1.________________________________________

2.________________________________________

a. müəyyən nöqtədə bir şeyin enerjisini, gərginliyini və s. səciyyələndirən vahidə bərabər kəmiyyət.
b. müəyyən məqsəd, iş üçün lazım olan şərtlərin, vasitələrin məcmusu.
c. üzə çıxa bilən, mümkün ola bilən, tez-gec özünü göstərə bilən, gizli şəkildə qalan.
d. özünü başqa insanın yerində hiss edən, başqasının emosional halını duyan və dərdinə şərik olan.
e. həyatda ancaq yaxşı cəhətləri görən, müvəffəqiyyətə, gələcəyə inanan, şən və gümrah dünyagörüşlü.

A) 1 – a; c; 2 – b B) 1 – e; 2 – a; d C) 1 – c; 2 – d D) 1 – b; 2 – e E) 1 – d; 2 – c

**6. Mətnə əsaslanmaqla təhsilin, kitab oxumağın faydası ilə bağlı 3 sual tərtib edin.**

I → ________________________________

II → ________________________________

III → ________________________________

**7. Tünd-qara rəngdə verilmiş hissə mətnin məzmununa uyğundurmu? (✓)**

☐ Bəli
☐ Xeyr

Çünki ________________________________

**8.** ***Məqsədlərimizi, vacib, müəyyənləşdirmək, reallıq, nəzərə almaq, xülya, hədəf*** **sözlərindən istifadə etməklə ən az 3 cümlədən ibarət mövzuya uyğun mətn qurub yazın.**

________________________________________

________________________________________

________________________________________

**9. Xarakteri necə möhkəmləndirməklə bağlı mətndən öyrəndikləriniz və əvvəlki bilikləriniz əsasında BİBÖ cədvəlini tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**10. "*Həyatda hərtərəfli insan olmağın yolları*" mövzusunda mühakimə xarakterli mətn qurub yazın.**

# BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

# 1

## A variantı

### Silbo ünsiyyəti

I Hələ XIX əsrdə qəribə bir danışıq forması insanları təəccübləndirmişdir. Bu dil fit verməklə fikri ifadə etməkdən ibarət idi. Həmin qəribə dilin sirri uzun zaman açılmamış, gizli şəkildə qalmışdır. Məhz buna görə də səhv olaraq belə bir ideya meydana çıxmışdır ki, guya sözsüz də dil ola bilər. Şübhəsiz ki, belə məntiqsiz dil faktları və hadisələrinə səthi yanaşmaq, ümumiyyətlə, dil haqqında elmin o dövrdə zəif olmasının nəticəsində əmələ gəlmişdir.

II Bəs həmin ideya necə meydana çıxmışdır? Hələ çox qədimlərdə Homer adasının Quançes adlanan ilk sakinləri müəyyən şərait və məqamda fikri ifadə etmək üçün adi səsli dil üzərində qurulmuş fit çalmaq vasitəsindən də istifadə etmişlər. 1402-1405-ci illərdə ispanlar Homer adasını zəbt etmiş və orada yaşamışlar. Bu zaman yerli xalqın – quançeslərin öz dilləri sıradan çıxmış, onlar ispan dilinin bir (dialektində) danışmağa başlamışlar. Həmin vaxtdan onların fit dilləri də ispan dialektinə əsaslanmışdır.

III Tədqiqatçılar fitlə ünsiyyətin yerli şəraitdən irəli gələrək meydana çıxdığını söyləyirlər. Belə ki, Homer adası dağlıq, dərəlik yerdir. Burada sıldırımlı zirvələrin, uçurumların sayı-hesabı yoxdur. Yollar son dərəcə pis haldadır. Kəndlər arasında gediş-gəliş təhlükəlidir. Kiçik bir gəzinti, deyilənə görə, böyük zəhmət və əziyyətə səbəb olur. Bu çətinliyin tələbi əsasında adanın sakinləri özlərindən bir qədər uzaqda olana təcili nə isə demək istəyəndə fit vasitəsilə müraciət edirlər. Deməli, fit dili məlumatı uzaq məsafəyə çatdırmaq vasitəsidir. Lakin Homer adasının müasir sakinləri indi keçmişdən fərqli olaraq, başqa ölkələrdən gələnlər arasında bir-biri ilə gizli danışmaq və ya onları təəccübləndirmək üçün də fit dilindən istifadə edirlər.

IV Bu fit dili ispanca “Silbo” adlanır. Silbo ilə danışanlara isə “silbodor” deyilir. Silbo böyük güc və enerji tələb edir. Buna görə də hamı eyni dərəcədə fit çala bilmir, burada bəzi adamlar fərqlənir. Məharətlə fit çala bilənlər rekord silbodor, adi fitlə “danışmağı” bacaranlar isə orta silbodor hesab olunur. Orta silbodorun fiti 8, rekordçu silbodorun fiti isə 14 km-dən eşidilir. Bundan əlavə, hər bir silbodorun fərdi “üslubu” vardır.

V Silbo ünsiyyətinin xüsusi prinsipləri mövcuddur. Bu prinsiplər bir çox tədqiqatçıların nəzərini cəlb etmişdir. Fransız professoru Andre Klass Homer adasında olmuş və silbonun xüsusiyyətlərini öyrənmişdir.

*(A.Qurbanov. “İnsan və dil”, “Gənclik”nəşriyyatı, Bakı: 1973)*

**1. Mətnə əsaslanmaqla aşağıdakı sualları cavablandırın.**

a) XIX əsrdə sözsüz dilin də olması fikri nə ilə bağlı olmuşdur?

______________________________________________

b) Hansı hadisə quançeslərin öz dillərinin sıradan çıxmasına səbəb olmuşdur?

______________________________________________

**2. Abzasların biri digərlərindən fərqli intonasiya ilə ifadə olunan cümlə ilə başlayır. Həmin cümləni müəyyən edib yazın.**

______________________________________________

**3. "*Dil yeganə ünsiyyət vasitəsi deyil*" mövzusunda mətndə olmayan faktlara əsaslanmaqla mühakimə xarakterli mətn yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**4. Birinci abzasda ifadə olunan fikri yığcam şəkildə – bir cümlə ilə ifadə edib yazın.**

______________________________________________

**5. "*Həm cəmiyyətdə, həm də təbiətdə baş verən bəzi hadisələr yeni əlaqə vasitələrinin yaranmasına səbəb olur*" fikrini mətnlə əlaqəli şəkildə əsaslandırıb yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**6. Mətnin giriş hissəsinin sonuna 2 cümlə əlavə etməklə onu genişləndirin.**

**7.** *"Futbol hakimləri də fit dili ilə fikir ifadə etməyi bacarırlar"* **mövzusunda aşağıdakı həcmdə mühakimə tipli mətn yazın.**

**8. Çərçivə daxilində verilmiş ifadənin sintaktik vəzifəsini müəyyən edin və onu fərqli sintaktik vəzifədə cümlə daxilində işlədib yazın.**

**9. Mətnə əsaslanmaqla klasteri tamamlayın.**

Silbo dili
- danışıq formasıdır.
- 
- 
- 

**10. Cədvəli tamamlamaqla təsvir olunanlara münasibət bildirin.**

| Hadisə | Tarix | Yer |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

**11. Silbodorlar fitlə uzaq məsafələrə məlumat çatdıranda jest və mimikalardan kəskin istifadə etməyə ehtiyac duyurdularmı?**

☐ Bəli

Çünki ____________________

☐ Xeyr

**12. Mətnə əsasən müəyyən edin.**

| | Doğrudur | Yanlışdır |
|---|---|---|
| 1. Fit dili insanların ən qədim ünsiyyət dili olub. | ☐ | ☐ |
| 2. Turistlər də təəccüblənirlər. | ☐ | ☐ |
| 3. Ən güclü insanlar silbodorlardır. | ☐ | ☐ |
| 4. Homer yazıçı olmuşdur. | ☐ | ☐ |

Niyə?

____________________

**13. Andre Klassın Homer adasına gələn turistlərdən üstün cəhəti nə idi?**

______________________________________________

______________________________________________

**14.** *"O, silbonun bir çox xarakterik cəhətlərini izah edə bilmişdir. Bundan başqa, digər alimlər silbo səslərini aydınlaşdırmağa çalışmış və buna müxtəlif cəhətdən yanaşmışlar"*. Bu fikirlər hansı abzasda ifadə olunan fikirləri təkmilləşdirə bilər? Həmin abzasın sırasını və son cümləsini yazın.

[ ] ______________________________________________

______________________________________________

**15. İkinci abzasda sual cümləsinin tərkibində məcazi mənada işlənmiş ifadənin kontekstə uyğun mənasını cümlədə işlədərək yazın.**

______________ → ______________________________

**16. Lüğətdən istifadə edərək mötərizədə verilmiş sözün mətndəki yerinə görə mənasını nümunədə işlətməklə şərh edin.**

______________________________________________

______________________________________________

**17. Sxemlərə uyğun cümlə qurun və mötərizədə mürəkkəb cümlənin növünü yazın.**

______________________ ki, ______________________ (          )

______________________ və ______________________ (          )

**18. Ardıcıl olaraq qoşa nöqtə, dırnaqlar və nöqtə işarəsindən istifadə etməklə vasitəsiz nitqli cümlə yazın.**

______________________________________________

______________________________________________

**19. *"Məktəb həyati"* söz birləşməsini cümlə daxilində uyğun sintaktik vəzifələrdə işlədib yazın.**

Mübtəda → ______________________________

Tamamlıq → ______________________________

Zərflik → ______________________________

Xəbər → ______________________________

**20. Hesabatı kim hazırlamalıdır? Fikrinizi əsaslandıraraq yazın.**

______________________________________________

_________________ Çünki _________________

______________________________________________

# B variantı

## İbrət

Səksən yaşlarında qoca bir ata ilə qırx yaşlı oğlu salonda oturmuşdular. Hal-əhvaldan, oradan-buradan söhbət etdikdən sonra oğlu susmuşdu. O anda pəncərənin kənarına bir qarğa qondu. Ata gülümsəyərək bir müddət qarğaya baxdı, sonra oğlundan soruşdu: "Oğlum, bu nədir?"

Oğlu təəccüblə cavab verdi: "O, qarğadır, ata!"

Yaşlı ata qarğaya bir müddət də baxdıqdan sonra təkrar soruşdu (1): "Oğul, bu nədir?"

Oğlu daha da təəccübləndi (2) və yenə eyni cavabı verdi: "Ata, qarğadır o".

Qarğa hələ də pəncərənin qırağında (3) gülməli hərəkətlərlə başını sağa-sola çevirir, yan tərəfə, yuxarıya baxır, sonra başını yenə onlara tərəf çevirirdi. Yaşlı ata üçüncü dəfə soruşdu: "Ay oğlum, o nədir?"

Oğlunun təəccübü səbirsizliyə çevrilmişdi: "Bir qarğadır, ata, bu üçüncü dəfədir, soruşursan. Məni eşitmirsən?"

Yaşlı ata dördüncü dəfə də soruşduqda oğlunun səbir kasası daşdı (4) və səsini yüksəltdi: "Ata, nə üçün belə edirsən? Düz dörd dəfədir ki, onun nə olduğunu soruşursan, cavab verirəm və sən yenə də soruşmağa davam edirsən. Niyə məni bu qədər məşğul edirsən, səbrimi yoxlayırsan? "

Ata üzündəki təbəssümü hələ də davam etdirərək yerindən qalxdı, o biri otağa keçdi və əlində bir dəftərlə geri qayıtdı. Bu bir xatirə dəftəri idi. Oturdu, səhifələrini vərəqlədi və axtardığını tapdı. Sevgi ilə gülümsəməyə davam edərək səhifəsi açıq bir vəziyyətdə dəftəri oğluna tərəf uzatdı və həmin səhifədə yazılanları oxumasını istədi.

"Bu gün 3 yaşındakı körpə balamla (5) salonda oturarkən pəncərəyə bir qarğa qondu. Oğlum düz 23 dəfə onun nə olduğunu soruşdu. Hər soruşduğunda da onu sevgi ilə qucaqlayaraq başını oxşayıb pəncərəyə qonanın qarğa olduğunu dedim. Narahat olmaqmı? Xeyr! Onun sualını məsumca təkrar etməsi məni sevindirirdi".

*("Bağban", "İpək yolu" nəşriyyatı, Bakı: 2011)*

**1. Atanın məqsədi hansı sözlə başlayan sual cümləsinə "*Bəli*" cavabı verilməsi ilə də aydın ola bilər?**

A) Oğlum B) Məni C) Niyə?
D) Ata E) Narahat

**2. Mətnə əsasən doğru fikirdir:**
1. Atanın yaşı oğulun yaşından iki dəfə çoxdur.
2. Oğlu subaydır.
3. Qarğa ilə bağlı dəftərdə yazılan hadisə otuz yeddi il əvvəl olmuşdur.
4. Mənzil ən az iki otaqdan ibarətdir.
5. Ata ilə oğul çox nadir hallarda görüşürlər.

A) 1,3,4 B) 3,4,5 C) 1,2,3 D) 2,5 E) 2,4

**3. Mətn əsasında cavablandırılması mümkün olan sualı müəyyən edin.**
A) Oğul harada yaşayır?
B) Qarğa niyə gülməli hərəkətlər edir?
C) Ata beşinci dəfə eyni sualı verəndə oğul nə etdi?
D) Oğul səsini niyə yüksəldirdi?
E) Ailə neçə üzvdən ibarətdir?

**4. Hansı nümunə ilə mətndən çıxan fikirləri ümumiləşdirmək olar?**
A) Uğurun iki səbəbi var: səbir və ümid. (Düma)
B) Ağıllı adam xoşbəxtliyi özü ilə gəzdirir. (Şekspir)
C) Bütün elmlərin açarı sual işarəsidir. (Balzak)
D) Dözümlülüyün, müdrikliyin əsası səbirdir. (Platon)
E) Bilmədiyim şeyi soruşmaqdan utanmadım. (Sədi)

**5. *"Məcazi mənadadır, "dözmədi" mənasında işlənmişdir"* fikri üstündə rəqəm yazılmış hansı ifadənin şərhinə uyğundur?**

A) 2 B) 3 C) 5 D) 1 E) 4

**6. Çərçivə daxilində yazılmış cümlələrdən biri yüksək hiss-həyəcanla deyilir. Həmin cümlə hansı sözlə başlayır?**

___________________________________________

**7. *"Övladlar da valideynləri kimi səbirli olmalıdırlar"* deyimini öz həyatınızla əlaqələndirməklə fikrinizi yazın.**

___________________________________________

___________________________________________

___________________________________________

___________________________________________

8. *"Oğul başını aşağı saldı, duyğulandı. Bir dəftərə, bir atasının alnındakı qırışlara, bir də kənarda dayanıb onlara qulaq asan körpəsinə baxdı".* **Bu cümlələr mətnin hansı hissəsinə əlavə olunsa, mətnin tərkib hissələri arasında əlaqə** ***pozulmaz?***

____________________________________________________________

9. **Hər birinin qarşısında onları səciyyələndirən uyğun fikirlər yazın.**

Ata → ________________________________________

Oğul → ________________________________________

10. *"Ailədə valideyn – övlad münasibətlərində "borc" və "vəzifə" anlayışları ilə bağlı mülahizələrim"* **mövzusunda mətn tərtib edib yazın.**

____________________________________________________________

# İkisi də doğrudur

Bir cavan oğlan məşhur alman kralı Fridrixin yüzbaşılarından birinin yanına gəlib hərbi xidmətə yazılmaq istədiyini bildirir. Həmin gənc yaraşıqlı, boylu-buxunlu bir dəliqanlı idi.

Yüzbaşı əvvəlcə 40 yaşlı bu dəliqanlının istəyini qəbul etmir. Çünki o ancaq fransız dilində danışa bilir, almanca isə bir söz də anlamırdı. Lakin yüzbaşı dəliqanlı gəncin yalvarışları qarşısında çox dayana bilməyib yumşaldı, onun komandir olmaq istəyini qəbul etmək məcburiyyətində qaldı.

Bunları da demək yadından çıxmadı:

- Bax bizim kral orduya yalnız almanca bilənlərin əsgər olaraq alınmağını istəyir. Yoxlama vaxtı əsgərliyə təzə gələnlərə də üç sual verir. Birinci sual belədir: "Neçə yaşındasan?" Dərhal almanca cavab ver: "İyirmi dörd yaşındayam". İkinci sual bundan ibarətdir: "Neçə aydır ki, hərbi xidmətə çağırılmışsan?". Bu suala: "Üç", – deyə cavab verməlisən. Üçüncü sual isə belədir: "Maaşını da, yemək-içməyini də vaxtlı-vaxtında almağın doğrudurmu?". Bu suala da tez: "İkisi də doğrudur", – deyə cavab ver. Kral bu sualların üçünü də həmişə eyni ardıcıllıqla verir.

Yüzbaşı fikirləşdiyi kimi də olur. Kral ordunu *yoxlamağa* gələndə orduya təzə qəbul edilən həmin gəncin qarşısında dayanır. Ancaq işin tərsliyinə bir bax. Sualları həmişəki sıra ilə vermir:

- Neçə vaxtdır ki, hərbi xidmətə çağrılmısan?

Gənc adam alman dilində:

- İyirmi dörd il.

Kral çaşıb qalsa da, ikinci sualını verir:

- Neçə yaşındasan?
- Üç.

Bu cavaba tamam məəttəl qalan kral deyir:

- Mənə elə gəlir ki, ya sən, ya da mən dəliyəm.

Gənc əsgər gecikmədən cavab verir:

- İkisi də doğrudur...

Kral hiddətindən az qala (cin atına minəcəkdi.) Titrəyə-titrəyə yaxınlaşan yüzbaşı olanları açıq-aydın bir dillə krala başa salır.

Kral gülə-gülə:

- Heç narahat olmayın. Fransızın günahı yoxdur. Qəbahət məndədir ki, sualları sıra ilə vermədim.

*(Riza Akdemir. "Uşaq hekayələri", Ankara: 2003)*

**11. Mətndə işlənmiş məcazi mənalı ilk ifadəni müəyyənləşdirib şərh edin.**

A) dəliqanlı → əsəbi, psixoloji xəstə
B) hərbi xidmətə yazılmaq → hərbi xidmətə getmək, orduya çağırılmaq
C) yadından çıxmadı → unutmadı, yadında qaldı
D) cavan oğlan → yeniyetmə, gənc
E) həmin gənc → haqqında danışılan oğlan

**12. Yüzbaşının ilk nitqinin yığcam məzmununu əhatə edən ifadə:**

A) əsgərliyə qəbul olunanlara kralın verdiyi suallarla tanışlıq
B) kralın suallarının cavablandırılması
C) gənc oğlanın yalvarışları
D) dəliqanlının suallarına cavab verilməsi
E) dəliqanlı gəncin suallara cavab verməsi

**13. Hansı sualı mətn əsasında cavablandırmaq mümkün *deyil*?**

1. Kim xasiyyətcə sərt adam deyil?
2. Hadisələr neçənci əsrdə baş verir?
3. Kral hərbi hissəyə hansı məqsədlə gəlir?
4. Neçə millətin nümayəndəsi təmsil olunur?
5. Fransız hansı şəhərdə doğulub?

A) 3,4  B) 1,2  C) 1,3,5  D) 2,4,5  E) 2,5

**14. Çərçivə daxilində verilmiş hissəyə düzəliş etmək üçün "*Həmin hissənin tərkibindən ..... ifadəsi çıxarılmalı, ..... sözü isə "əsgər" sözü ilə əvəz olunmalıdır*" cümləsində nöqtələrin yerinə ardıcıl olaraq uyğun fikirləri müəyyən edin.**

A) fransız dilində, yüzbaşı
B) yüzbaşı, komandir
C) çox dayana bilməyib, qəbul eləmək
D) qırx yaşlı, komandir
E) qırx yaşlı, yüzbaşı

**15. Mötərizə daxilində verilmiş ifadənin şərhinə uyğun fikirlərdir:**

1. Həqiqi mənalıdır.
2. "Əsəbiləşmək" mənasını bildirir.
3. Məcazi mənalıdır.
4. "Çıxıb getmək" mənasını bildirir.
5."Atını sürüb getmək" mənasındadır.

A) 1,2  B) 2,3  C) 3,5  D) 1,4  E) 3,4

**16. Mətndə baş verənlərin düzgün ardıcıllığını müəyyən edib uyğun xanalarda qeyd edin.**

a. kralın çaşması
b. dəliqanlı gəncin xarici görkəminin təsviri
c. ordunun yoxlanılmağa başlanması
d. kralın gülməsi

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | | | |

17. Üzərində ▲ işarəsi qoyulmuş sözün kontekstə uyğun mənasını ifadə edən nümunə yazın.

18. Hansı sözlə başlayan cümlə intonasiya baxımından digərlərindən kəskin surətdə fərqlənir? Əsaslandırıb yazın.

19. "*Ordu dövlətin yenilməz gücüdür*" mülahizəsini Azərbaycan Respublikasının bu günü ilə əlaqələndirməklə fikrinizi yazın.

20. "*Ordumuz Ali baş komandanın diqqət mərkəzində*" mövzusunda esse yazın.

# C variantı

## Cazibə

Yer nəyin üstündə durur? Bir zamanlar bu suala müxtəlif cavablar verilirdi: “Üç filin üstündə”, “Böyük sütunların üstündə”, “Sadəcə olaraq, okeanda üzür”.

Əsrlər keçdi və insanlar inandılar ki, Yer heç nəyin üstündə durmayan, heç bir dayağı olmadan fəzada asılmış bir kürədir. Sonralar aydın oldu ki, bu ____________ o qədər də inandırıcı deyildir. Əvvəla, Yer asılmamışdır, Günəşin ətrafında hərəkət edir, özü də böyük sürətlə, ikincisi, onu nəsə tutub saxlayır, hər halda, o nə Günəşdən uzaqlaşa bilir, nə də ona yaxınlaşır. Nə üçün?

\+ Bunu ................ böyük ingilis ................. Nyuton başa düşdü. Məlumdur ki, Yer bütün cisimləri özünə tərəf çəkir, onlar da öz ağırlığının təsiri altında Yerə düşməyə çalışır. Yaxşı bəs onda məsələn Ay nə üçün düşmür Sən demə, bunun səbəbi Ayın hərəkət etməsində imiş. Əgər Ay qəflətən yerində donub qalsa, çoxdan Yerin üstünə düşərdi.

Kəndirə bağlanmış daşı başının üzərində fırlat. O, mərkəzi sənin əlin olan bir **dairə** cızacaq. Əlini saxla, daş düşəcək. Kəndir qırılsa, daş düz xətt üzrə kənara uçacaq. ▲ Əgər Ay Yerə “bağlanmasaydı”, çoxdan bizdən uzaqlaşardı. Ancaq onu kəndir əvəzinə, Yerin cazibəsi saxlayır. Yer də, öz növbəsində, bütün planetləri özünə çəkən Günəşə “bağlanmışdır”.

Məlum olmuşdur ki, ümumiyyətlə, kainatda bütün cisimlər bir-birini cəzb edir, məsələn, Yer Ayı, Ay isə Yeri çəkir. Ayın cazibəsi Yerdə qabarmalar və çəkilmələr yaradır. Günəş Ayı, planetləri, onların hamısı isə Günəşi cəzb edir. İki cisim bir-birinə yaxın olduqca biri digərini daha artıq qüvvə ilə çəkir. Kütləsi az olan səma cismi kütləsi çox olan səma cisminə doğru hərəkət edir. Onların hamısı bir qanuna – Nyutonun kəşf etmiş olduğu ümumdünya cazibə qanununa tabedir.

Cazibə böyük qüvvədir. Lakin onun da öhdəsindən gəlmək olar. Bunun üçün yalnız reaktiv mühərriklərin köməyi ilə kosmik sürət əldə etmək lazımdır. Buna ilk dəfə 1957-ci il oktyabrın 4-də Yerin süni peyki buraxılmaqla nail olundu.

*(“Nədir? Kimdir?” “Gənclik” nəşriyyatı, Bakı: 1976)*

**1. Birinci abzasdakı sualın o cür cavablandırılması, əslində, nə ilə bağlı idi?**

A) əsl həqiqətlə
B) davranış qaydaları ilə
C) elmi naticə ilə
D) insanların dünyagörüşü ilə
E) iqtisadi inkişafla

**2. Qarşısında üstəgəl işarəsi qoyulmuş abzasda "*Yaxşı*" sözü ilə başlanan cümləni düzgün intonasiya ilə oxumaq üçün hansı sözlərdən sonra durğu işarələrindən istifadə etmək lazımdır?**

1. Yaxşı 2. Ay
3. məsələn 4. onda
5. nə üçün 6. düşmür

A) 1,2,3,4 B) 1,3,4,6 C) 2,3,4,5 D) 3,4,5,6 E) 2,4,5,6

**3. İkinci abzasın 2-ci və 3-cü cümlələrini oxuyun və çərçivənin yerinə ən uyğun ifadəni müəyyən edin.**

A) fakt B) ifadə C) fikir
D) müraciət E) sual

**4. Mətndə ifadə olunan fikirləri hansı cümlə ilə ümumiləşdirmək olar?**

A) Nyuton olmasaydı, Yerin süni peyki olmazdı.
B) Günəş ən parlaq elementdir.
C) Yer və Ay da bir-birinə bağlıdır.
D) Nəhayət, insanlar Yerin kürə şəklində olduğuna inandılar.
E) Kainatda olan varlıqlar bir-birinə cazibə qüvvəsi ilə bağlanır.

**5. Qarşısında ▲ qoyulmuş cümlənin birinci tərkib hissəsinin məzmununa uyğun ifadə hansıdır?**

A) Ay Yerdən yüksəkdə olmasa idi.
B) Ay Yer tərəfindən cəzb edilməsə idi.
C) Yer Ay tərəfindən cəzb olunsa idi.
D) Əgər Ayla Yeri kəndirlə bir-birinə bağlasalar.
E) Kəndirin qırılması Ayı Yerə bağlayır.

**6. "*Bu da böyük fəlakətə səbəb olar, insan həyatı təhlükə qarşısında qalardı*" cümləsini hansı sözlə başlayan abzasın sonuna artırmaq olar?**

A) Bunu
B) Cazibə
C) Yer
D) Məlum olmuşdur
E) Kəndirə

**7. Üçüncü abzasda nöqtələrin yerinə hansı ifadələri ardıcıl yazmaqla cümləni tamamlamaq olar?**

1. alimi 2. ilk dəfə 3. şairi 4.sonra 5. son dəfə

A) 1,3 B) 5,3 C) 4,5 D) 2,1 E) 4,2

**8. Dördüncü abzasda dırnaqda yazılan sözlə bağlı doğru fikri müəyyən edin.**

A) "Düyün düşmək" mənasındadır.
B) "Kilidlənmişdir" mənasına daha uyğundur.
C) Məcazi mənada işlənmişdir.
D) "Fəaliyyəti dayandırılmışdır" anlamındadır.
E) Yerinə görə həqiqi mənadadır.

**9. Tərkibində fərqləndirilmiş ifadə olan hansı nümunə ikinci abzasda altından dalğalı xətt çəkilmiş sözün şərhinə uyğundur?**

A) Məktəbimizin ***dörd tərəfində*** müxtəlif ağaclar əkilmişdi.
B) Evimizin ***yanında*** böyük bir daş var idi.
C) ***Ətraf küçələrdə*** də abadlıq işləri aparılırdı.
D) ***Arxa tərəfdə*** oturanlar da oyunu diqqətlə izləyə bilirdilər.
E) O, gözlüyünü çıxarıb Aya ***tərəf*** baxdı.

**10. Qarşısında + işarəsi qoyulmuş abzasda altından xətt çəkilmiş ifadənin işlənmə məqamı ilə bağlı doğru fikirdir:**

1. Məcazi mənadadır.
2. Həqiqi mənadadır.
3. "Şaxtaya dözümlü deyil" deməkdir.
4. "Hərəkətsiz vəziyyətdə olmaq" mənasını ifadə edir.
5. "Təəccüblənmək" mənasındadır.

A) 2,3 B) 4,5 C) 1,3 D) 2,5 E) 1, 4

**11. *"Kəndirə"* sözü ilə başlayan abzasda durğu işarələrindən istifadə qaydaları pozulmuşdur. Özündən sonra pauza tələb edən sözləri, tələb olunan durğu işarələrini və səbəbini müəyyən edib cədvələ yazın.**

| Söz | Durğu işarəsi | Səbəbi |
|---|---|---|
| | | |

12. Mətnə görə cazibənin təsiri ilə cisimlər hansı cismə tərəf hərəkət edər? Əsaslandırıb yazın.

13. Mətndə olmayan təbiət hadisələri barədə məlumat yazın.

14. Dördüncü abzasda tünd-qara rəngdə yazılmış sözün mətndəki yerinə görə ifadə etdiyi mənanı şərh edin.

15. Mətnə görə kainatın varlığı hansı təbiət hadisəsinə bağlıdır?

16. Hər hansı 3 abzasın məzmunu, oradakı faktlarla bağlı üç sual tərtib edib yazın.

1

2

3

**17. Mətndəki məlumatlardan (cümlələri olduğu kimi köçürməklə yox) istifadə etməklə "*Təbiətin də öz qanunauyğunluqları var*" mövzusunda esse yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**18. Fizika, Həyat bilgisi fənlərindən əldə etdiyiniz bilik və bacarıqlarınıza istinad etməklə Ayın təbii, kosmik raketin süni peyk olduğunu əsaslandırın.**

Ay → ______________________________________

______________________________________

Kosmik raket → ______________________________

______________________________________

**19. Mətndə ifadə olunan məlumatları nəyin nəticəsi hesab etmək olar?**

______________________________________________

______________________________________________

**20. Mətnə əsaslanmaqla "*Niyə Günəş bütün planetləri özünə çəkir?*" sualına bir cümlə ilə cavab yazın.**

______________________________________________

______________________________________________

# D variantı

## Ağıllı qoca

***(ixtisarla)***

**I** Şah bilirdi ki, dünyada bütün insanlar: dövlətli də, kasıb da özünü hamıdan *müdrik*[1] hesab edir.

**II** Bir gün şah hamını yanına çağırtdırıb dedi:

- Mən sizə üç sual verəcəyəm. Kim *düz*[2] cavab versə, üzüyüm ona çatacaq. Birinci sualım belədir:
- Dünyada hər şeydən xeyirli nədir?

Tamahkar adamlar dedilər:
- Qızıl hər şeydən xeyirlidir.

Tacirlər dedilər:
- Alver, qazanc hər şeydən xeyirlidir.

**III** Qədim zamanlarda bir hörmətli həkim var imiş. O, ömrünün sona çatdığını hiss etdikdə padşaha belə bir xəbər göndərir: "Mənim bir sehrli üzüyüm var. Məndən sonra onu ən ağıllı adama verərsiniz."

**IV** Şah bu cavabların heç biri ilə razılaşmır. Orada bir qoca durmuşdu. O, şahın sualına belə cavab verdi:

- Hər şeydən xeyirli *hünərdir*[3]. İnsan hünəriz heç nəyə nail olmaz.

Şah bu cavabla razılaşıb dedi.
- Bəs dünyada hər şeydən yaxşı nədir?

Sarayın hər tərəfindən səslər ucaldı:
- ☐ Şahın varlığı...

Şadlıq, firavanlıq...

Qoca isə dedi:
- Hər şeydən yaxşı *yaxşılıq*[4] özüdür. Çünki insanda yaxşı sifət olsa, dost da, düşmən də onu tərifləyər.

Şah dedi:
- İnsana ən çox lazım olan nədir?

Yenə də yerbəyerdən cürbəcür cavablar eşidildi. Şah isə qocaya diqqət yetirirdi. Qoca dedi:
- *Həqiqət*[5] ən lazımlı şeydir. Dünya həqiqətlə dolanır. Həqiqət olmasa, intizam, qayda olmaz.

**V** Şah qalxıb düz camaatın gözü qarşısında qocaya öz razılığını bildirdi. Üzüyü ona verib sarayda qalmasını, öz məsləhətləri ilə ölkəni idarə etməyə kömək göstərməsini xahiş etdi.

*(Abbasqulu ağa Bakıxanov. "Ana sözü", "Çaşıoğlu" nəşriyyatı, Bakı: 2004)*

**1. Roma rəqəmi ilə qeyd olunmuş hansı abzas mətnin hissələri arasındakı ardıcıllığa uyğun gəlmir?**

A) IV B) III C) II D) I E) IV

**2. Aşağıdakı şərhlər üzərində rəqəm yazılmış hansı sözlə bağlıdır?**

? → Həqiqi mənadadır.
? → Yerinə görə "Doğru", "Dürüst", "Gerçək" mənasında işlənib.
? → Yanlış olmayan fikir bildirənlər hörmət sahibi olarlar.

A) 5 B) 1 C) 2 D) 3 E) 4

**3. Suallardan mətnin məzmunu ilə bağlı olanları müəyyən edin.**

1. Dialoq neçə abzasdan ibarətdir?
2. Şahın məqsədi nədir?
3. Niyə bəzi cümlələrin əvvəlində işarə qoyulub?
4. Mətnin tərkib hissələrinin hər biri neçə cümlədən ibarətdir?
5. Şahın şərti nədən ibarət idi?
6. Hansı insanlar tərifə layiq olurlar?

A) 1,3,4 B) 2,4,6 C) 1,3,5 D) 2,5,6 E) 2,3,6

**4. Mətnə əsasən, hansı obraz nitqində daha ötkəm mövqe nümayiş etdirə bilər? Səbəbi.**

| | Obraz | Səbəb |
|---|---|---|
| A) | vergi toplayan | nəfskarlıq |
| B) | tacir | zənginlik |
| C) | tamahkar adamlar | hərislik |
| D) | qoca | ahıllıq |
| E) | şah | səlahiyyətlik |

**5. Qarşısında ☐ qoyulmuş cümləni hansı ifadə ilə genişləndirmək olar?**

A) başımızın tacıdır. B) dünyada hər şeydən yaxşıdır.
C) hər şeydən xeyirlidir. D) yaxşılığın özüdür.
E) olmasa, intizam olmaz.

**6. Altından xətt çəkilmiş sözün mətndəki yerinə uyğun mənasını şərh edin.**

____________________________________________

____________________________________________

**7. Çərçivə daxilində verilmiş hissədə danışan insanların həyata baxışını ümumiləşdirən ifadəni müəyyən edin və özünüz də eyni məzmunda yığcam fikir yazın.**

☐ Hərə öz kəndindən xəbər verir. ☐ Ağıl ağıldan üstün olar.

☐ Qazanda nə bişdiyini bilmir, deyir ki, bir çömçə də mənə verin.

**8. Piramidanın mərtəbələrini tamamlayın.**




**9. Cədvəli tamamlayın.**

Mətndə

təbliğ olunur:

tənqid olunur:

**10.** ***"Çörəyi ver çörəkçiyə, birini də üstəlik"*** **atalar sözündən istifadə etməklə şahın hərəkətlərinin doğruluğunu əsaslandırın.**

______________________________________________________________________________

______________________________________________________________________________

## Toxuculuq

**I** Pərdələr və müxtəlif örtüklər, köynəklər və xalçalar, dəsmallar və kostyumlar – bütün bunlar və çox miqdarda digər lazımlı şeylər toxuculuq adlandırılan prosesdə əldə olunur. Toxuculuq bir-biri ilə düzbucaq altında yerləşdirilən sapların çarpaz şəkildə toxunmasına əsaslanır.

**II** İnsanlar hələ <u>daş dövründə</u> geyim hazırlamağı öyrənmişdilər. Bizim günlərə qədər gəlib çatmış ən qədim parça 8000 il əvvəl müasir Türkiyənin ərazisində toxunmuşdur. O zaman insanlar artıq kətan liflərdən (parça) toxuyurdular. Bizim eradan əvvəl, təqribən 2000-ci ildə **Çində** ipəkçilik yarandı. Qonşu **Hindistanda** pambıqdan parça toxuyurdular. **Asiya** səhralarının və dağlarının köçəri xalqları yundan sap əyirməyi və parça toxumağı öyrəndilər.

**III** Orta əsrlərdə Avropa ilə Asiya arasında geniş ticarət əlaqəsi zamanı ipəkçiliyin xüsusi rolu olmuşdur. Qədim ipək yolu Qafqazdan, o cümlədən **Azərbaycandan** keçirdi. Həmin dövrlərdən Azərbaycanın bəzi ərazilərində ipəkçilik – baramasaxlama və ipək parça istehsalı yüksək inkişaf etmişdi.

**IV** XVIII əsrə qədər parçaları iyin və toxucu dəzgahın köməyi ilə toxuyurdular. Sonradan əyirici və toxucu dəzgahlar icad olundu. Bu dəzgahlar daha məhsuldar olduğu üçün tezliklə geyim nəinki daha gözəl, həm də daha ucuz oldu.

**V** Bizim günlərdə parçaların çoxu dünyanın bir çox ölkələrindəki toxuculuq fabriklərində quraşdırılmış və tam avtomatlaşdırılmış kombinatlarda istehsal olunur. İndi əl ilə ancaq bəzi yun və ipək parça növləri toxunur. Toxuculuq fabriklərinə gəldikdə isə bir toxucu işçi 20 avtomatlaşdırılmış toxucu dəzgahına eyni zamanda asanlıqla nəzarət edə bilir.

*(İşləyəni: S. İbrahimov)*

**11. Hansı suallar mətnin məzmunu ilə bağlı deyil? (ən dəqiq cavabı müəyyən edin)**

1. İnsanların geyim hazırlamağı hansı dövrlə bağlıdır?
2. İpəkçiliyin qitələrarası əlaqələrə təsiri hansı dövrdə daha güclü olmuşdur?
3. Toxuculuq dəzgahlarının istehsalı hansı şəhərin adı ilə daha çox bağlıdır?
4. Əyirici dəzgahlar nə vaxt yaranıb?
5. Toxuculuq fabrikində insanlar nəyə nəzarət edirlər?

A) 4,5  B) 1,2  C) 3,4  D) 1,3,4  E) 1,2,3

**12. Mətnə görə altından xətt çəkilmiş ifadənin şərhinə uyğun fikir hansıdır?**
A) müasir dövrdə mənzil tikintisində daş materiallarından istifadə mərhələsi
B) ibtidai icma quruluşu, daşdan müxtəlif alətlər hazırlandığı dövr
C) betondan istifadə edilməsi dövrü
D) daş karxanalarında üzlük daş istehsal edilməsi dövrü
E) tuncdan ən çox istifadə edilən dövr

**13. "*Qədim tarixi olan toxuculuğun insan həyatında əhəmiyyəti böyükdür*" fikrinin mətnlə bağlılığı hansı nümunədə daha dəqiq ifadə olunub?**
A) Bəşər tarixinin qədimliyini bildirir.
B) Toxuculuğun tarixini öyrənməyə marağı artırır.
C) Mətndə istifadə olunan fikirləri yığcam şəkildə əks etdirir.
D) Toxuculuğu insan həyatı üçün ən önəmli istehsal sahəsidir.
E) Dəzgahlar toxuculuğun əsasını təşkil edir.

**14. Hansı cümlə ilə mətni genişləndirmək *olmaz*?**
A) Göründüyü kimi, get-gedə insan əməyindən yox, insan zəkasından istifadəyə üstünlük verilir.
B) Bu da insanların xərclərinin azalmasına səbəb olur.
C) Fabrikin həyətindəki yaşıllıq təbiətə qayğının əlamətidir.
D) Yun parçaya maraq qoyunçuluğun inkişaf etdirilməsinə də təkan verdi.
E) Sapların bu şəkildə toxunmasından parça alınır.

**15. Mətnə görə bəzi köçəri xalqlar bacarırdılar:**
1. dəzgah düzəltməyi
2. yundan sap əyirməyi
3. toxuculuq məhsulları satmağı
4. ipək ticarətini
5. yun sapdan parça toxumağı

A) 1,2 B) 3,4 C) 1,3,5 D) 2,3,4 E) 2,5

**16. *Nənələr, toxunmaq, corab, iynə, yun əyirmək, ip* və s. müxtəlif çeşidli söz və ya söz birləşmələrindən də istifadə etməklə yığcam mətn tərtib edib yazın.**

_______________________________________________

_______________________________________________

**17. II abzasda mötərizə daxilində verilmiş sözə əsasən doğru fikri müəyyən edin və əsaslandırın.** (✓)

☐ Həqiqi mənalıdır
☐ Məcazi mənalıdır

Çünki ______________________________

**18.** ***"Mətndə Azərbaycanla da bağlı müəyyən məlumat təqdim edilir"*** **fikrinin doğruluğunu təsdiqləyən nümunələr yazın.**

1 → ______________________________

2 → ______________________________

3 → ______________________________

**19.** ***"Müasir dövrdə Azərbaycanda da ipəkçilik və toxuculuq inkişaf etmişdir"*** **fikrini həyatla əlaqələndirməklə faktlar əsasında bildiklərinizi yazın.**

______________________________

______________________________

**20.** ***"Orta əsrlərdə ölkələrarası əlaqələrin inkişafında ipəkçiliyin mühüm rolu olmuşdur"*** **fikrini mətnlə əlaqələndirərək əsaslandırın.**

______________________________

______________________________

______________________________

______________________________

# E variantı

## Xristofor Kolumbun yumurta oyunu

Böyük səyyah Xristofor Kolumb həyatının son illərini İspaniyada keçirirdi. Hara gedirdisə, xalq onu alqışlarla qarşılayırdı. Ancaq onun belə sevilməyini, belə şöhrətlənməyini gözü götürməyənlər, onu qısqananlar da vardı.

Bir gün kardinal Mendoza Xristofor Kolumbun şərəfinə kilsənin sarayında bir ziyafət məclisi təşkil edibmiş. Şəhərin bütün əyan-əşrəfi bu ziyafət məclisinə təşrif gətiribmiş. Kardinal məclisdə söylədiyi nitqində bu məşhur dəniz səyyahının adına təriflər yağdırır, onun göstərdiyi böyük xidmətlərdən **ağızdolusu** danışır. Bu qədər tərif dolu sözlərdən bir o qədər də xoşu gəlməyən bəzi zadəganlar kardinalın dediklərinə dodaq büzürlər. Bununla çatdırmaq istəyirlər ki, Amerikaya gedən yolu kəşf eləmək o dərəcə də çətin bir iş deyil.

Zadəganların belə hərəkətindən tutulan Xristofor Kolumb xidmətçilərə işarə edərək onlardan bir yumurta gətirmələrini xahiş edir.

Sonra yumurtanı əlinə götürüb məclisdəki qonaqlara üzünü çevirib soruşur:

– Sizlərdən kim elə eləyə bilər ki, bu yumurta bu masanın üstündə dikinə dayansın?

Məclisdə oturanlar bir-bir yerlərindən qalxıb yumurtanı masanın üstündə dikinə dayandırmağa çalışırlar. Ancaq bu heç kimin əlindən gəlmir.

Axırda Xristofor Kolumb yumurtanı özü götürür, onun yuvarlaq tərəfini yavaşca masaya vuraraq qırır. Yumurta masanın üstündə dikinə dayanıb qalır. Əlbəttə, qonaqlar bunu gördükdə:

▲– A-a-a... Bu ki çox asan bir iş imiş, bunu biz də bacarardıq! – deyə çığırışıb-bağırışırlar.

Xristofor Kolumb isə soyuqqanlılıqla və nəzakətlə:

– Yaxşı, elə isə bunu eləyə bilmək niyə daha əvvəl ağlınıza gəlmədi?

*(Riza Akdemir. "Uşaq hekayələri", Ankara: 2003)*

1. **İkinci abzasda çərçivə daxilində verilmiş ifadənin mətndəki yerinə görə mənasını müəyyən edin.**

A) sübut etmək B) yetirmək C) yetişdirmək
D) bəyənməmək E) aparmaq

2. **Kolumbun kəşfini düzgün dəyərləndirməyənləri, əslində, kim ifşa edir?**

1.kardinal
2. Kolumb
3. saray qulluqçuları
4. yumurtanı masanın üstündə dikinə saxlamağı bacarmayanlar

A) yalnız 1 B) yalnız 2 C) 3,4 D) 2,4 E) 1,4

**3. Kolumba olan münasibətlə bağlı sualı müəyyən edin.**

A) Məclisdəki insanların yumurtaya münasibəti nəyi ifadə edir?
B) Kardinal xaraktercə necə adamdır?
C) Kolumbun kəşfi nə ilə bağlı olub?
D) Məclisdəkilərin əksəriyyəti nəyi bacarmadılar?
E) Kimə olan münasibətdə məclisdəkilərin mövqeyi müxtəlif idi?

**4. "*İşə qiymət verəndir, tədbir təşkilatçısıdır*" fikirləri mətndəkilərdən kimə aiddir?**

A) kardinala
B) Kolumba
C) zadəganlara
D) saray xidmətçilərinə
E) məclis iştirakçılarının hamısına

**5. Tünd rənglə yazılmış sözün mənasını kontekstə uyğun dəqiqləşdirin.**

A) doyunca
B) tam
C) çox
D) ürəkdən
E) ucadan

**6. Qarşısında ▲ işarəsi qoyulmuş hissədəki ifadə tərzi nə ilə bağlıdır?**

| | |
|---|---|
| 1.etirazla | A) 1,5 |
| 2.sevinclə | B) 2,3 |
| 3.təəssüflə | C) 4,5 |
| 4.təəccüblə | D) 3,4 |
| 5.kədərlə | E) 1,2 |

**7. Mətnə əsasən müəyyən edin.**

1. Kolumb bədbin insandır.
2. Hadisələr Amerikada baş verir.
3. İnsanların eyni varlığa münasibəti müxtəlifdir.
4. Saray məclislərində də çox adam iştirak edə bilər.
5. Kolumb da zadəgandır.

• doğru

• yanlış

A) B) C) D) E)



**8. Mətnin ilk sözünün şərhi ilə bağlı doğru fikri müəyyən edin.**

A) → Məcazi → tanınmış, məşhur

B) → Məcazi → çox yerdə olan

C) → Həqiqi → boyca iri, gövdəli

D) → Həqiqi → ağırçəkili, dolu bədənli

E) → Məcazi → rütbəsi olan

**9. Mətnə əsasən Venn diaqramındakı yanlışlıqları müəyyən edin.**




A) 2,5 B) 3,4 C) 1,5 D) 2,3 E) 1,4

**10. Çərçivə daxilindəki abzasın son ifadəsini və onun mənasını yerinə görə şərh edib yazın. (✓)**

☐ Həqiqi mənadadır. ______________________________

☐ Məcazi mənadadır. ______________________________

**11. Mendozanın vəzifəsinin adını bildirən sözün kontekstə uyğun mənasını dəqiqləşdirib yazın:**

______________ → ______________________________

______________________________________________

**12. Altından xətt çəkilmiş cümlədə ifadə olunan fikrin doğru və ya yanlış olduğunu həyati faktlarla əsaslandırın.**

______________________________________________

______________________________________________

______________________________________________

**13. Sonrakı tərkib hissələri ilə əlaqəni gözləməklə mətnin giriş hissəsinin əvvəlinə uyğun gələn 2-3 cümlə yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**14. Kolumbla münasibətdə zadəganlar özlərinin hansı hisslərini gizlədə bilmirlər? Bir sözlə ifadə edin və əsaslandırın.**

________________ → Çünki ______________________________

________________________________________________

**15. Mətndən tanış olduğunuz hadisələrin sizə nə öyrətdiyini nöqtələrin yerinə yazın.**

1. Kolumbun yumurta ilə bağlı hərəkəti . . . ______________________________

2. Zadəganların hərəkətləri . . . ____________________________________

3. Kardinalın mövqeyi . . . ________________________________________

**17. Yüksək ton tələb edən və daha fərqli emosiya yaradan cümlənin ilk ifadəsinin qrammatik mənasını müəyyən edin.**

________________________________________________

**18. Mətnin sonuncu cümləsinə zadəganların dilindən cavab verin.**

________________________________________________

________________________________________________

________________________________________________

________________________________________________

**19.**

Mətndə

təbliğ olunur:

tənqid olunur:

**20.** ***“Bütün nemətlərin başlanğıcı və sonu ağıldır”*** **(Epikür) mövzusunda mühakimə xarakterli mətn yazın.**

Tədris vahidi: **3**

## Tabeli mürəkkəb cümlə, tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr

Bölmə: **MƏNƏVİYYAT VƏ CƏMİYYƏT**

Alt standartlar:

| | |
|---|---|
| **1.1.1** | Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. |
| **1.1.2** | Dinlədiyi fikirlərə münasibət bildirir. |
| **1.2.1** | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| **1.2.2** | Müxtəlif tipli rabitəli nitq nümunələri qurur. |
| **1.2.3** | Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (pauza, jest, mimika) uzlaşdırır. |
| **1.2.4** | Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. |
| **2.1.1** | Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir. |
| **2.1.2** | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir. |
| **2.2.1** | Mətni düzgün intonasiya ilə oxuyur. |
| **2.2.3** | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. |
| **3.1.1** | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |
| **3.1.2** | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |
| **3.1.3** | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |

## A variantı

### Məni itirməyin
### (ixtisarla)

Göy şaqqıldadı, şimşək çaxdı, sellər-sular oynadı. Dağ çayları köpüklənib yatağından çıxdı. Aşağılarda – insan məskənlərində haray qopdu. Hamı bildi ki, fəlakət var, göylərdən bəla gəlir. Dikdirə qalxanlar gördülər ki, bir anda hər yeri su basdı. Göy yenidən şaqqıldadı. Elə bil səma ortadan buz kimi çatlayıb qırıldı və əyri-üyrü yarıqların arasından gözqamaşdıran od püskürdü...

Elə bu vaxt göy gurultusundan da dəhşətli, zəhmli, amiranə bir səs eşidildi:

- Dayanın

Hər şey diksinib dayandı. Sel də, su da, od-alov da bir anlığa sakitləşdi.

-Sən kimsən?

-Mən vicdanam!

Bu səs əks-səda verdi: "Vicdan, vicdan". Bu sözlər <u>müdrik</u> qocaları <u>toxtatdı</u>. Od alovlandı. Çartıldayıb, şaqqıldayıb qəhqəhə çəkdi:

-Yoxsa bizə düz yol göstərmək istəyirsən, ey vicdan?

Bəli, sən dünyaya yandırıb-yaxmağa, sən isə, ey su, uçurub dağıtmağa gəlməyibsən. Bilin və yadınızda saxlayın: dünyaya gələn yaratmalı, yaradanlara kömək etməlidir.

Su vicdana qulaq asdı, öz yatağına yığışdı. Od da hərəkətə gəldi. Azacıq sonra daxmaların bacalarından tüstü qalxdı, həyətdəki ocaqlar çartıldadı. İnsanlar məskənlərinə qayıtdılar.

O gündən od, su və vicdan yoldaş oldular. Susuz səhralara su verdilər, şaxtalı, boranlı diyarlara istilik gətirdilər. Ayrılmaq vaxtı idi. Vicdan əlini dostlarının çiyninə qoyub dedi:

- İşdir, birdən bir-birimizi itirsək, necə tapışacağıq?

Su gülə-gülə dilləndi:

-Harda çəmənlik, yaşıllıq görsəniz, məni orda axtarın.

-Harda ocaq, bacalardan burulub çıxan tüstü görsəniz, bilin ki, ordayam, - od dedi.

-Bəs səni itirsək, necə tapaq, ay vicdan?

Vicdan köksünü ötürüb üfüqlərə baxdı və titrək səslə dilləndi:

-Amanın bir günüdür, məni itirməyin, itirsəniz, tapa bilməzsiniz.

*(İ.Şıxlı. "Məni itirməyin", "Gənclik" nəşriyyatı. Bakı: 1984)*

**1. Mətndə altından xətt çəkilmiş sözlərdən biri kontekstə uyğun mənada *işlənməmişdir:***

A) müdrik → *Müdrik* insan kəlamından bəllidir.

B) dikdir → O, *dikdirə* çıxıb uşaqları səslədi.

C) toxtamaq → Uşaq anasını görcək *toxtadı.*

D) püskürmək → Ərazidə tez-tez vulkan *püskürürdü.*

E) yataq → Dənizdə yeni neft *yatağı* aşkarlandı.

**2. Cümlələrdən biri ilə 1-ci abzası genişləndirmək *olmaz:***

A) Əllər göylərə uzanıb imdad dilədi.
B) Düzənliklərə qatı qaranlıq çökdü.
C) Uğultu get-gedə azalmağa başladı.
C) Meşələrdəki alov ərşə dirəndi.
D) Ey yeri-göyü yaradan, özün kömək ol!

**3. Doğru və *yanlış* cavabları müəyyənləşdirin.**

1. İnsanlar fəlakətlə üz-üzə qaldılar.
2. Sel suları evləri yuyub apardı.
3. Adamlar günah işlətmişdilər.
4. Hamı bəlanın qurbanı oldu.
5. Rahat həyat vicdan olan yerdədir.

- doğru
- yanlış




**4. Mətni düzgün intonasiya ilə oxumaq üçün çərçivə daxilində verilmiş cümlənin sonunda hansı durğu işarəsi yazılmalıdır?**

A) qoşa nöqtə B) nöqtəli vergül C) üç nöqtə
D) nida E) sual işarəsi

**5. Hansı sual mətnin əsas hissəsi ilə bağlı *deyil?***

A) Qocalar nə üçün sakitləşdilər?
B) Dünyaya gələnin vəzifəsi nədir?
C) İnsanlar nə üçün evlərinə qayıtdılar?
D) Üç dost birləşib hansı işləri gördü?
E) Vicdan israrla nəyi tapşırdı?

**6. Birinci cümlədə altından dalğalı xətt çəkilmiş sözün həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin və mətndəki yerinə görə izahını qarşısında yazın. (✓)**

☐ Həqiqi mənadadır ________________________________

☐ Məcazi mənadadır ________________________________

7. *"Dostlarımı itirsəm, kədərlənmərəm, təki vicdanım məni tərk etməsin"* (A. Linkoln) deyimini mətnlə əlaqələndirib fikrinizi yazın.

________________________________

________________________________

**8. Mətnin sonuna iki cümlə əlavə etməklə nəticə hissəsini genişləndirin.**

________________________________

________________________________

**9. Mətnə əsasən klasteri tamamlayın.**

Vicdan
- yol göstərəndir.
- insansevərdir.
- ________________
- ________________

**10.** ***"Vicdan susanda nələr olar?"*** **mövzusunda verilən həcmdə mətn yazın.**

________________________________

________________________________

________________________________

________________________________

# B variantı

## Nərimanov və Atatürk

Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov 23 mart 1921-ci il tarixdə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə yazdığı məktubunda böyük səmimiyyətlə etiraf edirdi: "Paşam, 1918-ci ildə siz bizi mütləq bir ölümdən qurtardınız!"

Qurtuluş savaşından zəfərlə çıxan Türkiyə ağır maliyyə böhranı keçirirdi. Atatürk 3 may 1920-ci ildə Şərq ordusu komandiri general Kazım Qarabəkirə göndərdiyi məktubda ürək kövrəldən ərklə, qardaşlıq duyğusu ilə yazırdı: "Dövlətin pulu qalmadı. İndiki halda heç bir yerdən kömək istəməyə ümid də yoxdur. Başqa çıxış yolu tapana qədər Azərbaycan hökumətindən borc almağınızı rica edirəm".

Kazım Qarabəkir Atatürkün xahişini Nəriman Nərimanova çatdırır. N.Nərimanov 19 avqust 1920-ci ildə Atatürkə cavab məktubu göndərərək belə yazır: "Sizin istəklərinizə çatmağınız üçün bütün gücümüzlə yanınızda olacağıq. Siz məğlub olduğunuz təqdirdə nə sizin üçün, nə də bütün Şərq xalqları üçün qurtuluş yolu qalmayacaq. Cənab general, bizim türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacağıq".

Çox keçmir ki, Azərbaycan hökuməti 500 kiloqram qızılı Türkiyəyə göndərir. Qardaş köməyi bununla bitmir. Nərimanov Rusiyadan aldığı 10 milyon qızıl rublu da Türkiyəyə ünvanlayır. Sonra isə Türkiyənin müraciətini gözləmədən hədiyyə kimi əvvəlcə 30, ardınca 62 sistern neft göndərir.

Atatürk Azərbaycanın Türkiyə üçün önəmini çox yüksək dəyərləndirərək Bakıya bir səfir göndərir. Diplomat olmaqla yanaşı, bir yazıçı olan səfir Mehmet Şövkət Esendal N.Nərimanovla və o dövrün önəmli şəxsiyyətləri ilə görüşür. Hətta H.Zeynalabdin Tağıyevin xanımını da ziyarət edir.

Türkiyədə səfirlik binasını Atatürk açır və öz əlləri ilə Azərbaycan bayrağını yüksəldir. Bu, ilk rəsmi diplomatik əlaqələrin qurulması demək idi.

*(A.Şəmsəddinov. "Qurtuluş savaşı illərində Türkiyə – Sovetlər Birliyi əlaqələri" məqaləsi əsasında işləyəni N.Abdulov)*

**1. Mətndəki əsas fikri ifadə edən cümlə:**

A) Dostun atdığı daş baş yarmaz.
B) Varını verən utanmaz.
C) Yaman günün ömrü az olar.
D) Dost dar gündə tanınar.
E) Dünyanın malı dünyada qalacaq.

**2. Hansı nümunə çərçivə daxilində verilmiş ifadənin kontekstə uyğun mənasının şərhi ilə bağlıdır?**

A) həyata keçirmək, yerinə yetirmək
B) yönəltmək, istiqamətləndirmək
C) aid etmək, daxil etmək
D) sıxıntı çəkmək, yaşamaq
E) ötürmək, sovuşdurmaq

2. **Mətnə əsasən Venn diaqramındakı *yanlışlığı* müəyyən edin.**




A) 2,4 B) 1, 4 C) 1, 6 D) 3, 5 E) 2, 6

**4. Hansı cümlə ilə 1-ci abzası genişləndirmək olar?**

A) Türkiyənin düşməni bizim də düşmənimizdir.
B) Düşmənə qarşı savaşda biz daha sıx birləşməliyik.
C) Vətənimiz tarixən min bir bəlalar çəkmişdir.
D) İstiqlal savaşı hər bir türkün qürur mənbəyidir.
E) Azərbaycan azğın düşmənlərin caynağından xilas oldu.

**5. Altından xətt çəkilmiş cümlə hansı nümunə ilə əvəzlənsə, 2-ci abzasdakı cümlələr arasındakı əlaqə *pozular*?**

A) Əlimizdə beş para olmadığı zati-alinizə bəllidir.
B) Daxildə maddi təminat mənbəyimiz yoxdur.
C) Orduda könüllü azərbaycanlıların olduğunu bilirsiniz.
D) Mövcud ehtiyatlarımız da artıq tükənmək üzrədir.
E) Özümüzü təmin edənədək köməyə ehtiyacımız var.

**6. Mətnin əsas hissəsi ilə bağlı üç sual tərtib edib yazın.**

1. ______________________________

2. ______________________________

3. ______________________________

**7. Üçüncü abzasda altından dalğalı xətt çəkilmiş ifadənin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin və mətndəki yerinə görə izahını qarşısında yazın. (✓)**

☐ Həqiqi mənadadır ______________

☐ Məcazi mənadadır ______________________________

**8. B.Vahabzadənin *"Tənha bir məzar"* şeirində ifadə olunan fikri mətnlə əlaqələndirib yazın.**

*Yolun kənarında tənha bir məzar...*
*Ey yolçu, maşını əylə bu yerdə,*
*Soruş, kimdir yatan tənha qəbirdə?*
*O bir türk zabiti qəhrəman, mətin,*
*Doğma qardaşına yardıma gəldi...*

______________________________

______________________________

**9. Mətnin sonuna iki cümlə əlavə etməklə nəticə hissəsini genişləndirib yazın.**

______________________________

______________________________

**10. *"Bir millətik, iki dövlət, Azərbaycan-Türkiyə"* (B.Vahabzadə) mövzusunda verilən həcmdə mətn yazın.**

______________________________

______________________________

______________________________

______________________________

# C variantı

## Hər şey inamdan başlayır

Müharibənin ən qızğın vaxtı idi. Yapon general ordusu düşmən ordusundan sayca az olsa da, hücuma keçməyi qərara almışdı. Üstəlik, o bu döyüşdə qalib gələcəyinə də inanırdı. Ancaq nə yazıq ki, əsgərləri hələ də bu qələbəyə şübhə ilə baxırdılar. General isə əsgərlərini bu şübhədən necə xilas edəcəyini düşünürdü.

Artıq döyüş meydanına doğru üz tutmuşdular. Bir qədər getdikdən sonra yolda fasilə verdilər. Bu zaman general cibindən bir metal pul çıxardı və əsgərlərinə dedi:

- İndi mən bu pulu havaya atacağam. Əgər pulun yazılı üzü düşsə, deməli, qalib gələcəyik, buna görə də yolumuza davam edəcəyik, yox, əgər şəkilli üzü düşsə, deməli, məğlub olacağıq, buna görə də geri qayıdacağıq. Qəbul edirsinizmi?

Əsgərlər bir ağızdan bu təklifi qəbul etdilər. Bir qədər sonra general pulu havaya atdı və hamı həyəcanla bu "təcrübənin" nəticəsini gözləməyə başladı. Metal pul yerə düşdükdən sonra bir qədər fırlandı və nəhayət, dayandı. Yerə pulun yazılı üzü düşmüşdü. Əsgərlər bu həyəcanla bir-birinə sarıldılar. Bəli, artıq bu döyüşdə qalib gələcəklərinə heç kimin şübhəsi qalmamışdı.

Əsgərlər bu inamla da düşmənə hücum etdilər və sayca onlardan az olmalarına baxmayaraq, qalib gəldilər. Qələbədən sonra bir leytenant generalın yanına gəldi və sevinclə dedi:

- **Cənab general, sizi təbrik edirəm, "təcrübəniz" baş tutdu**
- Doğrudur, - deyə general təbəssümlə cavab verdi. Sonra da əlini cibinə salaraq leytenanta döyüşdən əvvəl havaya atdığı metal pulu göstərdi. Pulun hər iki tərəfində də şəkil yox, yazı var idi.

*(İşləyəni: N.Abdulov)*

**1. Cümlələrdən biri ilə 1-ci abzası genişləndirmək olmaz:**

A) Əsgərlərə özünəinam hissi aşılanmalı idi.
B) Öncə taktiki hazırlıq gücləndirilməli idi.
C) Onlar pessimist düşüncələrdən uzaqlaşmalı idilər.
D) İnamsızlıq hissinə qalib gəlməli idilər.
E) Ordu nəyə qadir olduğuna inanmalı idi.

**2. Mətndə altından düz xətt çəkilmiş sözlərdən biri kontekstə uyğun mənada *işlənməmişdir*:**

A) qızğın → İşin qızğın vaxtında material qurtardı.

B) meydan → Meydan mühasirəyə alınmışdı.

C) təbəssümlə → Ev sahibi bizi xoş təbəssümlə qarşıladı

D) sarılmaq → Hamı silaha sarılaraq vuruşurdu.

E) təcrübə → Təcrübə gözlənilən nəticəni vermədi.

**3. Doğru və *yanlış* cavabları müəyyənləşdirin.**

1. Müharibə yenicə başlamışdı. •
2. General hücum etməyə tərəddüd edirdi. •
3. Təcrübə öz bəhrəsini verdi. •
4. İnam qələbənin açarı oldu. •
5. Hücum uğursuz oldu. •

• doğru

• yanlış




**4. Mətni düzgün intonasiya ilə oxumaq üçün tünd-qara hərflərlə verilmiş cümlənin sonunda hansı durğu işarəsi yazılmalıdır?**

A) qoşa nöqtə
B) nöqtə
C) üç nöqtə
D) nida
E) sual işarəsi

**5. Hansı sual mətnin əsas hissəsi ilə bağlı *deyil?***

A) Qələbəni təmin edən nə idi?
B) Generalın şərti nədən ibarət idi?
C) Əsgərlər niyə sevindilər?
D) Fasilə vaxtı nə baş verdi?
E) Uğurlu fəndin sirri nə idi?

**6. İkinci abzasda altından dalğalı xətt çəkilmiş sözün həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin və mətndəki yerinə görə izahını qarşısında yazın. (✓)**

☐ Həqiqi mənadadır ______________________________

☐ Məcazi mənadadır ______________________________

**7. *"İnam həyatın qüvvəsidir"* deyimini mətnlə əlaqələndirib fikrinizi yazın.**

______________________________

______________________________

**8. Mətnin sonuna iki cümlə əlavə etməklə nəticə hissəsini genişləndirin.**

______________________________

______________________________

**9. Mətnə əsasən klasteri tamamlayın.**

İnam
- qələbədir.
- özünəgüvəndir.
- ______________________________
- ______________________________

**10.** ***"Ümidsizlik elə bataqlıqdır ki, düşsən, boğularsan,***
***İradəndən möhkəm yapış, bax gör nə olarsan!"*** *(M. A. Ərsoy)*
**mövzusunda verilən həcmdə mətn yazın.**

______________________________

______________________________

______________________________

# D variantı

## Böyük əxlaq sahibi

Türk dünyasının görkəmli sənətkarı, vətən və millət şairi Məhmət Akif İstanbulda dünyaya göz açmışdır.

Müharibənin Osmanlı dövlətinin əleyhinə nəticələnməsi, torpaqların işğal təhlükəsi M. Akifi Anadoluda başlayan milli hərəkata qoşulmağa vadar etdi. O, ölkənin azadlığı üçün çıxışlar edərək xalqı mübarizəyə və orduya yardım etməyə çağırdı.

Məhmət Akifin bütün türk dünyası tərəfindən sevilməsinin səbəbi də onun millət eşqi ilə yanıb-tutuşması olmuşdur. Məhmət Akif yazırdı : "Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?.."

Milli marş mətni üzrə keçirilən müsabiqəyə qatılan 724 şair arasından yalnız onun şeiri "İstiqlal Marşı" kimi qəbul edildi. Yazdığı marş Məclisdə ayaq üstə oxunub alqışlanarkən o, Məclisdən gizlicə çıxmışdı. Yarışmaya qoyulan 500 lirəlik mükafatı almamış, "bu xidməti ordu və millətimiz adına etdim" demişdir. Həmin gün isə M. Akifin cibində cəmi iki lirə pul var idi və onu da dostundan borc almışdı.

Ona fəzilətindən, qüdrətindən danışanda qızarar, başqa tərəfə baxardı. Ömrü boyu haqsızlığa qarşı vuruşmuşdur. Çalışdığı yerdə haqsız olaraq işdən çıxarılan bir gənc üçün işindən istefa vermişdi. Onun heç bir zaman yalan söylədiyini eşitməmişdilər. And içməzdi. Yalan söyləyənlərə isə qəzəbi tutardı. Zülmə əsla boyun əyməzdi. Həyatın verdiyi iztirablara gülərdi. Başqa bir millətin olsa belə, dövlət malına toxunmaz, öz cibindən xərclərdi.

Bu sətirlər bizə Azərbaycan milli istiqlal savaşının simvolu olan, türkçülük sevdası canına hopmuş, könüllü olaraq Türkiyənin müstəqilliyi uğrunda savaşa qatılan böyük Əhməd Cavadı xatırlatdı. Onlar yaşadıqları türk yurdlarının İstiqlal Marşlarını (himnini) yazdılar. Onların hər misrası türk dünyasının düşmənlərinə açılan güllə yağışı oldu. "Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına" , - deyə hayqıran vətənpərvər şair isə Əhməd Cavad idi.

Dünya durduqca türk dünyasının bu böyük şəxsiyyətlərinin adı dillərdən düşməyəcək.

*(İşləyəni: N.Abdulov)*

**1. Mətndəki əsas fikri ifadə edən cümlə:**

A) Kim bu cənnət vətənin uğrunda olmaz ki fəda?..
B) Milli marş milləti tanıdan bir simvoldur.
C) İnsan zülmə boyun əyməməlidir.
D) Qəlbi vətən eşqi ilə döyünənləri vətən unutmur.
E) Vətən və istiqlal şairləri çoxdur.

**2. Hansı nümunə çərçivə daxilində verilmiş ifadənin kontekstə uyğun mənasının şərhi ilə bağlıdır?**

A) öhdəsinə götürmək
B) minnət etmək
C) razı olmaq
D) yazıq-yazıq durmaq
E) itaət etmək

**3. Mətnə əsasən Venn diaqramındakı *səhv* fikirləri müəyyən edin:**




A) 2,4 B) 1, 4 C) 1, 6 D) 3, 5 E) 2, 6

**4. Hansı cümlə ilə 3-cü abzası genişləndirmək olar?**

A) Sakarya zəfərindən sonra Misirə getdi.
B) Şərəf və heysiyyətinə toz qondurmadı.
C) Sonda yurdunda ölmək üçün Türkiyəyə döndü.
D) Təsadüfi deyil ki, o, "vətən şairi" kimi anılır.
E) Onun ədəbiyyata sonsuz bir sevgisi vardı.

**5. Altından xətt çəkilmiş cümlə hansı nümunə ilə əvəzlənsə, 2-ci abzasdakı cümlələr arasındakı əlaqə pozular?**

A) O bundan sonra milli hərəkatın fəal iştirakçısı oldu.
B) Millətin bütün məsuliyyətini daim üzərində hiss edirdi.
C) Çıxışlarında üsyançıları sıx birləşməyə səsləyirdi.
D) Xilas yolunu iman və silaha sarılmaqda görürdü.
E) O, şöhrətdən qaçar, təriflənməkdən heç xoşlanmazdı.

**6. Mətnin əsas hissəsi ilə bağlı üç sual tərtib edib yazın.**

1. ______________________________

2. ______________________________

3. ______________________________

**7. Sonuncu abzasda altından düz xətt çəkilmiş ifadənin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin və mətndəki yerinə görə izahını qarşısında yazın. (✓)**

☐ Həqiqi mənadadır ______________________________

☐ Məcazi mənadadır ______________________________

**8.** ***"Həqiqi dahi o adamdır ki, ürəyi hamı üçün döyünür"*** **deyimini mətnlə əlaqələndirib fikrinizi yazın.**

______________________________

______________________________

**9. Mətnin sonuna iki cümlə əlavə etməklə nəticə hissəsini genişləndirib yazın.**

______________________________

______________________________

**10.** ***"Vətən bir millətin evidir"*** **mövzusunda verilən həcmdə mətn yazın.**

______________________________

______________________________

______________________________

______________________________

# E variantı

## Qocalar evi

- Mario, kompüteri söndürə bilərsən? Nahar artıq hazırdır. Şorba isə soyuyur.
- Bir dəqiqə, ana, kolumbiyalı dostlarımla danışıram.

Mario internetdəki dostları ilə sağollaşır və nahar etməyə gedir. Atası narahatdır.

- Babanın sağ ayağında kiçik bir problem var və demək olar ki, gəzə bilmir. Artıq evində tək yaşaya bilməz, - atası deyir, - yaşlanıb, həm də yorğundur.
- Bəs o nə deyir, - ana soruşur.
- Qəmgindir. Deyir ki, qocalar evinə getmək istəmir, əlbəttə. Başqa nə deyəcək?!
- Baba çox yaxşı adamdır, axı niyə bizimlə yaşamağa gəlmir?- deyə Mario soruşur.
- Yox, oğlum, olmaz, - atası deyir. -Birincisi, o bunu istəmir, ikincisi isə bu ev çox balacadır.
- Narahat olma, indi qocalar evlərinin çox yaxşı şəraiti var, - ana deyir.
- Yaxşı qocalar evləri kifayət qədər bahadır, amma o, yaxşı <u>təqaüd</u> alır, pul problem deyil, - deyə ata bildirir.
- Əlbəttə, gəzə bilmirsə, başqa <u>yolumuz</u> yoxdur, - ana deyir, - əminəm ki, qocalar evi tək yaşamaqdan daha yaxşıdır.

Ata portfelindən bir kağız çıxarır.

- "El Descanso" qocalar evində yer var, - deyir, - <u>internet</u> vasitəsilə ərizəni doldura bilərik. Mario, mənə kömək edə bilərsən? Bu onun internet <u>saytıdır</u>.
- Əlbəttə, ata, nahardan sonra kompüterdə işləyərik.

Bir neçə həftə sonra Mario və valideynləri babanı qocalar evinə gətirirlər.

- Görürsən, ata,- Marionun atası babaya deyir, - çox xoşagələn yerdir. Əminəm ki, bura evdən daha yaxşıdır. Bundan əlavə, tibb bacıları da var.
- Mənim tibb bacılarına ehtiyacım yoxdur, öz əşyalarıma, öz <u>xatirələrimə</u> ehtiyacım var,- deyə baba dilləndi.

Bir gün qapı döyülür. Yol polisi anaya xəbər verir ki, həyat yoldaşı avtomobil qəzasına düşüb, ağır yaralanıb, hərəkət edə bilmir.

<u>Ana gecəni xəstəxanada keçirir, səhər evə qayıdanda Marionu iş başında görür.</u>

- Tapşırıqlarını edirsən, oğlum? - deyə soruşur.
- Yox, ana, atam üçün ərizə doldururam. Axı o gəzə bilmirsə, demək, qocalar evinə ehtiyacı var, elə deyilmi

*(C. Nəzəroğlu. "Danışığınla həyatı qazan", ÇapArt Nəşriyyat Evi, Bakı: 2016)*

**1. Mətnin ideyasına uyğun atalar sözünü müəyyən edin.**

A) Özgəsinə quyu qazan özü düşər.
B) Gülmə qonşuna, gələr başına.
C) Atasında olmayanı balasında axtarma.
D) Nə tökərsən aşına, o da çıxar qaşığına.
E) Uşaq gördüyündən qorxar.

**2. Çərçivə daxilində verilmiş parçada oğlanın keçirdiyi hansı hislər ifadə olunmuşdur?**

1. mərhəmət 2. vətənpərvərlik 3. narahatlıq 4. laqeydlik
5. biganəlik 6. sayğısızlıq

A) 2, 4, 5 B) 3, 5, 6 C) 1, 3 D) 2, 3 E) 1, 4, 6

**3. Mətndə altından xətt çəkilmiş sözlərdən biri kontekstə uyğun mənada *işlənməmişdir.***

A) internet → İnternetdə hər kompüterin bir ünvanı var.
B) sayt → Saytlara internet şəbəkəsi vasitəsilə baxmaq olur.
C) xatirələr → Bu kitab mənə atamdan qalan bir xatirədir.
D) yolumuz → Bizim yolumuz haqq yoludur, əlbəttə.
E) təqaüd → Yeni layihəyə əsasən təqaüdlər artırıla bilər.

**4. Mətndə belə fikir *yoxdur:***
A) Ailədə narahatlıq yaşanır.
B) Mario universitetdə oxuyur.
C) Babanı qocalar evinə aparırlar.
D) Avtomobil qəzasında ata yaralanır.
E) Atanın sonrakı taleyi bilinmir.

**5. Düzgün intonasiya ilə oxumaq üçün mətnin axırıncı cümləsinin sonunda hansı durğu işarəsi yazılmalıdır?**
A) nida, sual
B) sual
C) üç nöqtə
D) nöqtə, sual
E) nida

**6. Altından xətt çəkilmiş cümlədə iki söz məcazi mənada işlənmişdir. Çərçivədə həmin sözləri, qarşısında isə kontekstə uyğun izahlarını yazın.**

**7. *"Biz hamımız tərbiyənin övladıyıq"* deyimini mətnlə əlaqələndirib fikrinizi yazın.**

**8. Mətnin sonuna iki cümlə əlavə etməklə nəticə hissəsini genişləndirin.**

**9. Mətnə əsasən klasteri tamamlayın.**

Tərbiyə
- dünyagörüşdür.
- böyüyə hörmətdir.
- 
- 

**10. *"Ailədə tərbiyə necə olmalıdır?"* mövzusunda verilən həcmdə mətn yazın.**

# F variantı

## Əhməd bəy Ağaoğlu

Parisin məşhur Sorbonna Universitetində hüquq təhsili alıb vətəninə dönəndə həmyerliləri ona "Firəng Əhməd" ləqəbi vermişdilər. O, üç il Şuşada dərs demiş, həmvətənlərinin milli şüurunu oyatmağa çalışmışdır. Sonra isə fəal siyasi mübarizəyə qoşulur. **1**

O, Türkiyəyə mühacirət etməyə məcbur olur. Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun siyasi qovğaların ən mürəkkəb bir dövründə Azərbaycanı tərk etmələri ölkənin ziyalılarını son dərəcə sarsıdır. Hər dövrün və bölgənin öz ziyalıları var. Ə.Müznib yazırdı: "Onların getməsi Qafqaz əhalisinin başsız, böyüksüz qalması kimidir. Çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər" . **2**

Müasirləri Əhməd bəyin təbiət etibarilə əsəbi, dəli-dolu adam olduğunu bir səslə etiraf edirdilər. O heç vaxt haqsızlığın yanından sükutla keçə bilmirdi. Başqasının əhəmiyyət vermədiyi nöqsanlar onu haldan çıxarırdı. **3**

Belə hadisələrdən biri də Parisdə baş vermişdi. Parisdəki kafelərin birində bir fransız türklərin əleyhinə çıxır, artıq-əskik sözlər danışır. Həqarətə dözə bilməyən Əhməd bəy Ağaoğlu işə qarışır, münaqişə böyüyür. Bu dəfə Ağaoğlunun həqarətinə dözməyən fransız onu duelə çağırır. Qayda-qanunla duel şərtlərinin müəyyənləşdirilməsi Ağaoğlunun üzərinə düşürmüş. Həyatında o ana qədər əlinə tapança almayan Əhməd bəy bu macəranın ölümlə sona çatacağını bildiyi halda, duel dəvətini qəbul edir. Şərt olaraq iki addım aralıda dayanacaqlarını, sonra hərəsi qabağa bir addım atıb döş-döşə vuruşacaqlarını söyləyir. O zaman fransız ölümün qarşısına belə qorxmadan çıxan və ölərkən öldürməyi də ağlına gətirən bu cəsur türk gəncindən qorxub duel fikrindən əl çəkir. **4**

Yeniyetmə ikən getdiyi Parisdən o, yetkin bir insan, mübarizəyə hazır fikir və əməl adamı kimi qayıtmış və türk dünyasının maraqları keşiyində dayanmışdır. Dönə-dönə fikir savaşına, söz duelinə çıxmış, əzmi və iradəsi, dözümü və yenilməzliyi ilə əksər hallarda düşməni yerində oturtmuş, özünün və xalqının şərəfini ləyaqətlə qorumuşdur. **5**

*(İşləyəni: N.Abdulov)*

**1. Mətndəki əsas fikri ifadə edən cümlə:**

A) Böyük şəxsiyyətlər vətən şərəfini həmişə uca tutmalıdır.
B) Ə.Ağaoğlu xarakter etibarilə dəli-dolu bir adam idi.
C) Ə.Hüseynzadə xalqın düşünən beyni, görən gözüdür.
D) Ə.Ağaoğlu vətən şərəfini uca tutan əməl sahibi idi.
E) İnsan ölüm anında belə öz haqqını qorumalıdır.

**2. Hansı nümunə mətndə altından dalğalı xətt çəkilmiş sözün kontekstə uyğun mənasını şərh edir?**

A) Yol ayrıcında bir maşın *dayanmışdır*.
B) Keşikçi əmrə hazır vəziyyətdə *dayanmışdır*.
C) O öz qələmi ilə daim haqqın tərəfində *dayanmışdır*.
D) Sərt qayalar əsrlərcə *dayanmışdır* yerində...
E) Axar sular sanki birdən nəfəs aldı, *dayandı*.

**3. Bunlardan biri haqqında mətndə *danışılmır:***

A) böyük fikir sahibindən
B) azərbaycanlı mühacirlərdən
C) haqq-ədalət carçısından
D) vətən şərəfinin böyük təəssübkeşindən
E) iki gəncin sarsılmaz dostluğundan

**4. Çərçivə daxilində verilmiş parça hansı rəqəmin yerinə yazılsa, mətnin tərkib hissələri arasındakı əlaqə *pozulmaz?***

1906-cı ildə Azərbaycan türklərinin milli varlığını, şərəf və ləyaqətini qoruyan, onların imperiya zülmünə və erməni terroruna qarşı müqavimətini təşkil etməyə çalışan "Difai" partiyasını yaradır. Bütün bunların nəticəsində Əhməd bəyin düşmənləri qat-qat artır. Hətta Qafqaz canişini onun həbs edilib sürgünə göndərilməsi haqqında göstəriş verir.

A) **2** B) **3** C) **1** D) **4** E) **5**

**5. Neçənci abzasda məzmuna uyğun *olmayan* cümlə işlənmişdir?**

A) 1-ci abzasda
B) 2-ci abzasda
C) 1-ci və 3-cü abzaslarda
D) 4-cü abzasda
E) 2-ci və 5-ci abzaslarda

**6. Mətnə əsasən Ə.Ağaoğluya aid xüsusiyyətləri yazmaqla klasteri tamamlayın.**



**7. Sonuncu cümlədə altından xətt çəkilmiş ifadənin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyənləşdirin və mətndəki yerinə görə izahını qarşısında yazın. (✓)**

☐ Həqiqi mənadadır ______________________________

☐ Məcazi mənadadır ______________________________

**8.** ***"Dahilər bulud arxasından çıxan Günəşə bənzər"*** deyimini Ə.Ağaoğlunun fəaliyyəti ilə əlaqələndirib fikrinizi yazın.

______________________________

______________________________

**9. Mətnin əsas hissəsi ilə bağlı üç sual tərtib edib yazın.**

1.______________________________

2. ______________________________

3. ______________________________

**10. "*Cəsarəti olmayan insan iti ağzı olmayan bıçağa bənzər*" mövzusunda mətn yazın.**

______________________________

______________________________

______________________________

______________________________

______________________________

Tədris vahidi: **4** **Vasitəli və vasitəsiz nitq**

Bölmə: **MƏDƏNİ İRS VƏ CƏMİYYƏT**

Alt standartlar:

| | |
|---|---|
| **1.1.1** | Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. |
| **1.1.2** | Dinlədiyi fikirlərə münasibət bildirir. |
| **1.2.1** | Dil vahidlərindən məqsədyönlü istifadə etməklə müxtəlif formalı mətnlər qurur. |
| **1.2.2** | Müxtəlif tipli rabitəli nitq nümunələri qurur. |
| **1.2.3** | Nitq prosesində danışığı (səs seçimi, səsin ucalığı, hiss, ton) ilə ifadə tərzini (pauza, jest, mimika) uzlaşdırır. |
| **1.2.4** | Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. |
| **2.1.1** | Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir. |
| **2.1.2** | Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir. |
| **2.2.1** | Mətni düzgün intonasiya ilə oxuyur. |
| **2.2.3** | Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. |
| **3.1.1** | Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır. |
| **3.1.2** | Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır. |
| **3.1.3** | Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir. |

# A variantı

## Dulusçuluq

Hər bir ……. tarixi yaratdığı …….. nümunələrində də … təsdiqini tapır. Daş dövründən bu günə kimi bir-birini əvəz etmiş ictimai-iqtisadi formasiyalarda xalq sənətkarlığı nümunələri də inkişaf yolu keçib. Sadə əl əməyinə əsaslanan əşyalar, məişət avadanlıqları sonralar həmin dövrlərdən xəbər verən maddi-mədəniyyət nümunələrinə çevrilmişdir. Belə sənətkarlıq nümunələrindən sayılan dulusçuluq Azərbaycanda ən qədim istehsal sahələrindən biri sayılmaqla, öz əhəmiyyətini nəinki qoruyub saxlayıb, hətta bəşər mədəniyyəti inciləri sırasına qəbul edilib. Aparılan arxeoloji tədqiqatlar təsdiqləyib ki, dulusçuluq neolit dövrünün yadigarıdır.

Maraqlıdır ki, bu sənətin ilk dəfə meydana gəlməsində qadınların xüsusi əməyi olub. Dulusçuluq sənəti nümunələrinin "xəmiri" torpaqdan yoğrulur. Gildən qab-qacaq düzəltmək kimi ağır işin qadınlar tərəfindən görülməsi o dövrlər üçün adi hal sayıla bilərdi. Ona görə də tədqiqatçıların gəldikləri qənaət əsaslıdır.

Əlbəttə, "insan əli boz tikanı, istəsə, gülə döndərər" kimi məcazlar da buradan yaranmağa başlayıb. Adi "torpaqdan yoğrulmuş xəmir"dən insan əli sənətkarlıq nümunələri yaradır ki, onlar zamanın ahəngini öz üzərlərindəki naxışlarda sonrakı əsrlərə və nəsillərə aparır. Orta əsrlərin sonlarından başlayaraq Azərbaycanda dulusçuluğun inkişafı daha yüksək səviyyəyə çatıb. Monqolların Qafqaza yürüşünədək bu inkişaf davam edib. Təəssüf ki, bütün dövrlərdə olduğu kimi, o zamanlar da işğalçılıq təkçə torpaq itkisi, mal-mülkün darmadağın edilməsilə tarixə yazılmayıb. Həmin dövrədək ölkəmizdə dulusçuluq sənətkarlığı sahəsində güclü dəyişiklik baş verib. Əvvəllər yalnız bəsit, kustar üsula əsaslanan dulusçuluqda artıq ayaqla hərəkət etdirilən çarx və kürələrin tətbiqi, təbii ki, yalnız kəmiyyətə deyil, keyfiyyətə də öz təsirini göstərib. Həmin dövrlərdə Azərbaycanda şirəli və şirəsiz saxsı qabların daha geniş yayılması da məhz dulusçuluq sənətinin inkişafı ilə əlaqədar olub. Demək olar ki, o zaman ölkənin hər yerində bu sənətə həm tələbat vardı, həm də dulusçuluq məmulatlarına maraq ehtiyacla üst-üstə düşürdü.

*(M.Nərimanoğlu. "Azərbaycan" qəzeti, 2012. 30 noyabr. səh.7)*

**1. Mətndə hansı suala cavab yoxdur?**

A) Dulusçuluq sənəti Azərbaycanın hansı bölgəsində daha çox inkişaf etmişdir?
B) Azərbaycanda dulusçuluq istehsalı hansı əsrdən yüksək zirvəyə çatmışdır?
C) Dulusçuluq monqolların Qafqaza yürüşünədək hansı inkişaf yolu keçmişdir?
D) Dulusçuluğun daş dövrü ilə hansı bağlılığı var?
E) Dulusçular hansı məişət əşyalarını hazırlayır?

**2. Mətnə görə *yanlış* fikirdir:**

A) Dulusçuluğun meydana gəlməsində daha çox qadınların rolu böyük olub.
B) Dulusçuluq sənəti daha çox Dərbənddə inkişaf etmişdir.
C) Kustar üsula əsaslanan dulusçular ayaqla hərəkət edən çarxlardan istifadə edirdilər.
D) Bu sənət nümunəsinin "xəmiri" torpaqdan yoğrulurdu.
E) Orta əsrlərin sonlarından başlayaraq Azərbaycanda dulusçuluğun inkişafı yüksək zirvəyə çatıb.

**3. Hansı nümunə çərçivə daxilində verilmiş sözün şərhi ilə bağlıdır?**

A) Uşaq yolu keçdi.
B) Yolu təmizlədilər.
C) Biz tərəqqi yolu ilə addımlayırıq.
D) Kənd yolu təmir edildi.
E) Yolu keçən insanlar qorxu içərisində idilər.

**4. Şəkillərdən hansı dulusçuluq sənətini əks etdirir?**

A) 

B) 

C) 

D) 

E) 

**5. 1-ci abzasda nöqtələrin yerinə uyğun ifadələrin ardıcıllığını müəyyən edin.**

A) millət, usta, həm
B) öz, sənətkarlıq, xalq
C) xalqın, sənətkarlıq, öz
D) sənətkarlıq, öz, xalq
E) insan, ustad, həmin

**6. Mətnə əsasən klasteri tamamlayın.**

Dulusçuluq
- Neolit dövründə yaranmışdır.
- ______________________
- ______________________
- ______________________

**7. *"Bu işlə əvvəllər qadınlar məşğul olub"* fikri mətnin hansı abzasında müxtəlif cümlələr arasında yazıla bilər? Həmin abzasın sıra nömrəsini və cümlələrin ilk sözünü müəyyən edib yazın.**

☐ ______________________________________________

8. **BİBÖ cədvəlini dulusçuluq sənəti haqqında əvvəlki bilikləriniz və mətndən öyrəndikləriniz əsasında tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

9. ***"İnsan əli boz tikanı istəsə, gülə döndərər"*** **deyimini müasir həyatla əlaqələndirib fikrinizi yazın.**

______________________________________________

______________________________________________

10. **Mətndən çıxan fikri iki cümlə ilə ifadə edib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

# B variantı

## Misgərlik

Qədim xalq sənət növlərindən biri də Dəmir dövründən qalma misgərlikdir. O da məlumdur ki, bu ərazilərdə tapılan ilk mis metal işləmələrin tarixi Neolit dövrünə aiddir. Miladdan əvvəl VI minillikdə mis əldə edildikdən sonra ondan müxtəlif əşyalar hazırlanıb. Bir sənət kimi onun təşəkkülü artıq orta əsrlərdə böyük şəhərlərin misgərlik mərkəzinə çevrilməsinə gətirib çıxarıb. Azərbaycanda misgərliyin hələ erkən dövrlərdən yüksək inkişaf etdiyini bir sıra Avropa ölkələrində, o cümlədən Rusiya muzeylərində saxlanan mis eksponatlar da sübut edir.

Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayında olmuş venesiyalı səyyah Kontarininin yazdığına görə, burada hər gün hökmdarın ətrafındakı təxminən 400 nəfərə mis qablarda yemək verilirmiş. XX əsrin əvvəllərində Azərbaycan misgərlərinin hazırladığı məhsullar müxtəlif sərgilərdə nümayiş etdirilərkən yüksək qiymətləndirilib və mükafatlandırılıb.

Mis ……. işləyən sənətkarlar imzalarını onun üzərinə həkk etdikləri üçün dünya muzeylərində saxlanan Azərbaycan mədəniyyətinin bu ………. incilərini başqa xalqların ….. adlarına çıxması mümkün deyil. Misdən hazırlanan əl işlərinin 40-dan artıq növü olub və beş qrupda ümumiləşdirilib: xörək, süfrə, su, ağartı qabları və məişət əşyaları.

Azərbaycanda misgərlik sənətinin mərkəzlərinin Təbriz, Gəncə, Naxçıvan, Şamaxı, Bakı, Ərdəbil, Lahıc (İsmayıllı) və s. olduğu söylənilir. XIX əsrdən başlayaraq Lahıc misgərliyin əsas mərkəzinə çevrilib. Lahıc ustalarının misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, sərpuş, güyüm, teşt, məcməyi, sini, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və s. məmulatlar Orta Asiya, Dağıstan, Gürcüstan, İran, Türkiyə və digər yerlərdə tanınıb.

Azərbaycan xalqı özünün çoxəsrlik tarixi boyunca zəngin və özünəməxsus mədəniyyət yaradıb. Müxtəlif vaxtlarda əcnəbi tacirlər, səyyahlar və diplomatlar bu diyarda olub, burada sənətkarlığın inkişafı haqqında çoxlu maraqlı faktlardan söz açıblar. Misgərliyin əsas mərkəzi hesab olunan Azərbaycanda bu qədim sənət növünün yaşadılması üçün bütün dövrlərdə müəyyən səbəblər olub.

*(M.Nərimanoğlu. "Azərbaycan" qəzeti, 2012. 04 noyabr)*

**1. Mətndə hansı suala cavab *yoxdur?***

A) Misgərliyin yaranması hansı şəxsin adı ilə bağlıdır?
B) Hansı səyyah Azərbaycanda misgərliklə bağlı məlumat vermişdir?
C) Misgərliyin Neolit dövrü ilə bağlılığı varmı?
D) Azərbaycanın hansı şəhərləri misgərliyin mərkəzi hesab olunur?
E) Misdən hansı məişət avadanlıqları istehsal olunur?

**2. Mətnə görə doğru fikirdir:**

A) Bu gün Azərbaycanda misgərlik zavodları fəaliyyət göstərir.
B) Heç bir sarayda mis qablar istifadə olunmayıb.
C) Həmişə orta Asiyadan Azərbaycana mis qablar gətirilib.
D) Məclisdə həmişə 400 nəfər otururdu.
E) Vaxtı ilə Venesiya səyyahı Azərbaycanda olub.

**3. Verilmiş şəkillərdən hansı misgərlik sənətini əks etdirir?**

A) 

B) 

C) 

D) 

E) 

**4. 3-cü abzasda nöqtələrin yerinə uyğun gələn ifadələrin ardıcıllığını müəyyən edin.**

A) üzərində, öz, təkrar olur
B) ilə, bu tərzdə, kiminsə
C) üzərində, təkrarolunmaz, öz
D) haşiyələrdə, qabların, başqa
E) öz, üzərində, heç vaxt

**5. Hansı nümunə çərçivə daxilində verilmiş sözün şərhinə uyğundur?**

A) Yuyulmuş paltarlar sərgidə quruyurdu.
B) Sərgidə S.Bəhlulzadənin əsərləri nümayiş etdirilirdi.
C) Sərginin ipləri tarım çəkilmişdir.
D) Xalçalar günə sərilmişdir.
E) Zərbənin təsirindən rəqib idmançı yerə sərildi.

**6. Mətnə əsasən klasteri tamamlayın.**

Misgərlik
- miladdan əvvəl yaranmışdır.
- ____________________
- ____________________
- ____________________

**7. "*Azərbaycanın müxtəlif ərazilərində istehsal olunan misgərlik məhsulları dünyanın bir çox ölkələrinə aparılırdı*" cümləsini mətnin hansı abzasına əlavə etmək olar?**

______________________________________________________________

**8. BİBÖ cədvəlini misgərlik sənəti haqqında əvvəlki bilikləriniz və mətndən öyrəndikləriniz əsasında tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**9. "*Misgərliyi xalq yaradıb, xalq yaşadır*" deyimini müasir həyatla əlaqələndirib fikrinizi yazın.**

______________________________________________________________

______________________________________________________________

**10. Mətndən çıxan fikri bir cümlə ilə ifadə edib yazın.**

______________________________________________________________

______________________________________________________________

# C variantı

## Qarabağ muğam məktəbi

**I** Çoxəsrlik tarixə malik olan Azərbaycan muğamı, mütəxəssislərin rəyinə görə, Şərq İntibahı çağında özünün çiçəklənmə dövrünü yaşamışdır. Sonrakı dövrlər bu sənətin mahiyyət və məzmununu əsla dəyişdirə bilməmişdir. **II** Bu gün də muğam bir tərəfdən keçmişdən bu günə qədər yaşayan mənəvi sərvət, digər tərəfdən isə son dərəcə çağdaş sənət aləmi kimi bütün varlığı ilə yaşamaqdadır. Burada sənətin ənənə ilə qəti olaraq müəyyən edilmiş normaları və yaradıcılıq prosesindəki improvizasiya imkanları heyrətamiz bir vəhdət, ahəngdarlıq təşkil edir.

**III** Muğam zəngin fəlsəfi və ədəbi zəmində təşəkkül tapan bir musiqidir. **IV** Muğam ifaçısı isə elə bil, qədim sehrkarlıq ayininin nəsillərdən nəsillərə ötürücüsüdür. Bu zaman o, insanlara əbədi həqiqətlər haqqında düşünmək və mənəvi rahatlıq tapmaq imkanı yaradır. Ən böyük sirr olaraq xalqın mədəni-mənəvi irsinin ilkin kökləri yaradıcı başlanğıc kimi qalır. Heç bir nəzəriyyə bu yaradıcılığın ən incə çalarlarını belə, olduğu kimi çatdırmaq iqtidarında deyil. Yalnız muğam ifaçıları həmin sirri fəhmlə duyaraq öz ifaları ilə bu sənətə həyat verməyə qadirdilər.

Azərbaycan klassik poeziyası parlaq fikir və obrazlarla zəngindir. Bu poeziyanın rəmzlərlə dolu dili, qəzəllərin konteksti yalnız Şərq fəlsəfəsini oxuyub dərindən mənimsəyənlərə agah olur.

Muğamlarda işlədilən qəzəllərin ecazkarlığını anlayıb duymaq qabiliyyəti muğam ifaçılarında hələ uşaq yaşlarında ikən formalaşır. Muğam ifaçılarının heç biri sizə ayrı-ayrı şairlərin nə qədər qəzəlini əzbər bildiklərini dəqiq söyləyə bilməzlər. Lakin müxtəlif mövzularla bağlı hər hansı bir fikri çatdırmaq zərurəti yarananda onlar yaddaşlarındakı qəzəl misralarını bədahətən ifa edirlər.

Muğam Azərbaycan bəstəkarlarının həmişə ilham mənbəyi olmuş və hər zaman da belə olaraq qalacaqdır. Klassik muğamlar əsasında yaradılan simfonik muğamlar Şərqdə də, Qərbdə də böyük uğur qazanmışdır. Muğam aləmi yaradıcılıq axtarışları və interpretasiyalar baxımından müasir bəstəkarlar üçün həqiqətən geniş imkanlar açır.

Azərbaycanda bir neçə tanınmış muğam ifaçılıq məktəbi var. Muğam bütün ölkədə yayılsa da, onun əsas ocaqları özlərinin müstəqil məktəblərini yaratmış muğam yaradıcılığı mərkəzləri kimi Bakı, Şamaxı, Gəncə, Naxçıvan və Şuşa sayılır. **Xüsusi maraq doğuran Şuşada Qarabağ muğam məktəbi formalaşmışdır.**

*(Mehriban Əliyeva. "www.mehriban-aliyeva.az" saytından)*

**1. Hansı ifadə mətnin məzmunu ilə bağlıdır?**

A) muğamın çoxəsrlik tarixə malik olması
B) muğamın hansı əsrdə yaranması
C) ilk muğam yaradıcıları
D) müasir muğam ustaları
E) aşıq sənəti ilə muğamın sintezi

**2. Hansı nümunə muğam ifaçısına uyğundur?**

A) 

B) 

C) 

D) 

E) 

**3. Çərçivə daxilində verilmiş sözün kontekstə uyğun mənasını müəyyən edin.**

A) bədahətən şeir qoşmaq
B) heç bir hazırlıq görmədən əsər yazmaq
C) ifa zamanı gözlənilməz gedişlər, yeniliklər etmək
D) müəyyən bir hadisəyə dərhal verilən reaksiya
E) müəyyən fikrə dərhal şeirlə cavab vermək

**4. Hansı fikirlə mətnin nəticə hissəsini genişləndirmək olar?**

A) Muğamın yaşaması ədəbiyyatda qəzəl janrının inkişafi ilə də bağlı olmuşdur.
B) Burada yetişmiş muğam sənətçiləri muğam musiqisinin inkişafında mühüm rol oynamışdır.
C) Qarabağ muğam məktəbi, əsasən, Şuşada formalaşmışdır.
D) İnstrumental muğamlar geniş yayılmışdır.
E) Müasir bəstəkarlar üçün geniş imkanlar yaranır.

**5. Sıra nömrəsi ilə fərqləndirilmiş hansı cümlələri mətndə verilmiş formada düzgün intonasiya ilə oxumaq mümkün *deyil*?**

A) 1, 3 B) yalnız 2 C) 2, 4 D) 1, 2 E) yalnız 4

**6. Altından xətt çəkilmiş cümlədəki fikri müasir dövrlə əlaqələndirib yazın.**

**7. Tünd-qara hərflə verilmiş cümləni təkmilləşdirərək köçürüb yazın.**

**8. İkinci abzasda sonuncu işlənmiş məcazi mənalı ifadəni müəyyənləşdirərək şərh edin.**

______________ → ______________________

**9. Muğam haqqında əvvəlki bilikləriniz və mətndən öyrəndiklərinizə əsasən BİBÖ cədvəlini tamamlayın.**

| Bilirəm | İstəyirəm bilim | Öyrəndim |
|---|---|---|
| | | |

**10. "*Kürü ahıyla qurutdu, salı yandırdı muğam*" ( Bəxtiyar Vahabzadə) mövzusunda mətn yazın.**

# D variantı

## Saz

Əfsanəyə görə, guya qartal bir heyvan cəmdəyini parçalayaraq bağırsaqlarını caynaqlarına alıb ağacın başına qaldırır. Bağırsaq budaqlara ilişir, isti gün altında quruyub nazilir. Şiddətli küləyin uğultusu və budaqların ona toxunması ahəngdar səslər çıxarır. Bu zaman yoldan keçən bir adam həmin səslərə heyran qalır. Hadisənin səbəbini öyrəndikdən sonra guya qurumuş bağırsaqdan sim düzəldərək ilk musiqi alətini icad edir. İlk baxışda çox maraqlı görünən bu əfsanəni ilk simli musiqi alətlərinin yaranması haqqında nağıl kimi qəbul etmək daha düzgün olar. Burada müəyyən inandırıcı cəhətlər olsa da, əfsanə əfsanəliyində, nağıl nağıllığında qalır. Əslində, hər bir musiqi alətini insan icad etmişdir.

Babası ozan, ulusu qopuz olmaqla Azərbaycan xalqının məişətinə çox qədim dövrlərdən bəri daxil olan saz 3, 5, 7, 9, 11 tel (sim) üzərində inkişaf tapmışdır.

Küp – çanaq - çömçə, üz taxtası, üz-sinə taxtası, qol-bilək, beçə,[1] aşıqlar - qulaq - burmanc, simçüyü, küpxərəyi, (çanaq xərəyi) keçirmə - qayış - bağ, baş xərəyi, sim tel, pərdə,[2] ayaq xərək, sim xərəyi, köynək-torba, sinə üz taxtada açılmış deşiklərdən ibarət müasir sazların əsas hissələri qart[3] tut ağacından, qol[4] və aşıqlar isə qoz ağacından hazırlanır.

Səkkiz mərhələdə formalaşan müasir sazın səs düzümü fərqli adlar ilə, məsələn: Naxçıvan bölgəsində birinci pərdə baş və ya divani, ikinci "lal", üçüncü "cığalı təcnis", dördüncü "lal", beşinci "şah", altıncı "lal", yeddinci "keşiş oğlu", səkkizinci "cəngi Koroğlu", doqquzuncu "lal", onuncu "ayaq şah" pərdə adları ilə məlumdur.

Saz tazanə[5] ilə çalınan simli çalğı alətidir. O, ulu ozan sənətinin ▲ davamçısı olan aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir.............................................. Sinkretik, yəni özündə çalğı, oxuma, şeir demə, söz və dastan ifaçılığı, aktyorluq və rəqs sənətlərini birləşdirən saz-söz sənəti, muğam sənəti ilə yanaşı, Azərbaycan milli mədəniyyətinin ən əski qatları ilə bağlıdır. Qədim türkdilli xalqlarda şaman, qam, oyun, baxşı, yanşaq, varsaq və nəhayət, ozan kimi tanınan sənətkarlar bugünkü aşığın əcdadları sayılırlar. (Ozan sənəti yüzilliklər və minilliklər boyu böyük təkamül yolu keçərək aşıq sənətinə çevrildiyi kimi, qopuz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır).

*("Şərq" qəzeti. 2011. 17 may. səh.11)*

**1. *"Saz qədim tarixə malik türkdilli xalqların ortaq musiqi alətidir"* fikri nəyi ifadə edir?**

A) sazın yaranma tarixini
B) mətndən çıxan ümumi fikri
C) ozan-aşıq sənətinin qədimliyini
D) mizrabdan istifadənin əhəmiyyətini
E) musiqi janrının müxtəlifliyini

**2. Mətnin məzmunu ilə bağlı sualları müəyyən edin.**

1. Saz ifaçılığı nə üçün sənət hesab edilir?
2. Hansı aşığa ustad aşıq deyilir?
3. Sazbənd nə ilə məşğul olur?
4. İlk simli müsiqi alətinin yaranması ilə bağlı hansı əfsanə mövcuddur?

A) 1,2 B) 3,4 C) 1,4 D) 1,3 E) 2,3

**3. Doğru fikirləri müəyyən edin.**

1. Sazın simi bağırsaqdan hazırlanır.
2. Saz ancaq azərbaycanlılar arasında geniş yayılmışdır.
3. Sazın bir neçə pərdəsi var.
4. İlk vaxtlar sazın simlərinin sayı 3 olmuşdur.

A) 1, 2 B)1, 3 C) 2, 4 D) 2, 3 E) 3, 4

**4. "*Aşıq mizrab ilə sazını dilə gətirdi*" fikri mətndə üstündə rəqəm yazılmış hansı sözün şərhinə aid nümunədir?**

A) 1 B) 2 C) 5 D) 3 E) 4

**5. 5-ci abzasa görə uyğunluğu müəyyən edin.**

İfa zamanı aşıqlardan tələb olunur:

1. jest 2. mikrafon 3. səs 4. tamaşaçı seçimi
5. mimika 6. alqış

A) 1, 2, 3 B) 2, 4, 6 C) 1, 3, 5 D) 2, 6 E) 3, 4

**6. Cədvəli qarşısına ▲ işarəsi qoyulmuş ifadə əsasında tamamlayın. (✓)**

| 1<br>İfadə | 2<br>Həqiqi mənadadır | 3<br>Məcazi mənadadır | 4<br>Nümunə |
|---|---|---|---|
| | | | |

**7. Mötərizə daxilində verilmiş fikri müasir dövrlə əlaqələndirib yazın.**

______________________________________________

______________________________________________

**8. Nöqtələrin yerinə mətnin məzmunu ilə bağlı iki cümlə yazın.**

______________________________________________

______________________________________________

**9. Hansı geyim forması aşıqlıq sənətinə uyğundur? Fikrinizi əsaslandırıb yazın.**

1) 

2) 

3) 

______________________________________________

______________________________________________

**10.** ***Aşıq Ələsgər, görkəmli, ustad, qədim, Göyçə, folklor, şagird, yetişdirmək*** **sözlərindən istifadə etməklə aşağıdakı həcmdə mətn tərtib edib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

# E variantı

## Şirvanşahlar sarayı

Şirvanşahlar sarayı kompleksi Bakının ən qədim və geniş əraziyə malik tarix-memarlıq abidəsidir. + Şirvanşahlar sarayı XV əsrdə Şirvanşah I Xəlilullah tərəfindən tikdirilib.

Saray 6 əsrlik tarixi ərzində bir çox hadisələrlə üzləşib. Bir növ Azərbaycan tarixinin son 600 ilində baş vermiş hadisələr birbaşa adıçəkilən saraya təsir etmişdir. 1500-cü ildə Fərrux Yasarın Səfəvilərlə döyüşdə məğlub olaraq öldürülməsinə qədər müstəqil Şirvanşahlar dövlətinin himayəsində olan saray Səfəvilərin bura daxil olması ilə yağma və dağıntılara məruz qalıb. * Elə məhz bu səbəbdəndir ki, tarixin o dövrlərindən günümüzə saraya aid çox az eksponat gəlib çatıb. Daha sonra Səfəvi-Osmanlı müharibələrində Osmanlıların qələbə qazanması ilə Bakı şəhəri və uyğun olaraq, Şirvanşahlar sarayı Osmanlıların himayəsinə keçib. Hətta sarayın Şərq darvazası da ovaxtkı Osmanlı sultanı III Muradın şərəfinə tikilib. L

"Dinin müdafiəçisi və peyğəmbərin adamı, böyük sultan Şirvanşah Xəlilullah bu işıqlı türbəni öz anası və 7 yaşlı oğlu üçün tikdirməyi əmr edib" — bu cümlə Şirvanşahlar saray (türbəsinin) girişində həkk olunub. ☐ Giriş qapısının üzərində altıguşəli medalyonun içərisində Əli adı 6 dəfə qabarıq, 6 dəfə isə oyuq formada həkk olunub. Ən maraqlısı isə daha yuxarıdakı damla şəkilli medalyonun içərisində yazılanlardır. Belə ki bu medalyonun içərisində *Allah memar Məhəmməd Əli* sözləri qeyd olunub ki buradakı *memar* sözünü yalnız güzgü vasitəsilə oxumaq mümkündür. Bu da onunla əlaqədardır ki, o dövrdə memarlara adlarını tikilinin üzərində yazmaq qadağan olunmuşdu.

Hətta bunu edən memarların boynu vurulurdu. Görünən odur ki, bu türbəni tikən memar öz həyatını təhlükəyə atmaq hesabına olsa belə, adını türbənin üzərində qeyd edib.

▲ Memarın şaha gəldiyi bu kələyi isə ilk dəfə 1954-cü ildə şərqşünas alim Ə.Ələsgərzadə aşkar etmişdir. Girişin üzərindəki digər yazılar isə "Quran"dan götürülmüş ayələrdir.

*("www.kayzen.az" saytından)*

**1. Mətndə hansı suallara cavab *yoxdur?***

1) Şirvanşahlar sarayı nə vaxt tikilib?
2) Şirvanşahlar sarayı Osmanlıların himayəsinə nə vaxt keçib?
3) Saray kim tərəfindən tikdirilib?
4) Şirvanşahlar sarayı nə vaxt bərpa olunub?
5) Sarayın tikintisi zamanı nəyə qadağa qoyulmuşdur?

A) 2,4 B) 1,2,3 C) 1,4 D) 2,5 E) 2,3,4

**2. Mətnin ümumi məzmununu yığcam şəkildə hansı cümlə ilə ifadə etmək olar?**

A) Saraylar müharibələrdən qorunmaq üçündür.
B) Şirvanşahlar sarayı qorunur.
C) Saray Səfəvilər dövründə dağıntılara məruz qalıb.
D) Abidələr tarixin yaddaşıdır.
E) Memarların adlarını yazmaq qadağan olunmuşdur.

**3. Mətndə altından xətt çəkilmiş cümlədə hansı durğu işarələri bərpa edilərsə, cümlə düzgün intonasiya ilə oxunar?**

A) 2 vergül, 1 dırnaq
B) 3 vergül, 2 dırnaq
C) 2 vergül, 2 dırnaq
D) 1 vergül, 2 tire
E) 3 vergül, 1 tire

**4. Mətnə görə *yanlış* fikirdir:**

A) Şərqşünas alimlər memarlıq abidələri ilə maraqlanır.
B) Şirvanşah Xəlilullahın Osmanlı ərazisində tikdirdiyi abidələr mövcuddur.
C) Abidələrin divarlarında yazıya da təsadüf olunur.
D) Şirvanşah Xəlilullah bir vaxtlar Peyğəmbərin adamı hesab olunurdu.
E) Müəyyən dövrlərdə Bakı şəhəri Osmanlı imperiyasının tərkibində olub.

**5. Çevrə daxilində verilmiş nümunə mətndəki hansı işarənin yerinə yazılsa, mətnin tərkib hissələri arasında əlaqə *pozulmaz*?**

Bu abidə Bakının görkəmini cəlbedici etməklə bərabər, həm də onun tarixi ilə bağlı tutarlı və əsaslı faktlar deməyə imkan verir.

A) L    B) ▲    C) □    D) *    E) +

**6. *Abidələr, Naxçıvan, Şəki, tarixi, mövcud, bu gün, diqqət, cəlb etmək* sözlərindən istifadə etməklə iki cümlədən ibarət rabitəli mətn tərtib edib yazın.**

______________________________________________

______________________________________________

**7. Cədvəli çərçivə daxilində verilmiş ifadə əsasında tamamlayın. (✓)**

| 1<br>İfadə | 2<br>Həqiqi mənadadır | 3<br>Məcazi mənadadır | 4<br>Nümunə |
|---|---|---|---|
| | | | |

**8.*"Bu gün də Azərbaycan ərazisində daha çox diqqət cəlb edən abidələr vardır"* fikrini mətndə olmayan əlavə fakt və məlumatlarla əsaslandırıb yazın.**

________________________________________

________________________________________

**9. *"Abidələr dövlət tərəfindən qorunur"* mövzusunda mətn yazın.**

________________________________________

________________________________________

________________________________________

________________________________________

**10. Mötərizə içərisində verilmiş sözün mənasını sxemə uyğun şəkildə şərh edin.**

Söz: __________ Mənası: __________

Cümlə: →

# F variantı

## Xalçaçılığın tarixi

Azərbaycanda xalçaçılığın çox qədim tarixi var. ■ Arxeoloji materiallar və yazılı mənbələr əcdadlarımızın hələ eramızdan əvvəl də bu sənətlə məşğul olduğunu sübut edir. Bununla bağlı qədim dünya tarixçiləri Herodot, Ksenofont və digərlərinin əsərlərində də müxtəlif məlumatlar var. Tarixi qaynaqlar III-VII əsrlərdə Azərbaycanda xalça sənətinin daha sürətlə inkişaf etdiyini, ipəkdən, qızıl və gümüş saplardan (nəfis) xalçaların toxunduğunu bildirir. L Qızıl-gümüş saplarla toxunan və daş-qaşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə **ənənəvi** xarakter alıb. Orta əsrlərdə qızıl-gümüş saplardan toxunan xovsuz xalçaların əsas istehsal mərkəzləri Təbriz, Şamaxı və Bərdə şəhərləri idi. XVI-XVII əsrlərdə Azərbaycanda olmuş ingilis səyyahı Antoni Cenkinson, holland səyahətçisi Yan Streyts Şamaxıda qiymətli saplarla toxunan, daş-qaşlarla bəzədilən xalçalar barədə məlumat veriblər.

▲ Azərbaycanın xalça məmulatları və onların bədii xüsusiyyətləri haqqında orta əsrlərə aid yazılı mənbələrdə maraqlı məlumatlara rast gəlinir. + Naməlum müəllifin X əsrə aid "Dünyanın sərhədləri" əsərində, yazıya köçürülməsi XI əsrə aid "Kitabi- Dədə Qorqud" dastanında, klassik şairlərimiz Nizami və Xaqaninin əsərlərində xalçalarımız tərənnüm olunub. ✸ Avropa rəssamlarının əsərlərində, miniatürlərdə Azərbaycan xalçalarına aid nümunələr əks olunub. Buna misal olaraq, XV əsr Niderland rəssamları Hans Memlinq, Van Eyk, alman rəssamı Hans Holbeynin tablolarını misal göstərmək kifayətdir. Xalçalarımız haqqında müxtəlif əfsanələr, atalar sözləri, tapmacalar və digər hikmətli kəlamlar düzülüb-qoşulub. <u>Uzun illər xalçaçılıqla məşğul olan Nəzakət Qəhrəmanovanın sözlərinə görə qədimdə Azərbaycanda qıza elçi gələndə onun həm də xalça-palaz toxumaq qabiliyyətinə qiymət verirmişlər. Elçilər isə istəməyə gəldikləri qızın toxuduğu xalçaya baxmaqla təkcə onun qabiliyyətini deyil həm də xasiyyətini müəyyənləşdirirmişlər.</u>

*(Adəm Qorxmaz. "www.modern.az" saytından)*

**1. Mətndə bu suallardan hansına cavab *yoxdur?***

1) Əcdadlarımız nə vaxtdan xalçaçılıqla məşğul olub?
2) Hansı Avropa rəssamlarının əsərlərində Azərbaycan xalçası haqqında məlumat verilir?
3) Xalçalarımız haqqına hansı əfsanə və rəvayətlər var?
4) Gəncə xalçası neçənci əsrdə yaranıb?

A) 2,3 B) 1,2 C) 3,4 D) 2,4 E) 1,3

**2. Mətnin ümumi məzmununu yığcam şəkildə hansı cümlə ilə ifadə etmək olar?**

A) Xalçaçılığın tarixi o qədər də qədim deyil.
B) Xalçaçılıq tarixin yaddaşıdır.
C) Nizaminin, Xaqaninin əsərlərində xalçalarımız tərənnüm olunub.
D) Dünya tarixçilərinin əsərlərində xalça haqqında müxtəlif məlumatlar var.
E) Orta əsrlərdə qızıl və gümüş saplardan toxunan xovsuz xalçalara da rast gəlinir.

**3. Mətndə altından xətt çəkilmiş cümlələrdə hansı durğu işarələri bərpa edilərsə, həmin cümlələr düzgün intonasiya ilə oxunar?**

A) 2 vergül B) 1 tire, 2 vergül C) 2 tire, 1 vergül
D) 3 vergül, 1 qoşa nöqtə E) dırnaqlar, 3 vergül

**4. Mətnə görə *yanlış* fikirdir:**

A) Tarixi qaynaqlar III-VII əsrlərdə Azərbaycanda xalça sənətinin daha sürətlə inkişaf etdiyindən xəbər verir.
B) Azərbaycanda olmuş ingilis səyyahlar Qarabağda toxunan xalçalar haqqında məlumatlar veriblər.
C) Azərbaycan xalça məmulatları və onların bədii xüsusiyyətləri haqqında orta əsrlərə aid yazılı mənbələrdə maraqlı məlumatlar var.
D) Azərbaycanda qıza elçi gələndə onun həm də xalça-palaz toxumaq qabiliyyətinə qiymət verirmişlər.
E) "Kitabi-Dədə Qorqud" dastanında xalçalarımız tərənnüm olunub.

**5. Çevrə daxilində verilmiş nümunə mətndəki hansı işarənin yerinə yazılsa, tərkib hissələri arasında əlaqə *pozulmaz*?**

Azərbaycan xalçaları
ölkəmizi tanıtmaqla yanaşı,
həm də Azərbaycan
xalçasının tarixi ilə bağlı
tutarlı və əsaslı faktlar
deməyə imkan verir.

A) L B) ✸ C) ■ D) + E) ▲

**6. *Xalçalar, Təbriz, Bərdə, Şamaxı, qızıl-gümüş, xovsuz, istehsal, mövcud* sözlərindən istifadə etməklə iki cümlədən ibarət rabitəli mətn tərtib edib yazın.**

______________________________________________________________

______________________________________________________________

**7. Cədvəli mötərizə daxilində verilmiş söz əsasında tamamlayın. (✓)**

| 1<br>İfadə | 2<br>Həqiqi mənadadır | 3<br>Məcazi mənadadır | 4<br>Nümunə |
|---|---|---|---|
| | | | |

**8. *"Bu gün xalça muzeyində daha çox diqqət cəlb edən abidələr vardır"* fikrini mətndə *olmayan* əlavə fakt və məlumatlarla əsaslandırıb yazın.**

______________________________________________

______________________________________________

**9. *"Xalçaçılıq qədim tarixə malikdir"* mövzusunda mətn yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**10. Tünd rənglə verilmiş sözün mənasını sxemə uyğun şəkildə şərh edin.**

Söz: __________ Mənası: __________

Cümlə: ——————————————→

# BÖYÜK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

# 2

## A variantı

### Köç

Buğu Təkindən otuz nəsil sonra nəvələrindən Yulun Təkin taxta çıxdı. Həmin zaman Çində Tan sülaləsi hakim idi. Çinlilər türkdilli xalqlardan qorxduqları üçün hökmdarları öz qızı Kiyuli yeni xaqanın oğlu Qali Təkinə göndərdi. Çin elçisi yolda öyrəndi ki, qonşu xalqların qüdrəti və böyüklüyü Tanrı dağındakı Qutlu qayadadır. O, Yulun Təkinə dedi: "Hökmdarım sizə ən qiymətli hədiyyə kimi qızını göndərib. Əgər siz də ona bir şey göndərmək istəsəniz, ən yaxşı hədiyyə Qutlu qaya ola bilər". [1]

Yulun Təkin çinlilərə heyranlıq duyan, milli duyğuları zəif olan bir ▲ xaqan idi. Qutlu qayanın 30 nəsildən bəri türklər üçün müqəddəs olduğunu bilmirdi. Qıza əvəz olaraq qayanı verdi, ancaq onu Çinə necə aparacaqlarını soruşdu. Elçi qayanın üstünə çoxlu odun yığdırdı, oduna sirkə töküb od vurdu. Nəticədə qaya parçalandı, dağıldı. Elçi bu parçaları diqqətlə topladı, arabalarla Çinə göndərdi. [2]

[3] Çində sehrbazlar bu [parçaları] yarma elədilər, hər parçası dünyanın bir tərəfinə düşdü. Parçalar hara düşdüsə, orada bərəkət, bolluq oldu. Bu tərəfdə isə yeddi gün sonra Yulun Təkin öldü, yerinə başqasını xaqan seçdilər. Türk yurdu bərəkətini itirdi, yaşıllıqlar saraldı, sular qurudu, göyün rəngi dəyişdi. Bütün quşlar, heyvanlar, südəmər uşaqlar "Köç! Köç!" deyə qışqırmağa başladılar. Bir tərəfdən də yoluxucu xəstəliklər yayılıb xalqı qırırdı. [4]

[5] "Köç!" səsləri davam edirdi. Başa düşdülər ki, bu ölkənin yer suları daha onları istəmir. Çadırları sökdülər, əşyalarını, uşaqlarını heyvanlara yüklədilər, köçməyə başladılar. Axşam olanda "Köç!" səsləri kəsilir, səhər yenə başlayırdı. Türklər Turfan ölkəsinə gələnə qədər "Köç!" səsləri davam etdi. Orada artıq kəsildi, köçənlər Turfana yerləşdilər, burada Beşbalıq şəhərini saldılar. Bu vaxta qədər bu şəhər çox böyümüşdü.

*(Kamil Vəli Nərimanoğlu. "Özümüz, sözümüz", "Çinar-çağ" nəşriyyatı. Bakı: 2015)*

**1. "*Ana əlindəki çörəyi .... bölərək uşaqlara payladı*" cümləsini nöqtələrin yerinə elə ifadə müəyyənləşdirməklə tamamlayın ki, çərçivə daxilində verilmiş sözün şərhinə uyğun olsun.**

A) süfrədə B) həvəslə C) bıçaqla D) xırda-xırda E) hissələrə

**2. Üçüncü abzas oxunarkən daha çox fasilə tələb edilən cümlələr hansılardır?**
A) II, III B) I, III C) IV, V D) II E) IV

**3. Sonluq hissədəki hansı sözlə başlayan cümlə həmin hissənin məzmununa uyğun deyil?**
A) Çadırları B) Axşam C) Tufan D) Bu E) Başa

**4. Mətn əsasında hansı sualı cavablandırmaq olar?**
1. Yulun Təkin nə vaxt vəfat etdi?
2. Çin elçisinə görə, Türklərin qüdrəti nədədir?
3. Çinin paytaxtı hansı şəhərdir?
4. Yulun Təkin neçə il hakimiyyətdə oldu?
5. Qali Təkinin atasının adı nədir?

A) 1, 2, 5 B) 1, 2, 3 C) 3, 4, 5 D) 2, 4 E) 1, 4

**5. Klaster hansı fikirlə tamamlansa, nöqtələrin yerinə "Yulun Təkin" adını yazmaq olar?**

..............
- qutlu Qaya ilə bağlı söhbətdə iştirak edir.
- bir dövləti təmsil edir.
- 

A) ölkəsində sehrbazlar da yaşayır.
B) ayıq adamdır.
C) ata kimi də təqdim olunur.
D) mənsub olduğu xalqla bağlı hər şeyi bilir.
E) öz təklifini qəbul etdirir.

**6. Birinci abzasda altından xətt çəkilmiş ifadə ilə bağlı doğru fikirdir:**

| İfadə | Həqiqi, yaxud məcazi mənadadır | Yerinə görə mənası |
|---|---|---|
| A) Taxta | Həqiqi mənadadır | Ağac parçasıdır |
| B) Taxta çıxdı | Məcazi mənadadır | Divanda oturdu |
| C) Taxta çıxdı | Məcazi mənadadır | Hökmdar oldu |
| D) Taxta çıxdı | Həqiqi mənadadır | Taxta uzanıb yatdı |
| E) Çıxdı | Məcazi mənadadır | Tərk etdi |

**7. “*Yulun Təkin başda olmaqla türklər içərisində bu işə etiraz edən olmadı*” cümləsi rəqəmlə fərqləndirilmiş hansı hissəyə əlavə edilsə, mətnin məzmunu dəyişməz?**

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**8. Mətnə görə hansı fikri doğru hesab etmək *olmaz*?**

A) Bütün hökmdarlar tədbirli olmurlar.
B) Hakimiyyət bir nəslə təkrar keçə bilər.
C) İnsanlar daima eyni yerdə yaşamırlar.
D) Çinlilərdə də sülalə hakimiyyəti mövcud olub.
E) Türklər arabadan nəqliyyat vasitəsi kimi istifadə ediblər.

**9. Birinci abzasda “*O*” sözü ilə başlayan cümlədə müəyyən məqamlarda səs tonunun dəyişməsi, əsasən, nə ilə bağlıdır?**

A) mimika ilə B) sözlərin sayı ilə C) abzasın həcmi ilə
D) intonasiya ilə E) mətnin ideyası ilə

**10. Mətnə görə təbiətin türklərdən üz döndərməsi nəyin nəticəsi idi?**

A) səhvin B) iqlimin C) coğrafi şəraitin
D) hakimiyyət dəyişməsinin E) qonşu xəyanətinin

**11. Mətnin son iki abzasında fərqli səs ucalığı ilə deyilən, yüksək hiss-həyəcan bildirən ifadəni müəyyən edib yazın.**

________________________________________

**12. Mətnə görə “*Çin elçisi çox zirəkdir*” fikrini əsaslandırıb yazın.**

________________________________________

________________________________________

**13. “*İnsana nə bəla gəlsə, öz ağlının ucbatından gələr*” fikri ilə ümumiləşdirmək olar:** (✓)

☐ bütün türklərin hərəkətini ☐ sehrbazların işini
☐ elçinin təklifini ☐ Yulun Təkinin fəaliyyətini

________________________________________

________________________________________

**14. Bu gün də Azərbaycanda insanların köçkün həyatı yaşadıqlarını mətnlə əlaqələndirin və əsaslandırıb yazın.**

________________________________________

________________________________________

**15. Mətnin əsas hissəsini əhatə edən suallar tərtib edib yazın.**

1 ______________________________________

2 ______________________________________

3 ______________________________________

**16. Mətnə əsasən Venn diaqramını tamamlayın.**

1.türklər 2.oxşar xüsusiyyətlər 3.çinlilər



**17. Mətnə əsasən müəyyən edib yazın.**

Çin hakiminin öz qızını Qali Təkinə göndərməsinin səbəbi:

________________________________________

Sehrbazların məqsədi:

________________________________________

**18. Üstünə ▲ işarəsi qoyulmuş sözü və qarşısında şərhini yazın:**

________________ → __________________________________

**19.** ***"3-cü abzasın sonuncu sözü həqiqi mənada işlənmişdir"*** **fikrinə münasibət bildirin. (✓)**

☐ Doğrudur
☐ Yanlışdır

Çünki______________________________________________________________________

**20.** ***"Türklərin qədim dastanları onların tarixindən xəbər verir"*** **mövzusunda mühakimə tipli mətn yazın.**

# B variantı

## Zəhmət, Ağıl, Bəxt

Bir kişi tarlada kotanla yer şumlayırdı. Onun başında Zəhmət, Ağıl və Bəxt arasında mübahisə qalxdı.

Bəxt dedi:

- Əkinçini ***dolandıran*** mənəm, mənsiz o yaşaya bilməz.

Ağıl dedi:

- Belədirsə, biz çəkilək kənara, görək əkinçini necə dolandırırsan?

Bəxt işə başladı. Birdən kotanın qabağına küp dolusu qızıl çıxdı. Əkinçi qızılı görcək üzünü turşutdu:

- Bu zəhrimar da kotana mane olur. Bir adam olsa, küpü verərdim.

Ətrafına göz gəzdirdi, yoldan keçən atlını çağırdı ki, küpü ona versin. Atlı əkinçiyə yaxınlaşdı. Ağıl qayıtdı öz yerinə, əkinçi təlaşa düşdü:

- Mən axmağam. Qızılları yoldan ötənə niyə verirəm?

Bunlar mənim ölümə də, dirimə də bəsdir. Lənət sənə, kor şeytan!

Əkinçi fikirləşməyə macal tapmamış atlı gəlib yetişdi, salam verib soruşdu:

- Əkinçi qardaş, mənə aid nə qulluğun var?

Əkinçi dedi:

- Atlı qardaş, boz öküz ala öküzün nəyidir? Bunlar necə qohumdurlar?

Atlı təəccüblə fikirləşdi: “Deyəsən, bu kişi dəlidir”.

- Bu nə sözdür, soruşursan? Öküzlər sənin, mən haradan bilim ki, bunlar necə qohumdurlar?

Atlı dönüb gedəndə Ağıl yenə əkinçinin başından çıxdı. Bəxt yenə qızılları parıldatdı. Əkinçi atlını təkrar çağırdı ki, küpü versin. Atlı qayıtdı. Ağıl yenə yerinə gəldi: “Ay adam, nə eləmək istəyirsən? Qızıllar heyifdir”.

Atlı yaxınlaşıb soruşdu:

- Qardaş, nə deyirsən, məni niyə yoldan eləyirsən?

Əkinçi xəcalət çəkdi, bilmədi nə desin. İrəli yeriyib öküzləri göstərdi:

- Nə böyük məsələ soruşdum ki, cavabında aciz qaldın? Boz öküz ala öküzün doğma bacısı oğludur. Görmürsən, boyu balaca, özü cavan? Bunu deyirdim.

Atlı başını buladı və dönüb getdi.

Ağıl öz hünərindən dəm vuranda Zəhmət dedi:

- Bəhs eləməyə vaxtım yoxdur. Əkinçini dolandıran mənəm. İndi ki belədir, getdim.

Zəhmət kənara çəkilən kimi əkinçi dizlərini qucaqlayıb oturdu və öküzlərin gövşəməsinə tamaşa eləməyə başladı.

- Yaxşı ki, atlını yola saldım, yaxşı ki, qızılları vermədim, özüm aparıb xırdalayaram.

Durmaq istəyəndə gördü ki, nə qıclarında taqət, nə əllərində qüvvət var. Axşamacan çöməlib bir yerdə mürgülədi, öküzlər də yatdı.

Bəxt qızılı göyə sovurub parıldadırdı. Ağıl bunları dönə-dönə sayır, xərcləməyə yer, çarə axtarırdı. Əkinçi yerindən tərpənə bilmirdi.

Ağıl gördü ki, kişini də, öküzləri də gecə burada canavar yeyəcək, Zəhmətə yalvarıb dedi:

- Gəl, qardaş, gəl, əkinçinin günü-güzəranı sənsən. Sənsiz günümüz olmasın. Gəl işin üstündə ol.

Zəhmət yerinə keçən kimi əkinçi cəld ayağa qalxdı. Kotanın dəstəyindən yapışıb öküzləri hayladı:

- Ay Ceyran, nə durmusan, şum yarımçıq qaldı. Hey, Maral, güc ver, bu torpaq laylarını qaldır! Hey, belə ha!

Əkinçinin işləri əvvəlki kimi sahmana düşdü. Zəhmətin köməyi ilə torpaq bol məhsul verdi, kişinin özü də, balaları da yaxşı güzəran keçirdilər.

*("Oxu". "Ərfərül" nəşriyyatı, Bakı: 2016)*

**1. Üzərində ▲ qoyulmuş sözün mətndəki mənasına uyğun şərhi hansı nümunədə dolğun əhatə olunmuşdur?**

A) ***Aldadıb*** uşağın oyuncağını almaq istəyirdi.
B) Ehtiyaclarımız qohumlarımız tərəfindən ***təmin olunurdu.***
C) Nənə nəvəsinin başına ***hərlənirdi.***
D) Ailəmizi, təsərrüfatımızı, əsasən, babam ***idarə edir.***
E) Təyyarə bir neçə dəfə ***dövrə vurub*** yerə endi.

**2. Hansı obrazın keçirdiyi hiss doğru müəyyən edilib?**

A) Zəhmət → təəssüf
B) Ağıl → peşmanlıq
C) Atlı → təəccüb
D) Bəxt → təlaş
E) Kişi → qəzəb

**3. Girişin sonuna artırıla bilən və mətnin tərkib hissələri arasında əlaqəni *pozmayan* cümlədir:**

A) Biri var idi, biri yox idi.
B) Bəxt hər ikisini uzaqlaşdırdı.
C) Əkinçi onlara məhəl qoymurdu.
D) Zəhmət mübahisədən çəkilmək istədi.
E) Hər biri öz fikrini söylədi.

**4. Mətnə əsasən doğru fikirlərdir:**

| | Mübahisəyə son qoyan mücərrəd varlıq | Dialoqda iştirak edən insan sayı | Əkinçinin müraciət etdiyi surət |
|---|---|---|---|
| A) | Ağıl | 2 | Atlı |
| B) | Zəhmət | 4 | Zəhmət |
| C) | Əkinçi | 5 | Ağıl |
| D) | Atlı | 3 | Bəxt |
| E) | Bəxt | 1 | Özü |

**5. Hansı nümunələr mətnin məzmunu ilə bağlı ümumiləşmiş fikirləri ifadə edir?**

1. Ağıl insanın sərvətidir.
2. Güc birlikdədir.
3. Tək əldən səs çıxmaz.
4. Adamın gərək bəxti olsun.
5. Halal zəhmət üz ağardar.

A) 1,2,4 B) 3,5 C) 2,3 D) 1,3,5 E) 2,4

**6. Sizin üçün hansı daha önəmlidir? (✓) Əsaslandırıb yazın.**

Ağıl ☐ →

______________________________

______________________________

Zəhmət ☐ →

______________________________

______________________________

Bəxt ☐ →

______________________________

______________________________

**7. Sualları mətn əsasında cavablandırın.**

1. Əkinçinin işləri əvvəlcə necə idi? ______________________________

2. Əkinçinin atlını təkrar çağırmasının səbəbi nə idi? ______________________

3. Zəhmət yerinə keçən kimi nə baş verdi? ______________________

4. Ağıl əkinçinin həyatı üçün hansı təhlükənin olduğunu hiss etdi? __________

5. Bəxtin əsas işi nə oldu? ______________________________

**8. Altından xətt çəkilmiş ifadələrdən nöqtələrin yerinə uyğun gələni yazın və klasteri tamamlayın.**

.............. —
- məcazi mənadadır.
- dövran sürürlər.
- ______________________

**9.** ***“Uğurlu nəticəyə nail olmaq üçün bütün imkanlardan istifadə etmək lazımdır”*** **mülahizəsini əkinçinin düşdüyü vəziyyətlə əlaqələndirməklə fikrinizi yazın.**

______________________________

______________________________

______________________________

**10.** ***Düşüncə, fikirləşmək, nəticə, tale, bəxt, qismət, hünər, zəhmət*** **ifadələrindən də istifadə etməklə** ***“Ağılın, zəhmətin, bəxtin vəhdəti uğurlu nəticədir”*** **mövzusunda mətn tərtib edib yazın.**

______________________________

______________________________

______________________________

# İlanlarla mübarizə

Yazın isti günlərindən başlamış payızın əvvəlinə kimi bağlarda gəzdikdə, dar doqqazlarla getdikdə kolluqda, qulançarlıqda biz – uşaqlar özümüzü zəhərli ilanlardan gözləməli idik. Açıqlıq yerdə bu asan idi. Lakin bağda, qalın otlar içində qıvrılıb yatmış ilanı haradan görüb özümüzü bu ziyankar heyvandan mühafizə edəydik? Dostumuz koramal otların arası ilə hərəkət etdikdə görünürdü. Amma zəhərli ilanlar məlum olmurdu. Bir yay olmurdu ki, ilan uşaq vurmamış olsun. <u>Onlar da bizdən paylarını yaxşıca alardılar.</u>

İsti günlərdə çəpərlərin döşü ilanlarla dolu olardı. Onlar yuvalarından çıxıb özlərini günə verərdilər. Biz də dəstə bağlayıb onlarla müharibə edərdik. Hər birimizin əlində uzun çomaq olardı. Kimin gözünə qıvrılıb yatmış, ya hərəkət edən ilan **(**sataşsa**)**, tez çomağı ilə vurub öldürərdi. Hər kim çox öldürsə, o, birinciliyi qazanardı.

Bilmirəm, haradan çıxmışsa, guya kərtənkələlər ilanlara zəhər verirlər, ona görə bunları da düşmənlər sırasına qoyub qırardıq. <u>Bu barədə Tağı əmidən soruşduqda o, belə cavab verdi:</u>

\- <u>Yalan sözdür, kərtənkələlərin zəhəri yoxdur.</u> Özləri də zərərli həşəratı yeyib tələf etməklə bizə böyük mənfəət yetirirlər. <u>O ki qaldı ilana, onun iki zəhərli dişi</u> var. Zəhər dişinin dibində nazik pərdəli iki tuluğun içindədir. <u>İlan çaldıqda pərdələr yırtılır, zəhər yaralının qanına qarışır, onu zəhərləyib öldürür.</u>

(1 above "kərtənkələlərin zəhəri yoxdur", 2 above "dişi")

Tağı əminin verdiyi bu məlumatdan sonra biz kərtənkələ qırmağı tərk etdik.

*(S.S. Axundov. "Seçilmiş əsərləri", "Şərq-Qərb" nəşriyyatı, Bakı: 2005)*

**11. *"Əksinə, onu qorumağın faydası ilə bağlı digər uşaqları da məlumatlandırmağa başladıq"* cümləsi hansı sözlə qurtaran cümlədən sonra yazıla bilər?**

A) alardılar B) verdi C) qazanardı D) tərk etdik E) öldürür

**12. Altından xətt çəkilmiş cümlələrdən hansı sözlə başlayan cümlənin tələffüzü zamanı başın sağa, sola hərəkəti, əlin isə sağa, sola silkələnməsi kimi jestlər edilər?**

A) İlan B) Yalan C) Onlar D) Bu E) O

**13. Mətnə əsasən doğru fikri müəyyən edin.**

| | Səbəb | Nəticə |
|---|---|---|
| A) | Kərtənkələnin zəhərli olması | İnsanları öldürməsi |
| B) | Tağı əminin dedikləri | Kərtənkələyə munasibətin dəyişməsi |
| C) | Tağı əminin məlumatları | İlanların yerinin müəyyən edilməsi |
| D) | İlanların çox olması | Otların sıx olması |
| E) | İlanda iki dişin olması | İnsanların zəhərlənməsi |

**14. Tərkibində fərqləndirilmiş ifadə olan nümunələrdən biri mötərizə daxilindəki sözün şərhinə uyğun nümunədir:**

A) Yoldan keçənlərə ***sataşsa*** da, heç kim ona əhəmiyyət vermirdi.
B) Hər bir mənzildə yaşayış olsa da, hələ çox az adam ***gözə dəyirdi***.
C) Ağacın budaqları ya adamın başına, ya da ***gözünə dəyirdi.***
D) Gündəlik televiziya vasitəsilə idman yarışlarını ***seyr edirik.***
E) İstənilən ***baxışdan*** bir məna duymaq olar.

**15. Hansı sualı mətn əsasında cavablandırmaq *olmaz*?**

A) Təsvir olunan hadisələr hansı fəslə aid deyil?
B) Bütün ilanların zəhərli dişi varmı?
C) Tağı əminin neçə yaşı var?
D) İlanlar yuvalarından niyə çıxır?
E) Açıqlıq yerin əhəmiyyəti nə idi?

**16. Üzərində rəqəm yazılmış sözlərin şərhi ilə bağlı uyğunluğu müəyyən edin:**

1.____________________________________

2.____________________________________

a. Həqiqi mənadadır.
b. "Əldə edirlər" mənasındadır.
c. Məcazi mənalıdır.
d. Kəsici orqanın adıdır.
e. Çatdırırlar.

**17. Uşaqlar kərtənkələləri öldürməklə təbiətə ziyan vururdular. Tağı əminin məlumatından sonra onlar təbiətə daha zərər yetirmədilər. Uşaqların bu hərəkətinə uyğun atalar sözü yazın.**

________________________________________________________________

________________________________________________________________

**18. Bəzi zərərli həşəratların məhv edilməsinin həyat üçün faydalı olması ilə bağlı fikirlərinizi yazın.**

________________________________________________________________

________________________________________________________________

**19. Venn diaqramında ifadə olunmuş fikirləri qarşısında yazılmış rəqəmlər əsasında qruplaşdırın.**




Doğrudur → ______

Yanlışdır → ______

**20. “*Təbiətə münasibətdə məlumatlı olmağın əhəmiyyəti böyükdür*” mövzusunda faktlardan düzgün istifadə etməklə mühakimə xarakterli esse yazın.**

______________________________

______________________________

______________________________

______________________________

______________________________

# C variantı

## Xeyirxahlıq

Ərzaq malları dükanının sahibi bərk dilxor idi: elə bil qəsdən düz onun dükanının qabağında, küçənin o tərəfində nəhəng supermarket açılmışdı. Bu isə onun biznesinin sonu demək idi. Nəsildən-nəslə keçən bu dükan çox böyük olmasa da, etibarlı gəlir mənbəyi idi və indi onu gözləyən müflisləşmə təhlükəsi yalnız dükanın hazırkı sahibi üçün deyil, həm də bütün ailəsi üçün əsl fəlakət idi.

Yaxın dostu ona dedi:

- Əgər rəqibindən qorxursansa, ona nifrət edəcəksən. Nifrət isə səni məhv edəcək.
- Bu gün ayın neçəsidir? – deyə başını tamam itirmiş dükan sahibi soruşdu:
- Hər səhər dükanın qarşısında duraraq ona xeyir-dua ver, çiçəklənməsini arzula. Sonra üzünü supermarketə çevir və həmin sözləri təkrar et.
- Nə? Məni iflas edəcək düşmənə xeyir-dua verim?
- Ona ünvanladığın bütün xeyir-dualar sənə yaxşılıq kimi qayıdacaq. Ona arzuladığın pislik isə səni məhv edəcək.

Yarım ildən sonra dükan sahibi yenidən dostunun yanına gələrək xəbər verdi ki, onun qorxduğu şey baş verdi: dükanı bağlanmalı oldu. Lakin indi o həmin supermarketin işlər müdiridir və işləri həmişəkindən də yaxşı gedir.

*(İşləyəni: S.İbrahimov)*

**1. Birinci abzasda çərçivə daxilində verilmiş ifadənin mətndə ifadə etdiyi məna nədir?**

A) maaş B) məvacib C) bazar D) pul kisəsi E) qazanc yeri

**2. Dükan sahibinin narahatlığı nə qədər davam etdi?**

A) 100 gün B) bir fəsil C) 4 həftə D) 1 il E) 6 ay

**3. Dükan sahibi ilə dostunun dialoquna qədər mətnin tərkibinə hansı cümlələri əlavə etmək olar?**

1.Supermarketdə malların çeşidi də çox idi.
2.Havanın hərarəti get-gedə yüksəlirdi.
3.Dükan sahibinin yaşı qırxı keçmişdi.
4.Dostunun sözünə baxmaqda haqlı idi.
5.Bir sözlə, problemlə üzləşmişdi.

A) 1,2,3 B) 1,5 C) 3,4,5 D) 2,4 E) 2,5

**4. Altından dalğalı xətt çəkilmiş cümlə hansı cümlə ilə əvəz edilsə, mətn təkmilləşmiş olar?**

A) İndi mən haraya getməliyəm? B) Siz supermarketin sahibini tanıyırsınızmı?
C) Hər səhər dükana gəlimmi? D) Bəs mən nə edim?
E) Hökmən arzularımı bildirməliyəm?

**5. Uyğunluğu müəyyən edin.**

1. Dükan sahibi
2. Dükan sahibinin dostu

a. Məsləhətə əməl etməyi bacarır.
b. Dediklərinə əməl olundu.
c. Çox imkanlıdır.
d. Özünə çox inanır.
e. Rəqibini düşmən hesab edir.

A) 1-b,c ; 2-a,c B) 1-d,e ; 2-b C) 1-b,e ; 2-b,c D) 1-a,e ; 2-b,d E) 1-e ; 2-b,c,d

**6. Üstündə + işarəsi qoyulmuş sözün kontekstə uyğun şərhini müəyyən edin.**

1. Məcazi mənadadır
2. Həqiqi mənadadır
3. İnkişaf etmək
4. Çiçək açmaq
5. Uğur qazanmaq

(3, 4, 5) → mənasında işlənmişdir.

A) 2,3,5 B) 1,2,4 C) 3,4 D) 2,4 E) 1,3,5

**7. Dükan sahibi ilə bağlı doğru fikirlərdir:**

1. Təhlükə qarşısında idi.
2. Çıxış yolu tapa bilmirdi.
3. Dükanını başqasının dükanı qarşısında tikmişdi.
4. Ona miras qalmayıb.
5. Dilxorçuluq onda müvəqqəti olub.

A) 3,4,5 B) 1,3 C) 1,2,5 D) 2,3,4 E) 3,5

**8. Dükan sahibi ilə dostunun nitqinə aid cümlələrin fərqli intonasiya ilə oxunması nə ilə bağlıdır?**

A) sözlərin sayı ilə B) abzaslarla C) cümlələrin genişliyi ilə
D) yüksək hiss-həyəcanla E) durğu işarələri ilə

**9. Mətnə əsasən müəyyən edin.**

| | Səbəb | Nəticə |
|---|---|---|
| A) | Dükançı olmaq | Supermarketdə şöbə müdiri olmaq |
| B) | Ustad olmaq | Şagird yetişdirmək |
| C) | Mirasa sahib olmaq | Çox zəngin olmaq |
| D) | Nəsihət etmək | Uğur qazanmaq |
| E) | İradəli olmaq | Rəqabətə dözmək |

**10. Dükan sahibinin əməlinə uyğun gələn aforizmdir:**

A) Adamlara xoş gələni deyil, faydalı olanı məsləhət gör. (Solon)
B) Ağıllı məsləhətə qulaq asmaq heç vaxt gec deyil. (Sonson)
C) İnsanın ən səxavətlə payladığı şey məsləhətdir. (Laroşfuko)
D) Məsləhət istəmək böyük etibardır. (Bekon)
E) İş həyatdan həzz almağın ən yaxşı üsuludur. (Kant)

**11. Böyük çərçivə daxilindəki fikir şəkildəki ov alətlərinin hansının xüsusiyyətləri ilə müqayisə oluna bilər? (✓)**

Ov tüfəngi ☐



Bumeranq ☐



Tələ ☐



Qarmaq ☐



Əsaslandırıb yazın. ______________________________________________

______________________________________________

______________________________________________

**12. Uyğun sözlərdən, ifadələrdən, nitq etiketlərindən istifadə etməklə dükançının dilindən dostuna ünvanlanan və minnətdarlıq bildirən mətn tərtib edib yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

13. Altından xətt çəkilmiş sözləri boş xanaya qeyd etməklə, qarşısında uyğun mənasını yazın.

14. Bəzən insan mətndəki dükançı kimi qəfil eşitdiyi bir sözdən, gözlənilməyən hadisədən və s.-dən çaşır, nə edəcəyini bilmir. Dükançının düşdüyü belə vəziyyət mətndə hansı məcazi mənalı ifadə ilə öz əksini tapıb?

15. Mətni dükan sahibinin hər gün supermarket sahibinə xeyir-dua verməsi ilə bağlı cümlələrlə genişləndirib yazın.

**16. Dükan sahibi və dostunun münasibətini əks etdirən hikmətli ifadə, atalar sözü və ya aforizm yazın, fikrinizi əsaslandırın.**

______________________________________________

______________________________________________

______________________________________________

**17. X. Şirvaninin**

*İstəsən, güzgütək saf olsun ürək,*
*Sinəndən on şeyi atasan gərək.*
*Haram, qeybət, kin, paxıllıq, tamah,*
*Hiylə, yalan, həsəd, ədavət, kələk –*

**misralarında insan mənəviyyatını formalaşdıran keyfiyyətlərin adını bildirən söz və ifadələrdən istifadə etməklə aşağıdakı həcmdə mətn yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**18. Müqayisə etdikdə kimə üstünlük verərsiniz? (✓) Əsaslandırın.**

☐ Dükan sahibinə → ______________________________

☐ Dükan sahibinin dostuna → ______________________________

☐ Supermarketin sahibinə → ______________________________

**19. Birinci abzasa əsasən ailənin üzləşə biləcəyi fəlakət: (✓)**

☐ Təbiət hadisəsidir

☐ Təbiət hadisəsi deyil

Çünki ____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

____________________________________________

**20. Məktəbin təsərrüfat müdirinin adından məktəbə dəftərxana ləvazimatı almaq üçün verilmiş 50 manatın xərclənməsi ilə bağlı hesabat yazın.**

| Sıra | Ləvazimatın adı | Miqdarı | Qiyməti |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |
| | | | |

İmza: ______________ Cəmi: ________________

Tarix: __________

# D variantı

## Can qorxusu

Sentyabrın isti bir günü idi. **Hava çox sərin idi[1].** İtlər, çobanlar meşələrə – sərin kölgəliklər altına çəkilmişdilər. Biz də alaçığın içində hər birimiz bir yanda uzanmışdıq. Sarı toyuğum da balalarını başına toplayaraq armud ağacı altında eşələnir, dənləyirdi. Toyuq birdən-birə acıqlı səslə qaqqıldadı. Balaları dərhal uçaraq kolların arasına soxuldular.

I

Bu zaman bir quş alaçığın ağzından **ildırım kimi şığıyıb** yükün altına soxuldu. Qüvvətli qanad çalınmasına bənzər bir səs hələ də alaçığımızın üstündə eşidilirdi. Bir-birinin arxasınca baş verən bu hadisələrdən özümüzü itirmiş halda alaçıqdan kənara çıxdıq. Alaçıqdan on-on beş arşın ucada böyük bir quş iri qanadlarını açmış, odlu və acıqlı baxışlarla bizi süzürdü. Anam:

- Qızılquşdur, - dedi, - sonra cücələri tutmaması üçün əlinə böyük ağac alıb qızılquşu qovdu. Biz alaçığa girən quşun arxasınca getdik. Bizdən əvvəl qardaşım (yük) altında bir bucağa sığınmış quşu qaldırırb sevinə-sevinə:

- **Tutdum, kəklikdir! – dedi[2].**

Qardaşımın ətrafında sevincimdən atılıb düşərək:

- Ver, mən də baxım, - deyə bağırdım.

Bu zaman anam içəri girdi. Kəkliyi əlimizdə görüncə:

- Canının qorxusundan yazıq özünü alaçığa salıb, - dedi.

Qızılquş pəncəsindən qurtarıb özünü insan əlində əsir görən kəklik xilas olmaq üçün həyəcanla çırpınır, əllərimizi dimdikləyirdi. Qardaşım:

- Qanadlarını bağlayım, qaçmasın, - dedi.

- Yox, oğlum! Bu heyvan bizim evimizə sığınmışdır, onu azad edin, buraxın. Qorxusundan

II

yazığın **ürəyi ağzına gəlir**, - deyə anam cavab verdi.

Bu sözləri anam elə söylədi qəlbimizdə riqqət doğdu. Artıq hamımız onun azad edilməsi tərəfdarı idik. Hamımız alaçıqdan çıxdıq. **Qızılquş uçub-getmişdi[3].** Kəkliyə gəldikdə o, kiçik gözlərini göyə dikərək baxır, düşmənin getmiş olduğunu bilmək istəyirdi. Qardaşım quşu birdən-birə havaya ataraq:

- Uç, get! – dedi.

III

Kəklik onun əlindən ox kimi çıxdı və bir anda **meşənin ağacları** arasında yox oldu.

Hamımız bağırışaraq kəkliyin arxasınca xeyli baxdıq.

*(Abdulla Şaiq. "Seçilmiş əsərləri" I cild, "Avrasiya-press" nəşriyyatı, Bakı: 2005)*

**1. Altından xətt çəkilmiş cümlələrdən biri mətn daxili əlaqəni pozur. Üstündə rəqəm yazılmış hansı cümlə qarşısındakı nümunə ilə əvəz olunsa, mətndəki cümlələr arasında əlaqə bərpa olunar?**

A) 2 → Çil toyuğun balasıdır, - dedi.

B) 3 → Qızılquş ovunu buraxmaq istəmirdi.

C) 1 → Günəş od ələyirdi.

D) 2 → Qızılquşu tutdum, - dedi.

E) 1 → Qar havası deyildi.

**2. Tünd-qara rəngdə Roma rəqəmləri ilə yazılmış ifadələrlə bağlı uyğunluğu müəyyən edin.**

| | |
|---|---|
| I. | a. Həqiqi mənadadır. |
| II. | b. “Bərk qorxmaq” mənasını ifadə edir. |
| III. | c. Sürətlə getmək mənasındadır. |
| | d. Meşədə bitən ağaclar nəzərdə tutulur. |
| | e. Məcazi mənadadır |

A) I – a; II – b, e; III – e ,d
B) I – c; II – b; III – e
C) I – c, e; II – e, b; III – a, d
D) I – a, c; II-e
E) I – c,e; III – a, d.

**3. Fərqləndirilmiş ifadələrə əsasən mötərizə daxilində verilmiş sözün mətndə işlənmə məqamına uyğun nümunəni müəyyən edin.**

A) Mənzilin bir küncündə səliqə ilə üst-üstə yığılmış ***yorğan-döşək*** var idi.

B) Əşyalarımızı maşının ***yük*** yerinə yığdıq.

C) Boynumuza böyük ***məsuliyyət*** qoydular.

D) Bazarlığa gedənlərin hər biri öz ***yükünü tutub*** qayıdırdı.

E) ***Elektrikin miqdarı*** iki hissədən ibarət olur.

**4. Altından dalğalı xətt çəkilmiş cümləni deyən oğlanın emosiyalarına uyğun poza və jestini müəyyən edin.**

A) 

B) 

C) 

D) 

E) 

**5. Mövzu ilə bağlı ifadə olunmuş yığcam fikri müəyyən edin.**

A) Xeyirxahlıq irsən keçir.
B) Quşlar müxtəlif cür olur.
C) Ev quş üçün qəfəsdir.
D) İki qorxu bir ölümə bərabərdir.
E) Can şirin şeydir.

**6. Çərçivə daxilində verilmiş hissədə şifahi nitq prosesində yüksələn tonla deyilən cümlənin ilk sözünü yazın.**

________________________________

**7. Mətndəki hər quşla bağlı ən az bir sual tərtib edib yazın.**

1 ☐ ______________________________

2 ☐ ______________________________

3 ☐ ______________________________

4 ☐ ______________________________

**8. Mətn əsasında doğru fikri müəyyən edin və eyni zamanda yanlış olanları əsaslandırın. (✓)**

◯ 1. Bütün quşlar yırtıcı deyil.
◯ 2. Kəkliyi hekayəni danışan oğlan buraxdı.
◯ 3. İnsanlar ilin müəyyən çağlarında alaçıqda yaşayırlar.
◯ 4. Kəkliyin qanadları bağlanmır.

Çünki ______________________________

______________________________

**9. Mətnin sonuna ananın dilindən kəkliyin buraxılmasının xeyirxahlıq olduğunu ifadə edən cümlələr yazın.**

______________________________

______________________________

______________________________

**10. Söz birləşmələrindən, məcazlardan, faktlardan istifadə etməklə quşlara qayğı ilə bağlı mətn tərtib edib yazın.**

______________________________

______________________________

______________________________

# Plastmas

Plastmas istənilən formanı ala bilən süni materialdan hazırlanır. Plastmasdan sellofan paketlər, fincan, nimçə və mebellərə qədər hər şey düzəltmək olar.

Plastmasların çoxunu neft emalı zamanı əmələ gələn kimyəvi maddələrdən istehsal edirlər. Onların istehsalı üçün həm də daş kömürdən, əhəngdaşından, duzdan və sudan da istifadə olunur. Plastmaslar bərk, (əyilən) və ya duru olur.

Radioqəbuledicilərin və fotokameraların korpuslarını hazırlamaq üçün bərk plastmaslardan istifadə olunur. Bərk plastmasların nazik liflərindən yumşaq neylon corablar toxuyurlar. Bəzi torbalar və maye üçün qablar "polietilen" adlanan yumşaq plastmasdan düzəldilir. XIX əsrin sonlarında istehsal olunmağa başlayan sellüloid ilk plastmasdır.

**II** Plastmas məmulatların hazırlanması prosesinə ştamplama deyilir. **III** Plastmas qranulaları qızdırıldıqdan sonra qəlibə tökülür. **IV** Plastik məmulatların ştamplanmasının başqa bir üsulu da mövcuddur. **V** Bu üsuldan plastmas çubuqların və ya plastik plyonka lövhələrinin istehsalı zamanı istifadə olunur. **I** Qaynar ştamplama adlandırılan bu üsulla qızmış plastması xüsusi dəliklərdən itələyərək keçirirlər.

Gündəlik həyatımızda biz plastmasdan hazırlanmış bir çox məişət əşyalarından istifadə edirik. Onlar ucuz başa gəlməklə yanaşı, həm də dəmir məmulatlarına nisbətən çox yüngül olur.

*(İşləyəni: S. İbrahimov)*

**11. Fərqləndirilmiş ifadələrdən biri mətndə altından xətt çəkilmiş sözün şərhi ilə bağlıdır:**

A) Böhtan xarakterli *materiallardan* heç biri təsdiq olunmadı.
B) Tikintiyə aid *sənədlər* qovluqlara yığıldı.
C) Musiqinin qədimliyi ilə bağlı kifayət qədər *mənbə* mövcuddur.
D) Taxta, şalban, qum və sairə də tikinti *materiallarıdır.*
E) Məqalədə XIX əsr aşıq poeziyasına aid *materiallardan* da istifadə olunur.

**12. *"Onlara şüşə, metal, ağac və başqa materialların görkəmini vermək olur"* cümləsi hansı hissəyə əlavə edilsə, mətn genişlənər və tərkib hissələri arasında əlaqə *pozulmaz*?**

A) birinci → abzasın sonuna
B) ikinci → abzasın sonuna
C) dördüncü → abzasın sonuna
D) üçüncü → abzasın əvvəlinə
E) beşinci → abzasın əvvəlinə

**13. Mətnə görə doğru fikirdir:**

1. Neft emalı zamanı kimyəvi maddələr əmələ gəlir.
2. Plastmas istehsalında müxtəlif üsullardan istifadə edilir.
3. Plastmaslar süni yolla istehsal olunur.
4. Məişətdə plastmasdan istifadə təhlükəlidir.
5. İlk plastmas istehsalına XXI əsrdə başlanıb.

A) 2,3,4   B) 1,2,3   C) 3,4,5   D) 1,2,4   E) 1,2,5

**14. Hansı nümunə mətndəki fikirləri daha yığcam şəkildə ifadə edir?**

A) Plastmas istehsalında müxtəlif qatqılardan istifadə olunur və onun üç forması var.
B) Süni yolla əldə olunan ən yüngül avadanlıqlardan məişətdə istifadə olunur.
C) Plastmas istehsalının əsasını neft təşkil edir.
D) Məişət şəraitində də ucuz, yüngül, daha faydalı plastmas istehsal olunur.
E) Plastmas müxtəlif üsulla alınır və ondan istifadə edilməsi faydalıdır.

**15. Klasteri tamamlayın.**

Plastmasdan hazırlanmış əşyalar
- ucuz başa gəlir.
- müxtəlif üsullarla istehsal olunur.
- ______
- ______

**16. Mötərizə daxilində verilmiş sözü boş xanaya yazın və sözün mətndəki mənasını şərh edən fikirləri oxlarla əlaqələndirin.**

[ ]

- Heç kimin qarşısında baş əymək istəmir.
- Həqiqi mənadadır
- Boynunu qatlayıb çiyninə qoymaq
- O, düşmən qarşısında əyilən adam deyil.
- Məcazi mənalıdır.
- Yeriyəndə belini bükürdü.

**17.** ***“Məişətdə plastmasdan hazırlanmış avadanlıqlardan istifadə etmək ailə büdcəsi üçün faydalıdır”*** **fikrini mətndə** ***olmayan*** **faktlarla əsaslandırıb yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**18. 4-cü abzasa əsasən boş xanalara uyğun Roma rəqəmləri yazmaqla uyğunluğu müəyyən edin. (✓)**

Cümlələrin ardıcıllığı → ☐ doğrudur.
→ ☐ yanlışdır.

Çünki ardıcıllıq belə olmalıdır:

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| | | | | |

**19. İkinci abzasın məzmunu ilə bağlı aşağıdakı sayda suallar tərtib edib yazın.**

1 ☐ ______________________________________________

2 ☐ ______________________________________________

3 ☐ ______________________________________________

**20.** ***“Gündəlik həyatımızda plastmas avadanlıqların rolu danılmazdır”*** **mövzusunda faktlar əsasında mühakimə tipli esse yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

# E variantı

## Çanaqqala savaşında

Çanaqqalada vətənini 1 **canları bahasına** 2 **müdafiə edən** türk əsgərləri düşmənlərini belə 3 **heyrətlərə qərq edirdi**. Bütün dünya bu əsgərlərin sadəcə igidliyinə deyil, insanlığına və mərhəmətinə də 4 **şahidlik edirdi**. Gelibolu yarımadasında, Conk çölündə və 5 **birləşmiş qüvvələr arasında** qorxunc səngər müharibələri gedirdi. Səngərlər arasında ancaq 8-10 metr məsafə vardı. Heç bir sipərdən heç kəs çıxıb bir-birinə kömək edə bilmirdi. Səngərdə olan hər kəs mümkün olduğu qədər səngər divarının yaxınına və ya üzüstə uzana bilirdi. Torpaq yerindən titrəyir və havadan gələn mərmilər və toplar səngərdəkilərin üstündən keçirdi. Ən kiçik tərpənişdə yüzlərcə güllə yağış kimi yağırdı. Partlayışı eşitdiyin müddətcə sağ-salamat idin, partlayışı eşitmirsənsə, onsuzda ölü idin. Məşhur süngü hücumundan sonra müharibəyə fasilə verildi və bir neçə saatlıq atəşkəs elan edildi. Müxbirlər bir-biri ilə maraqlı söhbət etdilər. Əsgərlər səngərlərinə çəkildilər.

Hər qarşıdurmada olduğu kimi, səngərdəki yaralı və ölülər toplanmağa başlandı. İki sipər arasında açıq sahədə ağır yaralı və bir ayağı qopmaq üzrə olan ingilis əsgəri səsi gəldiyi qədər qışqırır, ağlayır, çırpınır, yalvarır və kömək istəyirdi. Tam bu məqamda ağlasığmaz bir hadisə yaşandı. Türk səngərlərindən ağ bir parça yelləndi. Bunun arxasınca çox cüssəli bir türk əsgəri silahsız şəkildə səngərdən çıxdı. Hər kəs donub qalmışdı. Hər kəs nəfəsini tutmuş və ona baxırdı. Əsgər yavaş addımlarla hərəkət edərkən düşmənlər səngərdən nişan alıb gözləyirdilər.

Türk əsgəri yaralı ingilis əsgərini sanki sığallayırmış kimi yerdən qaldırdı. Qolunu çiyninə atdı. Birləşmiş qüvvələrin səngərlərinə doğru hərəkət etməyə başladı. Yaralını yavaşca yerə qoyub öz əsgərlərinə təslim etdikdən sonra gəldiyi kimi yenidən öz <u>səngərinə</u> geri döndü. İngilis əsgərləri təəccübdən elə donub qalmışdılar ki, ona təşəkkür belə edə bilməmişdilər. Savaş sahəsində günlərcə bu qəhrəman türk əsgərinin cəsarəti, gözəl hərəkəti, mərhəməti və insan sevgisi haqqında danışıldı.

Çünki məhmətcik məğlub etdiyi əsgərlərin yarasını sarmaqda da usta idi!

*(İşləyəni: S. İbrahimov)*

**1. Altından xətt çəkilmiş sözün kontekstə uyğun mənasının doğru şərhini müəyyən edin.**

A) Döyüş bölgələrinə uyğun qarşı tərəfin atəşindən qorunmaq üçün qazılan çuxur.
B) Canlı sipər, düşməndən gizlənmək üçün istehkam
→ Məcazi mənadadır.

C) Döyüşən tərəflər arasında yaralıların verilməsi üçün yer → Həqiqi mənadadır.

D) Güllələrdən, qəlpədən qorunmaq üçün qazılan xəndək
E) Yolun kənarında, çayın sahilində əmələ gələn yarğan
→ Həqiqi mənadadır.

**2. Venn diaqramında hansı məlumatların yeri dəyişdirilsə, ifadə olunan fikirlər mətnə görə doğru olar?**




A) 2 ⟷ 6    B) 3 ⟷ 5    C) 1 ⟷ 5    D) 2 ⟷ 4    E) 1 ⟷ 4

**3. Hansı suallar mətnin məzmunu ilə bağlı *deyil*?**

1. İngilislər kimə qarşı döyüşürlər?
2. Türk səngərində ağ parça qaldırılmasının mənası nədir?
3. Döyüşdə atəşkəs baş verdimi?
4. Türk əsgərlərini təəccübləndirən nə idi?
5. Conk çölündə niyə hospital yoxdur?

A) 2,4,5    B) 3,4,5    C) 3,2    D) 1,2    E) 4,5

**4. Mətnə görə daha çox kimin hərəkətləri məmnunluq hissi ifadə edir?**

A) yaralını aparan əsgərin
B) ingilis əsgərinin
C) bütün yaralıların
D) birləşmiş qüvvələrin səngərdəki əsgərlərinin
E) türk əsgərinin apardığı yaralıların

**5. Mətnin məzmununu əhatə edən ümumiləşmiş fikirdir:**

A) İnsaf da dinin yarısıdır. (Atalar sözü)
B) Düşməni öldürmək əvəzinə, onu şəfqət və mərhəmətinlə ram et. ( C.Allen)
C) Harada qardaşlıq olarsa, orada mərhəmət olar. (C.Rumi)
D) Ən az mərhəmət edənlər ən böyük günah edənlərdir. (Bomarşe)
E) Pis sülh yaxşı savaşdan daha yaxşıdır. (Puşkin)

**6. Mətnə görə hansı fikir *yanlışdır*?**

A) Ölümdən mərhəmət sayəsində xilas olmaq mümkündür.
B) Düşmənə də mərhəmət göstərilər.
C) Düşmən səngərinə silahsız da getmək olar.
D) Düşmən ehtiyatı əldən verir.
E) Türkə də qayğı ilə yanaşan olub.

**7. *"Məhmətcik ölüm-dirim savaşında belə düşməni təəccübləndirmək qüdrətinə malikdir"* nümunəsi üstündə rəqəm yazılmış hansı ifadənin şərhinə uyğundur?**

A) 4　　B) 1　　C) 5　　D) 2　　E) 3

**8. İlk sözünə görə daha yüksək səs tonu ilə deyilməli olan cümlədir:**

A) Bunun　　B) Savaş
C) Tam　　D) Çünki
E) Qolunu

**9. Mətn kimin dilindən danışılır?**

A) şahidin
B) yaralı ingilis əsgərinin
C) həkimin
D) yaralını aparan əsgərin
E) naşirin

**10. Mətnə görə uyğunluğu müəyyən edin:**

1. Türk əsgəri
2. İngilis əsgəri

a. Köməyə möhtacdır.
b. İntiqam hissi güclüdür.
c. Soyuqqanlıdır.
d. Yad torpağındadır.
e. Əməlindən peşmandır.

A) 1-e; 2-b, c
B) 1-d, e; 2-b
C) 1-c; 2-a, d
D) 1-a,d; 2-c
E) 1-b; 2-e

**11. Birinci abzasın məzmununa uyğun *olmayan* cümləni müəyyən edib yazın.**

________________________________________________________________

________________________________________________________________

**12. "*Ən yaxın səngərin qarşısında dayandı*" cümləsi hansı hissəyə əlavə edilsə, mətnin tərkib hissələri arasında əlaqə *pozulmaz*? (✓)**

_____ abzasdan _______ → ☐ sonra
→ ☐ əvvəl

**13. Mətnə görə boş xanalara müvafiq rəqəmlər yazmaqla uyğunluğu müəyyən edin.**

1. Səngərlərin dərinliyi 8 metrdən çoxdur.
2. Hər iki tərəfin səngərində ağ parça var.
3. Hadisə XXI əsrdə baş verir.

4. Tərəflər arasında sülh bağlanılır.
5. Yaralı ingilisin xatirinə türk əsgəri təslim olmaq üçün ağ parça yellədir.

| Doğrudur | | | | |
|---|---|---|---|---|
| | | | | |

| Yanlışdır | | | | |
|---|---|---|---|---|
| | | | | |

**14. Çərçivə daxilində verilmiş sözün kontekstdəki mənasına uyğun şərhini yazın.**

______________________________________________

**15.** ***"Çanaqqalada türk əsgərləri canlarını vətən üçün qurban verməyi şərəf hesab edirdilər"*** **mülahizəsini Qarabağ uğrunda həlak olmuş şəhidlərlə əlaqələndirməklə fikrinizi yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**16. Mətni sonluğuna uyğun cümlələr artırmaqla genişləndirin.**

______________________________________________

______________________________________________

______________________________________________

**17. Yaralı ingilis əsgərinin vəziyyəti ilə bağlı sual tərtib edib yazın.**

______________________________________________

______________________________________________

**18.** **Balzakın "*Mərhəmət insani dəyərlərin şahıdır*" aforizmini türk əsgərinin hərəkəti ilə əlaqələndirməklə fikirlərinizi yazın.**

________________________________________

________________________________________

________________________________________

**19.** ***Yaxşıdır, kin, qəzəb, mərhəmət, hər zaman, daha*** **ifadələrindən istifadə etməklə mövzuya uyğun bir neçə cümlə tərtib edib yazın.**

________________________________________

________________________________________

________________________________________

**20.** **"*Cəsarətli insanlardan ölüm də uzaq qaçar*"mövzusunda faktlardan, məcazlardan istifadə etməklə esse yazın.**

________________________________________

________________________________________

________________________________________

________________________________________

________________________________________

# II

# HİSSƏ

## TEST TAPŞIRIQLARI

# İZAHAT VƏRƏQİ

Uzun müddətdir ki, Azərbaycan Respublikasında bilik və bacarıqların yoxlanılmasında test metodundan uğurla istifadə edilməkdədir. Testologiyaya yanaşmada yeniliklərin tətbiqi həmişə diqqət mərkəzində olmuşdur. Bu, bir tərəfdən qiymətləndirmə sahəsində beynəlxalq təcrübə ilə əlaqədardırsa, digər tərəfdən Respublikada kurikulum-yönümlü tədris vəsaitlərindən istifadə ilə bağlıdır. Buna görə də **"Azərbaycan dili-9"** (Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları) vəsaitinin II hissəsinə aid test tapşırıqlarının hazırlanmasında da göstərilən amillər nəzərə alınmışdır.

Vəsaitin I hissəsindəki tapşırıqlar **"Yazı"** və **"Oxu"** məzmun xətləri üzrə 9-cu sinif səviyyəsində bilik və bacarıqların, II hissəsindəki tapşırıqlar isə V-IX siniflər üzrə ancaq **"Dil qaydaları"** məzmun xətti ilə bağlı bilik və bacarıqların yoxlanılması üçün nəzərdə tutulmuşdur.

Vəsaitə daxil edilmiş tapşırıqların hazırlanmasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi **"Azərbaycan dili-9"** (2016) dərslik dəsti əsas götürülsə də, vəsait yalnız IX sinfin dərsliyi, eləcə də **"Dil qaydaları"** məzmun xəttinin ancaq IX sinfə aid alt standartları ilə məhdudlaşmır. 4 bölmədən, 4 tədris vahidindən ibarət olan **"Azərbaycan dili-9"** dərsliyinin 1-ci – **"Dil, təhsil və cəmiyyət"** adlı tədris vahidi, əsasən, V-VIII siniflərdə keçilən dil qaydalarının təkrarlanması ilə bağlı olduğundan bu bölməyə aid tapşırıqlar da təkrar xarakterlidir. Məntiqi təfəkkürə əsaslanan, forma cəhətdən klassik ənənələri saxlamaqla bərabər, Venn diaqramı, klaster və s. kimi yeni metodlara uyğun hazırlanan həmin tapşırıqlarla **fonetika** (sözün səs tərkibi, orfoqrafiyası və s.), **leksika** (sözün semantikası və s.), **söz yaradıcılığı** (sözün tərkibi, quruluşu, yaranma üsulları və s.), **morfologiya** (əsas və köməkçi nitq hissələri, sözün qrammatik mənası: ad, əlamət, hərəkət, miqdar, qüvvətləndirmə, hiss həyəcan və s. bildirməsi) və **sintaksisə** (nitq hissələrinin cümlədə rolu, xitab, ara sözlər, cümlənin qrammatik əsası, II dərəcəli üzvlər, sintaktik əlaqələr, cümlənin quruluşca növləri, sadə cümlə, durğu işarələri və s.) aid bilik və bacarıqları yoxlamaq mümkündür. Sonrakı bölmə və tədris vahidlərinə aid hissələrdə isə **sintaksisə** (mürəkkəb cümlə - tabesiz mürəkkəb cümlə və tabeli mürəkkəb cümlə;

vasitəsiz nitq, vasitəli nitq, dialoq, durğu işarələri və s.) aid bilik və bacarıqları yoxlamaq mümkündür.

1-ci bölməyə aid **"Dil, təhsil və cəmiyyət"**, 2-ci bölməyə aid **"Müvəffəqiyyət və cəmiyyət"** adlı tədris vahidlərindən sonra birinci yarımilə, 3-cü bölməyə aid **"Mənəviyyat və cəmiyyət"** və 4-cü bölməyə aid **"Mədəni irs və cəmiyyət"** adlı tədris vahidlərindən sonra isə ikinci yarımilə, eləcə də illik materiallara aid bilik və bacarıqları yoxlamaq mümkündür. Nəhayət, sonda verilmiş və mürəkkəblik dərəcəsinin bütün səviyyələrini əhatə edən V-IX siniflər üzrə dil qaydalarına (**IV məzmun xətti**) aid ümumi tapşırıqların hər biri konkret olaraq bir alt standartla bağlıdır.

Vəsait yalnız ondan tədris prosesində istifadə edən şagirdlər üçün deyil, buraxılış imtahanlarına və müvafiq kolleclərə qəbul imtahanlarına hazırlaşanlar, eləcə də yeni təhsil proqramı (kurikulum) üzrə diaqnostik, formativ və summativ qiymətləndirmə vasitələri hazırlayan tədris işçiləri üçün faydalı olacaqdır.

**Müəlliflər**

Tədris vahidi: **1**

# V-VIII siniflərdə keçilmişlərin təkrarı

Bölmə: **DİL, TƏHSİL VƏ CƏMİYYƏT**

## A variantı

**1. Hansı sözlərə saitlə başlanan şəkilçi qoşulduqda söz kökü dəyişər?**
A) yarat, get B) qaçır, uçur
C) qazan, dayan D) görün, yazıl
E) üzül, bacar

**2. "Dönəm" sözünün leksik təhlili ilə bağlı *səhvi* göstərin.**
A) Köhnəlmiş söz deyil
B) Ümumişlək sözdür.
C) Leksik mənasına görə mərhələ deməkdir.
D) Antonimi yoxdur.
E) Omonim kimi işlənə bilməz.

**3. Hansı nümunədə ahəng qanunu *pozulmuş* milli söz var?**
A) Səndən iraq, ey sənəm, şamü səhər yanaram.
B) El atan daş uzağa düşər.
C) Pəhləvan hər dəfə yıxılanda təzə bir fənd öyrənər.
D) Boğazdan ötrü dostu güdaza verməzlər.
E) Silah atan yerdə sınaq da olar.

**4. Hansı sözdəki bütün "o" hərfləri [a] kimi tələffüz olunur?**
A) odekalon B) omonim
C) şokolad D) monoloq
E) pomidor

**5. Sözlərin birində "k" hərfi "g" samitinin kar qarşılığı kimi deyilir:**
A) kauçuk B) pişik C) bəlkə
D) məktub E) bitki

**6. Hansı misrada yazılış və tələffüzü fərqlənən söz *yoxdur*?**
*O ceyran baxışlı baxdı uzaqdan,*
*Canımı odlara yaxdı nahaqdan,*
*Yüz il də dolanıb keçsə o vaxtdan,*
*Unutmaz aləmdə əhli-hal məni.*
*(S.Vurğun)*
A) I, II B) II C) III D) IV E) II, IV

**7.** *Aldım atamdan,*
*Gəncədə satandan,*
*Qu tükündən yüngül,*
*Qırağı qızılgül.*
**Tapmacada çıxışlıq halla bağlı *səhv* fikir:**
A) Yazılışı və deyilişi fərqlənir.
B) Sözlərdən ikisi isimdir.
C) Sözlərdən birində çıxışlıq hal mənsubiyyət şəkilçisindən sonra işlənmişdir.
D) Suallarında fərq var.
E) Eyni cümlə üzvüdür.

**8. Hansı cümlədə vacib şəklində olan feil işlənmişdir?**
A) Babam düyməli paltarı, köynəyi çox xoşlar.
B) Azərbaycanda gəzməli yerlər çoxdur.
C) Başıçalmalı dağlar ilham mənbəyidir.
D) Evə gələn qonağı ədəblə qarşılamalısan.
E) Onun gözləri sürməlidir.

**9. Hansı cümlədə *hara*? sualına cavab verən söz olsa da, zərf *deyil*?**

A) Marş irəli, Azərbaycan əsgəri!
B) Yuxarı baxıram, bığdır, aşağı baxıram, saqqaldır.
C) Bakı gözəl, mehriban şəhərdir.
D) Aprel döyüşlərində ordumuz ermənilər geri oturtdu.
E) Üzüaşağı dığırlanan daş gurultu qopartdı.

**10. Atalar sözlərindən hansında qrammatik əsaslardan biri *yoxdur*?**

A) Ehtiyat igidin yaraşığıdır.
B) Çıraq dibinə işıq salmaz.
C) Bir işıqda min adam oturar.
D) Yıxılana gülməzlər.
E) Böyük sözün eşitməyən böyürə-böyürə qalar.

## B variantı

**1. Hansı cümlədəki feildə subyekt hərəkəti öz üzərində icra edir?**

A) Yaşıl çəmənlər, göy zəmilər qızılı rəngə boyandı.
B) Qapının zəngi çalındı.
C) Torpaq şumlandı.
D) Toxum səpildi.
E) Zəmilər biçildi, küləş daşındı.

**2.** *İnsanın bəzəyi, şərəfi, məncə,*
*Deyildir nə ipək, nə tirmə, oğlum!*
*Yaxşıdan yaxşı ol ellər içində,*
*Kimsəyə bir ziyan yetirmə, oğlum!* (S. Rüstəm)

Nümunədə ***işlənməyib***:

1. Ara söz
2. Xitab
3. Cümlə üzvünün əlavəsi
4. Həmcins üzv

A) 2 B) 1, 3 C) 3 D) 1, 4 E) 2, 4

**3. Nümunədə əsas nitq hissəsinə aid *olmayan* hansı nitq hissələri işlənmişdir?**

*Dayan, ey külək!*
*Ağlama, ey tufan, ey şimşək!*
*Alışdı mum kimi, söndü varlığım.*
*Söndü hər əməlim, bəxtiyarlığım.* (S.Vurğun).

A) bağlayıcı, ədat B) nida, ədat
C) bağlayıcı, qoşma D) nida, qoşma
E) modal söz, qoşma

**4. Hansı cümlədə danışanın ifadə etdiyi fikrə münasibət bildirən söz *yoxdur*? (Durğu işarələri məqsədli buraxılmışdır.)**

A) Əfsus ki yarım gecə gəldi, gecə getdi. Heç bilmədim, ömrüm necə gəldi, necə getdi. (Ağabəyim ağa)
B) Kaş ki gördüklərim yuxu olmaya.
C) Neçə vaxtdı yolum düşmür,
Yəqin dağlar küsüb məndən. (M.Araz)
D) Məncə insanın dünyagörüşünü üç amil müəyyən edir: onun Allah anlayışı, içindəki "mən"i və təhsili.
E) Mənəvi saflıq doğrudan da ən böyük sərvətdir.

**5. Nümunədə hansı köməkçi nitq hissələri işlənmişdir?**

*Bulud gedər, şimşək çaxar,*
*Ay da durub qəmli baxar,*
*Yağış kimi ulduz yağar.*
*Göylərlə yer qovuşanda.*

(N.Xəzri)

A) bağlayıcı, ədat
B) ədat, qoşma
C) bağlayıcı, qoşma
D) modal söz, qoşma
E) modal söz, nida

**6. Hansı mürəkkəb adın yazılışında *səhv* var?**

A) Azərbaycan Respublikasının Baş Naziri
B) Beynəlxalq Ana Dili günü
C) Naxçıvan Muxtar Respublikası
D) Qori Müəllimlər Seminariyası
E) Yeni  Azərbaycan Partiyası

**7. Biri feili birləşmə *deyil*:**

A) işğal altındakı torpaqları azad etmək
B) çayın şırıltısından həzz alanda
C) tarixi kitabları vərəqləyən
D) M.Ə.Sabirin  "Molla Nəsrəddin" jurnalındakı şeirləri
E) vətənin keşiyində duranlar

**8. Hansı qeyri-müəyyən vasitəsiz tamamlıq işlənmiş cümlənin sxemidir?**

A) 
B) 
C) 
D) 
E) 

**9. Sxemdəki *səhv* hansı bənddədir?**




**10. Hansı müəyyən şəxsli cümlə *deyil*?**

A) Dünya malına həris olan heç kəslə dost ola bilməz. (A.Bakıxanov)
B) Xasiyyət uzun müddətin vərdişidir. (Plutarx)
C) Yalan cinayətlər üçün qida mənbəyidir. (H.Heyne)
D) Sözün doğrusunu zarafatla deyərlər.
E) Sözün doğrusunu danışmaq da hünərdir. (C.Məmmədquluzadə)

## C variantı

**1. Hansı bənddə qeyri-müəyyən təsirlik halda olan söz *yoxdur*?**

A) El bir olsa, dağ oynadar yerindən,
Söz bir olsa, zərbi kərən sındırar.
B) Gün batandan sonra otaq süpürməzlər.
C) Biri sazı dilləndirər, biri sazı dınqıldadar.
D) Qəbrimin üstünə dünyanın çirkab sularını buraxsalar, o, ləkə götürməz.(S.Rəhimov)
E) Mədəni təmizləməyin ən yaxşı üsulu kartof suyu içməkdir.

**2. Hansı cümlələrdə altından xətt çəkilmiş sözlər omonimdir?**

1. Əsər müəllifi kimi mükafata layiq görülmüşdür.
2. Axşamlar külək əsər, bağ-bağçaya sərinlik gətirərdi.
3. İndi qorxudan əsər qalmamışdı.

A) 1, 2 B) 1, 3 C) 2, 3
D) 1, 2, 3 E) heç biri

**3. Hansı cümlələrdəki *o, bu* əvəzliklərindən sonra qoyulmuş vergül *səhv* işlənmişdir?**

1.O, yerlərin təbiəti füsunkardır.
2.O, birinci sinfə gedir.
3.O, səninlə uzun illərin yoldaşıdır.
4.O, gedərkən mən evdə olmamışam.
5.Bu, "Koroğlu" eposu haqqında yeni öyrəndiyim məlumatdır.

A) 1,2,4 B) 3,4,5 C) 2,3,5
D) 1,3,4 E) 2,3,4

**4. *Çağdaş* sözünün leksik təhlili ilə bağlı *səhvi* göstərin.**

A) Sinonimi var.
B) Antonimi var.
C) Leksik mənası müasir deməkdir.
D) Ümumişlək sözdür.
E) Omonim kimi işlənə bilməz.

**5. Hansı cümlədə fikrin təsirli ifadə olunmasına kömək edən söz *işlənməmişdir*?**

A) Bəli, mən sənə güvənirəm.
B) Qoy həmişə anam olsun.
C) Xoşuna gəldimi Kürün kənarı?
D) Görüm səni yüz yaşayasan.
E) Götürdüklərini yerinə səliqəli qoy.

**6. Hansı cümlədə təsriflənməyən feillərin hamısı işlənmişdir?**

A) Dünyada eyni cür düşünən iki insan tapmaq çətindir. (Klauber)
B) Öz qəlbinin açarını tapan adam başqasının qəlbinin açarını tapanda sevinməyə başlayacaqdır.
C) Məhəbbətlə sıxılmayan əlin hərarətini anlamaq çətindir. (Engels)
D) Mərd adam olmaq on minlərin içindən seçilmək deməkdir. (Şiller)
E) Əsl igidlik bəbəxtlik üz verərkən təzahür edir. (Volter)

**7. Hansı cümlədəki köməkçi nitq hissələrinin sinonimliyi *yanlış* verilmişdir?**

A) Dağa doğru (sarı, tərəf) uzanan yol dərədən başlayırdı.
B) Madam ki (bir halda ki, indi ki) xahiş edirsiniz, həqiqəti danışacağam.
C) Vicdanın dişi yoxdur, ancaq (amma, lakin) o dişləyir.
D) Hər ümidsizlikdə bir ümid, hər qaranlıqda bir işıq yaşayır, yalnız (ancaq, təkcə, bircə) səbir və mətanət lazım. (H.Cavid)
E) Təmiz vicdan, əlbəttə, (doğrudan da, heyif ki) insan üçün ən yaxşı yastıqdır. (İbsen)

8. *<u>Gilə-gilə</u> yağır yağış,*
*<u>Dama-dama</u> göl olur.*
**Altından xətt çəkilmiş sözlər morfoloji baxımdan nədir?**
A) zərf, feli bağlama
B) zərf
C) feli bağlama
D) sifət, feli bağlama
E) feli sifət

**9. Hansı cümlədə hiss-həyəcan ifadə edən sözlər *işlənməmişdir*?**
A) Ey oğul, bil ki, adəmi-bikar
Xüşk olan bir odundur, layiqi nar.
(S.Ə.Şirvani)
B) Of, yenə keçmişlərim düşdü yadıma.
(S.Rüstəm)
C) Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?!
(M.Müşviq)
D) Başqalarının sözünə az uy. Çalış ki, ürəyinin söylədiklərini edəsən.
E) Sən nə yamansan, a buz!
Adam yıxansan, a buz! (M.Ə.Sabir)

**10. Hansı cümlədə feili bağlama işlənmişdir?**
A) Təbiət tərəfindən verilmiş ana adı qadına ən yaxşı töhfədir.
B) Həyatda gülərək addımlamaq onu göz yaşı ilə isladaraq keçməkdən yaxşıdır. (P.Taqor)
C) Qadın uşaqdır. Lakin çox sevilən uşaqdır. (Monteskye)
D) Söz qurtarandan sonra musiqi başlanır.
E) Xəyal yeganə cənnətdir ki, orada təqib olunmuruq. (Puşkin)

# D variantı

**1. Nümunələrdəki söz birləşmələrinin 1-ci tərəfinin sonundakı cingiltili samitlərdən hansı deyilişdə *karlaşmır*?**
A) ağac yarpağı
B) kitab oxumaq
C) pələng dərisi
D) kənd həyatı
E) fındıq qabığı

**2. Hansı cərgədəki frazeoloji birləşmələr sinonim *deyil*?**
A) gen dünyanı başına dar etmək - göz verib işıq verməmək
B) cin atına minmək - hirsi təpəsinə vurmaq
C) hövsələdən çıxmaq - səbir kasası dolmaq
D) dilotu yemək - dil-dil ötmək
E) ipini yığmaq - yüyənini boş buraxmaq

**3. Sözlərdən biri quruluşuna görə *fərqlidir*:**
A) sınaq B) dayaq
C) qoruq D) soyuq
E) moruq

**4. Hansı atalar sözündə ismin sualına cavab verən sifət *yoxdur*?**
A) Gözəl görünər, çirkin bürünər
B) Arığın nə işi var cığırda, çaqqal onu çığırda.
C) Biləkli birin yıxar, biliki minin
D) Ağıllı baş salamat olar.
E) Dəliyə yel ver, əlinə bel ver.

**5. Hansı cümlədə düzəltmə isim *yoxdur*?**
A) Azərbaycan dili çox mükəmməl dildir və böyük söz ehtiyatına malikdir.
B) Şairlə görüş məktəbin akt zalında keçirildi.
C) Təmizlik olmayan yerdə sağlamlıq da olmaz.
D) Yanğınlar yağsa da yerə göylərdən,
Əl işdən soyumaz, ürək arzudan.
E) Bağlayıcı sözləri və cümlələri bağlayır.

**6.** *"Üzməyi bacarmadığım üçün sahilə çıxdım"* **cümləsindəki sözlərin morfoloji təhlili ilə bağlı *səhvi* göstərin.**
A) Üzməyi – təsirlik hal şəkilçili isimdir.
B) Bacarmadığım – inkarda işlənən feli sifətdir.
C) Üçün – səbəb qoşmasıdır.
D) Sahilə – yönlük hal şəkilçili isimdir.
E) Çıxdım – şühudi keçmiş zaman şəkilçili feldir.

**7. Nümunələrin birində bağlayıcı *işlənməmişdir*:**
A) Fanatizm, səbirsizlik yayan və sakitliyi pozan adamlardan uzaq olun.
B) İnsanlar inama ancaq inamla cavab verə bilər.
C) Hamı üçün həyat qiymətlidir, təmiz adam üçün namus həyatdan da qiymətlidir.
D) Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər seyi kamil biləsən.
(N.Gəncəvi)
E) Əgər məhəbbətlə yaşasan, bahar səninlə əbədi yaşar.

**8. Cümlələrin birində III növ təyini söz birləşməsi işlənmişdir:**
A) Dəli könül, nə divanə gəzirsən,
Bivəfa gözəldən sənə yar olmaz.
B) Təbiət ən kamil sənət əsəridir.
C) Sənətin nümunəsi və zövqün ilk məhəbbəti təbiətdir.
D) Ölümdən qorxan insan heç nəyə nail ola bilməz.
E) Adam yüksələndə əhdini pozmaz.

**9. Cümlələrin birində yanaşma əlaqəsi təyinlə təyin arasındadır:**
A) Ağılsız adam həmişə hünərsiz olar.
B) Kamil təhsilin ilk şərti nümunədir.
C) Başla ürək mənəvi əkizlərdir. Onlardan hər birinin ixtisara düşməməsi qayğısına qal.
D) Təmiz vicdan bizə təəccüb ediləcək qədər təsəlli verir.
E) Beşmərtəbəli daş binalar da şəhərimizə yaraşıq verir.

**10. Hansı cümlədə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər *işlənməmişdir*?**
A) Oğul, fayda yoxdur biz qoyan addan.
Özün hünər göstər, özün ad qazan.
B) Ey insan, bu səndə olan ehtiras
İnan ki, yırtıcı köpəkdə olmaz.
C) Həqiqətən, vicdan məhkəməsi ən ali məhkəmədir.
D) Məncə, bəşəriyyətin tərəqqisinə həm də o cəhət mane olur ki, adamlar ağıllı danışanı deyil, bəlkə də, yüksək danışanı eşidirlər.
E) Təlim asan olarsa, döyüş çətin olar, təlim çətin olarsa, döyüş asan olar.

# E variantı

**1. Hansı cümlədə zərf var?**
A) Bu məsələni mən də elə yazmışam.
B) Çıxıbdır dərəyə, düzə lalələr.
C) Ağacdələn, qapımı az döy görüm.
D) Yaman günün ömrü az olar.
E) Yaxşı gündə yarü yoldaş çox olur,
Yaman gündə heç bulunmaz, yox olur.
(M.V.Vidadi)

**2. Hansı bənddə numerativ söz *işlənməmişdir*?**
A) Həkim xəstənin gözünə iki damcı dərman tökdü.
B) Cütcü sürür tarlada cüt sur ilə...(M.Ə.Sabir)
C) Anamın doğum günündə ona bir dəstə gül bağışladım.
D) Yaşlı qadın beş vedrə su daşıyıb ağacların dibinə tökdü ki, qurumasın.
E) Dostum beş dənə kitaba üz çəkdi.

**3. Hansı cümlədə əmr şəklindəki feil II şəxsin cəmindədir?**
A) Qoy mən kül olum Kərəm kimi yana-yana. (N.Hikmət )
B) Yatma tülkü kölgəsində, qoy yesin aslan səni.
C) Sement verin, beton tökün,
Qacırmayın Kürü əldən. (S. Vurğun)
D) Açılan səhərlərə salam olsun.
E) Müxənnət qapısına ayaq basmayasan.

**4. Hansı cümlədəki *tək* sözü zərfdir?**
A) Daldası tez solar tək ağacın da. (B. Vahabzadə)
B) Çörəyini tək yeyən yükünü də tək qaldırar. (Atalar sözü)
C) Könlüm qaranquştək uçur qoynuna
Gəzir hər yamacı, hər yalı, yaylaq.
(Aşıq Ələsgər)
D) Tək mən deyiləm hüsnünə heyran.
E) Çoxu sən götür, təkə mən yiyə duraram.

**5. Hansı mürəkkəb sözün yazılışı *səhvdir*?**
A) kontr-admiral B) qeyri–adi
C) eks-cempion D) əks-kəşfiyyat
E) arasıra

**6.** *Üç gəlinin bir ağızdan gülməyi,*
*Kəhər atın dəli Kürü keçərək,*
*Baş sallayıb ağır-ağır gəlməyi* (S. Vurğun)
**Nümunədəki fellərlə bağlı düzgün fikirləri göstərin.**
1. Təsriflənməyən fellərdir.
2. Təsirlidirlər.
3. İkisi məsdər, ikisi feli bağlamadır.
4. Məlum növdədirlər.
5. İkisi məsdər, biri feli bağlama, biri xəbər şəklindədir.
A) 2, 3, 5 B) 1, 2 C) 4, 5
D) 2, 4, 5 E) 1, 3, 4

**7. Əgər cümlədə feil işlənməyibsə, orada ismin hansı halı ola *bilməz*?**
A) yiyəlik B) yönlük C) təsirlik
D) yerlik E) çıxışlıq

**8. Nümunədə təyin vəzifəsində çıxış edən sözlər morfoloji cəhətdən nədir?**
Gümüş kəmər incə beldə,
Xub yaraşır xal üstünə. (H.Bozalqanlı)
1. isim 2. sifət 3. say
4. zərf 5. əvəzlik
A) 1, 2 B) yalnız 1 C) 2, 5
D) yalnız 2 E) 3, 4

**9. Nümunədə təyin vəzifəsində çıxış edən sözlər morfoloji cəhətdən nədir?**
*Üç qızıl alma gəldi*
*Bir gümüş nəlbəkidə.*
1. isim 2. sifət 3. say
4. zərf 5. əvəzlik
A) 1,3 B) 1, 2 C) 2,3 D) 3, 4 E) 4,5

**10. Uyğunluğu müəyyən edin.**
1. Küsənlər barışdılar.
2. Küsənləri barışdırdılar.
3. Küsənlər barışdırıldılar.
a. məlum növdə b. qarşılıq
c. məchul növdə d. icbar növdə
A) 1-a; 2-a; 3-c B) 1-a; 2-d; 3-c
C) 1-b; 2-d; 3-c D) 1-b; 2-a; 3-d
E) 1-b; 2-d; 3-d

# F variantı

**1. Cümlə üzvünün əlavəsi nəyə aiddir və hansı durğu işarəsi buraxılıb?**

*Bu il Rüfət onun böyük qardaşı Bakı Dövlət Universitetinə daxil olmuşdur.*

A) xəbərə, tire
B) mübtədaya, tire
C) tamamlığa, tire
D) mübtədaya, defis
E) təyinə, defis

**2. *Səhv* yazılan söz hansıdır?**

A) nəhayət B) qənaət
C) əlbəttə D) əzmli
E) mayihət

**3. Azaltma dərəcəsində olan sifəti müəyyən edin.**

A) açıq-saçıq B) açıq-yaşıl
C) açıq-aşkar D) açıq-aydın
E) açıqürəkli

**4. Verilmiş saylar hansı ardıcıllıqla düzülsə, ən böyük ədəd alınar?**

milyon[1], otuz[2], yüz[3], min[4], yetmiş[5]

A) 3, 5, 1, 2 , 4 B) 5, 1, 3, 4, 2
C) 2, 1, 4, 2, 5 D) 2, 1, 4, 3, 5
E) 3, 2, 4, 5, 1

**5. Sözün leksik mənaları hansı yollarla izah edilir? Biri *səhvdir*:**

A) sözün hansı nitq hissəsi olduğunu göstərməklə
B) sözə yaxın mənalı söz seçməklə
C) əşya və hadisənin əlamətlərini sadalamaqla
D) sözün tərkib hissələrini izah etməklə
E) sözün antonimini inkarda işlətməklə

**6. Eyniköklü sözlər cərgəsini göstərin.**

A) yoxla(maq), yoxsul, yoxuş
B) daşlar, daşqın, daşsız
C) yanıq, yanaq, yanaş(maq)
D) solğun, soldakı, solacaq
E) üzlü, üzlə(mək), üzdəki

**7. Hansı sözü əvəzliklə əvəz etmək *olmaz*?**

A) yemək B) əlbəttə
C) yaxşıdır D) sənsiz E) onu

**8. Sözlərdən neçəsinə saitlə başlayan şəkilçi artırdıqda sözün son samiti *dəyişmir*?**

dirsək, idrak, şəkkak, çörək, müstəntiq, qaymaq, utancaq, xaliq

A) 3 B) 1 C) 5 D) 4 E)2

**9. Nümunədə təyin vəzifəsində çıxış edən sözlər morfoloji cəhətdən nədir?**

*Büllur buxaq, lalə yanaq, ay qabaq,*
*Şahmar zülflü pərişanlar dolanır.*
*(A.Ələsgər)*

A) isim B) feili sifət
C) əvəzlik D) isim, sifət
E) sifət

**10. Nümunələrdən birini həm sərbəst, həm də frazeoloji birləşmə hesab etmək *olmaz*:**

A) dabanına tüpürmək
B) gününü göy əsgiyə bükmək
C) ağzına su almaq
D) burnunun ucu göynəmək
E) yola düşmək

# G variantı

**1. Hansı ikihecalı isimdə sait düşümü *səhv* verilmişdir?**
A) Çörək ətri xəstəni də sağaldar.
B) Oğulum oğul olsun,
Kol dibi evim olsun.(El deyimi)
C) Bahar fəsli yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar. (Aşıq Ələsgər)
D) Qoymaram yadları girsin qoynuna,
İzin ver, qolumu salım boynuna. (S.Rüstəm)
E) Şeirin hər bir sətri misra adlanır.

**2. Xəbərlik şəkilçisi qəbul etmiş hansı ismin yazılışı ilə deyilişi *fərqlənmir*?**
A) Kitab bilik mənbəyidir (M.Qorki)
B) Siz də həkimsiniz?
C) Mən küləyəm, əsməsəm,
Kim bilər ki, mən varam. ( R. Rza)
D) Hamımız bir Günəşin zərrəsiyik.
E) O, uşaqdır, bunu bilməz.

**3. Hansı cümlədəki sıra sayının yazılışında *səhv* vardır?**
A) Latın qrafikalı Azərbaycan əlifbasındakı 32-ci hərfin adı "ze"-dir
B) IX sinif yarış qalibidir.
C) 1870-ci ildə işıq üzü görən "Əkinçi" qəzetinin cəmi 56 sayı çıxmışdır.
D) Osmanlı sultanı 1-inci Murad da hürufilik tərəfdarlarını təqib etmişdir.
E) İlham Zəkiyev dördüncü döyüşdə də qalib gəldi.

**4. Hansı cümlədə qoşmanın yazılışında *yanlışlığa* yol verilmişdir?**
A) Vətənçün yaşayan, Vətənçün ölən
Səmimi bir insan nə bəxtiyardır! (M.Müşviq)
B) Oxumaq öyrənməklə eyni anlayış deyil.
C) Bunu məndən ötəri etdiyini indicə bildim.
D) Karvan səhərəcən yol getdi.
E) Səndən başqa bu sirri kimsə bilmir.

**5. Hansı nümunədə mənsubiyyətə görə dəyişməyə rast *gəlinmir*?**
A) Mən onun sayəsində boya –başa çatmışam.
Məni anam yaratmış, mən aləm yaratmışam (Ş.Şəhriyar)
B) Mən bulağam, sifarişlə axmaram. (R.Rza)
C) Sənət həyatın dərsliyidir.( Çenişevski)
D) Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən. (N.Gəncəvi)
E) Qadının xarici gözəlliyi deyil, sədaqəti mənim məhəbbətimə layiq ola bilər.(Şekspir)

**6. Nümunədəki cümlələrin birində saydan sonrakı ismin təkdə və cəmdə olmasında *səhv* vardır:**
A) Bir işığa min adam oturar. (Atalar sözü)
B) Onlarla tələbə tanıyıram ki, müəllimini ustad bilirlər.
C) Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam. (B.Vahabzadə)
D) Xeyli işlər var ki, tez görməliyəm.
E) 30-cu illər xalqımızın genefonduna ziyan vurmuşdur.

7. *qaçírdıqsa, qaçırdíqsa*
**Vurğusu göstərilmiş sözlərin tərkibinə görə təhlili hansı bənddə düzgün verilib?**

A) hər ikisi kök, 4 qrammatik şəkilçi
B) hər ikisi kök, 1 leksik, 3 qrammatik şəkilçi
C) hər ikisi kök, 3 qrammatik şəkilçi
D) 1-cisi kök, 4 qrammatik şəkilçi
2-cisi kök, 1 leksik, 3 qrammatik şəkilçi
E) 1-cisi kök, 1 leksik, 3 qrammatik şəkilçi
2-cisi kök, 4 qrammatik şəkilçi

8. **Hansı durgu işarələri qoyulmalıdır?**
*Dənizin dalğaları sahilin narın qumu günəş şüaları bir sözlə hər şey ona ləzzət verirdi.*
A) vergül, defis, vergül
B) vergül, vergül, tire, vergül
C) tire, iki nöqtə
D) iki nöqtə, vergül
E) vergül, vergül, tire

9. **Hansı söz həm isim, həm də feil kimi işlənə *bilmir?***
A) oxuyacaq B) qanacaq
C) dayanacaq D) yanacaq
E) çapacaq

10. **Uyğunluğu müəyyən edin.**
1. görüldü
2. göründü
3. gördürdü
a. məlum növdə
b. qayıdış növdə
c. məchul növdə
d. icbar növdə
A) 1-b, 2-d, 3-c B) 1-a, 2-d, 3-c
C) 1-c, 2-b, 3- d D) 1-b, 2-a, 3-d
E) 1-c, 2-d, 3-c

# H variantı

1. **Hansı cümlədə həm sadə, həm də düzəltmə zərf işlənmişdir?**
A) Qaranquş heç vaxt yerə düşüb dənləmir, həmişə ovunu göydə tutur.
B) Yaxşı danışmağı aydın yazan müəllifləri oxumaqla öyrənmək olar.(*Volter*)
C) Çiyinlərini axmaqcasına zərbə altına verənləri həyat tez əzir.
D) Biz həmişə adamlardan şikayətlənirik. Deməli, bizdən də şikayətlənə biləcəklər.
E) Qərar vermək üçün hələ tezdir.

2. **Cümlələrin birində mübtəda söz birləşməsi ilə ifadə olunmuşdur:**
A) Şagirdlər kitab evindən test tapşırıqları aldılar.
B) Məmləkətdə üç şey: kanalizasiya şəhərin, hamam bədənin, kitabxana ruhun kirini təmizləyir. (*Sultan Mehmet*)
C) Göz toxluğu mal çoxluğundan yaxşıdır. ( *S.Şirazi*)
D) Mən insanlığı hər şeydən üstün bilirəm.
E) Oxumaq ən yaxşı məşğuliyyətdir.

3. **Nümunə haqqında hansı fikir *səhvdir*?**
*Nar ağacı, nar çiçəyi,*
*Nə gözəldir yar göyçəyi.*
A) Adlıq halda üç isim işlənib.
B) Üç söz mənsubiyyət şəkilçisi qəbul etmişdir.
C) İsimlərdən ikisi adlıq haldadır.
D) Beş isimdən üçü yiyəlik haldadır.
E) İki sifət var.

**4. Nümunə haqqında hansı fikir *səhvdir*?**

*Bu çöl dağılmışda mənim başıma çox iş gəldi,*
*Çatmamış yaya xəbər gətirdilər ki, qış gəldi.*
(S.Ə.Nəbati)

A) Bir işarə, bir şəxs əvəzliyi işlənib.
B) İki feili sifət işlənmişdir.
C) Təsriflənən feillərin hamısı xəbər şəklindədir.
D) İsimlərdən biri təsirlik haldadır.
E) Nümunədəki sözlərin hamısı quruluşca sadədir.

**5. Nümunədə qafiyə yaradan sözlər morfoloji cəhətdən nədir?**

*Ol öz vicdanının sirrinə açar,*
*Çünki bu mərifət qəlbə nur saçar.* (N.Gəncəvi)

A) isim, feil
B) feili sifət, say
C) feili sifət, sifət
D) feil, feil
E) feili sifət, isim

**6. Cümlələrin birində iki tabesizlik bağlayıcısı işlənmişdir:**

A) Arif kənddən mənimlə gəldi.
B) Ariflə Rəhim gəldi, Azad isə qalmalı oldu.
C) Hamı bilir ki, doğruya zaval yoxdur.
D) Mən ki sənə vaxtında dedim, lakin sən əhəmiyyət vermədin.
E) Sən ancaq inam, iradə və ümidlə çətinlikləri dəf edə bilərsən.

**7. Nümunədəki xitab nə ilə ifadə olunmuşdur?**

*Güney gözlüm, gözəllikdə bircəsən. (M.İlqar)*

A) I növ təyini söz birləşməsi ilə
B) mənsubiyyət şəkilçili isimlə
C) II növ təyini söz birləşməsi ilə
D) III növ təyini söz birləşməsi ilə
E) feili birləşmə ilə

**8. Nümunədəki xitab nə ilə ifadə olunmuşdur?**

*Ay gözü göyçəyim, gözün hardadı?*
*Dən salıb saçıma dərdin, dən belə. (M.İlqar)*

A) isimlə
B) I növ təyini söz birləşməsi ilə
C) III növ təyini söz birləşməsi ilə
D) II növ təyini söz birləşməsi ilə
E) feili birləşmə ilə

**9. Şəxssiz cümləni göstərin.**

A) Səhərə az qalırdı.
B) Dəniz dalğalanırdı.
C) Onları qalaya gətirdilər.
D) Yol boyu dinməz-söyləməz yanaşı addımlayırdılar.
E) Qorxan gözə çöp düşər.

**10.** *"Daş hasarla əhatə olunmuş üçmərtəbəli evin eyvanından işıq gəlirdi"* **cümləsindəki sözlərin morfoloji təhlili ilə bağlı *səhvi* göstərin.**

A) *Daş* – isim, *üçmərtəbəli* – sifətdir.
B) *Hasar* – isim, *la* – qoşmadır.
C) *Əhatə olunmuş* – nəqli keçmiş zamanlı feldir.
D) *Evin* – yiyəlik halda, *eyvanından* çıxışlıq halda olan isimlərdir.
E) *Gəlirdi* – xəbər şəklinin indiki zamanına idi hissəciyi qoşulmuşdur.

# İ variantı

**1.** *"Hər addımbaşı hündür binalara rast gəlirsən"* **sadə cümləsinin növünü müəyyənləşdirin.**
A) müəyyən şəxsli cümlə
B) şəxssiz cümlə
C) ümumi şəxsli cümlə
D) qeyri-müəyyən şəxsli cümlə
E) adlıq cümlə

**2. Hansı birləşmədə 1-ci tərəfin son samiti [ğ] kimi tələffüz olunur?**
A) məntiq elmi  B) sabiq nazir
C) torpaq rəngi  D) otaq havası
E) uşaq evi

**3. Birinci sözün tələffüzünə əsasən məntiqi ardıcıllığı tamamlayın.**
1.fond pulu 2.kənd yolu 3.palıd yarpağı
4. ....... .......
A) azad insan  B) söyüd ağacı
C) qənd almaq  D) sərhəd keşikçisi
E) qanad açmaq

**4.Verilən sözlər içərisində hansı sözün antonimi *yoxdur*?**
tərəqqi, lakonik, fayda, sevinc.
A) tənəzzül  B) kədər  C) zərər
D) geniş  E) səmərə

**5. Verilənlər içərisində hansı elmə aid termin *yoxdur*?**
diskriminant, difraksiya, azimut, romb.
A) kimyaya  B) fizikaya  C) həndəsəyə
D) riyaziyyata  E) coğrafiyaya

**6. Verilənlər içərisində hansı sözün tərkibində şəkilçi *yoxdur*?**
A) danladıq  B) bağışla
C) qızardılmışdır  D) incidilir
E) soyuqluq

**7. İşarələnmiş isimlərdən adlıq halda olanları müəyyən edin.**
1. "Bivəfanın,müxənnəsin, nakəsin
Doğru **sözün**, düz ilqarın
görmədim".(Aşıq Ələsgər)
2. **Sözün** dillər əzbəri, məclislər yaraşığıdır.
3. "**Sözün** də su kimi lətafəti
var".(N.Gəncəvi)
4. **Sözün** mənə yaman təsir etdi.
A) 1,2  B) 2,3  C) 2,4  D) 1,4  E) 3,4

**8. Mübtədası feldən düzələn sifətlə ifadə olunan cümlələri göstərin.**
1. Yaxşılıq itmir.
2. Böyüklər kiçiklərə örnək olmalıdırlar.
3. Soyuqluq insanları bir-birindən
uzaqlaşdırır.
4. Soyuq iliyinə qədər işləmişdir.
A) 2, 4  B) 2, 3  C) 3, 4
D) 1, 4  E) 1, 2

**9.** *"İşığı təzəcə yandırılmış ikimərtəbəli evin eyvanından qızı Telli onu səslədi"* **cümləsinin *düzgün* sintaktik təhlil sxemi hansıdır?**
A)
B)
C)
D)
E)


**10. *"Ensiz və eniş"* sözlərinin təhlili ilə bağlı düzgün fikir hansıdır?**
A) 1-ci söz düzəltmə, 2-ci söz sadədir.
B) Hər ikisi feildən düzələn sözdür.
C) Hər ikisi isimdən düzələn sözdür.
D) 1-ci söz feildən, 2-ci söz isə isimdən düzəlmişdür.
E) 1-ci söz isimdən, 2-ci söz isə feildən düzəlmişdir.

# J variantı

**1. İşarələnmiş sözlərin hansı nitq hissəsi olmasına görə işlənmə ardıcıllığını müəyyən edin.**

1.isim 2.zərf 3.sifət 4.say

**Az** adam tapılar ki, qürbətdə vətən həsrəti ilə yaşamasın.
**Az** danış ki, səhvin də az olsun.
**Düz** söz qılıncdan kəsərli olar.
**Qızıl** payız təbiəti qızılı rəngə boyadı.

A) 4,2,3,1 B) 2,4,1,3
C) 3,2,1,4 D) 2,1,3,4 E) 4,3,2,1

**2. İşarələnmiş sözlərin ismin hansı halında olmasına görə işlənmə ardıcıllığını müəyyən edin.**

1. adlıq 2.yiyəlik 3.təsirlik

İllərlə çəkmişəm vətən **həsrətin.**
**Həsrətin** sinəmə dağlar çəkibdir.
Göynədir sinəmi **həsrət** yanğısı.

A) 1,3,2 B) 3,1,2 C) 3,2,1
D) 1,2,3 E) 2,3,1

**3. Nədən yaranmasına görə fərqlənən düzəltmə sifəti müəyyən edin.**

A) zarafatcıl B) bağdakı
C) dözümlü D) narıncı
E) dünənki

**4. Məntiqə əsasən nöqtələrin yerinə uyğun olanı müəyyən edin.**

→ inandırmaq
→ söndürmək
→ sındırmaq

A) icbar B) məchul
C) məlum D) şəxssiz
E) qayıdış

**5. Feillərlə bağlı doğru olanı müəyyən edin.**

A) Dan yeri yenicə sökülürdü → məchul
B) Artıq köhnəlmiş binalar sökülür → qayıdış
C) Bütün küçə işıqlarını yandırdılar → məlum
D) Yeni binanın özülünü dərin qazdırdılar →məlum
E) Biz onunla məktəbin həyətində rastlaşdıq →qarşılıq

**6. Numerativ sözün kəmiyyət fərqi yaratdığı cümlə hansıdır?**

A) Qaranlıqda iki nəfər adam güclə seçilirdi.
B) Evimiz üç göz otaqdan ibarətdir.
C) Yeni mənzil üçün beş dənə pəncərə lazımdır.
D)Maşın üçün iki cüt təkər almalıyıq.
E) Atası ona beş ədəd rəngli karandaş aldı.

**7. Köməkçi nitq hissələri ilə bağlı doğru *olmayanı* müəyyən edin.**

A) Biz Araz boyunca irəliləyirdik → qoşma
B) Yalanla böhtan ayaq tutub yeriməz → bağlayıcı
C) Yaxşı, sən deyən fikirlə razıyam → modal söz
D)İmkan ver, sözümü deyim də → bağlayıcı
E) İşdən xəbərin var ki? →ədat

**8. Məntiqə əsasən nöqtələrin yerinə uyğun gələn sözü müəyyən edin.**




A) içəri B) təəccüblə C) indi
D) dəfələrlə E) yuxarı

**9. Hansı cümlədə zərf işlənmişdir?**

A) Səhər açılır, hamı işə tələsir.
B) Az danış ki, sözünün dəyəri olsun.
C) Bağbanlar xeyli meyvə dərdilər.
D) Gözəl mənzərə hamını valeh etmişdi.
E) Çox qarışqa bir şiri öldürər.

**10. Hansı cümlədə işarələnmiş söz qrammatik mənasına görə digərlərindən *fərqlənir*?**

A) İnsanın biliyi **artdıqca** narahatlığı da artır.
B) Elm ancaq ağlın süzgəcindən **keçəndə** qiymətli olur.
C) O insan ağıllıdır ki, işə **başlamadan** nəticəni görə bilsin.
D) Özünə yeni dostlar **taparkən** köhnələri unutma.
E) İnsan yalnız **bilmədiyi** şeydən qorxur, bilik isə adamı cəsarətli edir.

# K variantı

**1. Yanaşma əlaqəsinə aid *yanlış* olanı müəyyən edin.**

A) təyin→ mübtəda
B) təyin → tamamlıq
C) təyin←zərflik
D) zaman zərfliyi→xəbər
E) təyin→ismi xəbər

**2. Məchul növ feil hansı cümlədədir?**

A) Payızda yarpaqlar saralır.
B) Axır ki, biz onu məsələnin ciddi olduğuna inandırdıq.
C) Gözəl bir yerdə alaçıqlar quruldu.
D) Buludlar dağların arxasına doğru geri çəkildi.
E) Biz tədbirə gələn nümayəndə heyəti ilə görüşdük.

**3. Doğru *olmayanı* müəyyən edin.**

A) Yarpaqlar səhər şehi ilə yuyundu→ qayıdış növ
B) İlaxır çərşənbədə həyətlərdə tonqal qalanır→məchul nov
C) Həyəcandan onun urəyi bərk döyünür→məchul növ
D) O, qaranlıq otağın işığını yandırdı→ məlum növ
E) Biz onunla dünən axşam vidalaşdıq → məlum növ

**4. Xəbər şəkilli feil işlənmiş cümlələri göstərin.**

1. Quru söz ruhu oxşaya bilməz.
2. Oğlunu xaricdə oxudur.
3. Baş əymə cəllada, yada, Təbrizim .
4. Yaşasan, yaşaram, ölsən, ölərəm.
5. Öz işində ustadır.

A) 1,2,4 B) 3,5 C) 1,2 D) 3,4 E) 1,5

**5. Məntiqə əsasən nöqtələrin yerinə uyğun olanı müəyyən edin.**

sarsılmaq
ayılmaq
bayılmaq

A) icbar B) məchul
C) məlum D) birgəlik E) qayıdış

**6. Hansı cümlədə köməkçi nitq hissəsi var?**

A) Bütün böyük işlərin əvvəli kiçik başlanğıclardır.
B) Elmdən keçməyən yolun sonu qaranlıqdır.
C) Ana nəfəsinin özgə dadı var.
D) Heç bir uğura çiçəkli yollarla gedilməz.
E) Əvvəl düşün, sonra danış.

**7. Hansı cümlədə nöqtələrin yerinə bölüşdürmə bağlayıcısı yazılmalıdır?**

A) Fikrimizi başqalarına zorla qəbul etdirmək ....... faydasız, .......arzuolunmaz işdir.
B) Siz bizimlə ...... ümumi razılığa gəlməlisiniz,........ yollarımız ayrılacaq.
C) ....... mən onu görmüşdüm,...... o, məni tanıyırdı.
D) Bütün müəllimlər,....... şagirdlər də tədbirə qoşulmuşdular.
E) Günəş üfüqdən boylanırdı,........ o, hələ də yatırdı.

**8.Verilənlər içərisində hansı sxemə uyğun birləşmə *yoxdur*?**

Uca dağ, qızıl medal, yuxarı mərtəbə, xeyli kitab

A) isim+isim B) sifət+isim
C) say+isim D) zərf+isim
E) əvəzlik+isim

**9. Məntiqə əsasən nöqtələrin yerinə uyğun olanı müəyyən edin.**

Əsas tərəfi yalnız III şəxsin təkinin mənsubiyyətində olur.
Tərəfləri eyni zamanda cəmlənə bilmir.
Asılı tərəfi yalnız qeyri-müəyyən yiyəlik halda olur.

A) I növ təyini söz birləşməsi
B) II növ təyini söz birləşməsi
C) III növ təyini söz birləşməsi
D) məsdər tərkibi
E) feili bağlama tərkibi

**10. Uyğunluğu müəyyən edin.**

1. Cümlədə mübtəda yoxdur, hərəkətin subyekti bilinmir.
2.Cümlədə mübtəda var, lakin hərəkətin subyekti bilinmir.
3. Subyekt hərəkəti öz üzərində icra edir.
4. Subyekt başqasını hərəkəti icra etməyə məcbur edir.
5. Hərəkət bir neçə subyekt tərəfindən birlikdə icra olunur.

a. "Böyük dayaq" romanı 1957-ci ildə yazılmışdır.
b. Uşaqlar hər səhər stadionda qaçışırlar.
c. Bu işdə xeyli səhvə yol verilib.
d. Hava birdən-birə tutuldu.
e. Komandir əsgərlərə səngər qazdırdı.

A) 1-c; 2-a; 3-d; 4-e; 5-b
B) 1-a; 2-d; 3-b; 4-c; 5-e
C) 1-c; 2-e; 3-d; 4-a; 5-b
D) 1-d; 2-b; 3-c; 4-e; 5-a
E) 1-e; 2-a; 3-b; 4-d; 5-c

## L variantı

**1. Altından xətt çəkilən sözlərin hansında ikinci hecadakı sait düşməlidir?**
A) Müəllim **beyinin** quruluşu haqqında danışırdı.
B) **Oğulun** yaxşısı ata üçün şöhrətdir.
C) **Sinifin** bütün fəalları mükafatlandırıldı.
D) **Burunun** tutulması nəfəsalmanı çətinləşdirir.
E) **Alının** qırışması qocalmaqdan xəbər verir.

**2. İşarələnmiş söz ismin hansı halındadır?**
*Nədəndir bilmirəm,boğuldu **səsin***
A) müəyyənlik bildirən yiyəlik halda
B) adlıq halda
C) qeyri-müəyyənlik bildirən yiyəlik halda
D) müəyyənlik bildirən təsirlik halda
E) qeyri-müəyyənlik bildirən təsirlik halda

**3. Biri təyini söz birləşməsi *deyil:***
A) bağçadakı ağaclar, uşaq səsi
B) beli kəmərli, dağdan ağır
C) çiçək ətri, barama qurdu
D) dənizin sahili, ağacın budağı
E) idmançılardan biri, dünənki hadisə

**4. İşlənmə yerinə görə həm sadə, həm də düzəltmə feil kimi işlənə bilər:**
A) oxundu B) büründü
C) göründü D) toxundu
E) süründü

**5. Hansı cümlədə zərf *işlənməmişdir*?**
A) Bərk tufan olduğundan sahil güclə seçilirdi.
B) O, bütün çıxışlarında cəsarətlə danışırdı.
C) Hakim ətrafa baxa-baxa oyunçulara yaxınlaşdı.
D) Onun məsuliyyəti indi birə-beş artmışdı.
E) Onlar səhərin açılmasını səbirsizliklə gözləyirdilər.

**6.** *"İşıqlanan evin pəncərəsi uzaqdan aydın seçilirdi "* **cümləsindəki sözlərin morfoloji təhlili ilə bağlı *səhvi* müəyyən edin.**
A) *İşıqlanan* – sifətdir.
B) *Evin* – yiyəlik halda olan isimdir.
C) *Pəncərəsi* –mənsubiyyət şəkilçili, adlıq hallı isimdir.
D) *Uzaqdan* – yer, *aydın* – tərzi-hərəkət zərfidir.
E) *Seçilirdi* – düzəltmə feldir, indiki zamandadır.

**7.Verilmiş mürəkkəb adın yazılışında *səhv* olanlar hansılardır?**
Azərbaycan[1] Respublikası[2] Prezidenti[3] Yanında[4] Qeyri-Hökumət[5] Təşkilatlarına[6] dövlət[7] dəstəyi[8] Şurası[9]
A) 4,7,8 B) 7,8,9 C) 3,4,5
D) 6,7,8 E) 4,6,9

**8. Hansı cümlədə zərflik *yoxdur*?**
A) O həm cəsarətli, həm də dağ kimi vüqarlıdır.
B) Onun dostu artıq dərəcədə qəmgin idi.
C) Palıd çox gec çürüyən dəmir kimi ağacdır.
D) Çayların suyu bulaq suyu kimi dumdurudur.
E) Qaranlıq düşsə də, hər tərəf gündüz kimi işıqlı idi.

**9. Hansı birləşmənin asılı tərəfi sifətdir?**
A) yun şal B) saxsı boru
C) dəri çanta D) mis məftil
E) məzlumların əzabı

**10. Sadə müxtəsər cümlənin üzvləri sadə III növ təyini söz birləşmələri ilə ifadə olunduqda hansı sintaktik əlaqələrin iştirakı olmalıdır?**
A) 2 idarə, 2 uzlaşma
B) 2 idarə, 3 uzlaşma
C) 3 idarə, 2 uzlaşma
D) 1idarə, 1yanaşma, 1uzlaşma
E) 2 idarə, 2 uzlaşma, 1 yanaşma

Tədris vahidi: **2**

# Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlələr

Bölmə: **MÜVƏFFƏQİYYƏT VƏ CƏMİYYƏT**

## A variantı

**1. Tabesiz mürəkkəb cümlələr haqqında verilənlərdən biri *yanlışdır*:**

A) Bərabərhüquqlu sadə cümlələrin birləşməsindən əmələ gəlir.
B) Tabesiz mürəkkəb cümlənin tərkibindəki sadə cümlələr müxtəlif məna əlaqələri ilə bağlanır.
C) Tabesiz mürəkkəb cümlənin tərkibindəki sadə cümlələr həm yalnız intonasiya, həm də intonasiya və bağlayıcı ilə bağlanır.
D) *İlə* bağlayıcısı tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlaya bilmir.
E) Qarşılaşdırma və bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələr yalnız bağlayıcı ilə bağlanır.

**2. Birinci cümlə səbəbi, ikinci onun nəticəsini bildirir:**

A) Hava çox soyuq idi, onun əl-ayağı tamam donmuşdu.
B) Təyyarə gurultusu eşidildi, onun ağ işıqları qaranlıqda ulduz kimi axıb keçdi.
C) Gah o mənə qulaq asdı, gah mən onu dinlədim.
D) Ürəyi sözlə dolu idi, amma danışa bilmirdi.
E) Onun buğdayı sifətində təmkin, duruşunda igidlik sezilirdi.

**3. Bu bağlayıcılardan biri tabesiz mürəkkəb cümlənin tərəflərini bağlaya *bilməz*:**

A) çünki
B) və
C) həm (də)
D) hətta
E) ancaq

**4. Tərkib hissələri bağlayıcı ilə bağlanan tabesiz mürəkkəb cümləni göstərin.**

A) Səhər açılır, aləm nura qərq olur.
B) Ana həm qonaqlara tez-tez çay verir, həm də nigaran-nigaran qapıya baxırdı.
C) O nə danışır, nə də deyilənlərə qulaq asırdı.
D) Oradan nə bir səs eşidilir, nə də işıq gəlirdi.
E) Ətraf sakitlik idi, bu sükutu yalnız suyun şırıltısı pozurdu.

**5. Tabesiz mürəkkəb cümlələrdə işlənən bağlayıcılarda durğu işarəsi ilə bağlı hansı fikir *səhvdir*?**

A) *Və* bağlayıcısı ilə bağlanan tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında vergül qoyulmur.
B) *Amma, ancaq, lakin* bağlayıcılarının işləndiyi tabesiz mürəkkəb cümlələrdə vergül bağlayıcılardan əvvəl qoyulur.
C) *İsə* bağlayıcısından nə əvvəl, nə də sonra vergül qoyulur.
D) *Hətta, həmçinin, halbuki, yəni* bağlayıcılarının işləndiyi tabesiz mürəkkəb cümlərdə vergül bağlayıcılardan əvvəl qoyulur.
E) Təkrarlanan *həm, həm də, nə, nə də, ya, ya da, gah, gah da* bağlayıcılarının hər birindən əvvəl vergül qoyulur.

**6. Tabesiz mürəkkəb cümlənin sxemi *<u>deyil</u>*:**
A) Sadə cümlə + ona görə + sadə cümlə = tabesiz mürəkkəb cümlə
B) Sadə cümlə + həmçinin + sadə cümlə = tabesiz mürəkkəb cümlə
C) Sadə cümlə + yəni+ sadə cümlə = tabesiz mürəkkəb cümlə
D) Həm + sadə cümlə + həm də + sadə cümlə = tabesiz mürəkkəb cümlə
E) Sadə cümlə + lakin + sadə cümlə = tabesiz mürəkkəb cümlə

**7. Uyğunluğu müəyyən edin.**
1. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə
2. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
3. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə

a. Ya kəşfiyyat yolu ilə qızı xilas etməliyik, ya da döyüşüb məntəqəni geri almalıyıq.
b. Bu kənd yerli əhalinin köməyilə möhkəm döyüşmüş, amma düşmən qüvvəsi çox olduğundan kəndi saxlamaq mümkün olmamışdır.
c. Səhərə yaxın vəziyyət ağırlaşdı: düşmən kəndə girib əhalini qırdı.
d. Gah top səsi eşidilir, gah da sakitlik çökürdü.
e. İnsanların son ümidləri də gözlərində qaldı: onlar axırıncı dəfə tüstülənən kəndə baxmağa belə macal tapmadılar.

A) 1-d; 2-b; 3-c,e  B) 1-a; 2-c; 3-b,e
C) 1-b; 2-a; 3-c  D) 1-b,e; 2-d; 3-a,c
E) 1-b; 2-c; 3-a,e

**8. Tabesiz mürəkkəb cümlələri göstərin.**
1. Maşınımız dağ döşündən enəndə Ay da, ulduzlar da çox alçaqda görünürdü.
2. Madam ki sən öz dostlarını sevmirsən, onlar sənə necə hörmət edə bilərlər?
3. Duman gəlir, daglar görünməz olurdu.
4. Gün gah çıxır, gah da buludlar arxasında gizlənirdi.
5. Gah gün çıxır, gah bulud olur, gah da xəzri əsməyə başlayır.

A) 3, 5  B) 2 ,3  C) 4,5  D) 1, 2  E) 1, 4

**9.** *"Çox yaşamaq əlinizdə deyil, lakin adınızı çox yaşatmaq əlinizdədir"* **mürəkkəb cümləsi ilə bağlı *yanlış* fikri müəyyənləşdirin.**
A) Tabesiz mürəkkəb cümlədir.
B) Sadə cümlələr bağlayıcı ilə əlaqələnmişdir.
C) Tərkib hissələri arasında qarşılaşdırma əlaqəsi var.
D) Bərabərhüquqlu iki sadə cümlənin məna və qrammatik bağlılığından əmələ gəlmişdir.
E) Bir qrammatik əsası var.

**10.** *"Könlü və sözü bir olmayan insanın yüz dili olsa da, o, yenə dilsiz sayılır"* (*C.Rumi*) **cümləsi niyə tabesiz mürəkkəb cümlə *deyil*?**
A) tabesizlik əlaqəsi ilə qurulduğuna görə
B) tərkib hissələri bərabərhüquqlu olduğu üçün
C) tərkib hissələri əsas və asılı cümlələrdən ibarət olduğu üçün
D) intonasiya ilə bağlandığı üçün
E) tabesizlik bağlayıcısı iştirak etmədiyi üçün

# B variantı

**1. Biri tabesiz mürəkkəb cümlədir:**

A) Musiqi elə bir dildir ki, bütün dünya üçün anlaşılır. (Sokrat)

B) Çox azları istedadla yazır, amma çoxları istedadla oxuyur. (Brissol)

C) Musiqi qəm dağıdır və insana zövq verir.

D) Düha on faiz istedaddan və doxsan faiz tər tökməkdən əmələ gəlir. (Edisson)

E) Ömrü boyu yalnız işləməyi sevən və bacaran adamları qəhrəman gördüm. (M.Qorki)

**2. Hansı cümlənin tərkib hissələri**



**sxeminə uyğun gəlir?**

A) Əmək insanı nəcibləşdirir, onu xeyirxah edir. (Belinski)

B) Dünyanı tərpətmək üçün Arximedin tələb etdiyi dayaq nöqtəsi azad əməkdir.

C) İztirab adamı bərkidir, məhəbbət isə dayaq olur. (Marks)

D) Əsl məhəbbət olsa, sənə böyük məziyyətlər öz-özünə qismət olar. (Feyerbax)

E) İnsan öz zəifliyini etiraf etdikdə qüvvətli olur. (Balzak)

**3.** *"Mərd özündən bilər, namərd yoldaşından"* **cümləsinin növünü müəyyənləşdirin.**

A) həmcins xəbərli sadə geniş cümlə

B) zaman əlaqəli tabesiz mürəkkəb cümlə

C) qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə

D) ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə

E) səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə

**4. Hansı cümlə bərabərhüquqlu cümlələrin birləşməsindən yaranmışdır?**

A) Pis sənət yoxdur, pis sənətkar vardır.

B) Deyirəm ki, uzaq yolda susuzluq çəkən Bir yolçunun yollarında bulaq olaydım. (S.Vurğun)

C) Allahla dost olsan, ölüm də gözəldir. (C.Rumi)

D) Vətəni ona görə sevirlər ki, o, böyükdür, ona görə sevirlər ki, o, özününküdür. (Seneka)

E) Kim ki həyatda öz dostunu tanımır, onun özü dünyada tanınmağa layiq deyil. (Hote)

**5. Hansı tabesiz mürəkkəb cümlədə vergül işarəsi düzgün *qoyulmamışdır*?**

A) Azadlığı sevməyən adam qüdrətli adam ola bilər, lakin heç vaxt böyük insan ola bilməz. (Volter)

B) Elmin səmərəsi rahatlıqdır, dünya malının səmərəsi isə əzabdır.

C) Gün doğmuşdu və səmada ağ buludlar görünürdü.

D) Nə dostum razı oldu nə də, mən "hə" dedim.

E) Torpaq bəzi insanlardan ədalətlidir, yəni qoyulan əməyə bol-bol mükafatlar verir. (Balzak)

**6. Hansı cümlədə *da*$^2$ tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlamışdır?**

A) Şəhər də, kənd də mənə doğmadır.

B) Yaz da, niyə dayanmısan?

C) İldə qurban bir olar,
Sənə qurban gündə mən. (bayatı)

D) Üstümdə Allah da var, Peyğəmbər də var. (Ə.Haqverdiyev)

E) Məhəbbət evdə və işdən kənarda qadın üçün həyatdır. (Ferqivson)

**7. Tabesizlik bağlayıcılarından hansının köməyi ilə müxtəlif hadisələrdən birinin mümkünlüyü bildirilir?**

A) Başı kəllə qəndə oxşayırdı, yəni aşağı getdikcə qarlı şırımlar açılırdı. (F.Kərimzadə)
B) Yazı mizimin üstü boş idi, hətta qələmlərim də götürülmüşdü. (Elçin)
C) Ya suyu başqa səmtdən aparırdılar, ya da kəhriz batmışdı. (S.Əhmədov)
D) Nə camaatın tənəsi onu qorxudurdu, nə də işdən çıxarılacağından ehtiyat edirdi. (İ.Şıxlı)
E) Ətrafda uğultu eşidildi və camaat hərəkətə gəldi. (İ.Hüseynov)

**8. Birinci cümlə ümumilik bildirir, ikinci onu aydınlaşdırır:**

A) Dilbər konservatoriyada oxuyur: o, dirijorluq sənətinin sirlərini öyrənir.
B) Kövşənliklərimizdə bitən pencərlər: quşəppəyi, yemlik, quzuqulağı, yarpız, dəvədabanı, əvəlik, kəklikotu min dərdin dərmanıdır.
C) O, mənə qulluq edib, mən onun hörmətini saxlamışam.
D) Rəhmət yazana, lənət pozana.
E) Ədil hər gün tar çalırdı, amma onun çalğısından fələk də baş açmırdı.

**9. Tabesiz mürəkkəb cümlələrin birində vergül düzgün *qoyulmamışdır*:**

A) Qonşum ayaqqabılarını çıxarmaq istədi, amma mən qoymadım.
B) Bulaq qurudu, və camaat bir-bir köçüb getdi.
C) Nə ata danışdı, nə də ana dindi.
D) Gecə də keçir, otaq da soyuyur.
E) Uşaqlar yatmışdı, ana isə oyaq idi.

**10. Tabesiz mürəkkəb cümlələrdəki məntiqi ardıcıllığı tamamlayın.**

1. Gah gün çıxır, gah da narın yağış çiləyirdi.
2. Gah pişik cücələri qovur, gah da çalağanın kölgəsi onları pərən-pərən salırdı.
3. ....

A) Hamı getdi, ancaq sən geridə qaldın.
B) Ya yazmalı, ya da oxumalısan.
C) Gah məktub, gah da şeir yazırsan.
D) Hava qızdı, qar əridi.
E) Gah qızmar günəş şüaları adamı yandırır, gah da göyün üzünü qara buludlar alırdı.

## C variantı

**1. Hansı cümlə bərabərhüquqluluq əsasında *yaranmamışdır*?**

A) Dünya bir pəncərədir,
Hər gələn baxıb gedir. (Bayatıdan)
B) Hamı gedib quş gətirər, Şahqulu bayquş gətirər.
C) Rəhmət yazana, lənət pozana.
D) Qələm əyri yonulsa da, düz yazar.
E) Söhbət üçün çənə, saqqal üçün həna.

**2.** *"Xəstəxananın barısının üstündən xəstələrin başı görünürdü: özlərini günə verirdilər"* **cümləsinin təhlili ilə bağlı *səhv* fikri göstərin.**

A) İkinci cümlə birincini aydınlaşdırır.
B) İntonasiya ilə bağlanmışdır.
C) Nəqli cümlədir.
D) Tərkibindəki sadə cümlələrdən birincisi müəyyən şəxsli geniş cümlədir.
E) Tərkibindəki sadə cümlələrdən ikincisi müəyyən şəxsli müxtəsər cümlədir.

**3. Hansı cümlənin iki qrammatik əsası var?**

A) Adam yüksələndə əhdini pozmaz. (N. Gəncəvi)
B) İnsanın qayğıları yalnız öləndən sonra qurtarır.
C) Yağış yağdı və yeri islatdı.
D) Ağlı kəsəndən bəri sırğa taxmırdı və üzüyü də yox idi.
E) Arxı hoppanmamış "hop" demə.

**4. Tabesiz mürəkkəb cümlələrin birində işlənmiş bağlayıcılarda durğu işarəsi düzgün *qoyulmamışdır*:**

A) Çiçək çoxdur amma, solmayanlarını görməmişəm.
B) Daha nə o çəm-xəm elədi, nə də Qəmlo ağaca əl atdı. (F.Kərimzadə)
C) Ağartıya, yavanlığa pul vermirik, yəni inəyin südü bizi görür. (S. Əhmədov)
D) Ya mənim huşum başımda olmayıb, ya da sənin eynəyin gözündə. (M. İbrahimov)
E) Mən danışdım, o isə qulaq asdı.

**5. Hansı tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında ardıcıl olan hadisələr əlaqələndirilmişdir?**

A) Mən səni qınamaram: gəzməyən gəzə bilməz, gəzəyən dözə bilməz. (Ə. Vəliyev)
B) Əynimiz görmədi bir isti paltar,
Qızındıq eşqimiz, həvəsimizlə. (S. Vurğun)
C) Ya burada mən işləyəcəyəm, ya da sən qalacaqsan.
D) Fasilə başladı və Ədilə yanındakı qız ilə birlikdə ayağa qalxıb zaldan çıxdı. (Elçin)
E) Gah külək əsir, gah da yağış yağırdı.

**6. Biri tərkib hissələri intonasiya ilə baglanan tabesiz mürəkkəb cümlədir:**

A) İnsanın ləyaqət və şərəfi bir də onun ədalətli olmasından bilinir.
B) İndi nə torpaq dillənir, nə də təyyarələr uçurdu.
C) Mən bilirdim ki, o həm gözəl alim, həm də gözəl insandır.

D) İnsan gərək şayiələrə inanmasın, öz aglının hökmü ilə hərəkət etsin.
E) Onun saçı üzünə dagılmış, yanaqları istidən pörtmüşdü.

**7. Hansı cümlələrin birində *"yəni"* tabesiz mürəkkəb cümlənin tərkib hissələrini bağlamışdır?**
A) Yəni həmişə belə iddialı olacaqsan?
B) Sabah, yəni iyulun 22-si Milli Mətbuat Günüdür.
C) Səriyyəgil fəaliyyətdə idi, yəni rəqs dərnəyi artıq işə başlamışdı.
D) Azərbaycan mənşəli sözlərin bəzisi, yəni: tikan, quzey, ilan, ildırım və s. ahəng qanununa tabe olmur.
E) *Yəni, məsələn* tabesizlik aydınlaşdırma bağlayıcılarıdır.

8. *"Hava soyuq idi, ... hər yerdə yazın xoş nəfəsi duyulurdu"* (İ. Şıxlı) **cümləsində nöqtələrin yerinə hansı bağlayıcı qoyula *bilməz*?**
A) amma B) lakin C) ancaq
D) halbuki E) yəni

**9. Oxşar cümlələrdən hansı tabesiz mürəkkəb cümlədir?**
A) Səhər açılanda isti yaz günəşinin şüaları Xəzərin laciverd sularını xüsusi bir gözəlliklə işıqlandırırdı. (C. Əmirov)
B) Elə ki səhər açıldı, isti yaz günəşinin şüaları Xəzərin laciverd sularını xüsusi bir gözəlliklə işıqlandırdı.
C) Səhər yenicə açılırdı ki, isti yaz günəşinin şüaları Xəzərin laciverd sularını xüsusi bir gözəlliklə işıqlandırdı.
D) Səhər açıldı, isti yaz günəşinin şüaları Xəzərin laciverd sularını xüsusi bir gözəlliklə işıqlandırdı.
E) Səhər açıldımı, isti yaz günəşinin şüaları Xəzərin laciverd sularını xüsusi bir gözəlliklə işıqlandırırdı.

**10. Tabesiz mürəkkəb cümlələrin birində vergül işarəsi düzgün qoyulmuşdur:**
A) Yay gəldi, və məktəblilər tətilə çıxdılar.
B) Yaxşı kitab aysberqə oxşayır yəni, oradakı fikirlərin böyük hissəsi sətirlərin altındadır. (E. Heminquey)
C) Həyat həmişə ciddidir, ancaq, həmişə ciddi yaşamaq olmaz. (Cesterfon)
D) Axşamlar gah külək əsir, gah da yağış yağırdı.
E) Nə danışan vardı, nə də, içəridən işıq gəlirdi.

# BİRİNCİ YARIMİL ÜZRƏ YEKUNLAŞDIRICI TEST TAPŞIRIQLARI

## A variantı

**1. Çoxmənalı ismin törəmə tərəfləri hansı nitq hissəsi ola bilər?**

1.sifət 2.isim 3.say
4.feil 5.zərf

A) 1,2,5 B) yalnız 2 C) 3,4
D) yalnız 1,2 E) 3,4,5

**2. Hansı cümlədə səbəb zərfliyi *yoxdur*?**

A) O,uzaqda olduğundan bu hadisədən xəbər tutmamışdı.
B) Şoran olduğundan torpaq yaxşı məhsul vermirdi.
C) Dərsə nə səbəbə gəlməmişdin?
D) O, ötən günlərini xatırlayıb təsirlənmişdi.
E) Şəhərə müalicə olunmağa gedirəm.

**3. Doğru və yanlış fikirləri müəyyən edin.**

- Mübtəda bütün cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.
- Tamamlıq yalnız xəbərlə sintaktik əlaqədə olur.
- Xəbər və təyin bütün cümlə üzvləri ilə sintaktik əlaqəyə girir.
- Vasitəsiz tamamlıq yalnız feili xəbərli cümlələrdə olur.

doğru

yanlış




**4. Cümlənin düzgün sintaktik təhlil sxemini göstərin.**

*Balıqçı gəmisi dalğalara sinə gərərək sahilə can atırdı.*




**5. Quruluşuna görə fərqli olan cümləni müəyyən edin.**

A) Ağıllı yoxsul axmaq varlıdan yaxşıdır.
B) Tufan qopdu, ağacları kökündən çıxardı.
C) Yazıçının bir müəllimi var, o da oxuculardır.
D) Məktəb həyat üçün hazırlıq deyil, həyatın özüdür.
E) Kamil insan günəşdən də, aydan da, ulduzdan da əzəmətlidir.

**6. Sintaktik təhlil sxeminə görə işlənmə ardıcıllığını müəyyən edin.**

*Yəqin ki, sabah bizə hamınız gələcəksiniz.*

*Unutmayaq ki, Qarabağımız düşmən əsarətindədir.*

*Əlbəttə, fikrimizi sizə bu gün bildirəcəyik.*




A) 1, 3, 2 B) 3, 2,1 C) 2, 3, 1
D) 1, 2, 3 E) 3, 1, 2

**7. *Yanlış* olan hansıdır?**

Zaman əlaqəli tabesiz mürəkkəb cümlədir.

A) Ata danışır, oğlu qulaq asır.
B) Qar yağır, külək də əsirdi.
C) Yağış yağdı, çaylar daşdı.
D) Hava aydın, günəş hərarətli idi.
E) Ağaclar çiçəkləyir, meşələr də yaşıllaşır.

**8. Hansı cümlədə təyin xəbərdən asılıdır?**

A) Küçənin işıqları gecə sayrışan ulduzlar kimi parlaq idi.
B) Dəyərli söz dediniz.
C) Ağ xalatlı həkimlər xəstələrə baş çəkirdilər.
D) Ehtiyacı olanlara kömək etmək yadda qalan yaxşılıqdır.
E) Atanın nəsihəti qızıl kimi dəyərlidir.

**9.** *"Səhər-səhər evdən çıxanda üzbəüz mənzildə yaşayan qızla rastlaşdı"* **cümləsinin sintaktik təhlili ilə bağlı *səhvi* müəyyən edin.**

A) Mənzildə – yer zərfliyidir, isimlə ifadə olunub.
B) Qızla – vasitəli tamamlıqdır, isimlə ifadə olunmuşdur.
C) Üzbəüz mənzildə yaşayan – təyindir, feli sifət tərkibi ilə ifadə olunmuşdur.
D) Səhər-səhər evdən çıxanda – zaman zərfliyidir, feli bağlama tərkibi ilə ifadə olunub.
E) Rastlaşdı – feli xəbərdir, sadədir.

**10. *"ilə"* bağlayıcısı *işlənməz*:**

1. Həmcins mübtədalar arasında
2. Həmcins tamamlıqlar arasında
3. Həmcins feili xəbərlər arasında
4. Həmcins ismi xəbərlər arasında
5. Tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında

A) 1,2 B) 2,5 C) 3,4 D) 3,5 E) 2,4

**11. Hansı bənddə *yanlışlıq* var?**

A) Gecə yarısı göy guruldayır, şimşək çaxır, güclü külək əsirdi → zaman əlaqəli tabesiz mürəkkəb cümlə
B) Qapılar taybatay açıldı, qonaqlar toy evinə daxil oldular → ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə
C) Güclü tufan qopdu, iri gövdəli ağacları kökündən çıxartdı → səbəb nəticə əlaqəli tabesiz mürəkkəb cümlə
D) Azadlığın bizdən umacağı yoxdur, biz isə onun yolunda canımızdan keçməyə hazır olmalıyıq → qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
E) Gözəl bir qış günü idi: dümağ qar örpəyinə bürünmüş təbiət gözəlliyi ilə göz oxşayırdı → aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə

**12.** *"Göy gölün ətrafında gül gülü dindirir, çiçək çiçəyi çağırırdı "* **cümləsinin təhlili ilə bağlı doğru fikirləri müəyyən edin.**

1. Zaman əlaqəli tabesiz mürəkkəb cümlədir
2. Birinci cümlə geniş, qeyri-müəyyən şəxsli cümlədir.
3. İntonasiya ilə bağlanmışdır
4. Cümlələrdən biri ismi xəbərli, digəri isə feli xəbərlidir.

A) 1, 2 B) 1, 3, 4
C) 2, 4 D) 2, 3, 4 E) 1, 3

**13. "*Və*" bağlayıcısı hansı cümlələrin tərkib hissələri arasında işlənə *bilməz*?**

1. Zaman əlaqəli tabesiz mürəkkəb cümlənin
2. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlənin
3. Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlənin
4. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin
5. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlənin
6. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlənin

A) 1,2,3 B) 2,5,6 C) 1,3,4
D) 2,3,4 E) 1,4,6

**14.** *"Sahədə qızğın iş gedirdi; kimisi çalalara gübrə tökür, kimisi qələmə əkirdi"* **cümləsinin növünü müəyyən edin.**

A) Sadə cümlədir.
B) Zaman əlaqəli tabesiz mürəkkəb cümlədir.
C) Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədir.
D) Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlədir.
E) Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədir.

**15.** *"Təbiətin əsrarəngiz gözəlliyi valehedici, güllərin ətri bihuşedici, quşların səsi ana laylası kimi şirin və məlahətli idi"* **cümləsinin qrammatik izahı ilə bağlı *yanlış* fikir hansıdır?**

A) Tabesiz mürəkkəb cümlədir.
B) Tərkib hissələri arasında zaman əlaqəsi var.
C) 1-ci və 2-ci tərkib hissələrin hər ikisi ——— ═══ sxeminə uyğundur.
D) 3-cü tərkib hissə mübtəda, təyin və xəbər şəklində sıralanmışdır.
E) Tərkib hissələr intonasiya ilə bağlanmışdır.

**16.** *"Nə zaman çağırar, gələrəm"* **tabeli mürəkkəb cümləsində tərkib hissələrini bağlayan vasitə:**

A) yalnız intonasiya
B) bağlayıcı söz
C) tabesizlik bağlayıcısı
D) tabelilik bağlayıcısı
E) ədat

**17. Tabesiz mürəkkəb cümlədə işlənən hansı bağlayıcıdan nə əvvəl, nə də sonra vergül qoyulur?**

A) ancaq B) isə C) hətta
D) həmçinin E) yəni

**18. Verilən sxemə hansı məna əlaqəsi uyğun gəlir?**

Həm+sadə cümlə+həm də+sadə cümlə=mürəkkəb cümlə

A) zaman B) qarşılaşdırma
C) bölüşdürmə D) ardıcıllıq
E) aydınlaşdırma

**19. Verilən sxemə hansı məna əlaqəsi uyğun gəlir?**

Nə + sadə cümlə + nə də + sadə cümlə = mürəkkəb cümlə

A) qarşılaşdırma
B) bölüşdürmə
C) ardıcıllıq, bölüşdürmə
D) aydınlaşdırma, səbəb-nəticə
E) zaman

**20. Uyğunluğu müəyyən edin.**

1. Eyni zamanda baş verir.
2. Ardıcıl baş verir.
3. Biri digərini aydınlaşdırır.

a. Həm göy guruldayır, həm də yağış yağırdı.
b. Güclü qar yağdı, yollar bağlandı.
c. Bayırda gözəl bir mənzərə vardı: hər tərəf gül-çiçəyə qərq olmuşdu.
d. Dərs ili başa çatdı, biz tətilə çıxdıq.
e. Yaxşılıq hər şeyi məğlub edir, özü heç vaxt məğlub olmur.

A) 1-a; 2-d; 3-c B) 1-b; 2-c; 3-d
C) 1-a; 2-c; 3-e D) 1-c; 2-b; 3-a
E) 1-c; 2-d; 3-e

## B variantı

**1. Sifətin sinonimi hansı nitq hissəsi olur?**

1. sifət 2. isim 3. zərf
4. feil 5. say

A) 1,2,5 B) yalnız 1 C) 3,4
D) 1,2 E) 3,4,5

**2. Zərfin antonimi hansı nitq hissəsi olur?**

1. sifət 2. isim 3. zərf
4. feil 5. say

A) yalnız 3 B) 1,2,5 C) 3,4,5
D) 1,2 E) 1,3

**3. Hansı cümlədə məqsəd zərfliyi *yoxdur*?**

A) Yaxşı öyrənmək üçün təkrar etdirirəm.
B) Xəstə olduğundan bu gün işə gəlməyib.
C) Onlar bağa meyvə dərməyə getdilər.
D) Atam xaricə işləməyə getmişdi.
E) Vüqar qatara vaxtında çatmaq üçün evdən tez çıxdı.

**4.**  **sxemli cümlələri müəyyən edin.**

1. O, şərqə məxsus gözəlliyi ilə seçilən Aysuna vurulmuşdu.
2. Ayaq səsləri getdikcə uzaqlaşırdı.
3. Zəfər növbədənkənar məsələlərə toxundu.
4. Səhər dayısı onu həkimə apardı.

A) 1, 3 B) 2, 4 C) 1,4
D) 3, 4 E) 1, 2

**5. Quruluşuna görə fərqli olan cümləni müəyyən edin.**

A) Çox adam çox şey bilir, heç kim hər şeyi bilmir.
B) Həyat dalğalı dənizə bənzəyir, yəni batmaq ehtimalı həmişə var.

C) Azərbaycanda güləş də, cüdo da xeyli inkişaf edib.
D) Həyat irəliləyir, ona çata bilməyən tək qalır.
E) Ya sən olduğun kimi deyilsən, ya da mən səni tanımıram.

**6. Doğru və *yanlış* fikirləri müəyyən edin.**

- Mübtəda sintaktik əlaqədə həm əsas, həm də asılı tərəf olur.
- Zərflik tamamlıqla yalnız yanaşma əlaqəsində olur.
- Təyin sintaktik əlaqədə həmşə asılı tərəf olur.
- Vasitəsiz tamamlıq ismi xəbərli cümlələrdə olmur.

- doğru
- yanlış

A) 

B) 

C) 

D) 

E) 

**7.*Yanlış* olan hansıdır?**

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb

A) Avtobus vağzala çatdı, sərnişinlər düşdülər.
B) Ədalət ölkəni abad eylər, zülmkarlıq bərbad eylər.
C) İş vaxtı qurtardı, müəssisə bağlandı.
D) Həkim əməliyyatdan çıxdı, adamlar onu dövrəyə aldı.
E) Müəllim içəri girdi, uşaqlar ayağa qalxdı.

**8. Hansı cümlələrdə vergülün yerində *"ilə"* bağlayıcısı *işlənməz*?**

1. Kənd, dağ çox gözəl görünürdü.
2. Rahib, Rafiqi mərkəzə dəvət etdilər.
3. Toy adamları oynaq musiqilərə əl çalır, oynayırdılar.
4. Tədbirə gələnlər müəllimlər, şagirdlərdir.
5. Güclü külək əsirdi, kal meyvələr də tökülürdü.

A) 1,2　B) 2,5　C) 3,4
D) 2,4　E) 3,5

**9. Biri bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlədir:**

A) Sevincdən gah qızının, gah da oğlunun boynunu qucaqlayırdı.
B) Ya onların dediklərini yerinə yetirməli idik, ya da evə qayıtmalı idik.
C) Onları ya özü çağırtdırıb, ya da onun xahişi ilə xozeyin göndərib.
D) Nə mən danışırdım, nə o dinirdi.
E) Həm sevinirdim, həm də sevincdən gözlərimdən yaş axırdı.

**10. Biri bağlayıcı ilə bağlanan tabesiz mürəkkəb cümlədir:**

A) O, nənəsigilə tez-tez gedərdi, çünki nənəsinin söhbətləri ona xoş gələrdi.
B) Nə təbiət, nə də insan əbədi deyil.
C) İndi ki istəyirsən, səni onunla tanış edərəm.
D) Hərçənd məni tanıyır, ancaq, yəqin, ehtiyat edir.
E) İllər də ötüşdü, ömür də getdi!

**11. Hansı bağlayıcı tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında vergülü əvəz edir?**

A) lakin B) isə C) və
D) yəni E) ancaq

**12. Hansı bağlayıcı tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında yox, ikinci tərkib hissəsində işlənir?**

A) yəni B) və C) ancaq
D) halbuki E) isə

**13.** *"Dağların məğrur görünüşü heyranedici, çayların səsi nəğməkar, bulaqların suyu göz yaşı kimi dumduru və tərtəmiz idi"* **cümləsinin qrammatik izahı ilə bağlı *yanlış* fikir hansıdır?**

A) Tabesiz mürəkkəb cümlədir.
B) Tərkib hissələri arasında zaman əlaqəsi var.
C) 1-ci və 2-ci tərkib hissələrin hər ikisi ——— ═══ sxeminə uyğundur.
D) Tərkib hissələri intonasiya ilə bağlanmışdır.
E) 3-cü tərkib hissə mübtəda, təyin, xəbər şəklində sıralanmışdır.

**14. *"Da, də"* hansı cümlədə bağlayıcı kimi işlənmişdir?**

A) Dünya(da) insan düşüncəsi qədər azad heç nə yoxdur.
B) Müəllim(də) razı qaldı, uşaqlar(da) bu uğura sevindilər.
C) Günəşi örtsə(də) qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var.(S.Vurğun)
D) Payız(da) hər tərəf qızılı rəngə boyanır.
E) Ölkə(də) hər bir sahə gündən-günə inkişaf edrdi.

**15.** *"Elm həyatı öyrənməyə kömək edir, yaxşı həyat sürə bilmək ayrı hikmətdir"* **cümləsinin tərkib hissələri arasında bağlayıcının hansı növü işlənə bilər?**

A) birləşdirmə
B) aydınlaşdırma
C) qarşılaşdırma
D) iştirak
E) bölüşdürmə

**16.** *"Boran küçədə ac qurd kimi ulayır, soyuq qılınc kimi kəsir, qar şiddətlə səpirdi"* **tabesiz mürəkkəb cümləsinin tərkib hissələri arasında hansı məna əlaqəsi var?**

A) ardıcıllıq
B) aydınlaşdırma
C) qarşılaşdırma
D) zaman
E) bölüşdürmə

**17. Verilən nümunədə nöqtələrin yerinə bağlayıcının hansı növü işlənə bilər?**

*İyirmi ildir ki, qələm çalırsan,*
*Yerdən ....., göydən.....ilham alırsan.*
*Başında rəqs edir od....., şimşək.....,*
*Şeirinə ruh verir gül....., çiçək.....*
(S.Vurğun)

A) birləşdirmə
B) iştirak
C) inkar
D) qarşılaşdırma
E) aydınlaşdırma

**18.** *"Biz ya bu oyunda qalib gəlməliyik, ya da çempionluq titulu ilə vidalaşmalıyıq"* **cümləsinin qrammatik izahı ilə bağlı *yanlış* fikir hansıdır?**

A) Həmcins xəbərlidir.
B) Sadə cümlədir.
C) Xəbərlərin hər ikisi feili xəbərdir.
D) Bir qrammatik əsası var.
E) Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlədir.

**19. Quruluşuna görə fərqli olan cümləni müəyyən edin.**

A) Doğru büdrəyər, amma yıxılmaz.
B) Yalan ayaq tutar, ancaq yeriməz.
C) Sən saydığını say, gör fələk nə sayır.
D) Böyürtkən həm soyuqdəyməni, həm də böyrəkdaşını müalicə edir.
E) Sənə pislik edən adama sən yaxşılıq et.

**20. Mürəkkəb cümlə yaratmaq üçün cümlələrin məzmunca uyğunluğu hansı bənddə doğrudur?**

| | |
|---|---|
| Çalışmaq həyat, | yersiz bədbinliyə qapılma |
| Dünya gözəldir, | yükü sizi əzər.(Ç.Pirs) |
| Ürəyinizdə ədavət və kin saxlamayın, | düşünmək isə işıqdır.(V.Hüqo) |

A) 

B) 

C) 

D) 

E) 

Tədris vahidi: **3**

# Tabeli mürəkkəb cümlə, tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr

Bölmə: **MƏNƏVİYYAT VƏ CƏMİYYƏT**

## A variantı

**1. Nümunələrdən biri tabeli mürəkkəb cümlədir:**

A) Zəng çalınmasına baxmayaraq, dərs hələ başlanmamışdır.
B) İgid odur, atdan düşə atlana.
C) Tərlan kimi qıy vuraraq buludlardan-buludlara,
Uçub gedir şahinlərim dumanları yara-yara. (S.Vurğun)
D) Zəfər iş vaxtından xeyli keçmiş gəlib çıxdı.
E) Qüvvə hər şeyi sındırar, ağıl-qüvvəni.

**2. Budaq cümləsi baş cümləyə bağlayıcı sözlə bağlanan tabeli mürəkkəb cümləni göstərin.**

A) Mən bilirdim ki, torpağımız bərəkətlidir.
B) Əgər zəhmətə qatlaşsan, istəyinə çatarsan.
C) Harada ki su var, orada həyat var.
D) İgid odur, hər zəhmətə qatlana.
E) Zəng təzə çalınmışdı ki, uşaqlar həyətə tökülüşdülər.

**3. Budaq cümlə baş cümləyə aşağıdakılardan hansı ilə bağlandıqda həm əvvəl, həm də sonra işlənə bilər?**

A) *–sa²* şəkilçisi ilə
B) *madam ki* bağlayıcısı ilə
C) *–mı⁴* ədatı ilə
D) *harada ki* bağlayıcı sözü ilə
E) *ki* bağlayıcısı ilə

**4. Tabeli mürəkkəb cümlələrdə bağlayıcı söz haqqında verilənlərdən biri *yanlışdır*:**

A) Bağlayıcı söz daha çox sual əvəzlikləri ilə ifadə olunur.
B) Bağlayıcı söz baş və budaq cümləni bağlayan vasitələrdəndir.
C) Bağlayıcı söz budaq cümlənin tərkibində olur.
D) Bağlayıcı sözlə bağlanan mürəkkəb cümlələrdə budaq cümlə birinci işlənir.
E) Bağlayıcı sözlər sintaktik vəzifə daşımır.

**5. Baş və budaq cümlənin yeri haqqında verilənlərdən biri *yanlışdır*:**

A) İntonasiya ilə bağlandıqda baş cümlə, əsasən, birinci işlənir.
B) Şərt və güzəşt bağlayıcıları ilə bağlandıqda budaq cümlə birinci işlənir.
C) Səbəb və aydınlaşdırma (tabeli) bağlayıcıları ilə bağlandıqda həmişə baş cümlə birinci işlənir.
D) *–sa²* şərt şəkilçisi və *–mı⁴* ədatı ilə bağlandıqda budaq cümlə birinci işlənir.
E) Bağlayıcı sözlə bağlanan bütün tabeli mürəkkəb cümlələrdə budaq cümlə birinci işlənir.

**6. Tərkib hissələri yalnız intonasiya ilə bağlanmış tabeli mürəkkəb cümləni göstərin.**

A) Bircə ondan razıyam ki, özümdən narazıyam. (B.V.)
B) Ürəyimdən keçirdi ki, bu dəfə onun köməyindən istifadə etməyim.
C) Üç-dörd ay olar, mən onu görə bilmirəm.
D) Bu komandanı da udsaq, çempion olacağımıza daha şübhə yoxdur.
E) Kim nə vaxt istəyir, gedə bilər.

**7. Fikirlərdən biri düzgün *deyil*:**

A) Baş cümlə müstəqil, budaq cümlə asılı tərəfdir.
B) Budaq cümlə ◯, baş cümlə □ kimi işarələnir.
C) Sual budaq cümlədən baş cümləyə verilir.
D) Sual baş cümlədən budaq cümləyə verilir.
E) Ox (əlaqə) işarəsi budaq cümlədən baş cümləyə tərəf çəkilir.

**8. Hansı ədatlar budaq cümləni baş cümləyə bağlaya bilər?**

1. bəs
2. da$^2$
3. ancaq
4. belə
5. -mı$^4$
6. yəni

A) 1,3,6 B) 2,4,5 C) 3,5,6
D) 2,3,6 E) 1,4,5

**9. Tərkib hissələri bağlayıcı sözlə bağlanan tabeli mürəkkəb cümlələri göstərin.**

1. Güman edirik, uşaqlar bizi darda qoymaz.
2. Hər kim vətəni sevər, o, əsl vətəndaş olar.
3. O, nə qədər çalışsa da, istədiyini əldə edə bilmirdi.
4. Madam ki razısınız, onda işə başlayaq.

A) 2,3 B) 1,4 C) 2,4 D) 1,3 E) 1,2

**10. Uyğunluğu müəyyən edin.**

1.Özündən sonra vergül tələb edən bağlayıcı
2. Özündən əvvəl vergül tələb edən bağlayıcı
3. Özündən əvvəl və sonra vergül tələb etməyən bağlayıcı

a. çünki
b. o cümlədən
c. ki
d. madam ki
e. isə

A) 1-c; 2-e; 3-a B) 1-b; 2-e; 3-d
C) 1-c; 2-a,b; 3-d,e D) 1-d; 2-c; 3-b
E) 1-a; 2-d; 3-c

# B variantı

**1. Düzgün *olmayanı* müəyyən edin.**

A) Kim mənim səhvlərimi göstərirsə, o mənim dostumdur. 

B) Elələri də olur ki, söhbətin mahiyyətinə varmır. 

C) Bilməmək eyib deyil, soruşmamaq eyibdir. 

D) Əgər meşə örtüyü olmasa, oksigen qıtlığı yaranar. 

E) Biz kəndə çatanda yağış kəsmiş, külək də dayanmışdı. 

**2. Hansı cümlədə nöqtələrin yerinə şərt bağlayıcısı yazılmalıdır?**

A) Həyat....... şirindirsə, o qədər də çətindir.

B) ......... danışmağı bacarmırsansa, barı susmağı öyrən.

C) Kimə.......... münasibət göstərərsənsə, elə də qarşılıq görərsən.

D) ............ ölkəmiz mülayim qurşaqda yerləşir, lakin qışı kifayət qədər soyuq keçir.

E) Sağlamlığın əsasını hərəkət təşkil edir,............. hərəkət bütün dərmanları əvəz edir.

**3. Tabeli mürəkkəb cümlələrdən birinin tərkib hissələri bağlayıcı sözlə bağlanmışdır:**

A) Havalar isti keçsə də, o, hələ qalın geyinirdi.

B) Kəndə təzə çatmışdıq ki, yaz yağışı başladı.

C) Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə. (N.Gəncəvi)

D) Əgər ağıllı kordursa, gözlərdən nə fayda!

E) Şam yanmasa, başına pərvanə dolanmaz.

**4. Cümlədə nöqtələrin yerinə hansı bağlayıcını işlətmək olar?**

*... sözümü deyib ürəyimi boşaltdım, amma onun qəlbinə dəydiyimə görə indi də peşmanam.*

A) əgər B) ona görə C) indi ki
D) kimə ki E) hərçənd

**5. Hansı nümunədə baş cümlə qeyri-müəyyən şəxsli cümlədir?**

A) Nəhayət, belə qərara gəldilər ki, sabah qonşu fermadan at alıb gətirsinlər.

B) Elə bil, ağaclar dayanıb qulaq asır ki, görək, insanlar yenə neyləmək istəyirlər?

C) Alış xəbər gətirdi ki, meşəni qırırlar.

D) Deyir, qəfil onunla qarşılaşsam, nə edim?

E) Qonaqlara təzəcə çay vermişdilər ki, ucaboylu, sarıbəniz, enlikürək bir oğlan – Şahmar gəldi.

**6. Cümlədə nöqtələrin yerinə bağlayıcının hansı növü yazıla bilər?**

*Kədərin ən yaxşı dərmanı səbirdir, ... mən həmişə səbir köynəyini geyinirəm.*

A) aydınlaşdırma B) şərt C) güzəşt
D) səbəb E) iştirak

**7. Uyğunluğu müəyyən edin.**

1. 
2. 

a. Vaxtının az olmasına baxmayaraq, uşaqlara çox diqqət yetirərdi.

b. Axşam düşmüşdü ki, kəşfiyyatçılar yola çıxdılar.

c. Meynəliyin altında oturmuşdu, çünki otaqlar isti idi.

d. Madam ki çağırıblar, çağırılan yerdən qalma.

e. Ramalova elə gəldi ki, hər şey bitib.

A) 1-c,e; 2-b,d B) 1-a; 2-c,e C) 1-b,d; 2-a
D)1-c; 2-d,e E) 1-b; 2-c,d

8. *"Həyatdan baş aça bilməyəndə də yenə sonsuz bir həyat istəyirik"* **( A. Frans) cümləsi əsasında yaranmış tabeli mürəkkəb cümlə *deyil*:**
A) Hərçənd ki həyatdan baş aça bilmirik, amma yenə sonsuz bir həyat istəyirik.
B) Həyatdan baş aça bilməsək də, amma yenə sonsuz bir həyat istəyirik.
C) Həyatdan baş aça bilməsək belə, yenə sonsuz bir həyat istəyirik.
D) Doğrudur, həyatdan baş aça bilmirik, amma yenə sonsuz bir həyat istəyirik.
E) Həyatdan baş aça bilmirik, amma yenə sonsuz bir həyat istəyirik.

**9. Doğru *olmayanı* müəyyən edin.**
A) Şər yaxşı bilirdi, yolu uzaqdır. (N.Gəncəvi) 
B) Yadımdadır ki, ağır, qara günlər yaşadıq. 
C) Elə ki yaz gəldi, hər tərəf al-yaşıla büründü. 
D) Oyun yenicə başlamışdı ki, hakim fit verdi 
E) Günəşi örtsə də qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var. (S. V)


**10.** *"Kim xalqı, milləti və vətəni üçün için-için göynəm çəkirsə, onun qarşısında əyilməyə hazıram"* **cümləsi haqqında *səhv* fikir hansıdır?**
A)  sxeminə uyğundur.
B) Bağlayıcı söz və *-sə* şəkilçisi ilə bağlanmışdır.
C) Asılı və əsas cümlələrdən ibarətdir.
D) Hər iki cümlədə mübtəda işlənmişdir.
E) Cümlələrdən biri digərindən asılıdır.

## C variantı

**1. Baş və budaq cümlələrin əlaqələndirilməsində *işlənməyən* bağlayıcı hansıdır?**
A) o cümlədən B) hərgah
C) hərçənd D) ki
E) indi ki

**2. Cümlə ilə bağlı *yanlış* fikir hansıdır?**
*Motivasiya odur ki, problem qoyulur və onun həlli üçün zəmin yaradılır.*
A) Tabeli mürəkkəb cümlədir.
B) Aydınlaşdırma bağlayıcısı ilə bağlanmışdır.
C)  sxeminə uyğundur.
D) Budaq cümlə sadə cümlədən ibarətdir.
E) Bağlayıcı söz işlənməmişdir.

**3. Tabeli mürəkkəb cümlələrin bağlanma vasitələrinə görə işlənmə ardıcıllığını müəyyən edin.**
bağlayıcı sözlə intonasiya ilə
şərt bağlayıcısı ilə səbəb bağlayıcısı ilə
1. Hara insan ayağı dəyirsə, ora gözəlləşir.
2. Bir halda ki işləməyi bacarmırsan, qoy bacaran işləsin.
3. Deyirlər, bu qış çox sərt keçəcək.
4. Yağışın altında gəzməyi cox sevirəm, cünki ağlamağımı heç kim görə bilmir.
A) 2,4,3,1 B) 1,3,2,4
C) 4,2,1,3 D) 3,4,2,1
E) 2,1,3,4

**4. Məntiqə əsasən fərqli olan cümləni müəyyən edin.**



A) Kimə ki yaxşılıq edirsən, ondan qarşılıq istəmə.
B) Qış yenicə qurtarmışdı ki, bənövşələr qarın altından baş qaldırdı.
C) Unutmaq olmaz ki, Şuşamız düşmən əlindədir.
D) Kim ki yalnız özünü sevir, ona eqoist deyirlər.
E) Hara qaranlıqdırsa, ora qorxuludur.

**5. Cümlə ilə bağlı *yanlış* fikir hansıdır?**
*Mən istəyirəm, güllər açılsın, güllələr açılmasın!*
A) Baş cümlə tabesiz mürəkkəb cümlədən ibarətdir.
B) Tabeli mürəkkəb cümlədir.
C) Tərkib hissələri intonasiya ilə bağlanmışdır.
D)  sxeminə uyğundur.
E) Budaq cümlədə qarşılaşdırma bağlayıcısı da işlənə bilər.

**6. Baş cümlənin qrammatik əsasları nə ilə ifadə olunub?**
*Bəxtiyardır o şair ki,*
*Rübabında mühitinin mahnısını çağırır...*
(M.Müşfiq)
A) xəbər fel, mübtəda sifətlə
B) xəbər isim, mübtəda sifətlə
C) xəbər fel, mübtəda isimlə
D) həm mübtəda, həm xəbər isimlə
E) xəbər sifət, mübtəda isimlə

**7. Tərkib hissələri intonasiya ilə bağlanan tabeli mürəkkəb cümlə hansıdır?**
A) Elmə məlumdur ki, adaların yaranmasının səbəbləri var.
B) Mən hiss elədim, bu söz ona çox təsir elədi.
C) Nə qədər yalvardım, məni eşitmədi.
D) Necə demişdim, elə də yazmışdı.
E) Çiçəklər açıldı, bəzəndi dağlar.

**8. Hansı nitq hissəsinin sualları tabeli mürəkkəb cümlələrdə bağlayıcı söz kimi *işlənmir*?**
A) ismin B) sifətin C) sayın
D) feilin E) zərfin

**9. *"Biz kəndə qalxa bilmədik,.......yağan qar yolları bağlamışdı"* cümləsində nöqtələrin yerində hansı bağlayıcı *işlənməz*?**
A) çünki B) ona görə ki
C) ondan ötrü ki D) onun üçün ki
E) buna görə

**10. Uyğunluğu müəyyən edin.**
1. intonasiya ilə bağlanan tabeli mürəkkəb cümlə
2. bağlayıcı sözlə bağlanan tabeli mürəkkəb cümlə
3. bağlayıcı ilə bağlanan tabeli mürəkkəb cümlə
a. Bir halda ki keçmişi oxuyursan, deməli, gələcəyi öyrənirsən.
b. Kim ki ağıllı hərəkət edir, o, həmişə uğur qazanır.
c. Dostumla əlaqə saxlaya bilmədim, cünki o, xaricə getmişdi.
d. Eybi yox, biri azlıq edir, ikisini götür.
e. Güclü yağış yağdı, çaylar öz məcrasından çıxdı.
A) 1-d; 2-b; 3-a, c B) 1-b; 2-a,c; 3-d, e
C) 1-d,e; 2-b; 3-a D) 1-a; 2-d, e; 3-b, c
E) 1-e, 2-c,d; 3-b

Tədris vahidi: **4**

# Vasitəli və vasitəsiz nitq

Bölmə: **MƏDƏNİ İRS VƏ CƏMİYYƏT**

## A variantı

**1. Vasitəsiz nitqli cümlənin düzgün sxemini göstərin.**
*Yoldaşım kağızı büküb mənə tapşırdı: "Bunu, - dedi, - uzağa aparmaq lazım deyil, səhra xəstəxanasına təhvil verərsən!"*
A) M: "V, - m, - v!" B) "V, - m, - v!"
C) M: "V!" D) M: "V", - m.
E) "V!" – m.

**2. Hansı fikir *yanlışdır*?**
A) Müəllif təhkiyəsində verilən vasitəsiz nitq dırnağın içərisində böyük hərflə başlayır.
B) Vasitəsiz nitq üç nöqtə ilə bitərsə, dırnaq işarəsi üç nöqtədən əvvəl bağlanır.
C) Sual və əmr cümlələri də vasitəsiz nitq ola bilər.
D) Vasitəsiz nitq həm sadə, həm də mürəkkəb cümlə ola bilər.
E) İstənilən vasitəsiz nitqi vasitəli nitqə çevirmək olar.

**3.Hansı fikir düzgündür?**
A) Vasitəsiz nitq müəllifin sözləri arasında işlənə bilər.
B) Müəllifin sözləri vasitəsiz nitqin arasında işlənə bilməz.
C) Müəllifin sözləri həmişə vasitəsiz nitqdən əvvəl gəlir.
D) Vasitəsiz nitq yalnız müəllif təhkiyəsində ola bilir.
E) Başqasının nitqi olduğu kimi verildikdə vasitəli nitq olur.

**4. Biri *yanlışdır:***
A) Vasitəsiz nitq müəllif təhkiyəsinə daxil olduqda dırnaqlar arasında verilir.
B) Vasitəsiz nitq dialoqlarda tire ilə verilir.
C) Başqasının nitqinin məzmunu saxlanılmaqla dəyişilmiş şəkildə verilərsə, vasitəli nitq sayılır.
D) Müəllifin sözləri ilə vasitəsiz nitq növbələşə bilər.
E) Müəllifin sözləri vasitəsiz nitqin arasında işləndikdə ondan sonra qoşa nöqtə qoyulur.

**5. Dırnaq işarəsi daxilində verilən vasitəsiz nitqdən əvvəl hansı durğu işarəsi qoyulur?**
A) qoşa nöqtə B) tire C) vergül
D) nöqtə E) nöqtəli vergül

**6. Müəllifin sözləri vasitəsiz nitqin arasında gəldikdə ondan həm əvvəl, həm də sonra hansı durğu işarələri qoyulur?**
1. nöqtə 2. vegül 3. nöqtəli vergül
4. tire 5. qoşa nöqtə 6.dırnaq
A) 1, 3 B) 2, 5 C) 2, 4 D) 1, 6 E) 4, 6

**7. Vasitəsiz nitqdə dırnaq işarəsi bağlandıqdan sonra hansı durğu işarəsi qoyula bilər?**
A) sual B) üç nöqtə C) nida
D) nöqtə E) qoşa nöqtə

**8. Müəllif təhkiyəsində vasitəsiz nitq müəllifin sözləri arasında işlənərsə, durğu işarələrinin ardıcıllığı necə olmalıdır?**
1. tire 2. dırnaq 3. qoşa nöqtə
4. vergül 5. nöqtə
A) 3,2,2,4,1,5 B) 2,3,4,1,5
C) 3,2,2,1,4,5 D) 3,4,1,2,2,5
E) 3,2,1,4,5

**9. Müəllifin təhkiyəsində müəllifin sözləri vasitəsiz nitqin arasında işlənərsə, durğu işarələrinin işlənmə ardıcıllığı necə olmalıdır?**
1.vergül 2.tire 3.dırnaq 4.nöqtə
A) 3,1,2,1,2,3,4 B) 3,1,2,1,2,4,3
C) 2,1,2,3,1,3,4 D) 3,1,2,2,1,4,3
E) 2,3,1,2,3,4

**10. Müəllifin sözləri arasında olan vasitəsiz nitq sual cümlələri olarsa, durğu işarələrinin işlənməsi ardıcıllığı necə olar?**
1.dırnaq 2.qoşa nöqtə 3.tire
4.sual 5.nöqtə
A) 2,1,4,3,5,1 B) 2,1,4,1,3,5
C) 2,3,4,1,1,5 D) 3,2,1,4,1,5
E) 1,2,4,3,5,1

## B variantı

**1. Durğu işarələri buraxılmış hansı sxemdə vergül işarəsi *olmamalıdır*?**
A) V m B) V m v C) M V m v
D) M V E) M V m

**2. Hansı cümlə M: "V". sxeminə uyğundur? (Durğu işarələri buraxılmışdır.)**
A) Avstriya psixoloqu Vilhelm Reyx Bu gün çıxdığımız hər pillə sabahkı həyatımızın təməlidir deyərək fikrini tamamladı.
B) İran şairi Fəridəddin Əttar demişdir Söyləmədiyin sözü nə vaxtsa söyləyə bilərsən, lakin söylədiyini gizlədə bilməzsən.
C) Söyləmədiyin fikri nə vaxtsa söyləyə bilərsən, dedi, lakin söylədiyini gizlədə bilməzsən.
D) S.Vurğun yazırdı Vətənsiz də insan olan insan kimi yaşayarmı
E) "Qurani-Kərim"də yazılmışdır ki, hər çətinlikdən sonra bir asanlıq gələr.

**3. Vasitəsiz nitqi ümumi şəxsli cümlə şəklində olan cümlələri müəyyən edin.**
1. Murad kişi deyirdi: "Bu olmasaydı, mən çoxdan ölmüşdüm".
2. Biz ayrılan zaman soruşdun: "Bir də şəhərə gələcəksənmi?"
3. "İmtahana belə hazırlaşarlar?"–deyə Gülnaz müəllimə soruşdu.
4 . Balaca Ələkbər çiyinlərini çəkib: "Bilmirəm", – deyirdi.
5. Həlimə xala: "Qonağı bu cür qarşılayarlar?" – deyə acıqlı-acıqlı qızına baxdı.
A) 3, 5 B) 1, 2, 4 C) 1, 4, 5
D) 2, 5 E) 3, 4

**4. Durğu işarələrini bərpa edərək "V, -m - v" sxeminə uyğun *olmayan* cümləni müəyyən edin.**

A) Çox bilən, lakin az danışan ol dedi az bilib çox danışan olma
B) Əli qardaşına Sabah mütləq gələrsən dedi köməyinə ehtiyac var
C) Oğlum, gec-tez qələbə bizimlədir dedi o gün uzaqda deyil
D) Oğlum, bir yaxşı düşün dedi birləşməsək, qalib gələ bilmərik
E) Mənasız danışma dedi mənası olmayan söz işığı olmayan göz kimidir

**5. Durğu işarələrini bərpa edərək *uyğunsuzluğu* müəyyən edin.**

A) Müəllim Uşaqlar, insan başqalarından nümunə götürməsə, irəliləyə bilməz dedi → M: "V",-m
B) Platon demişdir İnsanın ən böyük üstünlüyü danışa bilməsidir → M: "V".
C) Qısamüddətli müvəffəqiyyətsizlik qısamüddətli müvəffəqiyyətdən daha yaxşıdır deyə Pifaqor gənclərə nəsihət edərmiş → "V",-m.
D) O təzim edib Qibleyi-aləm dedi mən aciz Yusif sənin sadiq qulunam →M: "V, - m, - v".
E) İngilis şairi Con Milton Uğur qazanıb sevinmək üçün bir çox çətinliklərə dözmək lazımdır demişdir → M: "V, - m, -v".

**6. Durğu işarələrini bərpa edərək vasitəsiz nitqli cümlələri müəyyən edin.**

1. Həzrət Əli demişdir ki, insan öz dilinin altında gizlənibdir, danışandan sonra ağıllı və ya ağılsız olması bilinir.
2. Sokrat bir səsini çıxar deyim ki, sən kimsən deyə müsahibinə cavab verdi
3. Babası həmişə deyərdi ki, vətənin qədri qürbətdə bilinər
4. Darıxma oğlum yaman günun ömrü az olar deyə anası oğluna təsəlli verdi

A) 1,2 B) 2,3 C) 3,4
D) 2,4 E) 1,3

**7. Durğu işarələrini bərpa edərək cümlənin sxemini müəyyən edin.**

*Qələmin ən müqəddəs vəzifəsi xalqa xidmət etməkdir deyə C.Məmmədquluzadə yazırdı*

A) "V", - m. B) "V, - m, - v".
C) M: "V". D) M: "V, - m, - v".
E) "V?" –m.

**8. Hansı nümunədə ardıcıl olaraq qoşa nöqtə, dırnaq, sual, dırnaq, tire, nöqtə işarələri qoyulmalıdır?**

A) Mən sizi bu qorxulu yoldan çəkindirə bilmədim deyə Əhməd müəllim gileylənirdi
B) Müəllim Kimin sualı var deyə sinifə müraciət etdi
C) Qonağı belə qarşılayarlar deyə ana acıqlı-acıqlı qızına baxdı
D) S.Rüstəm yazırdı İnsan deyib gülərmi vətəndən ayrı
E) S.Vurğun İnsandır ən böyük qüvvə cahanda deyə yazırdı

**9. Durğu işarələri buraxılmış hansı sxemdə tire işarəsi *olmamalıdır*?**

A) V m v B) V m
C) M V D) M V m v
E) M V m

**10. Durğu işarələrini bərpa edərək uyğunluğu müəyyən edin.**

1. "V?"-m
2. M: "V?"
3. M: "V",-m

a. İstidir hər quşun doğma yuvası... deyə cavab verdi.
b. İnsan da vətənsiz insan olarmı deyə sözünü davam etdirdi.
c. S.Vurğun demişdir Vətənsiz, yurdsuz insanlar yaşar aləmdə məsləksiz.
d. O dedi Köksüz bir ağacın meyvəsi varmı
e. O Vətəndən ayrılsa, qocalar insan deyə kədərli səslə cavab verdi.

A) 1-b;2-d;3-e
B) 1-a;2-b;3-d
C) 1-a;2-c;3-d
D) 1-c;2-d;3-e
E) 1-a;2-c;3-d

## C variantı

**1. Durğu işarələri buraxılmış cümlələrdən biri vasitəli nitqli cümlədir:**

A) Başqalarının eyiblərini ortaya çıxaran adam öz eyiblərini nümayiş etdirmiş olur deyə Uilyam Porter yazırdı
B) Atalar demişdir ki bəxtəvər o kəsdir ki yurdu yaşıl donludur
C) Bir doğru ki yalana oxşadı onu deməzlər dedi
D) Mores Meterlinq deyirdi Elmlə məşğul olmadan dünyanın sirlərini necə öyrənə bilərsən
E) Nazim Hikmət Mən yanmasam sən yanmasan o yanmasa necə çıxar qaranlıqlar aydınlığa deyə gənclərə müraciət edirdi

**2. Cümlənin sxemini müəyyən edin.**

Ata oğluna: "Oğlum, qüvvə hər şeyi, ağıl qüvvəni sındırar", - deyə məsləhət verdi.

A) M: "V,- m, - v".
B) M: "V", - m.
C) "V", - m.
D) "V, - m,- v".
E) M: "V, - m, -v", - m.

3. *"Torpağı almaq olar, mal-dövləti almaq olar, lap adamın həyatını almaq olar, – deyə ana acı-acı söylədi, – ancaq adamın hafizəsinə kim qəsd edə bilər?".*

**Vasitəsiz nitqli cümlənin düzgün sxemini göstərin.**

A) M – "V", – m.
B) M: "V?"
C) "V", – m.
D) M: "V, – m, – v".
E) "V, – m, – v?"

**4. Durğu işarələrini bərpa edərək "V, -m,-v" sxeminə uyğun olan cümləni müəyyən edin.**

A) Qanı qan ilə yumazlar dedi qanı su ilə yuyarlar

B) İcra nümayəndəsi Natiq Nağıyev Problemi tezliklə həll edərik deyə cavab verdi

C) Hər kəs öz sağlamlığını qorusa, bütün bəşəriyyət sağlam olar deyə həkim Rafiq Nağıyev bildirdi

D) Ata Bildiyindən danış dedi bilmədiyin səni güdaza verər deyə oğluna nəsihət verdi

E) Bir qəlbi ki tikə bilmirsən dedi niyə yıxırsan

**5.** *"Ana: "Bol çörəyin yoxdursa, - dedi, - barı şirin dilin olsun", -deyə qızına öyüd-nəsihət verdi"* **cümləsi hansı sxemə uyğundur?**

A) "V,-m,-v". B) M: "V,-m,-v", -m.
C) "V",-m. D) "V,-m,v",-m.
E) M: "V,-m,-v".

**6. Cümlədə durğu işarələrinin ardıcıllıqla bərpası necə olmalıdır?**

*Ağıllı ancaq nail ola biləcəyi məqsədə can atan adama deyirlər deyə Sokrat gənclərə müraciət edərmiş*

1. dırnaq 2. tire 3. qoşa nöqtə
4. vergül 5. dırnaq 6. nöqtə

A) 3,1,5,4,2,6 B) 1,1,4,2,6 C) 1,5,4,2,6
D) 1,2,4,5,6 E) 3,1,4,2,6,5

**7.** ***A.Smit İnsan başqalarından nümunə götürməsə irəliləyə bilməz dedi*** **cümləsində buraxılmış durğu işarələrini ardıcıllıqla bərpa edin.**

1. dırnaq 2. tire 3. qoşa nöqtə
4. vergül 5. sual 6. nöqtə
7. nida

A) 3,1,4,1,4,2,6 B) 3,4,1,5,7,2,6
C) 1,4,5,7,6,2 D) 3,1,5,4,2,7,6
E) 3,1,5,4,7,6,2

**8.** *F.Köçərli S.Ə.Şirvani haqqında yazmışdır: "Onun şeirləri axıcıdır, ahəngdar və məlahətlidir".*

**Cümlə haqqında doğru fikirləri müəyyən edin.**

1. Vasitəsiz nitq müəyyən şəxsli geniş cümlədir.
2. M: "V" sxeminə uyğundur.
3. Müəllifin sözləri müəyyən şəxsli müxtəsər cümlədir.
4. Vasitəsiz nitq həmcins xəbərlidir.
5. Vasitəsiz nitq ismi xəbərli cümlədir.

A) 2,4,5 B) 1,3 C) 1,2,5
D) 2,3,4 E) 3,5

**9. Durğu işarələrini bərpa edərək cümlənin sxemini qurun.**

*Danimarka yazıçısı Knut Bekker Qulaq asmağı bacaran adam üçün söz xəzinə qədər qiymətlidir deyə gənclərə nəsihət verdi*

A) "V?"-m. B) "V!"-m. C) M: "V!"-m.
D) "V,-m,-v". E) M: "V",-m.

**10. Durğu işarələrini bərpa edərək uyğunluğu müəyyən edin.**

1. "V?" - m.
2. M: "V?"
3. M: "V", -m.

a. Çörək bol olarsa, basılmaz Vətən deyə S.Vurğun hamını əməyə çağırırdı.
b. Təbibsiz, davasız xəstə neyləsin deyə şair yazırdı.
c. S.Vurğun yazırdı Qartal öz gücünü duyar havada.
d. O dedi İnsan da əslini heç unudarmı
e. O Hər insan qəlbinin öz aləmi var deyə sakit səslə cavab verdi.

A) 1-b; 2-d; 3-e B) 1-a; 2-b; 3-d
C) 1-a; 2-c; 3-d D) 1-c; 2-d; 3-e
E) 1-a; 2-c; 3-d

# İKİNCİ YARIMİL ÜZRƏ YEKUNLAŞDIRICI TEST TAPŞIRIQLARI

## A variantı

**1. Tabesiz mürəkkəb cümlələrə aid xüsusiyyətləri müəyyən edin.**
1. Bərabərhüquqlu sadə cümlələrdən yaranması
2. Tabelilik bağlayıcıları olması
3. Cümlələrdən birinin digərini izah etməsi
4. Tabesizlik bağlayıcıları ilə əlaqələnməsi

A) 1, 2 B) 2, 3 C) 1, 4 D) 3, 4 E) 2, 4

**2.** *"Kim ki başqasına xoşbəxtlik arzulayır, o, xoşbəxtdir"* **cümləsində baş və budaq cümlə hansı vasitə ilə bağlanmışdır?**

A) tabeli bağlayıcı ilə
B) tabesiz bağlayıcı ilə
C) bağlayıcı sözlə
D) intonasiya ilə
E) şərt şəkilçisi ilə

**3. Hansı mürəkkəb cümlənin hər iki tərkib hissəsi müəyyən şəxsli cümlə *deyil*?**

A) Şad xəbər verdilər, ananın ürəyi açıldı.
B) Səfərəli dünya görmüşdü, Bulud isə təcrübəsiz idi.
C) Qəfildən siqnal verdilər, qız diksindi.
D) Külək gücləndi, ağacların saralmış yarpaqları yerlə bir oldu.
E) Hava birdən-birə soyudu, hətta yağış da yağdı.

**4.** *"O adamlarla otur-dur ki, hamı onları yaxşı hesab edir"* (A.Bakıxanov) **cümləsinin təhlili ilə bağlı *səhv* fikri göstərin.**

A) Tərəfləri *ki* bağlayıcısı ilə bağlanıb.
B)  sxemə uyğundur.
C) Baş cümlədə təyin işarə əvəzliyi ilə ifadə olunub.
D) Tərkibindəki cümlələr ümumi şəxsli cümlələrdir.
E) Xəbərlər feilidir.

**5. Biri tabeli mürəkkəb cümlədir:**

A) Ulduzlar, Ay göydə çıraq kimi yanır, ətrafı nura qərq edirdi.
B) Mən haqlı olduğumu sübut etməyə çalışdım, amma anlamaq istəyən tapılmadı.
C) Bu sözləri Xudayar bəy elə bir halda deyirdi ki, deyəsən, bəs, ürəyi yanırdı.
D) Axşam olanda çay süfrəsi arxasında əyləşər, ötüb keçənlərdən şirin-şirin söhbət edərdilər.
E) Günlərimi sayırdım, vaxt getmirdi.

**6. Hansı cümlə**  **sxeminə uyğundur?**

A) Əxlaq elə bir güzgüdür ki, burada hər kəs öz simasını göstərir.(Höte)
B) Əgər düzgün fikri tez-tez təkrar etsən, o öz təsir gücünü itirər.(A.Morya)
C) Yalanı bağışlamaq olmaz, ona görə ki yalanın daimi peyki hiyləgərlikdir.(C.Lokk)
D) Hörmət pulla alınmır, onu göstərdiyin xeyirxahlıqla əldə edə bilərsən.(Ə.Firdovsi)
E) Nəyin varsa, hamısını nümayiş etdirmə, çünki sabah heç kimi təəcübləndirə bilməyəcəksən.(B.Qrasian)

**7. Cümlələr birləşdirilərsə, hansında tabesiz mürəkkəb cümlə *yaranmaz*?**

**Gün çıxır** →
A) kəndlilər mal-qaranı örüşə ötürürlər.
B) ətraf nura boyanır.
C) qarlar əriyir.
D) torpağın donu açılır.
E) torpağı isidir.

**8.** “*Həyat hərəkət deməkdir, yəni su da axmayanda iylənir*” (Aristotel) **cümləsi haqqında *yanlış* fikir hansıdır?**

A) Tabesiz mürəkkəb cümlədir.
B) Aydınlaşdırma əlaqəlidir.
C) Birinci tərkib hissə ümumilik bildirir, ikinci tərkib hissə onu aydınlaşdırır.
D) Tabesizlik əlaqəsi ilə əlaqələnmişdir.
E) □ ⟷ □ sxeminə uyğun deyil.

**9. Uyğunluğu müəyyən edin.**

1. *Kimdə insaf var, o mərhəmətlidir.*
2. *Həmişə diqqətli ol ki, ehtiyyatı əldən verməyəsən.*

a. Bağlayıcı ilə bağlanmışdır.
b. Bərabərhüquqludur.
c. ○ → □ sxeminə uygundur.
d. Baş cümlə ismi xəbərlidir.
e. □ → ○ sxeminə uygundur.

A) 1-d,e; 2 a,c
B) 1-a,b; 2-d,e
C) 1-b,d; 2-d,e
D) 1-a,c; 2-d,e
E) 1-c,d; 2-a,e

**10. Tabesiz mürəkkəb cümlə haqqında hansı fikir doğrudur?**

A) Tərkib hissələri yalnız intonasiya ilə əlaqələnir.
B) Tərkib hissələri arasında tabelilik bağlayıcıları işlənir.
C) Tərkib hissələri yalnız tabesizlik bağlayıcıları ilə bağlanır.
D) Bəzən üç, dörd sadə cümlənin birləşməsindən əmələ gəlir.
E) Belə cümlələrin birindən digərinə sual vermək olur.

**11. Hansı cümlə □ ← ○ sxeminə uyğun gəlir?**

A) Sən torpağa əyil ki, o sənə yaxın gəlsin.(Atalar sözü)
B) Boş zaman yoxdur, boş keçən zaman var.(Atalar sözü)
C) Keçmişi dəyişə bilməzsən, lakin gələcək sənin öz əlindədir.(V.Hüqo)
D) Gözlərim gözlərinə çatmadı və ürəyimdə nə isə ağrı duydum.(M.İbrahimov)
E) Şah başa düşür söyür, gəda başa düşmür söyür.(M.Cəlal)

**12. Hansı tabeli mürəkkəb cümlədə vergül işarəsi *səhv* qoyulmuşdur?**

A) Elə yaşa ki, öldükdən sonra ölməyəsən. (M.Cəlil)
B) Əgər, yıxılsam, çinar göstərin,
Mən onun gözüylə cahana baxım.(N.Xəzri)
C) Madam ki sülh ilə göyərir dilək,
Döyüşə at çapmaq daha nə gərək? (N.Gəncəvi)
D) Nə qədər çox oxusan, o qədər çox bilərsən. (M.Qorki)
E) Onunçün öyrətdim əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.(N.Gəncəvi)

**13. Hansı cümlədəki *ki*-dən sonra vergül qoyulmalıdır?**
A) Sən ki belə deyildin,
Səni bir öyrədən var. (C.Cabbarlı)
B) İndi ki belədir, mən deyənlə razılaşmalısan.
C) Nə vaxt ki qəmlisən, işlə. Bu, kədəri qovmaq üçün yeganə vasitədir. (İ.Bexer)
D) Elə əməllər var ki onu həm də göz yaşı ilə təmizləmək olmaz. (Haydn)
E) İndiki gənclər vaxta sərvət kimi baxmalıdırlar.

**14. İki sözdən ibarət olsa da, biri tabeli mürəkkəb cümlədir:**
A) Çağırdım, gəlmədi.
B) İstəsə, oxuyar.
C) Dedim, eşitmədi.
D) Yazdı, yoxladım.
E) Soruşdum, dinmədi.

**15.Hansı bənd tabeli mürəkkəb cümlənin 2-ci tərkib hissəsinə uyğun *gəlmir*?**

İndi bildim ki,
→ hər parıldayan güzgü deyil. A)
→ tökülən dolmaz. B)
→ dünən kəndə gedəcəyik. C)
→ vaxt qızıldır. D)
→ təbiət də anadır. E)

**16. Hansı nümunədə iki tabeli mürəkkəb cümlə *yoxdur*?**
A) El bilir ki, uşaqlıdan o naxələf olmayıb,
Ürəyimə damıb ki, oğlum tələf olmayıb.(S.Rüstəm)
B) Demə: o, dostumdur, bu, dümşmənimdir,
De: mən bu xalqınam, xalq da mənimdir.(B.Vahabzadə)
C) Demə: o, kafir, bu, müsəlmandır,
Hər kimin elmi var, o, insandır.(S.Ə.Şirvani)
D) Anama demişəm, mənə saz alsın,
Sazı çalım, dərdim, qəmim azalsın. (Xalq mahnısı)
E) Yenə o bağ olaydı, yenə o qumlu sahil. (M.Müşfiq)

**17. Hansı mürəkkəb cümlə *sadələşmir*?**
A) Üç aydır ki, cəbhədə döyüşür qoçaq əri.(S.Rüstəm)
B) Diləyim budur ki, hər gecə, hər gün
Sənin qələmindən inci tökülsün.(S.Vurğun)
C) Kimdə ürək var, onda çörək var. (Atalar sözü)
D) Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli.(H.Cavid)
E) Adı var, özü yox.

**18. Hansı nümunədə bağlayıcı söz *işlənməmişdir*?**
A) Kitab da vardır ki, onun sözləri
Düzülmüş şəfəqli ulduzlar kimi.(S.Vurğun)
B) Hər kim ki ürəkdən vətəni sevdi əzəldən,
Bir nəğməyə çevrildi adı, düşmədi dildən.(İ.Cəfərpur)
C) Kim sevdi qara zülfünü, ağ günlərə çıxdı.(Ə.Vahid)
D) Kim ki yetişmədi ağıldan vara,
Oxşar insansifət əjdahalara. (N.Gəncəvi)
E) Kimdə ki həvəs var, o, məqsədinə çatacaqdır.

**19. Hansı vasitəsiz nitqli cümlədə durğu işarəsi *səhvinə* yol verilmişdir?**

A) Bekon demişdir: "Elm güc deməkdir".
B) Bokl: "Xurafatı yalnız elm zəiflədə bilər", -demişdir.
C) "Dünya yaranandan bəri paltar da dəyişir, dəb də", -deyə müəllim fikrini qətiləşdirdi.
D) M.Dilbazi demişdir: "Qadının dəyəri onun boyasında yox, həyasındadır."
E) Sədi Şirazi: "Yamanlıq edən yaxşılıq görməz", -yazmışdır.

**20. Dialoqda hansı durğu işarəsi qoyulmalıdır?**

*Təbiəti sevirsən?*
*Bəs necə?*
*Neçə ağac əkmisən?*
*Heç neçə!*

A) üç tire
B) vergüllər
C) nöqtəli vergüllər
D) dörd tire
E) beş tire

## B variantı

**1.** *"Hava qızır, qar əriyir"* **cümləsini hansı tabesizlik bağlayıcısı əlaqəndirə *bilməz*?**

A) həm, həm də
B) da
C) nə, nə də
D) və
E) ya, ya da

**2.** *"Göz yaşı axıtmayanda ürəyim soyumur, qüssəm isə azalmırdı''* (Ə.Vəliyev) **tabesiz mürəkkəb cümləsi ilə bağlı *yanlış* fikir hansıdır?**

A) Bağlayıcı ilə əlaqələnmişdir.
B) İki qrammatik əsası var.
C) Tərkib hissələri tabesizlik əlaqəsi ilə bağlanmışdır.
D)  sxeminə uyğundur.
E) Cümlələrdən biri digərini izah edir.

**3.** *"Sən yaratdığın Firəngiz indi yoxdur, mən yaratdığım Firəngiz əbədidir"* (C.Cabbarlı) **tabesiz mürəkkəb cümləsinin tərkib hissələri arasında hansı bağlayıcının işlənməsi *qeyri-mümkündür*?**

A) amma
B) lakin
C) ancaq
D) isə
E) çünki

**4. Biri tabesiz mürəkkəb cümlədir:**

A) Səltənət yenicə başını qaldırmışdı ki, həyat qapısı açıldı.(M.Cəlal)
B) İgid odur, dediyini danmasın.
C) Kəsilsin o qol ki, yardımı yoxdur,
Sussun o ürək ki, buzdan soyuqdur.
(M.Şəhriyar)
D) Araz geri axar, mən sənə yalvarmaram.(M.İbrahimov)
E) Xeyli var ki, görməmişəm üzünü,
Gəl, qardaşım, qucaqlaşıb öpüşək.
(S.Rüstəm)

**5. Hansı tabesiz cümlənin iki qrammatik əsası var?**

A) Çoxdan evdən çıxmışam, anam da təkdir və mən burada qala bilmərəm. (M.Cəlal)
B) At arabası Qaraoğlan stansiyasına çatır, poçt təhvil verilir, kağızlar ünvanına yetirilirdi.
C) Zəng çalındı, uşaqlar sinfə daxil oldular, müəllim onlarla nəzakətlə görüşdü.
D) Kimi su daşıyır, kimi yer belləyirdi.
E) Atlar qaçır, zınqırovlar səslənir, həkim düşüncəli halda susurdu. (Ə.Vəliyev)

**6. Hansı tabesiz mürəkkəb cümlədəki tərkib hissələrin yerini dəyişmək *olmaz*?**

A) Gah güclü yağış yağır, gah da gün çıxır.
B) Nə o, kəndə gəldi, nə də mən Təbrizə getdim.(M.İbrahimov)
C) Bildir yayda bərk quraqlıq oldu, taxıl çürüdü. (Ə.Vəliyev)
D) Sən baş tapmırsan, mən isə güc. (S.Rəhimov)
E) Yaz olanda hər gül bir ətir verər, hər quş bir hava oxuyarmış. (M.İbrahimov)

**7. Mürəkkəb cümlələrin birində vergül işarəsi düzgün *qoyulmamışdır*?**

A) Bəziniz qorxulu, bəziniz qorxusuz,
Bəziniz duyğulu, bəziniz duyğusuz. (M.Müşfiq)
B) Yaşamaq şirindir, həyat gözəldir. (S.Vurğun)
C) Bir danış ki, deyim kimsən. (Sokrat)
D) Adımı çəkmirəm çünki, ağsaqqaldan ayıbdır.
E) İgid odur, atdan düşə atlana.

**8.**  **sxeminə uyğun cümlə hansıdır?**

A) Elə baxma, gözlərinə göz dəyər.
B) Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.
C) Kim ki iş üstündə ürək əridir,
Gülşənə döndərir bomboz çölləri. (S.Vurğun)
D) Kim demiş ki, düşmüş adı dilimdən,
Azərbaycan, mənim eşsiz yurdum, oy! (A.İldırım)
E) Adət budur, yar xəbərin yar alar. (M.Cümə)

**9.** *"Qorxma, ... qorxaq uğur qazanmaz"* **tabeli mürəkkəb cümləsində nöqtələrin yerinə hansı tabelilik bağlayıcısını işlətmək *olmaz*?**

A) çünki
B) ona görə ki
C) onun üçün ki
D) ondan ötrü ki
E) hərçənd ki

**10. Mürəkkəb cümlələri müəyyən edin.**

1. Uzaqdan ağaran, yaxınlaşdıqca böyüyən Savalan dağı idi.
2. Sobanın yanmasına baxmayaraq, ev qızmırdı.
3. Biz dərsdən sonra kafeyə getdik, gələcək planlarımız haqqında götür-qoy etdik.
4. Günəş qalxır, hava işıqlanırdı.
5. Tanışlıq versə də, onu tanımadım.

A) 4, 5 B) 1, 2, 3 C) 1, 4, 5
D) 2, 5 E) 3, 4

**11. Hansı cümlədəki *ki*-dən sonra vergül qoyulmalıdır?**

A) Bir insan ki hara getdiyini bilmir, o, uzun yol gedə bilməz. (Kromvel)
B) Elə ki böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?!
(N.Gəncəvi)
C) Dünənki hadisədən sonra hələ də özümə gələ bilməmişəm.
D) Dünyada elə bir zirvə yoxdur ki qətiyyət əvvəl-axır onu fəth edə bilməsin.(Ç.Dikkens)
E) Bir halda ki keçmişi oxuyursan, deməli, gələcəyi öyrənirsən.

**12. Vasitəsiz nitq necə cümlədir?**

*Anası qızına tez-tez deyərdi: Qızım, evə gələn qonağı gülər üzlə qarşılayarlar.*

A) müəyyən şəxsli geniş cümlə
B) qeyri-müəyyən şəxsli cümlə
C) şəxssiz cümlə
D) ümumi şəxsli cümlə
E) müəyyən şəxsli müxtəsər cümlə

**13.Nümunələrdən hansı**  **,**
 **sxeminə uyğun *deyil*?**

A) Dilini saxla, çünki dilini saxlamaq özün üçün verdiyin sədəqədir.(Məhəmməd Peyğəmbər)
B) Deyirlər ki, bülbülü dilə gətirən onun gülə olan eşqidir.
C) Hərçənd o, çox yorulmuşdu, ancaq qətiyyətli görünürdü.
D) Yazıçı çox yazmalıdır, ancaq o heç vaxt tələsməməlidir.(Çexov)
E) Əgər bir insan yüz il yaşayıb iz qoymursa, belə həyatın nə mənası var? (M.F.Axundzadə)

**14. Hansı cümləyə *əgər* bağlayıcısını artırmaq *olmaz*?**

A) Od olmasa, tüstü çıxmaz. (Atalar sözü)
B) Özünə hörmət etmək istəyirsənsə, əvvəlcə özünə hörmət et. (Züderman)
C) Könlün balıq istəyirsə, suya gir.
D) Hərçənd qadınlar dünyanı idarə edirlər, tarixçilər yalnız kişilərin adını bilirlər. (H.Heyne)
E) Evdə iki qadın varsa, o ev təmiz süpürülməz. (Höte)

**15.** *"İnsan unutmağı bacarmasa, dəli olar"* **cümləsinin sintaktik təhlili ilə bağlı *səhvləri* müəyyən edin.**

1. Baş və budaq cümlə şərt şəkilçisi ilə bağlanmışdır.
2. Baş cümlə şəxssizdir.
3. Birinci budaq, ikincisi baş cümlədir.
4. Budaq cümlə müəyyən şəxsli müxtəsər cümlədir.
5. Nəqli cümlədir.

A) 2, 4 B) 1, 3 C) 1, 4, 5
D) 3, 4, 5 E) 3, 5

**16. M: "V",-m sxeminə uyğun cümləni müəyyən edin.**

A) Müəllim: "Yanaram" qəzəlinin əruzun hansı bəhrində yazıldığını bilən varmı?" - deyə soruşdu.
B) Ata həyəcanlı səslə dedi: "Tez hazırlaşın, gedirik"
C) Şostakoviç demişdir: "Musiqini sevmək üçün ən əvvəl onu dinləmək lazımdır".
D) Krılov: "Dostları yoxlayıb seçmək lazımdır", - demişdir.
E) M.Qorki demişdir ki, yoldaş sözü bütün dünyanı birləşdirmək üçün yaranmışdır.

**17. Hansı vasitəli nitqdir?**

A) Yaşlı bağban dedi: "Əkiblər, yemişik, əkək, yesinlər".

B) Y.Əmrə: "Biz dünyadan gedər olduq, qalanlara salam olsun!" - demişdir.

C) Anamın dediyidir: "Səni doyurmayana aclığını bildirmə".

D) Anam tez-tez işlədərdi ki, el elə sığar, ev evə sığmaz .

E) "Yol böyüyün, su kiçiyindir", - deyə qardaşım dilləndi.

**18. Vasitəsiz nitqli cümləyə sxemlərdən hansı uyğundur?**

*Qaraxan heç bir dəqiqəliyə belə onun yanından ayrılmazdı: "Mənim balaca, xallı qaqaşım, qovğalı-qallı qaqaşım", – deyib yalvarardı.* (İ.H)

A) "V", -M. B) "V,-m,-v".
C) M: "V",-m. D) M: "V?"
E) "V?"-m".

**19.** *"Əl zəhməti ona görə yaxşıdır ki, insanı boş danışmağa vaxt sərf etməkdən xilas edir".*

(L. Tolstoy)

**cümləsi haqqındakı fikirlərdən hansı *səhvdir*?**

A)  sxeminə uyğundur.

B) Tərkib hissələrindən biri digərini izah edir.

C) Sadələşdirmək mümkündür.

D) Müstəqil cümlələrdən ibarətdir.

E) Tabelilik bağlayıcısı ilə əlaqələndirilmişdir.

**20. Hansı cümlələrdə birindən digərinə sual vermək olar?**

A) Çağırdı, gəlmədi.

B) Məlumdur, sonu necə olacaq.

C) Yağış yağır, rəqs eyləyir gur damcılar. (M.Müşfiq)

D) Müəllim də razı qaldı, şagirdlər də bu uğura çox sevindilər.

E) Vitaminlər orqanizmə çox faydalıdır, məsələn B vitamini beyinə və ürəyə güc verir.

# İLLİK MATERİAL ÜZRƏ YEKUNLAŞDIRICI TEST TAPŞIRIQLARI

## A variantı

**1. Nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*Ana mən onu böyük qardaşımı xilas etməyə sizə qovuşdurmağa getməyimmi*

A) 3 tire, 1 vergül, 1 sual
B) 2 tire, 2 vergül, 1 sual
C) 1tire, 3 vergül, 1 sual
D) 2 tire, 3 vergül, 1 sual
E) 1tire, 2 vergül, 1 sual

**2. Nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*Məni görəndə Niyə bizə dayıngilə gəlmirsən deyə soruşardı.*

A) 1 qoşa nöqtə, dırnaqlqr, 2 tire, 1sual
B) 1 qoşa nöqtə, dırnaqlqr, 1 tire, 1sual
C) dırnaqlqr, 2 tire, 1sual
D) dırnaqlqr, 2 tire, 1sual
E) dırnaqlqr, 3 tire, 1sual

**3. Birini həm sadə, həm də mürəkkəb cümlə kimi düşünmək olar:**

A) Deyəsən, havalar quraq keçəcək.
B) Demə, bu mənə xəyanət edib.
C) Narın yağış yağdı, havadakı tozu təmizlədi.
D) Həmzə gördü, Koroğlu çataçatdadır.
E) Elə yuvaya çatmışdı ki, ağacdan yıxıldı.

**4. Nümunə haqqında hansı fikir *səhvdir*?**

*Agalar bilmədi, birdir bu torpaq:*
*Bakı da, Təbriz də Azərbaycandır.*

A) Üç qrammatik əsası var.
B) Birinci sadə cümlə baş cümlədir.
C) Budaq cümlə aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədən ibarətdir.
D) Budaq cümlə əvvəl, baş cümlə sonra gəlmişdir.
E) Budaq cümlə baş cümləyə intonasiya ilə bağlanmışdır.

**5.** *"Natiq sözə başlamaq istəyirdi ki, qapı yenidən açıldı"* **tabeli mürəkkəb cümləsinin sintaktik təhlili ilə bağlı *səhvi* göstərin.**

A) Baş və budaq cümlə müəyyən şəxslidir.
B) Baş və budaq cümlə *ki* bağlayıcısı ilə bağlanıb.
C) Mübtədalar isimlə ifadə olunub.
D)  sxeminə uyğundur.
E) Həm baş, həm də budaq cümlə feli xəbərlidir.

**6. Nümunə cümlənin hansı növündədir?**

*O qız yaldan tək aşanda,*
*Saç kəmərə dolaşanda,*
*Atdan düşüb yol çaşanda*
*Mən olum zəvvarın, dağlar.* (S. Vurğun)

A) Tabesiz mürəkkəb cümlədir.
B) Tabeli mürəkkəb cümlədir.
C) Həmcins üzvlü sadə cümlədir.
D) Müəyyən şəxsli müxtəsər sadə cümlədir.
E) Geniş qeyri-müəyyən şəxsli cümlədir.

**7. İkinci misradakı vasitəsiz nitqli cümlə hansı sxemə uyğundur? (Durğu işarələri buraxılmışdır.)**

*Gəncədə bir qız var adı Çiçəkdir,*
*Günəşə Sən çıxma, mən çıxım deyir*

A) M: "V". B) "V", - m.
C) M: "V", - m. D) "V, - m, - v".
E) M: "V, - m,-v".

**8. Cümlələrdən biri "V, - m, - v" sxeminə uyğundur: (Durğu işarələri buraxılmışdır.)**

A) Dedim Sən dərdlisən mən yaralıyam (Aşıq Ələsgər)
B) Biz ayrılan zaman söylədin ki sən Bir də bu yerlərə gələcəkmisən (S.Vurğun)
C) Əzizim deyə qolumdan tutdu inan ki, gec-tez o torpaqlara yenə qayıdacağıq
D) Başını qaldlrıb Ay uşaq dedi görün həkim gəldimi
E) Gecənin qulağına Gündüz gəlir, qaç dedim

**9. Hansı cümlədə tamamlıq II növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur?**

A) Dağ zirvələrini fəth etmək ən böyük arzum idi.
B) Uca dağların zirvələri qarla örtülü olur.
C) Dağ çayları həmin zirvələrdən başlayır.
D) Araz qırağında dayandı qatar.
E) Mənə bir sərgi salonu verin. (R.Rza)

**10. Hansı mürəkkəb cümlənin tərkib hissələri bərabərhüquqlu *deyil*?**

A) Gecə də keçir, otaq da soyuyur.
B) Ya uşaqlar kəndə gələcək, ya da biz onları görməyə gedəcəyik.
C) Divardan səs gəldi, amma Rzadan səs çıxmadı.(Ə.Vəliyev)
D) Tənqid xoşa gələn olmasa da, vacibdir. (Çörçil)
E) Bizə pay gəlmişdi və anam o paydan bozbaş bişirmişdi.(Elçin)

**11.** 1) *Atamın cəbhəyə getdiyi günü xəyalıma gətirib kövrəldim, gözlərim yaşardı.*
2) *Ürəyim sıxıldı, özümü pis hiss etdim*
**cümlələrini ortaq *etməyən* xüsusiyyət hansıdır?**

A) eyni məna əlaqəsində olması
B) iki qrammatik əsasın olması
C) intonasiya ilə bağlanması
D) tərkib hissələrindən birinin digərini izah etməsi
E) tabesiz mürəkkəb cümlə olması

**12.Tabesiz mürəkkəb cümlənin hansında vergül *səhv* qoyulmuşdur?**

A) Səlim başını tərpətdi yəni, o, razı idi.
B) Rəhmət yazana, lənət pozana.
C) Dəmir nəsə demək istədi, amma Rza qoymadı.(İ.Məlikzadə)
D) Ya sən məktub yazmamısan, ya da məktub yolda itib.
E) Nə canavar yaxın durur, nə də at təpik atırdı.(Q.İlkin)

**13.Hansı tabesiz mürəkkəb cümlənin tərkib hissələrinin yerini dəyişmək *olmaz*?**

A) Hava aydın, səma ayna kimi, günəş hərarətli idi.
B) Daxilən yanıb-yaxılır, kin onu partlamaq dərəcəsinə qədər coşdururdu.(Ə.Vəliyev)
C) Qar əriyir, çaylar bulanır.
D) Hava qaralır, dağların başına duman yığılır, göy guruldayırdı.(Ə.Vəliyev)
E) Otlar saralmış, çiçəklər solmuş, kol-kos çılpaqlaşmışdı.(Ə.Vəliyev)

**14. Hansı sxem düzgündür?**

A) 
B) 
C) 
D) 
E) 

**15. Uyğunluğu müəyyən edin.**

1. M: "V"

2. 

a. Zabit: "Əmr edin,"-dedi.
b. Ana dedi: "Süfrə  hazırdır".
c. Biz çox gözlədik, onlar gəlmədilər.
d. Qapının zəngi çalındımı, gözlükdən baxın.
e. Gəlsə də, görmədik.

A) 1-b; 2-d,e   B) 1-a,b; 2-d,c   C) 1-c,d;2-b
D) 1-e; 2-b,d   E) 1-a,b; 2-c,e

**16.  Cümlənin növünü müəyyənləşdirin.**

*Binanın içi beşulduz mehmanxananın vestibülünə oxşayırdı; pilləkən və döşəmə qara mərmərlə döşənmiş, kənarlarda qırmızı dəri örtüklü divan və kreslolar qoyulmuşdu.*

A) ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə
B) qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
C) zaman əlaqəli tabesiz mürəkkəb cümlə
D) aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə
E) səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə

**17. *"Əgər gələcək haqqında düşünməsəniz, əsla bir gələcəyiniz olmaz"* (Ford) cümləsi niyə tabeli mürəkkəb cümlədir?**

A) tərkib hissələri arasında vergül olduğu üçün
B) iki qrammatik əsası olduğu üçün
C) bərabərhüquqlu sadə cümlələrdən yarandığı üçün
D) tərkib hissələrindən biri digərini izah etdiyi üçün
E) bağlayıcı iştirak etdiyi üçün

**18. Doğru və *yanlış* olanları müəyyən edin.**

- Tabeli mürəkkəb cümlədə işlənən bağlayıcı sözlər yalnız sual əvəzlikləri olur. •
- Bağlayıcı sözlərlə bağlanan cümlələrdə budaq cümlə baş cümlədən əvvəl gəlir. •
- Baş və budaq cümləri əlaqələndirən səbəb bağlayıcılarından sonra vergül qoyulur. •
- "Ki" bağlayıcısı ilə bağlandıqda bəzən budaq cümlə baş cümlədən əvvəl də gələ bilər. •

• doğru
• yanlış

A) 

B) 

C) 

D) 

E) 

**19. Hansı mürəkkəb cümlədə həm tabelilik, həm də tabesizlik bağlayıcıları işlənmişdir?**

A) Bircə ondan razıyam ki, özümdən narazıyam. ( B. Vahabzadə)
B) Madam ki qorxur, onu irəliyə göndərmə.
C) Hərçənd göyün üzü açılmışdı, lakin hava soyuq idi.
D) O sevinirdi, çünki əməyi bəhrə vermişdi.
E) Ona görə sevinirəm ki, sənin kimi insana rast gəlmişəm.

**20. Uyğunluğu müəyyən edin.**

1. 
2. 
3. 

a. Mən istəyirəm ki, güllər açılsın, güllələr açılmasın.
b. İnsan necə düşünürsə, o cür də danışır.
c. Sirkə tünd olanda öz qabını çatladar.
d. Elə dost qazanmalısan  ki, çətin gündə dayağın olsun.
e. Çox yaşayan çox bilməz, çox gəzən çox bilər.

A) 1-a,d; 2-e; 3-b
B) 1-b,e; 2-a; 3-c;
C) 1-d,e; 2-c; 3-b
D) 1-d;  2-a,c; 3-e
E) 1-a;  2-c,e;  3-b

# B variantı

**1. Nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*İndi bütün kənd uşaq da böyük də kişi də qadın da təzə sədrdən Məmmədən danışırdı.*

A) 1 qoşa nöqtə, 3 vergül, 1 tire
B) 1 qoşa nöqtə, 2 vergül, 2 tire
C) 4 vergül, 2 tire
D) 1 qoşa nöqtə, 3 vergül
E) 1 qoşa nöqtə, 2 vergül, 1 tire

**2. Nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*Qışqıra-qışqıra, əlini ölçə-ölçə deyirdi: "Mən ay Kərimin oğlu bu heyfi səndə qoymayacağam".*

A) 3 vergül, 1 qoşa nöqtə, dırnaqlar
B) 1 vergül, 1 qoşa nöqtə, dırnaqlar
C) 2 vergül, 1 qoşa nöqtə, dırnaqlar, 2 tire
D) 3 vergül, 1 nöqtə, dırnaqlar, 1 tire
E) 1 vergül, 1 qoşa nöqtə, dırnaqlar, 2 tire

**3. Nümunədə təyin vəzifəsində çıxış edən sözlər morfoloji cəhətdən nədir?**

*Alma yanağına, bal dodağına*
*Baxan kimi ağlım çaşdı, Güləndam.*
*(Aşıq Ələsgər)*

A) isim   B) zərf   C) sifət
D) əvəzlik   E) feil

**4. Vasitəsiz nitqli cümlələrdən biri həm M: "V",  həm də "V, - m, - v" sxeminə uyğundur: (Durğu işarələri buraxılmış və hərflər məqsədli şəkildə kiçik yazılmışdır.)**

A) Çəkil dedi bu işi bacarmaq sənin üçün tezdir.
B) Sevincək məni təbrik edə bilərsiniz, bütün suallara doğru cavab vermişəm dedi.

C) Məhəmməd peyğəmbər demişdir ən böyük sədəqə bilməyənlər arasında bilik yaymaqdır.
D) Mən sizin işlərinizə qarışmıram, özünüz bilərsiniz deyə onlardan uzaqlaşdı.
E) Ramiz dedi son vaxtlar az-az görünürsən.

**5. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələri müəyyən edin.**

1. Çiçək çoxdur, ancaq solmayanını görməmişəm.
2. Deputat xalqın elçisidir: seçicilər ondan adına layiq iş tələb etməyə haqlıdırlar.
3. Kişi irəli yeriyib küçə pəncərəsini açdı, külək yağışı kişinin üzünə çırpdı.
4. Bu xəbər arvadı çox qorxutdu, dünya-aləm başına fırlandı.
5. Proqram üzrə Sultanlı çıxış etməli idi, sonra bədii hissə başlanmalı idi.

A) 3,4 B) 1,5 C) 2,4 D) 1,3 E) 3,5

**6.Uyğunluq harada *pozulmuşdur*?**

Hadisələr

| | |
|---|---|
| A) Eyni zamanda baş verir | zaman |
| B) Biri hadisənin səbəbini, digəri nəticəsini bildirir | səbəb-nəticə |
| C) Biri digərini aydınlaşdırır | aydınlaşdırma |
| D) Bir fikir digəri ilə qarşılaşdırılır | qarşılaşdırma |
| E) İki işdən birinin mümkünlüyü bildirilir | ardıcıllıq |

**7. Hansı tabesiz mürəkkəb cümlədə tərkib hissələrin sıralanmasında *səhvə* yol verilmişdir?**

A) Çörək yaxşı bişməmişdi: içi çiy idi.
B) Vüsal həyətə düşdü , anası çağırdığı üçün evə qayıtdı.
C) Gülün zərif ləçəkləri töküldü, güclü yağış yağdı.
D) Günəş çıxır, üfüqün rəngi qırmızıya boyanırdı.
E) Müəllimlər Nahiddən çox razıdır, yəni o, çox çalışqandır.

**8. Hansı tabesiz mürəkkəb cümlədir?**

A) Mən məktəbin həyətinə çatanda zəng vuruldu.
B) Mən məktəbin həyətinə çatdım, zəng vuruldu.
C) Mən məktəbin həyətinə çatırdım ki, zəng vuruldu.
D) Elə ki mən məktəbin həyətinə çatdım, zəng yenicə vuruldu.
E) Mən məktəbin həyətinə çatdımmı, zəng yenicə vuruldu.

**9. "*Və*" bağlayıcısı ilə bağlayan hansı cümlə**  **sxeminə uyğundur?**

A) Yağış yağdı və yeri islatdı.
B) Şair şeir yazdı və onu heyranlarına oxudu.
C) Sadəlik və yaxşılıq olmayan yerdə böyüklük yoxdur.(L. Tolstoy)
D) Ən böyük həqiqət əməkdir və həyatın nəşəsi yaradıcılıqdır. ( E.Zolya)
E) Əmək insanı nəcibləşdirir və onu xeyirxah edir.( Belinski)

**10. Biri tabeli mürəkkəb cümlədir:**

A) Neçə gündən bəri güclü yağışlar yağmasına baxmayaraq, nə işlərini dayandırır, nə də ruhdan düşürdülər.

B) Nə səndə məhəbbət qara pul deyil,
Nə mən dilənçiyəm əl açım sənə.
(N. Kəsəmənli)

C) Düzdür, havalar isti keçir, lakin bunun bizə ziyanı yoxdur.

D) Binanın tikintisi başa çatmışdı, amma hələ istifadəyə verilməmişdi.

E) Kanallarda suyun səviyyəsi düşdüyü üçün çətin şəraitdə pambıq əkənlər narahat idilər.

**11.** *"Bilirsənmi, səndən niyə küsmüşəm?"* **cümləsində budaq cümləni baş cümləyə bağlayan vasitə hansıdır?**

A) –mı⁴ sual ədatı

B) bağlayıcı söz

C) tabesizlik bağlayıcısı

D) intonasiya

E) həm –mı⁴ sual ədatı, həm bağlayıcı söz

**12.** *"Gördüm, həm gözəldir, həm əhli-dildir"* **cümləsində budaq cümlə baş cümləyə nə ilə bağlanıb?**

A) tabesizlik bağlayıcıları ilə

B) tabelilik bağlayıcıları ilə

C) intonasiya ilə

D) bağlayıcı sözlə

E) ədatla

**13. Biri tabesiz mürəkkəb cümlədir:**

A) Üç həftəyə qədər idi, yağış yağır, ot biçinini ləngidirdi.

B) Dost, düşmən seçilər, vətən seçilməz.

C) Çörək bol olarsa, basılmaz Vətən.
(S,Vurğun)

D) Güclü sel gəldi, kəndin yeganə körpüsünü yuyub apardı.

E) Hamı çalışırdı, evə tez çatsın.

**14.** *Möminə Xatun türbəsinin başında: "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar"*, – yazılmışdır.
**Cümlənin düzgün sxemini göstərin.**

A) M: "V", –m.
B) M: "V".
C) "V, –m, –v".
D) "V", –m.
E) M: "V, –m, –v".

**15. Bağlayıcı sözlərlə bağlı fikirlərdən biri *yanlışdır:***

A) Budaq cümləni baş cümləyə bağlayan vasitədir.

B) Çox vaxt *ki* ədatı ilə işlənir.

C) Bağlayıcı sözlərdən və *ki* ədatından sonra vergül qoyulmur.

D) Bağlayıcı sözlər, adətən, sual əvəzlikləri olur.

E) Bağlayıcı sözlər baş cümlədə gəlir və cümlə üzvü olur.

**16. Uyğunluğu müəyyən edin.**

1.Budaq cümləsi birinci işlənən tabeli mürəkkəb cümlə.

2. Baş cümləsi birinci işlənən tabeli mürəkkəb cümlə.

a. Əmri pozub həddi aşanda boynu vurulacaq.

b. Biz elə bir dövrdə yaşayırıq ki, orada elmsiz insanlar kor hesab edilirlər.

c. Elə ki xalqın dili, dini, məzhəbi itdi, demək, o xalqın beli sındı.

d. Gənclərə tövsiyəm budur ki, dillərini qorusunlar.

e. Yaşamaq istəyirsənsə, çarpış.

A) 1-c,e; 2-b,d
B) 1-a,b; 2-c,d
C) 1-d,e; 2-b,c
D) 1-a,c; 2-d,e
E) 1-c; 2-a,b

**17.** *"Həqiqətən, Asiya Yer kürəsinin ən böyük qitəsidir"* **cümləsinin sintaktik təhlili ilə bağlı düzgün fikri müəyyən edin.**

A) Cümlədəki II növ təyini söz birləşməsi yer zərfliyi vəzifəsindədir.
B) Mübtəda mürəkkəb adla ifadə olunub.
C) Xəbər isimlə ifadə olunub.
D) *Həqiqətən* – güman, şübhə bildirən ara sözdür.
E) Müəyyən şəxsli müxtəsər cümlədir.

**18.** *"Biz nə qədər məsuliyyətli olsaq və vicdanla çalışsaq, vətənə bir o qədər ləyaqətlə xidmət etmiş olarıq"* **tabeli mürəkkəb cümləsi haqqında doğru fikirləri müəyyən edin.**

1. Tabeli mürəkkəb cümlədir.
2. Birinci budaq, ikinci baş cümlədir.
3. Baş cümlədə II dərəcəli üzvlərin hamısı işlənib.
4. Baş və budaq cümlələr *sa*$^2$ şəkilçisi ilə bağlanmışdır.
5. Tərkibindəki hər iki cümlə müəyyən şəxslidir.

A) 1,2,5 B) 3,4 C) 1,3,4
D) 2,4,5 E) 1,3

**19. Quruluşuna görə fərqli olan cümləni müəyyən edin.**

A) Keçmişi dəyişə bilməzsən, amma gələcək sənin öz əlindədir.
B)Sən torpağa əyildikcə o da sənə əyilər.
C) Gün doğmuşdu, səmada ağ buludlar görünürdü.
D) Hava soyuq idi, ancaq hər yerdə yazın nəfəsi duyulurdu.
E) Gecə yağış yağmış, orada-burada gölməçələr əmələ gəlmişdi.

**20. Uyğunluğu müəyyən edin.**

- Milli müstəqillik elə bir nurdur ki, onun qarşısında zəncirlər belə əriyir.
- Çox yaşamaq əlimizdə deyil, lakin adımızı çox yaşatmaq əlimizdədir.
- Cavanlıq müdrikliyi mənimsəmək, qocalıq isə müdrikliyi tətbiq etməkdir.
- O insan xoşbəxtdir ki, başqasının həyatından dərs almağı bacarır.

- Tabesiz mürəkkəb cümlə
- Tabeli mürəkkəb cümlə

A) 

B) 

C) 

D) 

E) 

# ÜMUMİ ORTA (9-illik) TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANININ BİRİNCİ MƏRHƏLƏSİ ÜÇÜN TAPŞIRIQ NÜMUNƏLƏRİ

Açıq tipli test tapşırıqlarının hər birinin sonunda müvafiq tapşırığı yerinə yetirmək üçün yer ayrılmışdır. Amma nəzərə almaq lazımdır ki, buraxılış imtahanının "sual kitabçası"nda hər tapşırıq üçün belə yerlər ayrılmayacaq (yalnız tapşırıqların şərti olacaq). İmtahanda tapşırıqların həlli və cavabları "sual kitabçası"nda deyil, yalnız "cavab vərəqi"ndə yazılmalıdır. "Cavab vərəqi"nin nümunəsi ilə 238-245-ci səhifələrində tanış ola bilərsiniz.

## A variantı

Bu variantda buraxılış imtahanının birinci mərhələsi üzrə yeni təhsil proqramı (kurikulum) əsasında ***Oxu*** və ***Yazı*** məzmun xətlərinə aid aşağıdakı alt standartlar üzrə bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulmuşdur:

**V sinif**

2.1.2. *Sözün həqiqi və ya məcazi mənada işləndiyini müəyyənləşdirir.*
2.2.3. *Mətndəki əsas fikri müəyyənləşdirir.*
3.1.3. *Mətnin tərkib hissələrini (giriş, əsas hissə və nəticə) əlaqələndirir.*

**VI sinif**

2.1.2. *Sözləri həqiqi və məcazi mənada işlənməsinə görə fərqləndirir.*
2.2.1. *Mətndəki əsas fikri nəzərə çarpdırmaq məqsədi ilə mühüm məqamları vurğulayır.*
2.2.3. *Mətndəki fikir və mülahizələrə münasibət bildirir.*
3.1.2. *Mətni mövzuya uyğun fakt və hadisələrlə zənginləşdirir.*

**VII sinif**

2.1.1. *Tanış olmadığı sözlərin kontekstə uyğun mənasını dəqiqləşdirir.*
2.1.2. *Mətndəki sözlərin həqiqi və ya məcazi mənada işləndiyini izah edir.*
2.2.2. *Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.*
2.2.3. *Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.*
3.1.3. *Qurduğu plan əsasında mətnin hissələrini məntiqi cəhətdən əlaqələndirir.*

**VIII sinif**

2.1.1. *Tanış olmadığı söz və ifadələrin mənasını müvafiq qarşılığını tapmaqla şərh edir.*
2.1.2. *Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını nümunələrlə şərh edir.*
3.1.2. *Sitatlardan istifadə etməklə fikir və mülahizələrini qüvvətləndirir.*

**IX sinif**

2.1.1. *Tanış olmayan söz və ifadələrin kontekstə uyğun mənasını şərh edir.*
2.1.2. *Həqiqi və məcazi mənalı söz və ifadələrin mənasını kontekstə uyğun dəqiqləşdirməklə şərh edir.*
2.2.2. *Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir.*
2.2.3. *Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.*
3.1.1. *Verilmiş mövzuya uyğun müxtəlif tipli (nəqli, təsviri, mühakimə) və formalı (inşa, esse, hekayə) mətnlər yazır.*

*Mətni diqqətlə oxuyun və 1-10-cu tapşırıqları mətn əsasında cavablandırın.*

## Mən İranın hamısını yarısına dəyişmərəm

Rəvayətə görə, eramızdan əvvəl bir çox dövlətlər, o cümlədən Makedoniya İrandan asılı olmuşdur. İsgəndər Makedoniyada hakimiyyətə gələndən sonra İran hökmdarı Daraya boyun əymədiyinə görə qanlı döyüşlər başlamışdır. Makedoniyalılarla döyüşdə məğlub olmuş Daranın ailəsi düşmənə əsir düşmüşdü. Dara öz ailəsinin düşmən əlində olmasından çox əzab çəkirdi. Ailəsinə İsgəndərin zülm etdiyini düşünürdü. Bu vaxt Makedoniya ordusunun əsir düşərgəsindən qaçmış bir fars ona xəbər gətirdi ki, İsgəndər Daranın ailəsi ilə çox ləyaqətli davranır, insani münasibət göstərir, onlar özlərini şah sarayındakı kimi hiss edirlər.

Əsirlikdən qaçan farsdan bunu eşidən Dara üzünü göylərə tutub deyir:

- Ey mənim ulu nəslimə və səltənətimə himayədarlıq edən Allah, mənə farsların əzəmətini və dövlətimin əvvəlki qüdrətini bərpa etməkdə kömək et ki, əzizlərimə göstərdiyi qayğıya görə İsgəndərə borcumu qaytara bilim. Yox, əgər qəzavü-qədərin cəza saatları çatıb fars hökmranlığı <u>yerlə-yeksan olacaqsa</u>, onda qoy İsgəndərdən başqa, heç kim Kirin taxtında oturmasın. Çünki məndən sonra bu taxtda oturmağa yalnız və yalnız o layiqdir.

Əsrlərlə İranın hökmdarı olmuş Dara İsgəndərə xəbər göndərib öz imperiyasının bir hissəsini - Yunanıstandan Dəclə-Fərat sahillərinə kimi uzanan böyük bir ərazini ona təklif etdi. Bundan

1 2 3 4 5 6 7 8 9

*xəbər tutan Makedoniya ordusunun sərkərdəsi igid Parmenion İsgəndərə dedi:*

- Mən İsgəndərin yerinə olsa idim, razılaşardım.
- Mən də razılaşardım, - deyə İsgəndər sadiq sərkərdəsinə dedi, - əgər İsgəndər olmasa idim.

O tərəddüd etmədən Daraya min illər dillərdə dolaşan öz məşhur cavabını göndərdi: “Mən İranın hamısını yarısına dəyişmək fikrində deyiləm”.

1. Altından xətt çəkilmiş sözü əvəz edə bilən ifadələrdir:

1. qüdrətlənmək    2. zəifləmək    3. dağılmaq
4. bərpa olunmaq    5. darmadağın olmaq

A) 1, 2    B) 3, 4, 5    C) 1, 2, 4    D) 2, 3    E) 3, 5

2. Mətnin əsas və nəticə hissələri arasında əlaqə yarada bilən cümləni müəyyən edin.

A) Bundan sonra İsgəndər öz həlledici qərarını verdi.
B) Parmenion döyüş üçün hazırlığa başladı.
C) Bu sözlər İran hökmdarı Daranın qulağına çatdı.
D) Bunu eşidən Parmenion Dara ilə döyüşün onlar üçün ağır olacağını xatırlatdı.
E) Bunun ardınca İsgəndərin nəzərində ucsuz-bucaqsız Hindistan çölləri canlandı.

3. Üstündə rəqəm yazılmış yanaşı işlənən hansı sözlər birlikdə həqiqi məna ifadə ***etmir?***

A) 3, 4 B) 1, 2 C) 6, 7 D) 8, 9 E) 4, 5

4. Mətndə ifadə olunan hansı fikir doğru ola ***bilməz?***

1. Mətndə çərçivə içərisində verilmiş fikir
2. Daranın təklifinin İsgəndər tərəfindən qəbul edilməsi
3. Dəclə-Fəratın su hövzəsi olması
4. Hökmdarların Allaha inanması

A) 3, 4 B) 2, 3 C) 1, 2 D) 1, 4 E) 1, 3

5. Mətndə ifadə olunan əsas fikirdir:

A) Dövlətin əraziləri parçalanmaz.
B) Təməli möhkəm olan hakimiyyət sarsılmaz.
C) Son söz qalib tərəfindir.
D) Dostluq düşmənçiliyə çevrilə bilər.
E) Bütün savaşlar torpaqla bağlıdır.

6. Mətndə məcazi mənada işlənmiş ilk üç ifadəni müəyyənləşdirin və hər birinin mənasını şərh edərək yazın.

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

______________________________

7. Mətnə əsasən cədvəli tamamlayın.

| Tarix | Hadisə | Məkan | Surətlər |
|---|---|---|---|
| | | | |

8. Mətnin nəticə hissəsi ilə bağlı bir bənddən ibarət plan tərtib edib yazın.

9. Amerika yazıçısı Vilson Folletin *"Hər gücsüzün bir güclü, hər güclünün də bir gücsüz tərəfi vardır"* deyimindən istifadə etməklə Dara və İsgəndərin hər birinin hərəkətlərinə aid bir fikir yazın.

Dara →

İsgəndər →

10. Mətnə əsasən cədvəli tamamlayın.

| | Səbəb | Nəticə |
|---|---|---|
| 1. | İsgəndər qalib gəlir | *Daranın təklifi qəbul edilmir* |
| 2. | Fars əsirlikdən qaçır | |
| 3. | İsgəndər Daraya boyun əymir | |
| 4. | İran məğlub olur | |

***Mətni diqqətlə oxuyun və 11-20-ci tapşırıqları mətn əsasında cavablandırın.***

## Telefon

Əldə olan məlumatlara görə, dünyada bir çox ixtiralar *xoşbəxt*[1] təsadüf nəticəsində edilmişdir. Telefon ixtirasında da təsadüf amilinin rolu olmuşdur.

Almaniyanın Fridrixsdorf *şəhərindəki*[2] karlar məktəbinin Reys adlı müəllimi *qulağın*[3] eşitmə funksiyasını əks etdirən aparat düzəltmişdi. "Telefon" adlandırdığı *ixtirasını*[4] 1861-ci ilin oktyabrında Frankfurt Fizika Cəmiyyətinin üzvləri qarşısında nümayiş etdirmişdi. Lakin Reysin ixtirası müvəffəqiyyət qazanmamışdı. *Mətbuatda*[5] dərc olunan yarıistehzalı, yarıciddi yazıların birində həmin aparatı "oyuncaq" adlandırmışdılar.

Lakin Reys ixtirasının dəyərini yaxşı bilirdi. O, 15-20 ədəd bu cür "telefon" hazırladı, bir neçəsini mağazada satdı. Həmin nümunələrdən biri təsadüfən Bellin əlinə düşdü. Amerikalı Bell həmin vaxt Şotlandiyanın məşhur Edinburq Universitetində təhsil alırdı. Bundan bir müddət sonra isə Bell telefon ixtiraçısı oldu...

Reysin aparatı ilə tanış olan Bell işıq siqnallarını səslərə çevirən aparat hazırlamaq qərarına gəldi. Ümid edirdi ki, bununla da kar uşaqların danışmağı öyrənmələrinə kömək edəcək. ■ Lakin Bell Boston şəhərinə qayıtdıqdan sonra dərk etdi ki, onun əlində zəngin bir xəzinə var. Bunun üçün, sadəcə olaraq, telefonu elmi aparatdan geniş istehlakçı dairəsinin istifadə edə biləcəyi praktiki aparata çevirmək lazımdır.

Bell "Reys prinsipi"ndən imtina etdi, Erstedin və Faradeyin elektrik haqqında fikirlərinə əsaslandı. Uzaq məsafələrlə səs əlaqəsi üçün yeni cihaz – əsl telefon ixtira etdi. 1876-cı il fevralın 14-də Bell ilk telefon aparatının ixtirasını patentləşdirdi.

İlk telefon danışığı 1876-cı il martın 10-da baş tutdu. Bell mayeni üstünə dağıtdı, telefonla qonşu otaqda işləyən həmkarına müraciət etdi: "Mister Uoston, Siz buraya gələ bilərsinizmi? Siz mənə lazımsınız". İlk telefon stansiyası 1877-ci ildə ABŞ-da fəaliyyətə başladı. Sonra Boston və Nyu-York şəhərləri arasında rabitə əlaqəsi yaradıldı.

11. Üstündə rəqəm yazılmış hansı söz həqiqi mənada ***işlənməmişdir?***

A) 5 B) 2 C) 1 D) 4 E) 3

12. Klasteri mətndə ***olmayan*** əlavə faktlara əsaslanmaqla tamamlayın.

Bellin ixtira etdiyi telefon aparatından sonra yeni rabitə vasitələri də yarandı.

radio

1. internet 2. dil 3. jest 4. nitq 5. kitab 6. televizor

A) 1, 6 B) 3, 5 C) 3, 4 D) 1, 2 E) 2, 6

13. Çərçivə içərisində verilmiş fikrin doğruluğu öz təsdiqini mətnin neçənci abzasında tapır**?**

A) II B) I C) IV D) V E) III

14. Mətndə hansı suala cavab ***yoxdur*?**

A) Haqqında söhbət gedən aparatı kim telefon adlandırıb?
B) XIX əsrdə amerikalılar ancaq ABŞ-da təhsil alırdılar?
C) Mətbuat yeniliklərə münasibət bildirirdimi?
D) İxtiraçılıq fəaliyyətində Bellin məsləhətçisi kim olmuşdur?
E) Elektrik haqqında kimin fikirləri telefonun ixtirasına yardımçı oldu?

15. Mətni hansı cümlə ilə tamamlamaq olar?

A) Beləliklə, telefondan istifadə kütləvi hal almağa başladı.
B) Əslində, bu, oyuncaq deyildi.
C) O, təhsildən zövq alırdı.
D) Təsadüflər də yaddaqalan olur.
E) Rabitə vasitələrindən qədim zamanlarda da istifadə olunub.

16. Altından xətt çəkilmiş sözün kontekstə görə mənasını şərh edin.

17. Mətnə əsasən mağazada gələcək telefon ixtiraçısı ilə bağlı baş vermiş hadisəni müəyyən edib yazın.

18. Qarşısında ■ işarəsi qoyulmuş cümlədəki *"xəzinə"* sözünün həqiqi, yaxud məcazi mənada işləndiyini müəyyən edib boş xanaya işarə qoyun və səbəbini izah edin.

Məcazi mənadadır. ☐

Həqiqi mənadadır. ☐

19. Boş xanalara uyğun olan hadisələr yazın.



20. Mətnə əsasən XIX əsrin 77-ci ilində baş verən hadisənin Amerika Birləşmiş Ştatları üçün əhəmiyyəti ilə bağlı fikrinizi yazın.

# B variantı

***Mətni diqqətlə oxuyun və 1-10-cu tapşırıqları mətn əsasında cavablandırın.***

## Sözün yeri

Kainatda olan canlıların ən alisi, ən mükəmməli insandır. Əbəs yerə deyilməyib ki, Yer üzünün əşrəfi insandır. İnsan digər canlılardan fərqli olaraq, şüurludur. Bu da insanı bütün canlı varlıqlardan yüksəkdə tutur. İnsanlar əməlinə, xarakterinə, mənəvi keyfiyyətlərinə görə müxtəlifdirlər.

Bir gün məşhur filosof Platona kiminsə onu təriflədiyini çatdırırlar. O deyir:

– Görəsən, dilimdən hansı nöqsanlı söz çıxıb ki, belə cahil adam məni tərifləyir?

İnsanı fərqləndirən vacib xüsusiyyətlərdən biri onun danışığı, dilindən çıxardığı sözün yerini bilməsidir. İnsanın başına hər iş dilinin ucbatından gəlir.

Günlərin birində biri dünyagörmüş qocanın *yanına gəlir*[1] və deyir:

– Deyirlər ki, mən danışığımı bilmirəm, yerli-yersiz hər kəsin qəlbinə dəyirəm. Bilirəm ki, onlar haqlıdırlar. Hiss edirəm ki, çox vaxt dilimi dinc saxlaya bilməməyim, işlətdiyim biçimsiz sözlər çoxlarının *qəlbini qırıb*[2]. Xahiş edirəm, .................. . Səhvlərimi düzəltmək istəyirəm.

Qoca düşünür, sonra evdən bir *yastıq gətirib*[3] adama verir və deyir:

– Al bunu, çıx evin başına, yastığı aç, içindəki tükləri yerə boşalt, bura qayıt.

Həmin adam məsələnin asan həll olunacağından **xoşhal olub** dama çıxır, yastığın tüklərini ətrafa səpələyir, sevincək müdrikin yanına qayıdır. Qoca deyir:

– İndi bütün tükləri yığ, mənə gətir.

Adamın təəccübdən gözləri böyüyür:

– Bu qədər xırda tükləri necə yığmaq olar?

Qoca deyir:

– Söz də belədir. Ağızdan çıxarsa, yığa bilməzsən. Çalış ağzından bişməmiş *söz çıxarma*[4].

Qocanın bu sözləri adama dərs olur. O gündən ciddi şəkildə ağzına sahiblik etməyə çalışır.

Həqiqətən, insan danışığına diqqət etməlidir. Qəlb sındırmaq, *ürək bulandırmaq*[5] cahillik əlamətidir.

1. Mətndə tünd-qara hərflərlə yazılmış ifadəni verilmiş ifadələrin hansı ilə əvəz etmək olar?

| | |
|---|---|
| 1. razı qalıb | 2. ehtiyat edib |
| 3. məmnun olub | 4. bədgüman olub |

A) 1,4 B) 2,4 C) 1,3 D) 2,3 E) 1,2

2. Hansı fikir mətnə əlavə edilsə, tərkib hissələri arasındakı əlaqə ***pozular***?
A) Doğrudan da insan qiymətli varlıqdır.
B) Axı mən fikirlərimi ifadə edəndə diqqətli olmağa çalışıram.
C) Bu da insan üçün mənfi keyfiyyətdir.
D) Verilən məsləhət nəticəsiz qalır.
E) Xarakterlərin müxtəlifliyi insanları fərqləndirir.

3. Mətndə hansı suala cavab ***yoxdur***?
   A) Müdrik insanın hansı xasiyyəti xoşagələn deyildi?
   B) İnsanlar səhvlərini düzəltmək istəyində olurmu?
   C) İnsanlar nə ilə müqayisə olunur?
   D) Bəzən insanların qəlbinin sınmasına nə səbəb olur?
   E) İnsanlar hansı baxımdan bir-birindən fərqlənirlər?

4. Hansı fikri nöqtələrin yerinə yazmaqla mətni genişləndirmək ***olmaz***?
   A) Müdrik insan kimi mənə kömək edin.
   B) Mənə mane olmağa çalışmayın.
   C) Mənə yol göstərin.
   D) Məsləhətinizi məndən əsirgəməyin.
   E) Mənə yardım edin.

5. Hansı atalar sözləri mətndəki əsas fikri ifadə edir?
   1. Deyilən söz geri qayıtmaz.
   2. Bulanıq suda balıq tutmazlar.
   3. Söz bir olsa, zərbi kərən sındırar.
   4. Hər sözün öz məqamı var.
   A) 1,4 B) 2,3 C) 2,4 D) 1,3 E) 3,4

6. Mətndə üzərində rəqəm yazılmış sözləri cədvəlin müvafiq xanalarına (*həqiqi mənalı* və *məcazi mənalı*) yazın.

| **Həqiqi mənalı** | **Məcazi mənalı** |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

7. Çərçivə daxilində verilmiş sözlərdən məcazi mənada olanını mətndəkindən fərqli mənada cümlədə işlədib yazın.

8. Mətnin sonuncu cümləsinə münasibətinizi bildirin. Fikrinizi ən azı iki cümlə ilə əsaslandırın.

9. *"Söz bir quşdur ağızdan çıxdısa, tutmaq olmaz"* atalar sözü ilə mətndəki hansı obrazın fikirlərini qüvvətləndirmək olar?

10. Cədvəli mətn əsasında tamamlayın.

| *Səbəb:* | *Nəticə:* |
|---|---|
| *Qocanın sonuncu fikirləri* | |
| | *Adamın dama çıxması* |

***Mətni diqqətlə oxuyun və 11-20-ci tapşırıqları mətn əsasında cavablandırın.***

## "Zənbur" jurnalı

Azərbaycan mətbuatı tarixində *silinməz izlər*[1] buraxan "Molla Nəsrəddin" jurnalından sonra nəşr olunan bir çox qəzet və jurnallar onun ənənələrinə sadiq qalmışlar. Bunlardan biri də "Zənbur" jurnalı idi.

1909-cu il martın 13-də Bakı şəhərində "Zənbur" jurnalının *birinci nömrəsi*[2] çapdan çıxdı. Jurnal forması, tərtibatı cəhətdən "Molla Nəsrəddin" jurnalına ▲bənzəyirdi. Burada verilən materiallar "Kaspi" qəzetinin mətbəəsində çap olunurdu.

"Zənbur" jurnalı müxtəlif felyetonlar, xəbərlər, karikaturalar və sairədən geniş istifadə edirdi. Jurnal sadə Azərbaycan dilində yazmağı əsas məqsəd götürmüşdü. İkinci nömrədə verilmiş "Poçta qutusu"nda burjua ziyalılarının ədəbi dili qəlizləşdirmək kimi *zərərli*[3] *meyilləri* əleyhinə kəskin çıxışlar edilirdi.

İctimai ideyaları hamının başa düşdüyü sadə Azərbaycan dilində ifadə etmək jurnalın əsas amalı olmuşdur.

**Jurnalda** "Molla Nəsrəddin"in siyasi xətti çox cəsarətlə müdafiə edilmişdir. Hətta o, açıq şəkildə "Molla Nəsrəddin"i bir çox hücumlardan müdafiə edib qorumağa da çalışmışdır.

Avamlığı, geriliyi təsirli üsullarla tənqid edən jurnal mədəni, iqtisadi cəhətdən irəlidə olan xalqlardan *ibrət götürməyi*[4] tövsiyə edirdi.

"Molla Nəsrəddin" jurnalının ənənələrinə uyğun olaraq, "Zənbur" mövhumat və cəhalətin törətdiyi bəlalardan xalqı uzaqlaşdırmağa səy göstərirdi. Azərbaycan xalqı içərisində maarif, tərəqqi *toxumu səpirdi*[5]. Bəzən jurnalın bütöv səhifələri bu mövzuda yazılmış materiallardan ibarət olurdu.

Mətbuat aləmində müxtəlif məsələlər ətrafında gedən ideoloji mübarizədə cəsarətli fikirləri ilə "Zənbur" jurnalı mətbuat tariximizdə özünəməxsus mövqeyini təsdiq etmişdir.

11. Verilmiş fikirlərdən hansılarının mətnin əsas hissəsinə aid olduğunu müəyyən edin.
   1. Jurnalın "Molla Nəsrəddin"ə sadiqliyini sübut edən faktlardan biri mollanəsrəddinçilərin yazılarının burada çap olunması idi.
   2. Mövhumata qarşı mübarizə aparırdı.
   3. Jurnal az bir müddətdə nəşr olunmasına baxmayaraq, geniş oxucu kütləsinin qəlbində dərin izlər buraxmışdır.
   4. Jurnalın dili xalq danışıq dilinə yaxın idi.
   A) 1,3 B) 2,4 C) 1,4 D) 2,3 E) 1,2

12. Hansı nümunə qarşısında ▲ işarəsi qoyulmuş sözün şərhinə uyğundur?
   A) Nənə toxuduğu coraba baxaraq nəvəsini oxşayırdı.
   B) Payız küləyinin ılıq nəfəsi insanın ruhunu oxşayırdı.
   C) İlk baxışda o, yaxşı adama oxşayırdı.
   D) Günəşin şüaları Sonanın ipək saçlarını oxşayırdı.
   E) Analar həm şəhid oğullarımızla fəxr edir, həm də yanıqlı səslə onları oxşayırdılar.

13. Mətndə tünd-qara hərflərlə verilmiş sözün kontekstə uyğun mənasını müəyyənləşdirin.
   1. Məcmuə 2. Qəzet 3. Rubrika 4. Dərgi
   A) 1,2 B) 1,3 C) 1,4 D) 2,4 E) 2,3

14. Mətndə altından xətt çəkilmiş sözün mənasını və həmin mənaya uyğun nümunəni müəyyən edin.
   A) Həqiqi mənadadır; Dostlarımızın tutduğu xətti biz də dəstəkləməliyik.
   B) Məcazi mənadadır; Dərnəklərin fəaliyyət xətti təqdir olunmuşdur.
   C) Həqiqi mənadadır; Əsərin süjet xətti çoxşaxəlidir.
   D) Məcazi mənadadır; Vüqar lazımi sözlərin altından düz xətt çəkmişdi.
   E) Həqiqi mənadadır; Səhifədəki şəkillər rəngli xətlərlə əlaqələndirilmişdi.

15. Mətnə görə doğru fikirlərdir:
   1. "Zənbur" Azərbaycanda ilk rəngli jurnaldır.
   2. Yalnız gənc maarifçilər əsərlərini "Zənbur"da dərc etdirirdilər.
   3. Jurnallarda karikaturalar da dərc olunur.
   4. Müxtəlif jurnallar ideyaca yaxın ola bilər.
   A) 2,3 B) 1,3 C) 2,4 D) 1,2 E) 3,4

16. Mətnə əsasən klasteri tamamlayın.

ilk nömrəsi 1909-cu ildə çap olunub

"Zənbur" jurnalı

17. Mətndə çərçivə daxilində verilmiş sözün qarşılığını cümlə daxilində işlədib yazın.

18. Mətndə üstündə rəqəm yazılmış sözləri cədvəlin müvafiq xanalarına (*həqiqi mənalı* və *məcazi mənalı*) yazın.

| **Həqiqi mənalı** | **Məcazi mənalı** |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

19. “İnsanların məlumatlandırılmasında qəzet və jurnalların rolu” ilə bağlı fikirlər (ən azı 3 cümlə) yazın.

20. “Baxmayaraq ki, bu hal “Zənbur”un özünü təhlükə qarşısında qoyurdu, lakin əməkdaşları bir an da olsun qorxu hissi keçirmirdilər” cümləsini mətnin hansı abzasının sonuna artırmaq olar?

# TAPŞIRIQ NÜMUNƏLƏRİ ÜÇÜN QİYMƏTLƏNDİRMƏ MEYARLARI

**Qeyd: 1-5 və 11-15 saylı test tapşırıqları qapalı (verilən cavablardan bir doğru cavabın seçilməsi) tipli test tapşırıqlarıdır. Bu tapşırıqlarda hər düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar isə 0 balla qiymətləndirililir və yekun nəticəyə təsir göstərmir.**

## A variantı

| Tapşırıq 1. | Tapşırıq 2. | Tapşırıq 3. | Tapşırıq 4. | Tapşırıq 5. |
|---|---|---|---|---|
| E | A | B | C | C |

**Tapşırıq 6.**

Tapşırığın mümkün doğru cavabları:

– *asılı olmuşdur – başqasının hökmünə, iradəsinə tabe olmaq, müstəqil olmamaq və s.*
– *hakimiyyətə gələndən – hökmdar olmaq, hökmran olmaq, idarəçilik səlahiyyətinə malik olmaq, hakimiyyət başına keçmək və s.*
– *boyun əymədiyinə - tabe olmamaq, itaət etməmək*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Məcazi mənalı ilk üç ifadənin üçü də yazılır və hər biri üçün ən azı bir nümunə ilə doğru şərh verilir (hər üç ifadə üçün şərh verilməsi mütləqdir);<br>b. Məcazi mənalı ilk üç ifadənin üçü də yazılmaqla və hər biri üçün ən azı bir nümunə ilə doğru şərh verilməklə yanaşı, mətndə olan başqa məcazi mənalı ifadə doğru seçilir və ya doğru şərhi verilir. |
| $\frac{1}{2}$ bal | c. Məcazi mənalı ilk üç ifadədən yalnız hər hansı ikisi yazılır və hər biri üçün bir nümunə ilə doğru şərh verilir (hər iki ifadə üçün şərh verilməsi mütləqdir);<br>d. Məcazi mənalı ilk üç ifadədən yalnız hər hansı ikisi yazılmaqla və hər biri üçün bir nümunə ilə doğru şərh verilməklə yanaşı, mətndə olan başqa məcazi mənalı ifadə doğru seçilir və şərhi doğru verilir;<br>e. Məcazi mənalı ilk üç ifadənin üçü də yazılmaqla və hər biri üçün ən azı bir nümunə ilə doğru şərh verilməklə yanaşı, mətndə olan başqa məcazi mənalı ifadə seçilir, lakin şərhi ***səhv*** verilir. |
| 0 bal | f. Məcazi mənalı ilk üç ifadədən hər hansı biri və ya hər hansı ikisi və ya hər üçü doğru yazılır, amma heç biri üçün şərh verilmir və ya ***səhv*** şərh verilir;<br>g. Məcazi mənalı ilk üç ifadədən yalnız hər hansı biri üçün doğru şərh verilir (digər iki ifadənin doğru yazılıb-yazılmamağından asılı olmayaraq);<br>h. Məcazi mənalı ilk üç ifadədən hər hansı ikisi yazılmaqla və hər biri üçün ən azı bir nümunə ilə doğru şərh verilməklə yanaşı, mətndə olan başqa məcazi mənalı ifadə seçilir, lakin şərhi ***səhv*** verilir;<br>i. Məcazi mənalı ilk üç ifadədən heç biri yazılmadan və ya şərhi verilmədən mətndəki digər məcazi mənalı ifadə (və ya ifadələr) düzgün yazılır və düzgün şərh edilir. |

**Tapşırıq 7.**

Tapşırığın mümkün doğru cavabları:

| Tarix | Hadisə | Məkan | Surətlər |
|---|---|---|---|
| *Min illər əvvəl, yaxud qədim zamanlarda, yaxud eramızdan əvvəl* | *Müharibə, yaxud Daranın məğlubiyyəti, yaxud İsgəndərin qələbəsi* | *İran, yaxud farsların torpağı* | *Dara, İsgəndər; yaxud Dara, sərkərdə; yaxud İsgəndər, sərkərdə; yaxud Dara, İsgəndər, sərkərdə* |

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Dörd parametrin (tarix, hadisə, məkan, surətlər) hər biri üçün ən azı bir doğru fikir yazılır (***səhv*** fikir olmamalıdır). |
| $\frac{1}{2}$ bal | b. Dörd parametrin (tarix, hadisə, məkan, surətlər) üçü üçün ən azı bir doğru fikir yazılır, biri üçün isə heç nə yazılmır və ya ***səhv*** fikir yazılır;<br>c. Dörd parametrin (tarix, hadisə, məkan, surətlər) ikisi üçün ən azı bir doğru fikir yazılır, digər ikisi üçün heç nə yazılmır. |
| 0 bal | d. Dörd parametrin (tarix, hadisə, məkan, surətlər) yalnız biri üçün doğru fikir yazılır, digərləri üçün fikir yazılmır və ya ***səhv*** fikir yazılır;<br>e. Dörd parametrin (tarix, hadisə, məkan, surətlər) ikisi üçün doğru fikir yazılır, digər ikisinin biri və ya hər ikisi üçün ***səhv*** fikir yazılır;<br>f. Bütün parametrlər üçün ***səhv*** fikir yazılır. |

**Tapşırıq 8.**

Tapşırığın mümkün doğru cavabları:

*İsgəndərin cavabı, İsgəndərin Daraya cavabı, Düşünülmüş cavab, Aforizmə dönmüş cavab və s.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Tapşırığın mümkün doğru cavablarından biri və ya bu fikirlərə uyğun (ekvivalent) olan başqa bir fikir yazılır və ***səhv*** fikir yazılmır. Plan bir hissədən ibarət olsa da, düzgün qəbul edilir;<br>b. Nəticə hissəsi üçün tapşırığın mümkün doğru cavablarından biri və ya bu fikirlərə uyğun (ekvivalent) olan başqa bir fikir yazılmaqla və ***səhv*** fikir yazılmamaqla yanaşı, giriş və əsas hissə üçün də doğru fikir yazılır. |
| 0 bal | c. Tərtib edilən plan tapşırığın mümkün doğru cavablarına uyğun (ekvivalent) deyil;<br>d. Nəticə hissəsi üçün tərtib edilən plan göstərilən variantlara uyğun (ekvivalent) olmaqla yanaşı, giriş və əsas hissə üçün ***səhv*** plan yazılır. |

**Tapşırıq 9.**

Tapşırığın mümkün doğru cavabları:

***Dara:***

*İsgəndərə məğlub olması Daranın gücsüzlüyünü göstərirsə, İsgəndərin onun əsirlikdə olan ailəsinə qayğıkeş münasibəti müqabilində ona ərazilərin bir hissəsini təklif etməsi, yaxşılıq qarşısında borclu qalmaq istəməməsi isə onun güclü tərəfini göstərir* fikrinə və ya verilmiş aforizmə uyğun Daranın hər hansı hərəkətinə aid nümunələr yazılır.

***İsgəndər:***

*Döyüşdə qalib gəlməsi, Daranın əsirlikdə olan ailəsinə qayğıkeşlik göstərməsi İsgəndərin güclü olduğunu göstərirsə, əsirlərin düşərgədən qaçmasına şərait yaradılması onun gücsüz olduğunu göstərir* fikrinə və ya verilmiş aforizmə uyğun İsgəndərin hər hansı hərəkətinə aid nümunələr yazılır.

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Həm Daranın, həm də İsgəndərin hərəkətlərinə aid tapşırığın mümkün doğru cavablarına uyğun ən azı bir doğru fikir yazılır və heç bir ***səhv*** fikir yazılmır. |
| $\frac{1}{2}$ bal | b. Ancaq ya Daranın, ya da İsgəndərin hərəkətlərinə aid ən azı bir doğru fikir yazılır və səhv fikir yazılmır. |
| 0 bal | c. Həm Daranın, həm də İsgəndərin hərəkətlərinə aid ***səhv*** fikir yazılır;<br>d. Ya Daranın, ya da İsgəndərin hərəkətlərinə aid ən azı bir ***səhv*** fikir yazılır. |

**Tapşırıq 10.**
Tapşırığın mümkün doğru cavabları:
1. *Dara ailəsi haqqında məlumat əldə edir.*
2. *Döyüş başlayır.*
3. *Daranın ailəsi əsir düşür.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Xanalara uyğun olaraq tapşırığın mümkün doğru cavablarındakı fikirlərdən, yaxud buna uyğun, yaxud mətndəki səbəb-nəticə əlaqəsinə uyğun fikirlərdən hər üç səbəb üçün ən azı bir doğru nəticə yazılır və heç bir ***səhv*** nəticə yazılmır. |
| $\frac{1}{2}$ bal | b. Yalnız hər hansı iki səbəb üçün ən azı bir doğru nəticə yazılır, heç bir ***səhv*** nəticə yazılmır və üçüncü səbəb üçün heç nə yazılmır. |
| 0 bal | c. Üç səbəbdən istənilən biri üçün və ya istənilən ikisi üçün və ya hər üçü üçün ən azı bir ***səhv*** fikir yazılır. |

| Tapşırıq 11. | Tapşırıq 12. | Tapşırıq 13. | Tapşırıq 14. | Tapşırıq 15. |
|---|---|---|---|---|
| C | A | E | D | A |

**Tapşırıq 16.**
Tapşırığın mümkün doğru cavabları:
*əhəmiyyətini, qiymətini, nəyə layiq olduğunu və s.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Tapşırığın mümkün doğru cavablarındakı ifadələrdən biri və ya bu ifadələrə uyğun (ekvivalent) olan başqa bir ifadə yazılır və ***səhv*** ifadə yazılmır. |
| 0 bal | b. Ən azı bir ***səhv*** ifadə yazılır (doğru ifadə yazılıb-yazılmamağından asılı olmayaraq). |

**Tapşırıq 17.**
Tapşırığın mümkün doğru cavabları:
*Reysin telefon nümunələri ilə tanışlıq, Reysin aparatlarından bir neçəsinin mağazadan alınması, Bellin telefon əldə etməsi və s.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Tapşırığın mümkün doğru cavablarındakı fikirlərdən biri və ya bu fikirlərə uyğun (ekvivalent) olan başqa bir fikir yazılır və ***səhv*** fikir yazılmır. |
| 0 bal | b. Ən azı bir ***səhv*** fikir yazılır (doğru fikir yazılıb-yazılmamağından asılı olmayaraq). |

### Tapşırıq 18.

Tapşırığın mümkün doğru cavabları:
*Çünki əsl xəzinədən yox, xəzinə kimi qiymətli telefon aparatından danışılır.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. *Məcazi mənadadır* ifadəsinin qarşısındakı boş xanaya işarə qoyulur və tapşırığın mümkün doğru cavabına uyğun fikir yazılır və ya tərkibində *sərvət* sözünün olduğu söz birləşməsi, yaxud cümlə yazılır. |
| 0 bal | b. Məcazi mənada işləndiyi göstərilir, amma izah verilmir və ya ***səhv*** izah verilir;<br>c. Verilən izah məcazi mənaya uyğun gəlsə də, həqiqi mənanın qarşısında işarə qoyulur və ya heç birinin qarşısında işarə qoyulmur və ya hər ikisinin qarşısında işarə qoyulur;<br>d. Həqiqi mənada işləndiyi göstərilir. |

### Tapşırıq 19.

Tapşırığın mümkün doğru cavabları:
*Reys müəllim olur; İxtira patentləşdirilir; Bell Bostona qayıdır və s.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Boş xanalardan üçünə də, birinci və sonuncu abzaslardan başqa qalan bütün abzaslarda baş verən hadisələrdən tapşırığın mümkün doğru cavablarına uyğun ən azı bir fikir yazılır, eləcə də birinci və sonuncu abzasda baş verən hər hansı bir hadisə yazılmır. |
| $\frac{1}{2}$ bal | b. Boş xanalardan yalnız hər hansı ikisinə birinci və sonuncu abzaslardan başqa qalan bütün abzaslarda baş verən hadisələrdən ən azı biri yazılır və digər xanaya heç nə yazılmır. |
| 0 bal | c. Yalnız bir xanaya doğru hadisə yazılır, digər xanalara hadisə yazılmır və ya ***səhv*** yazılır;<br>d. Xanalara yazılan hadisələr birinci və ya sonuncu abzasa aiddir. |

### Tapşırıq 20.

Tapşırığın mümkün doğru cavabları:
*İlk telefon stansiyasının Amerikada fəaliyyətə başlaması ilə şəhərlər arasında, eləcə də uzaq məsafələrə əlaqə asanlaşdı, insanlar rahat ünsiyyət qura bildilər, insanlar arasında xəbərlər tez yayıla bildi.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Tapşırığın mümkün doğru cavabına uyğun fikirlər yazılır və bu məzmundan kənar fikir yazılmır. |
| 0 bal | b. Göstərilən fikirlərə uyğun olmayan fikirlər yazılır. |

# B variantı

| Tapşırıq 1. | Tapşırıq 2. | Tapşırıq 3. | Tapşırıq 4. | Tapşırıq 5. |
|---|---|---|---|---|
| C | D | A | B | A |

**Tapşırıq 6.**
Ehtimal olunan doğru cavab nümunələri:

| Həqiqi mənalı | Məcazi mənalı |
|---|---|
| *yanına gəlir(gəlir), sözün olduğu cümlə və ya 1 rəqəmi* | *qəlbini qırıb (qırıb), sözün olduğu cümlə və ya 2 rəqəmi* |
| *yastıq gətirib (gətirib) , sözün olduğu cümlə və ya 3 rəqəmi* | *söz çıxarma (çıxarma), sözün olduğu cümlə və ya 4 rəqəmi* |
| | *ürək bulandırmaq (bulandırmaq), sözün olduğu cümlə və ya 5 rəqəmi* |

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Sözlərdən hamısı (5-i də) uyğun xanaya yazılır |
| $\frac{1}{2}$ bal | b. Sözlərdən istənilən 4-ü uyğun xanaya yazılır,ancaq 1 söz yazılmır<br>c.Sözlərdən istənilən 4-ü uyğun, 1-i uyğun olmayan xanaya yazılır<br>d. Sözlərdən istənilən 3-ü uyğun xanaya yazılır, digər 2 söz yazılmır |
| 0 bal | e. Sözlərdən istənilən 3-ü uyğun xanaya yazılır, 1 və ya 2 söz uyğun olmayan xanaya yazılır<br>f. Digər bütün hallarda |

**QEYD 1: Sözlər cədvəlin uyğun xanalarına yazılmaqla yanaşı, onların qarşılığı da uyğun xanalara yazılarsa bu halda şagirdin cavabı müsbət qiymətləndirilir.**

| Həqiqi mənalı | Məcazi mənalı |
|---|---|
| yanına gəlir | Ürəyi ağzına gəlir* |
| Stəkanı qırıb* | qəlbini qırıb |
| yastıq gətirib | Xoş əhvali-ruhiyyə gətirib* |
| Kitabı çıxarma* | söz çıxarma |
| Suyu bulandırmaq* | ürək bulandırmaq |

**QEYD 2: Tələb olunandan başqa sözlər də yazılırsa:**

1. **Yazılan sözlər uyğun xanalara yazılarsa qiymətləndirmə zamanı nəzərə alınmır**
2. **Yazılan sözlər uyğun olmayan xanalara yazılarsa, 1 səhv olduqda maksimum "$\frac{1}{2}$", 2 və daha çox səhv olduqda isə "0" balla qiymətləndirilir**

**Tapşırıq 7.**

Ehtimal olunan doğru cavab nümunələri:

*Anar başına papaq qoyub bayıra çıxdı.*

Yaxud "baş" sözünün canlı varlıqların bədən üzvü kimi **həqiqi mənada** işləndiyi cümlə yazır

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. "baş" sözünün canlı varlıqların bədən üzvü kimi **həqiqi mənada** işləndiyi cümlə yazır.<br>b. "baş" sözünün həm həqiqi, həm də məcazi mənada işləndiyi cümlə yazılır, ancaq **fərqləndirilir** (və ya numerativ söz yazır və fərqləndirir). |
| $\frac{1}{2}$ bal | c. "baş" sözünün canlı varlıqların bədən üzvü kimi **həqiqi mənada** söz birləşməsinin tərkibində işlənməklə yazılır. (**Nümunələr**: *körpənin başına baxmaq, buzovun başı* və s.) |
| 0 bal | d. "baş" sözünün həqiqi mənada işlədilmədiyi istənilən cümlə yazılır.<br>e. "baş" sözü frazeoloji birləşmənin tərkibində yazılır<br>f. "baş" sözünün həm həqiqi, həm də məcazi mənada işləndiyi cümlə yazılır, ancaq **fərqləndirilmir**. |

**Tapşırıq 8.**

Ehtimal olunan doğru cavab nümunələri:

*"Kiminsə xətrinə dəymək, qəlbini qırmaq heç vaxt aqil adamların davranış və hərəkətlərində görünməz, ancaq bu davranışlar cahil adamların davranış və hərəkətlərində özünü göstərər" məzmunlu fikirlər.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. *Qəlb sındıran, ürək bulandıran söz deməyin və ya iş görməyin* mənfi xüsusiyyət (əxlaqi keyfiyyət) olması ilə bağlı mətndə **olmayan** ən az **2** uyğun cümlə yazılır, uyğun **olmayan** cümlə yazılmır |
| $\frac{1}{2}$ bal | b. *Qəlb sındıran, ürək bulandıran söz deməyin və ya iş görməyin* mənfi xüsusiyyət (əxlaqi keyfiyyət) olması ilə bağlı mətndə **olmayan** ən az **2** uyğun cümlə ilə yanaşı, uyğun **olmayan** cümlə (cümlələr) də yazılır.<br>c. *Qəlb sındıran, ürək bulandıran söz deməyin və ya iş görməyin* mənfi xüsusiyyət (əxlaqi keyfiyyət) olması ilə bağlı mətndə **olmayan** yalnız **1** uyğun cümlə yazır. Başqa cümlə (cümlələr) **yazılmır**. |
| 0 bal | d. *Qəlb sındıran, ürək bulandıran söz deməyin və ya iş görməyin mənfi* xüsusiyyət (əxlaqi keyfiyyət) olması ilə bağlı mətndə **olmayan 1** cümlə yazır, uyğun **olmayan** cümlə (cümlələr) də yazılır.<br>e. yazılanların heç biri uyğun **deyil**. |

**QEYD 1: Mətndə olan cümlə (cümlələr) olduğu kimi və ya əvvəlinə həqiqətən də, doğrudan da kimi sözlər artırılaraq yazıldıqda həmin cümlələr nəzərə alınmır (**yazılmamış hesab edilir**).**

**QEYD 2: Yaxşı münasibət bildirirəm. Müsbət münasibət bildirirəm və s. Bunun kimi cümlələr nəzərə alınmır (**yazılmamış hesab edilir**). (**Nümunə 2**)**

**QEYD 3: Təkrarlanan fikirlərin ifadə olunduğu cümlələrin hamısı 1 cümlə sayılır.**

**Tapşırıq 9.**

Ehtimal olunan doğru cavab nümunələri:

*"Qoca";(Müdrik qoca; Dünyagörmüş qoca, Qoca kişi və s.)*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Ancaq nümunəyə uyğun hər hansı bir ifadə yazılır. |
| 0 bal | b. Nümunəyə uyğun ifadə ilə yanaşı, yanlış ifadə də yazılır.<br>c. Nümunəyə uyğun olmayan ifadə yazılır. |

**Tapşırıq 10.**

Ehtimal olunan doğru cavab nümunələri:

| *Səbəb:* | *Nəticə:* |
|---|---|
| Qocanın sonuncu fikirləri | *Adama dərs olur (Adamın ibrət götürməsi, ağzına sahiblik etməsi, nəticə çıxarması, adamın(oğlanın) nəsihət alması,adamın səhvlərini başa düşməsi, adamın pis yoldan (səhv əməlindən) çəkinməsi, sözü bişirib demək lazım olduğunu anlaması və s.)* |
| *Qocanın tapşırığı, Qocanın məsləhəti, qocanın yastıq verib boşaltmasını istəməsi (tapşırması), Qocanın ilk məsləhəti, Qocanın ona əməl etməsini dediyi fikir, Qocanın ona dediyi sözlər, Qocanın adama dərs verməsi üçün düşündüyü fikir (ibrət dərsi), Qocanın evdən yastıq gətirməsi, Qocanın ona belə etməsini deməsi, Qocanın düşünüb adama söylədiyi sözlər, qocanın dediyinə əməl etməsi, (Yastığın tüklərini boşaltmağı tapşırmaq )* | Adamın dama çıxması |

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Hər iki boş xanaya nümunəyə uyğun ən az bir fikir yazılır (uyğun olmayan fikir yazılmır). |
| $\frac{1}{2}$ bal | b. Yalnız boş xanalardan birinə nümunəyə uyğun fikir yazılır, digər boş xanaya heç bir fikir yazılmır.<br>c. Boş xanalardan birinə nümunəyə uyğun , digərinə nümunəyə uyğun olmayan hər hansı fikir yazılır. |
| 0 bal | d. Boş xanaların hər ikisinə uyğun olmayan fikir yazılır. **Səhv cavablar: Qocanın əmri, Qocanın dərs verməsi** |

| Tapşırıq 11. | Tapşırıq 12. | Tapşırıq 13. | Tapşırıq 14. | Tapşırıq 15. |
|---|---|---|---|---|
| B | C | C | B | E |

## Tapşırıq 16.

Ehtimal olunan doğru cavab nümunələri:

*Forma və tərtibat baxımından "Molla Nəsrəddin" jurnalına bənzəyirdi*
*"Kaspi" qəzetinin mətbəəsində çap olunmuşdu*
*"Molla Nəsrəddin" jurnalından sonra çap olunub*
*Sadə dildə yazırdı*
*Müxtəlif janrlarda əsərlər çap olunurdu*
*Zərərli fikirlərin əleyhinə çıxırdı*
*Geriliyi tənqid edirdi*
*İbrət götürməyi tövsiyyə edirdi*
*Xalqı bəlalardan uzaqlaşdırmağa calışırdı*
*Bəzən bir səhifəsində eyni mövzuda yazılar dərc olunurdu*
*Cəsarət nümayiş etdirirdi*
*13 martda çap olunub*
*Bakı şəhərində çap olunub və s.*
*Mətndə **"Zənbur"** jurnalına aid verilən digər məlumatlar da nəzərə alınır.*

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. "Zənbur" jurnalına aid nümunədə verilənlərə uyğun ən az **2** fikir yazılır, uyğun **olmayan** fikir **yazılmır**. |
| $\frac{1}{2}$ bal | b. "Zənbur" jurnalına aid nümunədə verilənlərə uyğun **2** fikirlə yanaşı, uyğun **olmayan ancaq 1** fikir yazılır<br>c. "Zənbur" jurnalına aid nümunədə verilənlərə uyğun ən az **1** fikir yazılır, uyğun **olmayan** fikir yazılmır. |
| 0 bal | d. "Zənbur" jurnalına aid **olmayan** fikirlərin sayı 2 və daha çoxdur.<br>e. Uyğun 1 fikirlə yanaşı, uyğun **olmayan** fikir də yazılır. |

## Tapşırıq 17.

Ehtimal olunan doğru cavab nümunələri:

***əqidə** (ideya) – Tarixdə öz əqidəsi uğrunda canından keçənlər çox olmuşdur.*
***məfkurə(niyyət)** – Ə.Hüseynzadə milli məfkurə uğrunda mübarizə aparırdı.*
***məslək (vəzifə, iş)** – Öz məsləkin, öz eşqim daim məndən öndədir.*
***məqsəd (hədəf, arzu)** – Aramızda məqsəd birliyi vardı.*
***yol (istiqamət)*** – Jurnalın əsas yolu xalqa xidmət etmək olmuşdur.

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Nümunələrə uyğun ən az bir cümlə yazılır.Uyğun ***olmayan*** fikir ***yazılmır.*** |
| $\frac{1}{2}$ bal | b. Nümunələrə uyğun qarşılıq bildirən sözlərin işləndiyi ən az bir söz birləşməsi yazılır. (**Nümunələr**: *sarsılmaz əqidə, milli məfkurə, məslək birliyi, eyni məqsəd, həyat yolu* və s.). Uyğun ***olmayan*** fikir ***yazılmır.***<br>*c. Mətndəki **cümlə** "**amal**" sözünün qarşılığı ilə əvəz edilməklə olduğu kimi köçürülür və ya mətndəki cümlənin bir hissəsi "**amal**" sözünün qarşılığı ilə əvəz edilməklə köçürülərək yazılır* |
| 0 bal | d.Uyğun ifadə ilə yanaşı, uyğun olmayan ifadə də yazılır.<br>e. Yazılan cavabların heç biri nümunəyə uyğun deyil.<br>f. Ancaq sözün qarşılığı yazılır |

**Tapşırıq 18.**

Ehtimal olunan doğru cavab nümunələri:

| Həqiqi mənalı | Məcazi mənalı |
|---|---|
| *birinci nömrəsi (nömrəsi), sözün olduğu cümlə və ya 2 rəqəmi* | *silinməz izlər (izlər), sözün olduğu cümlə və ya 1 rəqəmi* |
| | *zərərli meyillər (zərərli), sözün olduğu cümlə və ya 3 rəqəmi* |
| | *ibrət götürməyi (götürməyi), sözün olduğu cümlə və ya 4 rəqəmi* |
| | *tərəqqi toxumu səpirdi (səpirdi), sözün olduğu cümlə və ya 5 rəqəmi* |

| Bal şkalası | Meyarlar |
|---|---|
| 1 bal | a. Sözlərdən hamısı (5-i də) uyğun xanaya yazılır |
| $\frac{1}{2}$ bal | b. Sözlərdən istənilən 4-ü uyğun xanaya yazılır,ancaq 1 söz yazılmır<br>c.Sözlərdən istənilən 4-ü uyğun, 1-i uyğun olmayan xanaya yazılır<br>d. Sözlərdən istənilən 3-ü uyğun xanaya yazılır, digər 2 söz yazılmır |
| 0 bal | e. Sözlərdən istənilən 3-ü uyğun xanaya yazılır, 1 və ya 2 söz uyğun olmayan xanaya yazılır<br>f. Digər bütün hallarda |

**QEYD 1: Sözlər cədvəlin uyğun xanalarına yazılmaqla yanaşı, onların qarşılığıda uyğun xanalara yazılarsa, bu halda şagirdin cavabı müsbət qiymətləndirilir.**

**QEYD 2: Tələb olunandan başqa sözlər də yazılırsa:**

1. **Yazılan sözlər uyğun xanalara yazılarsa, qiymətləndirmə zamanı nəzərə alınmır**
2. **Yazılan sözlər uyğun olmayan xanalara yazılarsa, 1 səhv olduqda maksimum “$\frac{1}{2}$”, 2 və daha çox səhv olduqda isə “0” balla qiymətləndirilir**

## Tapşırıq 19.

Ehtimal olunan doğru cavab nümunələri:

*Qəzet və ya jurnallar dünyada baş verən hadisələrlə bağlı insanları müntəzəm şəkildə məlumatlandırır. Elmi nailiyyətlər, təhsil uğurları, ədəbi nümunələr, idmanla bağlı məlumatların çatdırılmasında da qəzət və jurnalların rolu böyükdür. Qəzet və jurnallar insanların informasiya blokadasından çıxmasına kömək edir. Dünyanın hər yerində ən mühüm informasıya daşıyıcısı kimi qiymətləndirilir. ( Məsələn: Azərbaycanda "Xalq qəzeti", "Azərbaycan jurnalı" və.s. dünyada "Nyu York times", "Gardian" və s. orqanlar insanları müxtəlif məlumatlarla təmin edir.)*

**QEYD: Cavblarda qəzet və jurnal adlarının yazılması vacib deyil.**
**QEYD: Mətndən köçürülən cümlələr (fikirlər) say etibarı ilə nəzərə alınmır.**

| Bal şkalası | Meyarlar: |
|---|---|
| 1 bal | a. Nümunədə verilənlərə uyğun ən az **3** cümlə yazılır. Uyğun **olmayan** cümlə **yazılmır**. |
| $\frac{1}{2}$ bal | b. Nümunədə verilənlərə uyğun ən az **3** cümlə ilə yanaşı, uyğun **olmayan** cümlə yazılır.<br>c. Nümunədə verilənlərə uyğun ən az **2** cümlə yazılır, uyğun **olmayan** cümlə sayı 1-dir. |
| 0 bal | d. **2** uyğun, **2** və daha çox uyğun **olmayan** cümlə yazılır.<br>e. **1** uyğun cümlə yazılır.<br>f . Yazılan cümlələrin heç biri uyğun **deyil**. |

## Tapşırıq 20.

Ehtimal olunan doğru cavab nümunələri:

*III abzasın sonuna ( III abzasın son cümləsini yazıb və bura əlavə etmək lazım olduğunu qeyd edir və ya "Poçta qutusu" olan abzasa) və ya III, V abzasın sonuna*

| Bal şkalası | Meyarlar: |
|---|---|
| 1 bal | a. III abzas yazılır.<br>b. III və V abzas yazılır |
| $\frac{1}{2}$ bal | c. V abzas yazılır |
| 0 bal | c. III və V abzasla yanaşı, başqa abzas da yazılır.<br>b. Yazılan abzasların heç biri doğru deyil. |

# "CAVAB VƏRƏQİ"nin nümunəsi

## A variantı

**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**
**ÜMUMİ ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANININ**
**I MƏRHƏLƏSİ ÜÇÜN CAVAB VƏRƏQİ**

**AZƏRBAYCAN DİLİ**

①

②*Bəyannamə*

*Öz imzamla birinci bənddə iş nömrəsi, soyadı, adı, atasının adı göstərilən şəxs olduğumu təsdiq edirəm. Əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyət daşıyacağam.*
*İmtahan zamanı cavabları köçürməyəcəyimə və başqalarının məndən köçürməsinə şərait yaratmayacağıma söz verirəm.*

*İmza*

**③1-5 və 11-15 nömrəli tapşırıqlar üçün doğru bildiyiniz cavabı nümunədə göstərildiyi kimi dairədən kənara çıxmadan tam qaralayın!** ●

*ŞAGİRDİN NƏZƏRİNƏ!*

- Bu «Cavab vərəqi» Azərbaycan dili fənni üzrə tapşırıqların (1-20 nömrəli) cavablandırılması üçün nəzərdə tutulmuşdur.
- «Cavab vərəqi»nizi doldurarkən tünd göy və ya qara rəngli diyircəkli qələmdən istifadə edin.
- «Cavab vərəqi»nizi qatlamayın və əzməyin. Orada heç bir lazımsız qeyd etməyin.
- İmtahan başa çatdıqdan sonra «Cavab vərəqi»nizi mütləq zal nəzarətçisinə təhvil verin və «İmtahana buraxılış vərəqəsi»ndə nəzarətçinin imza etməsini tələb edin.
- Köçürmək və köçürməyə şərait yaratmaq qəti qadağandır. İmtahan nəticələri emal olunarkən köçürmə hallarının mövcudluğu xüsusi olaraq araşdırılır. Belə hallara yol vermiş şagirdlərin nəticələri ləğv edilir!
- Sual kitabçasında verilmiş birinci mətnə əsasən 1-10, ikinci mətnə əsasən 11-20 nömrəli tapşırıqları cavablandırın.
- Səhv yazılmış cavab düzgün yazılmış cavabların nəticələrinə təsir göstərmir.
- 1–5 və 11–15 nömrəli tapşırıqlarda iki və daha artıq dairə qaralanarsa cavab səhv hesab edilir.
- 6–10 və 16–20 nömrəli hər bir tapşırığa verdiyiniz cavabı isə həmin tapşırıq üçün ayrılmış hissəyə çərçivədən kənara çıxmadan səliqəli və oxunaqlı xətlə yazın.

**④ Zal nəzarətçisinin diqqətinə!**
**Şagird imtahanda iştirak etməyibsə, sağdakı dairəni qaralayın.** ○

1

1. A ○ B ○ C ○ D ○ E ○
2. A ○ B ○ C ○ D ○ E ○
3. A ○ B ○ C ○ D ○ E ○
4. A ○ B ○ C ○ D ○ E ○
5. A ○ B ○ C ○ D ○ E ○

**6.**

**7.**

| Tarix | Hadisə | Məkan | Surətlər |
|---|---|---|---|
| | | | |

**8.**

**9.**

Dara →

İsgəndər →

**10.**

| | **Səbəb** | **Nəticə** |
|---|---|---|
| 1. | İsgəndər qalib gəlir | *Daranın təklifi qəbul edilmir* |
| 2. | Fars əsirlikdən qaçır | |
| 3. | İsgəndər Daraya boyun əymir | |
| 4. | İran məğlub olur | |

11. A ○ B ○ C ○ D ○ E ○
12. A ○ B ○ C ○ D ○ E ○
13. A ○ B ○ C ○ D ○ E ○
14. A ○ B ○ C ○ D ○ E ○
15. A ○ B ○ C ○ D ○ E ○

Barkod

**16.**

17.

18. Məcazi mənadadır. ☐

Həqiqi mənadadır. ☐

19.




20.

# B variantı

**DÖVLƏT İMTAHAN MƏRKƏZİ**
**ÜMUMİ ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANININ**
**I MƏRHƏLƏSİ ÜÇÜN CAVAB VƏRƏQİ**

**AZƏRBAYCAN DİLİ**

①

②*Bəyannamə*

*Öz imzamla birinci bənddə iş nömrəsi, soyadı, adı, atasının adı göstərilən şəxs olduğumu təsdiq edirəm. Əks təqdirdə qanunla müəyyən edilmiş məsuliyyət daşıyacağam.*
*İmtahan zamanı cavabları köçürməyəcəyimə və başqalarının məndən köçürməsinə şərait yaratmayacağıma söz verirəm.*

*İmza*

**③1-5 və 11-15 nömrəli tapşırıqlar üçün doğru bildiyiniz cavabı nümunədə göstərildiyi kimi dairədən kənara çıxmadan tam qaralayın!** ●

*ŞAGİRDİN NƏZƏRİNƏ!*

- Bu «Cavab vərəqi» Azərbaycan dili fənni üzrə tapşırıqların (1-20 nömrəli) cavablandırılması üçün nəzərdə tutulmuşdur.
- «Cavab vərəqi»nizi doldurarkən tünd göy və ya qara rəngli diyircəkli qələmdən istifadə edin.
- «Cavab vərəqi»nizi qatlamayın və əzməyin. Orada heç bir lazımsız qeyd etməyin.
- İmtahan başa çatdıqdan sonra «Cavab vərəqi»nizi mütləq zal nəzarətçisinə təhvil verin və «İmtahana buraxılış vərəqəsi»ndə nəzarətçinin imza etməsini tələb edin.
- Köçürmək və köçürməyə şərait yaratmaq qəti qadağandır. İmtahan nəticələri emal olunarkən köçürmə hallarının mövcudluğu xüsusi olaraq araşdırılır. Belə hallara yol vermiş şagirdlərin nəticələri ləğv edilir!
- Sual kitabçasında verilmiş birinci mətnə əsasən 1-10, ikinci mətnə əsasən 11-20 nömrəli tapşırıqları cavablandırın.
- Səhv yazılmış cavab düzgün yazılmış cavabların nəticələrinə təsir göstərmir.
- 1–5 və 11–15 nömrəli tapşırıqlarda iki və daha artıq dairə qaralanarsa cavab səhv hesab edilir.
- 6–10 və 16–20 nömrəli hər bir tapşırığa verdiyiniz cavabı isə həmin tapşırıq üçün ayrılmış hissəyə çərçivədən kənara çıxmadan səliqəli və oxunaqlı xətlə yazın.

**④ Zal nəzarətçisinin diqqətinə!**
**Şagird imtahanda iştirak etməyibsə, sağdakı dairəni qaralayın.** ○

1

1. A B C D E
2. A B C D E
3. A B C D E
4. A B C D E
5. A B C D E

6.

| Həqiqi mənalı | Məcazi mənalı |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

7.

8.

9.

**10.**

| *Səbəb:* | *Nəticə:* |
|---|---|
| *Qocanın sonuncu fikirləri* | |
| | *Adamın dama çıxması* |

11. A ○ B ○ C ○ D ○ E ○
12. A ○ B ○ C ○ D ○ E ○
13. A ○ B ○ C ○ D ○ E ○
14. A ○ B ○ C ○ D ○ E ○
15. A ○ B ○ C ○ D ○ E ○

**16.**

| | |
|---|---|
| "Zənbur" jurnalı | ilk nömrəsi 1909-cu ildə çap olunub |
| | |

**17.** ____________________

**18.**

| Həqiqi mənalı | Məcazi mənalı |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

19.

20.

# ÜMUMİ (9 illik) ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ BURAXILIŞ İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİ ÜÇÜN TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ

## (V-IX siniflər üzrə dil qaydalarına aid (IV məzmun xətti) alt standartlarla bağlı ümumi tapşırıqlar)

## A variantı

**1.** *"Abidənin açılışını müşahidə etmək üçün oraya ... "* **ifadəsini əmr cümləsi kimi tamamlamaq üçün nöqtələrin yerinə hansı söz əlavə edilməlidir?**

1. bax
2. getməliyik
3. gedin
4. gedəsiyəm
5. yollansınlar

A) 1, 3, 4 B) 2, 3, 4
C) 3, 4, 5 D) 1, 2, 5 E) 1, 3, 5

**2. Hansı nümunələrdə say işlənmişdir?**

1. Çox oxuyan çox bilməz, çox gəzən çox bilər.
2. Çox söz yalansız, çox pul haramsız olmaz.
3. Az yemək, az danışmaq nəciblik əlamətidir.
4. Az aşım, ağrımaz başım.
5. Çox bilib az danışmaq igidin yaraşığıdır.

A) 2, 4 B) 3, 5 C) 1, 3, 5
D) 1, 2 E) 2, 4, 5

**3.** *"... sözü ... kimi işləndikdə ondan sonra vergül qoyulduğu halda, ... kimi işləndikdə özündən sonra vergül qoyulmur"* **cümləsini ardıcıl olaraq nöqtələrin yerinə hansı sözləri əlavə etməklə tamamlamaq olar?**

1. yəni 2. ədat 3. bağlayıcı 4. ki

A) 1, 3, 2 B) 4, 3,1 C) 1, 2, 3
D) 4, 3, 2 E) 1, 4, 2

**4. Hansı cümlədə yol verilmiş *səhv* vasitəsiz nitqlə bağlıdır?**

A) Babək: "qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır!" – dedi.
B) Ömür nə qədər uzun olsa da "ondan doydum deyən" olmadı.
C) "Qələbə bizimdir, – dedi, – çünki o bizim haqqımızdır".
D) Atalar demişdir ki işləməyən dişləməz.
E) Karnegi: "Biz səhvlərimizdən öyrənirik", – demişdir.

**5. Mürəkkəb cümlələrdən biri digərlərindən *fərqlənir*:**

A) Kitab toplamaq faydalı işdir, onları oxumaq isə daha faydalıdır.
B) Yaxşı kitabları bu gün oxuyun, sabah vaxtınız olmaya da bilər.
C) Qanunlar nə vaxtsa ölür, kitablar heç vaxt ölmür.
D) Ağıllı qonşun yoxdursa, kitabla söhbət et.
E) Mənə kitablarını göstər, övladlarının hansı ruhda böyüdüyünü deyim.

**6. Dialoqlarla bağlı doğru fikirdir:**

A) Hər şəxsin danışığı dırnaq içərisində yazılmalıdır.
B) İlk sözünün ilk hərfi böyük olmaqla hər şəxsin danışığı yeni sətirdən yazılır.
C) Vasitəsiz nitqdən fərqlənmir.
D) Ancaq yazılı nitqə aid olur.
E) Ancaq iki nəfərin söhbətləşməsidir.

**7. Cümlələrin birində qrammatik əsaslardan biri iştirak etmir?**
A) Siyasətin bütün yolları elm və təhsildən keçir.
B)Yalın əllə timsah tutmazlar.
C) Zülmkarlıq zəiflik əlamətidir.
D) Nahaq tökülən qan qurumaz.
E) İşləmək əylənmək qədər darıxdırıcı deyil.

**8.** *"Bitişik yazılan mürəkkəb isim kökdən ibarət iki feil və ... düzələ bilər"* **cümləsini tamamlamaq üçün uyğun ifadəni müəyyən edin.**
A) köməkçi nitq hissəsi ilə
B) qrammatik şəkilçi ilə
C) leksik şəkilçi ilə
D) əlavə bir ismin iştirakı ilə
E) "ha" bitişdiricisi ilə

**9. Hansı nümunədə buraxılmış durğu işarəsi birbaşa vasitəsiz nitqə aiddir?**
A) Zəhmət doğrudan da insanları mənən iztirablardan xilas edir.
B) Linkoln: "Atam mənə işləməyi öyrətdi, amma işi sevməyi öyrətmədi".
C) Deyirlər insanın məqsədi böyüdükcə özü də böyüyür.
D) "Varlıların çoxu öz sərvətinin ağası yox keşikçisidir", – demişdir Demokrit.
E) Atalar: "İşləməyən dişləməz" – demişdir.

**10. Xəbəri söz birləşməsi ilə ifadə olunmuş cümlədir:**
A) Söz ovsunundan güclü ovsun yoxdur.
B) Bilikli adam müəyyən sistemə əsasən danışır.
C) Sözün, şeirin qiyməti onun düzlüyündədir.
D) Gözəl dil yaxşı silahdır.
E) Hər kəs yalnız başa düşdüyünü eşidir.

**11.** *"Peşman olmamaq üçün danışmazdan öncə ... "* **nümunəsində nöqtələrin yerinə hansı söz yazılsa, cümlənin sonunda sual işarəsi** ***qoyulmaz*****?**
A) düşünməlisən B) fikirləşərik
C) hazırlaşmalısınız D) fikirləş
E) düşünüblər

**12. Klasteri tamamlayan ifadələri müəyyən edin.**




1. bitişik yazılır.
2. tire ilə yazılır.
3. ixtisarla yazılır.
4. defislə yazılır.

A) 1, 2 B) 2, 3 C) 3, 4
D) 1, 4 E) 1, 3

**13.** *"Sərkərdə orduları yarıb keçmək üçün səbatlı, əsgəri coşdurmaq üçün qərarlı olmalıdır"* (Y. Balasaqunlu) **cümləsində altından xətt çəkilmiş sözün mənası:**
A) təhsilli D) nüfuzlu
B) təcrübəli E) səlahiyyətli
C) silahlı

**14.** ***"Mahnı oxuyan"*** **ifadəsi hansı cümlədə tamamlıq yerində işlənib?**
A) Mahnı oxuyan oğlan qonşumuzdur.
B) Rəhbərlik teatra mahnı oxuyan axtarır.
C) Mahnı oxuyan alqışlar altında səhnəni tərk etdi.
D) Sinif yoldaşım tərifəlayiq mahnı oxuyandır.
E) Mahnı oxuyanlara tərif demək doğru işdir.

**15.** *Esxil: “ən (1) acı (2) məğlubiyyət (3) rəqibdən (4) aldığın (5) məğlubiyyətdir (6)”, – demişdir*

**cümləsində hansı sözün yazılışında səhvə yol verilmişdir?**

A) 1 B) 5 C) 4 D) 3 E) 6

**16. Hansı nümunədə *səhv* yazılmış söz *yoxdur*?**

A) Hər ümütsüzlüyün arxasında bir ümüt var.
B) Rəqib olmuyanda qalib gəlmək asandır.
C) Bu günün əsl universiteti kitabxanadır.
D) İdmanın bədənə göstərdiyi təsiri kitab beynə göstərir.
E) Qonax yanında uşaq döyməzlər.

**17. Hansı cümlələrdə vergüldən istifadədə *səhvə* yol verilib?**

1. Bu, çox maraqlı əsərdir.
2. Bu çox əsərdən maraqlıdır.
3. O kitab oxumağa xeyli həvəs göstərdi.
4. O bizim işlərimizlə yaxından maraqlanır.
5. Bu o şagirdin sinif yoldaşıdır.

A) 2, 3, 5 B) 1, 4, 5
C) 2, 4, 5 D) 1, 2, 4 E) 1, 2, 3

**18. Uyğunluğu müəyyən edin.**

1. İdarə əlaqəsi
2. Uzlaşma əlaqəsi
3. Yanaşma əlaqəsi

a. Yer zərfliyi ilə xəbər arasında olur.
b. Şəxsə və kəmiyyətə görə olur.
c. Heç bir şəkilçinin köməyi olmadan yaranır.
d. Tərzi-hərəkət zərfliyi ilə xəbər arasında olur.
e. Həmcins üzvlər arasında olur.

A) 1-a; 2-b; 3-c,d B) 1-a,c; 2-d; 3-b
C) 1-c; 2-a,d; 3-b D) 1-b; 2-a,c; 3-d
E) 1-c; 2-a,b; 3-d

**19. Nöqtələrin yerinə hansı söz yazılsa, cümlə yenə müxtəsər cümlə olaraq qalar?**

… *Lalə universitet tələbəsidir.*

A) O
B) Şagirdim
C) Zəhmətkeş
D) Qabiliyyətli
E) İbrahimli

**20. Nə zaman mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsi *qoyulmaz*?**

A) “əgər ” bağlayıcısı
B) “və ” bağlayıcısı
C) intonasiya
D) -sa$^2$ şəkilçisi
E) –mı$^4$ ədatı

ilə bağlandıqda

**21. Altından xətt çəkilmiş sözlərdən dördü eyni, biri fərqli qrammatik mənaya malikdir. *Fərqli* olanı müəyyən edin.**

A) Elə yenicə həyətə çatmışdım ki, telefon zəng çaldı.
B) Elə danışacaq ki, hər şey hamı üçün aydın olacaq.
C) Hadisə ilə tanış olanların hamısı da belə düşünürdü.
D) Belə binaların tikilməsi xeyli vaxt və xərc tələb edir.
E) Elə danışın ki, dinləyicilər bezməsin.

**22. Bir cümlənin tərkibində eyni üzvlə əlaqələnən və *haradan*? sualına cavab verən beş sadə söz var. Bunlardan hansının tərkibində hökmən şəkilçi olmalıdır?**

A) birincinin B) üçüncünün
C) ikincinin D) beşincinin
E) dördüncünün

**23. Hansı nümunələrin hamısı samitinin yazılışında *səhvə* yol verilən sözdən ibarətdir?**

A) dialektalogiya, sehrli, bumaca
B) nikah, yeknəsəq, xəfiv
C) nigah, məcara, xifvət
D) lotoreya, aidiyyat, alınıaçıq
E) bitginlik, sərhədd, qəstən

**24. Hansı sözlərin birləşməsi ilə bitişik yazılan zərf düzələr?**

1. axşam 2. tez 3. gün 4. üstü
5. orta 6.gec 7. səhər

A) 2+6, 1+7
B) 2+2, 6+6
C)1+4, 3+5
D) 3+7, 6+2
E) 5+7, 1+3

**25. Cümlədə təyin kimi işlənə bilən söz birləşmələrini müəyyən edin.**

1. çalışqan şagird
2. sinif rəhbəri
3. məşqə tələsməyən
4. firmanın sahibi
5. imtahana hazırlaşanda
6. küçədə dayanmaq

A) 1, 5, 6 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 4, 6 E) 1, 2, 3

**26. Venn diaqramı əsasında *səhv* fikirləri müəyyən edin.**




A) 1, 5
B) 3, 4
C) 2, 3, 5
D) 2, 3, 6
E) 1, 4, 6

**27. Hansı cümlədəki altından xətt çəkilmiş sözlər omonim ola bilər?**

1. <u>Kimi</u> oxuyur, <u>kimi</u> yazırdı.
2. Dünən <u>kimi</u> axtarırdın?
3. Səhərə <u>kimi</u> onları gözlədik.

A) 1, 2 B) 2, 3 C) 1, 3
D) 1, 2, 3 E) heç biri

**28. "a" bitişdiricisinin vasitəsilə hansı nitq hissələrinin təkrarı ilə mürəkkəb isim düzəlir?**

A) feil B) sifət C) say
D) əvəzlik E) isim

**29.** *"Hər hansı bir cümlədə sözə bitişik yazılan qoşma işlənibsə, həmin cümlənin tərkibində hökmən ..."* **cümləsini hansı fikirlə tamamlamaq olar?**

A) istiqamət bildirən
B) omonim
C) məsafə bildirən
D) təkhecalı
E) zaman mənalı

→ qoşma işlənib

**30. Uyğunluğu müəyyən edin.**

1. sadət
2. ibtidai

a. Əlamət bildirir.
b. Hərflərin sayı səslərin sayından azdır.
c. İki hecalıdır.
d. Səhv yazılıb.
e. Bütün hecalarının tərkibi eyni sayda hərflərdən ibarətdir.

A) 1 – c; 2 – a, e
B) 1 – c, d; 2 – b
C) 1 – a, e; 2 – c
D) 1 – d; 2 – a, b
E) 1 – d, c; 2 – a, b

## B variantı

**1.** ***Fransız filosoflarından biri Qanunlar hamı üçün eyni məna daşımalıdır demişdir.*** **Bu nümunədə ardıcıl bərpa olunmalı durğu işarələrini müəyyən edin.**

1) .  2) :  3) “
4) -  5) ,  6) ”

A) 2, 3, 5, 4, 6  B) 2, 3, 6, 5, 4
C) 1, 3, 4, 5, 6  D) 3, 6, 4, 5, 1
E) 4, 2, 3, 6, 5

**2.** ***“Arazın*** [1] ***sahilləri*** [2] ***bizim*** [3] ***doğma*** [4] ***yerləri-mizdir”*** [5] **cümləsindən hansı söz çıxarılsa, geniş cümlə alınar?**

A) 5  B) 2  C) 1  D) 3  E) 4

**3.** *“Məqsədə çatana ….. çalışmaq lazımdır”* **cümləsində nöqtələrin yerinə *-dək* qoşması əlavə olunsa, bitişik, *“qədər”* qoşması əlavə olunsa, ayrı yazılar. Səbəbi nədir?**

A) ismin halı
B) cümlədə sözlərin sayı
C) qoşmanın tərkibindəki hecaların sayı
D) qoşmanın mənaca növü
E) ahəng qanunu

**4.** **“*O*” və “*bu*” əvəzliklərindən sonra köməkçi nitq hissəsi gələrsə, vergül *qoyulmaz*. Bəs niyə** *“O, əlbəttə, çaydan keçmək üçün kiminsə gəlib körpü salacağını gözləmirdi”* **cümləsində “O” əvəzliyin-dən sonra vergül qoyulub?**

A) ***O*** əvəzliyindən sonra modal söz işləndiyi üçün
B) ***O*** əvəzliyi kim? sualına cavab vetrdiyi üçün
C) ***O*** şəxs əvəzliyi yerində işləndiyi üçün
D) ***O*** adlıq halda olan ismi əvəz etdiyi üçün
E) Cümlə əvəzliklə başlayıb feillə tamamlandığı üçün

**5.** **Cümlədə neçənci sözün samitinin yazılışında *səhvə* yol verilib?**
*Cavanlıqda işdəsəniz, qocalıqda rahət yaşıyarsınız.*

A) III  B) V  C) I
B) D) IV  E) II

**6.** **Hansı nümunədə vasitəsiz nitqin yazılışında səhvə yol *verilməyib*?**

A) Şekspir: “işin böyüyü, kiçiyi olmur”, - demişdir.
B) M.Rəsulzadə: Bir kərə yüksələn bayraq bir daha enməz! - demişdir.
C) Əli Kərim “əsgərin, - deyib, - Süngüsü tarixin qələmi idi”.
D) Sədi: “Sağlamlığın, - dedi, - əsl dəyəri xəstəlik zamanı bilinər”.
E) “Ən yaxşı ölçü vahidi təcrübədir”, - Deyib Platon

**7.** *Böyük şöhrət qazan, göylərə ucal,*
*Yaxşı ad qazanmış gözəl dost ara.* (Nizami)
**Nümunədəki birinci və sonuncu sözlər ümumi qrammatik mənasına görə nə bildirir?**

A) birinci- tərz, sonuncu- əlamət
B) birinci- ad, sonuncu- yer
C) birinci- əlamət, sonuncu- ad
D) birinci- əlamət, sonuncu- hərəkət
E) birinci- tərz, sonuncu- hərəkət

**8. İşlənmə məqamından asılı olaraq, hansı ədat həm bitişik, həm də ayrı yazılanda ahəng qanununa tabe olur?**

A) ki B) ən C) –ca D) da E) –mı

**9. Hansı cümlənin sonunda sual işarəsi *qoyulmaz*?**

A) Əsəbləri sakit olan adamın bədəni də sağlam olar
B) Çox yemək xəstəliyin, az yemək müalicənin atasıdır
C) Hər kəs müstəqil düşünərək qərar verməlidir
D) Qərar verərkən tərəfkeşlik etməyin
E) Dünyada ictimai fikrə müqavimət göstərə biləcək bir qüvvə yoxdur

**10.**"*Müəssisədə yeni vəzifələrə ………… axtarırlar*" **cümləsində tamamlıq yerində işlənə bilən sözü müəyyən edin.**

A) onlar B) mütəxəssis C) həmişə
D) təyin olunmaq üçün E) həvəslə

**11.** "*Orxan* **Δ** *tələbə yoldaşımın oğlu uğurları ilə bizi sevindirir*" **cümləsində Δ işarəsinin yerinə hansı işarə qoyulsa, cümlənin tərkibində əlavə də olar?**

A) - B) : C) ! D) " " E) ?

**12.** "*Yaşının çoxluğu və görkəminin sadəliyinə baxmayaraq, o, çox bilikli və orijinal fikirləri olan mütəxəssis idi*"
**cümləsinin sintaktik təhlili ilə bağlı *səhvləri* müəyyən edin.**

1. Geniş cümlədir.
2. Müəyyən şəxsli cümlədir.
3. Cümlədə mürəkkəb təyin işlənmişdir.
4. Mürəkkəb ismi xəbərli cümlədir.
5. Çümlədə 2-ci dərəcəli üzvlərdən yalnız təyin işlənmişdir.

A) 4,5 B) 2,3 C) 1,3,5 D) 1,2 E) 3,5

**13.** "*Elm[1] insanın[2] həm beynini[3], həm cismini[4] şövqləndirir[5]*" **nümunəsinin qrammatik əsasını müəyyən edin.**

A) 2, 3, 5 B) 4, 5 C) 2, 3, 4
D) 1, 2, 3 E) 1, 5

**14. Sözlərdən birinin yazılışı ilə deyilişi arasında iki fərqli məqam var:**

A) təəssüflə B) müəllim
C) bitkiçi D) ixtiraçılıq
E) ailəvi

**15. Tərkibində "*ki*" bağlayıcısı olan cümlə haqqında ən doğru fikir hansıdır?**

A) Tabesiz mürəkkəb cümlədir.
B) Müəyyən şəxsli cümlədir.
C) Tabeli mürəkkəb cümlədir.
D) Müxtəsər cümlədir.
E) İki qrammatik əsası var.

**16. Həmcins mübtədalarda hansı şəkilçilər ixtisar oluna bilər?**

1. cəm 2. hal 3. şəxs
4. mənsubiyyət 5. leksik

A) 1, 4 B) 2, 5
C) 2, 3, 5 D) 1, 3 E) 1,2

**17. Əvvəlində – (tire) işarəsi qoyulan və dialoqun tərkib hissəsi olan sonuncu cümlənin sonunda hansı durğu işarəsi qoyula bilər?**

1) . 2) : 3) ;
4) ? 5) !

A) 1, 2, 3 B) 3, 4 C) 2, 5
D) 1, 4, 5 E) 1, 2, 4

**18. Nümunədə əşyanın əlamətini bildirən sözlərin aid olduğu sözləri müəyyən edin.**

*Rəssam[1] təbiətin[2] gözəl[3] güşələrinə[4] həsr etdiyi[5] rəngli[6] rəsm[7] əsərlərini olduqca gözəl[8] çəkmişdi.*

A) 1, 2 B) 3, 6 C) 4, 7
D) 4, 5 E) 5, 6

**19. Hansı söz əmr cümləsinin xəbəri *olmaz*?**

A) deyin B) danışın
C) çalışaq D) oxumasınlar
E) mümkündür

**20. Biri ismi xəbərli şəxssiz cümlədir:**

A) Başqalarının problem və çətinliklərindən ibrət alarlar.
B) Ərimədən buz olmadığı kimi, əbədi xoşbəxtlik də yoxdur.
C) Hər bir işdə həddi gözləmək lazımdır.
D) Təəssüf ki, tamam yoxsulsunuz.
E) Fırtınadan sonra dənizdə hələ də sakitlikdir.

**21. Nöqtələrin yerinə suala cavab verən hansı söz yazılsa, həmin sözdən sonra vergül qoyular?**

*... indi dağlardan qopub gələn bahar küləyini hiss etdikcə neçə il bundan əvvəl olanlar yadına düşürdü.*

A) Tanışımız B) Elə
C) Mahmud D) Şair
E) Əlbəttə

**22.** *Tomris İran əyanlarını ikrahla süzdü: "Biz dosta dost, düşmənə düşmənik. Aman istəyəni öldürmürük. Amma, – deyə o, qılıncını göyə qaldırıb daha qətiyyətli səslə davam etdi, – bir də bizim torpağa ayaq bassanız, başınızı burada qoyacaqsınız".*

**Vasitəsiz nitqin sxemini göstərin.**

A) M: "V, -m, -v". B) M: "V". C) M: "V".
D) "V, -m, -v". E) "V", -m.

**23. Hansı cümlələrin sonunda nida, nöqtə və sual işarəsi qoyula bilər?**

1. Yaşlısansa öyüd ver, gəncsənsə yaşlıların öyüdünü dinlə
2. Başqalarının halına yana bilən insan yaşamağa layiqdir
3. İradəmi düzgün istiqamətləndirməklə xoşbəxtliyimi tapdım
4. Xoşbəxtliyi öz daxilinizdə tapa bilmirsinizsə, onu başqa yerdə axtarmayın
5. İnsanın bacarığı artdıqca dərdləri də artırmı

A) 1, 2, 4 B) 2, 3 C) 3, 4
D) 1, 4,5 E) 2, 5

**24.** *"Deyirlər, dörd şey: tamahkarlıq, qorxaqlıq, tənbəllik və laqeydlik insanın mənəviyyatını pozur. "***Bu cümlənin tərkibində işlənmiş neçənci durğu işarəsi ümumiləşdirici sözlə bağlıdır?**

A) I B) III C) IV
D) II E) V

**25. Xəbəri hansı sözlə ifadə olunan cümlədə qrammatik əsaslardan biri iştirak etmir?**

1. baxıldı 2. idmançıdır 3. sakitlikdir
4. xoşum gəlir 5. başa salacaqsan
6. var

A) 3, 4, 5 B) 1, 3, 4 C) 1, 2, 6
D) 4, 5, 6 E) 1, 2, 3

**26. Tərkibindəki cümlələr qrammatik cəhətdən bərabərhüquqlu olan cümlələrdir:**

A) Əxlaq çox şeyi əvəz edə bilər, amma əxlaqın yerini heç nə verə bilməz.
B) Böyük ol, kiçiklərə qulaq as.
C) Paxıl başqasına ox atar, ancaq özünü yaralar.
D) Əxlaq birdən deyil, tədricən formalaşır.
E) Ağıllı o adamdır ki, dinləməyi və əməl etməyi bacarır.

**27. Üstündə Roma rəqəmi yazılmış sözlər əsasında Venn diaqramında yol verilmiş *səhvi* müəyyən edin.**

a) O, küçədə adam (I) gözləyir.

b) Bizi həmin adam (II) gözləyir.




A) 1, 2    B) 2, 4    C) 1, 5
D) 3, 5    E) 3, 4

**28. Doğru fikirdir:**

A) Oxunmalıdır → Nəqli cümlənin xəbəri olar, sual cümləsinin xəbəri olmaz.
B) Qoruyun → Əmr cümləsinin xəbəri olar, nida cümləsinin xəbəri olmaz.
C) Soyuqqanlıdır → Məqsəd və intonasiyaya görə bütün növ cümlələrin xəbəri ola bilər.
D) Danışasıyıq → Sual cümləsinin xəbəri olar, əmr cümləsinin xəbəri olmaz.
E) Gözləmirik → Nida cümləsinin və əmr cümləsinin xəbəri olur.

**29. Uyğunluğu müəyyən edin.**

1. Dənizi təriflə, amma sahildə qal. (Florio)
2. Pulu kölə edin, yoxsa o sizə ağa olar. (Şou)

a. Bir qrammatik əsası var.
b. Tabeli mürəkkəb cümlədir.
c. Həmcins xəbərli sadə cümlədir.
d. İki qrammatik əsası var.
e. Komponentləri bir-birinə bağlayıcı ilə bağlanıb.

A) 1-c; 2-b, e
B) 1-a, c; 2-b, d
C) 1-a, b; 2-c
D) 1-a, c, 2- d, e
E) 1-d, e; 2-a, c

**30.** *"Əzizim, yaxşı atanın övladı pis olmaz"* **cümləsinin sintaktik təhlili ilə bağlı *səhvləri* seçin.**

1. Cümlə feli xəbərlidir.
2. Mübtəda mürəkkəbdir, III növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur.
3. Cümlədə bir təyin və bir tərz-hərəkət zərfliyi işlənmişdir.
4. Cümlədə xitab işlənmişdir.
5. Təyin sifətlə, tərzi-hərəkət zərifliyi zərflə ifadə olunmuşdur.

A) 3, 5    B) 1, 2, 4
C) 2, 5    D) 1, 4, 5
E) 2, 3

# C variantı

**1. Eyniköklü sözləri və onların eyniköklü olmasının səbəbini müəyyən edin.**

1. örtüldü 2. örtür 3. örtü
4. örtmərəm 5.örüş 6. örtüsüz

A) 2, 4, 5 → Kökləri eyni feildən və tərkibində şəkilçi olduğu üçün
B) 1, 3, 6 → Kökləri eyni və düzəltmə olduğu üçün
C) 2, 4, 6 → Eyni feildən düzəldikləri üçün
D) 1, 3, 5 → Eyni sözün müxtəlif formaları olduğu üçün
E) 1, 2, 6 → Kökləri eyni feildən və tərkibində müxtəlif şəkilçi olduğu üçün

**2. Hansı cümləni sadələşdirmək mümkündür?**

A) İnsan yanılanda bunu hamı görür, yalan danışanda isə bunu az adam görür.
B) Yalanla dünyanı dolaşmaq olar, amma geri dönmək olmaz.
C) Yalançının evi yandı, heç kəs inanmadı.
D) Yalan elə bir bataqlıqdır ki, orada ölü balıqlardan savayı heç nəyə rast gəlməzsən.
E) Təəssüf ki, yalana inananlar da az deyil.

**3. Həmcins üzvlərdə hansı şəkilçi ixtisar *olunmur*?**

1. zaman şəkilçiləri
2. şəxs şəkilçiləri
3. mənsubiyyət şəkilçiləri
4. inkar şəkilçiləri
5. hal şəkilçiləri
6. leksik şəkilçilər

A) 1, 4, 6 B) 3, 4, 5 C) 2, 4, 6
D) 1, 3, 5 E) 1, 2, 4

**4. Yazıda vergül tələb edən ədatla vergül tələb *etməyən* ədat yanaşı verilib:**

A) hə, yox B) bəs, məhz
C) bəli, xeyr D) məgər, ki
E) bəli, ki

**5.** *"Cəzasızlıq[1] ömürlük[2] cəza çəkməkdən[3] daha ağır[4] cəzadır[5]"* **cümləsinin bitmiş fikir ifadə etməsində əsas rol oynayan üzvlər hansılardır?**

A) 2, 4 B) 1, 3 C) 1, 5 D) 2, 5 E) 3, 4

**6. Venn diaqramı əsasında doğru fikirləri müəyyən edin.**

1. Özünə qalib gələndən güclü qalib yoxdur.
2. Mənasız və mətləbsiz mübahisələrdən çəkin.




A) 1, 4, 5 B) 3, 4, 5 C) 1, 2, 4
D) 1, 2, 3 E) 2, 3, 5

**7. Dialoqda buraxılmış durğu işarələrini hansı ardıcıllığa uyğun bərpa etmək olar?**

*□İndi sən nə edəcəksən?*
*Qarpaq □*
*□Astiaqın əmrini yerinə yetirəcəyəm□ □ dedi*

A) tire, qoşa nöqtə, dırnaq, dırnaq, tire
B) tire, qoşa nöqtə, tire, vergül, tire
C) defis, nöqtə, defis, vergül, defis
D) defis, qoşa nöqtə, defis, vergül, tire
E) tire, qoşa nöqtə, defis, vergül, tire

**8. Hansı cümlənin sonunda durğu işarəsindən düzgün istifadə *edilməyib*?**

A) Yerində danışmaq və susmaq bacarığı böyük ağıl tələb edir.
B) Sənə "sus" deyilməmiş özün sus?
C) Lazım olmayan sözləri danışmaqdansa, susmaq yaxşıdır.
D) Şəhidlər ölməz, vətən bölünməz!
E) Hüqo deyib ki, uşaqların gələcəyi aldıqları tərbiyəyə bağlıdır.

**9. "*Əsgər atası*" ifadəsi hansı cümlədə təyin vəzifəsində işlənib?**

A) Məktəblilər *əsgər atası* ilə görüşdən zövq aldılar.
B) Bu gün *əsgər atası* oğlunun döyüş yoldaşları ilə görüşdü.
C) *Əsgər atası* üçün bundan gözəl nemət ola bilməz.
D) Həm Elçin kişi, həm də Özdəmir baba *əsgər atası* idi.
E) *Əsgər atası* Mahmud kişi bu xəbərədən çox qürurlandı.

**10. Cümlənin ortasında işləndikdə hər iki tərəfdən vergül qoyulur:**

1. əlavələrin 2. xitabların
3. bağlayıcı sözlərin 4. ara sözlərin
5. bağlayıcıların

A) 1, 3 B) 2, 5 C) 1, 2, 4
D) 2, 4 E) 1, 3, 5

**11. Bitişik və ayrı yazıla bilir, bitişik yazılanda ahəng qanununa tabe olur:**

1. *ilə* qoşması 2. – *mı*$^4$ ədatı
3. *tək* qoşması 4. *ilə* bağlayıcısı

A) yalnız 2 B) yalnız 1, 2
C) yalnız 3, 4 D) 1, 3, 4
E) 1, 2, 4

**12. Uyğunluğu müəyyən edin.**

- Qrammatik əsas həmişə mübtəda və xəbərdən ibarət olur.
- Xəbərin şəxs şəkilçisinə görə bəzən mübtədanı müəyyən etmək olur.
- Cümlədə mübtəda və xəbərin sayı qədər qrammatik əsas olur.
- Mübtəda və xəbərin hər ikisi işlənməzsə, cümlənin qrammatik əsası olmaz.

- doğru
- yanlış



**13. Bir cümlədə hansı məqamlarda mübtəda yerində işlənən *o*, *bu* əvəzliklərindən sonra vergül *qoyulmaz*? Bu əvəzliklərdən sonra ...**




A) 1, 2, 3 B) 1, 4, 5
C) 2, 3, 6 D) 3, 4, 5 E) 1, 2, 6

**14. Ən doğru fikir hansıdır?**




A) 1, 4 B) 1, 2 C) 2, 3
D) 3, 4 E) 2, 4

**15. Vasitəsiz nitqlə bağlı doğru sxem *deyil*:**
A) M: "V, - m?" B) M: "V, -m, - v".
C) "V, - m, - v?" D) M: "V"!
E) "V, -m,- v!"

**16. Hansı cümlədə təyini söz birləşməsi cümlə üzvü yerində *işlənməyib*?**
A) Səmaya sahib olanlar, səma da vətənin bir hissəsidir!
B) Məğrur qartal dağın zirvəsində daha əzəmətli görünürdü.
C) Uçun, uçun, Azərbaycan şahinləri, sonsuz səmanın sahibi sizsiniz!
D) Dağın kölgəsi aranı yandırıcı istidən qoruyurdu.
E) Zirvəsindəki qar əridikcə çayın suyu çoxalırdı.

**17. "Mürəkkəb cümlədir, lakin tabeli mürəkkəb cümlə deyil" fikrini əsaslandırın.**
1. Tərkib hissələri bir-birindən asılı deyil.
2. Tərkib hissələri arasında tabelilik bağlayıcısı işlənməyib.
3. Tərkib hissələrindən birində mübtəda işlənməyib.
4. Tərkibində tabesizlik bağlayıcısı işlənib.
5. Tərkib hissələrindən biri ümumilik bildirən hissəsini aydınlaşdırır.

A) 1, 5 B) 2, 4 C) 2, 3
D) 4, 5 E) 1, 3

**18. Hansı məqamda vasitəsiz nitqli cümlədə baş hərfi böyük yazılan yalnız bir söz ola bilər? (xüsusi isim və ya mürəkkəb ad olmadıqda)**
A) dırnaq işarəsindən istifadə etdikdə
B) cümlə vasitəsiz nitqlə başlayanda
C) cümlə müəllifin sözü ilə başlayanda
D) cümlənin tərkibində iki sadə cümlə olduqda
E) "dedi" sözündən də istifadə edildikdə

**19. Cümlədəki sözlərdən birinin qrammatik mənası düzgün *göstərilməyib*:**

| *Çox* | *yaşamağın* | *qəddar* | *düşməni* | *ümidsizlikdir* |
|---|---|---|---|---|
| **say** | **feil** | **sifət** | **isim** | **isim** |
| A) | B) | C) | D) | E) |

**20. Səs tərkibi ikinci hecada fərqlənən sözləri müəyyən edin.**

1. otağa 2. pələng 3. komandir
4. hətta 5. qutablar

A) 1, 2, 3 B) 2, 4, 5 C) 2, 5
D) 1, 3 E) 1, 5

**21. Altından xətt çəkilmiş nümunələrdən biri bütövlükdə tamamlıq, yaxud həm birinci tərəfi mübtəda, ikinci tərəfi tamamlıq, eləcə də birinci tərəfi təyin, ikinci tərəfi tamamlıq kimi düşünülə bilər?**

A) Qızıl saat satıldı.
B) Uşaq paltarlarını ütülədilər.
C) Ata yurdunda görüşdük.
D) Tələbə yoldaşlarını gördü.
E) İgid əsgəri gördü.

**22. Nümunələrin birində adlıq halda olan isim asılı tərəf kimi çıxış edir:**

A) Qeybət bəsit ruhlu insanların əyləncəsidir.
B) İçdəki çirki su yox, göz yaşı yuyar.
C) Kitab insan ruhunu qidalandırır.
D) Quruca bəxt qızıl taxtdan yaxşıdır.
E) Pis əxlaq yaraya oxşayır; sağalsa da, izi qalır.

**23. *"Naxçıvan Muxtar Respublikası"* ifadəsində altından xətt çəkilmiş söz xüsusi isim olmadığı halda, nə üçün onun baş hərfi böyük yazılıb?**

A) ondan əvvəl xüsusi isim işləndiyi üçün
B) "Muxtar" sözü səhv işləndiyi üçün
C) mürəkkəb adın tərkibində olduğu üçün
D) "Respublika" sözündən əvvəl işləndiyi üçün
E) şəkilçi qəbul etdiyi üçün

**24. *"Millətin[1] ruhu[2] dövlətin[3] qüdrətinin[4] ifadəsidir[5]"* cümləsində idarə olunan tərəfdir. Səbəbi:**

A) 1, 3, 4 → adlıq haldan çıxıb başqa hala düşdüyü üçün
B) 2, 3, 5 → ardıcıl işləndikləri üçün
C) 1, 3, 5 → tərkibində qrammatik şəkilçi olduğu üçün
D) 2, 4 → ahəng qanununa tabe olduğu üçün
E) 1, 2 → üçüncü növ təyini söz birləşməsinin tərəfləri olduğu üçün

**25. Hansı nümunədə qoşmanın sözə qoşulmasında *səhvə* yol verilib?**

A) sizi
B) Bakıya
C) bizim
D) sənin
E) ona

→ qədər

**26. Nümunələrin birində arıq oğlan söz birləşməsinin asılı tərəfinin antonimi var:**

A) Sözün dəyişməyən və ayrılıqda məna bildirən hissəsinə **kök** deyilir.
B) Soyumuz, **kökümüz** daha qədimlərə gedib çıxır**.**
C) Bazardan alınan **kökü** yuyub iştahla yedilər.
D) Bu yerlərdə kökü qurumuş ağac çoxdur.
E) Bu köynək **kök** bədən üçün o qədər də münasib deyil.

**27. *"<u>Kəndimizin sakinləri:</u> qocalar da, cavanlar da səngərdəki əsgər kimi ayıq-sayıq dayanmışdılar"* cümləsində altından xətt çəkilmiş ifadə nədir?**

A) ikinci növ təyini söz birləşməsi
B) xitab
C) tamamlıq
D) ümumləşdirici söz
E) əlavə

**28. *"İşin gerisini əvvəlcədən düşünmək lazımdır"* cümləsindəki mənsubiyyət şəkilçili söz əsasında klasteri tamamlayın.**




a. gerisini
b. işin
c. zərfdir.
d. təsirlik haldadır.
e. yiyəlik haldadır.

A) 1-a; 2-c; 3-d
B) 1-b; 2-e
C) 1-e; 2-b, 3-c
D) 1-c; 2-e
E) 1-a; 2-d; 3-b

**29.** *"Gələnlər həmin kəndin adamları idi"* **cümləsinin sintaktik təhlili ilə bağlı *səhvi* müəyyən edin.**

A) Geniş cümlədir.
B) Mübtəda feli sifətlə ifadə olunmuşdur.
C) Xəbər III növ təyini söz birləşməsi ilə ifadə olunmuşdur.
D) Nəqli cümlədir.
E) Cümlənin baş üzvləri mürəkkəbdir.

**30. *"İnsanların sirrini saxlamaq böyüklük əlamətidir"* cümləsinin tərkibinə əlavə söz və ifadə artırmadan onu hansı vasitə ilə məqsədə görə sadə cümlənin müxtəlif növlərində işlətmək olar?**

A) əvəzliyin vasitəsilə
B) söz sırasının pozulmağı ilə
C) intonasiyanın vasitəsilə
D) xitabın vasitəsilə
E) ara sözün vasitəsilə

# Mündəricat

**Ön söz** ........ **4**

**I hissə**
YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI

**İzahat vərəqi** ........ **8**

IV–VIII siniflərdə öyrənilmiş bilik və bacarıqlara aid diaqnostik qiymətləndirmə ........ 10

1. DİL, TƏHSİL VƏ CƏMİYYƏT / V-VIII siniflərdə keçilmişlərin təkrarı ........ 15
2. MÜVƏFFƏQİYYƏT VƏ CƏMIYYƏT / Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlələr ........ 36

**Böyük summativ qiymətləndirmə 1** ........ **59**

3. MƏNƏVİYYAT VƏ CƏMİYYƏT / Tabeli mürəkkəb cümlə, tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr ........ 88
4. MƏDƏNİ İRS VƏ CƏMİYYƏT / Vasitəli və vasitəsiz nitq ........ 107

**Böyük summativ qiymətləndirmə 2** ........ **126**

**II hissə**
TEST TAPŞIRIQLARI

**İzahat vərəqi** ........ **158**

1. DİL, TƏHSİL VƏ CƏMİYYƏT / V-VIII siniflərdə keçilmişlərin təkrarı ........ 160
2. MÜVƏFFƏQİYYƏT VƏ CƏMIYYƏT / Mürəkkəb cümlə. Tabesiz mürəkkəb cümlələr ........ 176

**Birinci yarımil üzrə yekunlaşdırıcı test tapşırıqları** ........ **182**

3. MƏNƏVİYYAT VƏ CƏMİYYƏT / Tabeli mürəkkəb cümlə, tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr ........ 189
4. MƏDƏNİ İRS VƏ CƏMİYYƏT / Vasitəli və vasitəsiz nitq ........ 194

**İkinci yarımil üzrə yekunlaşdırıcı test tapşırıqları** ........ **199**

**İllik material üzrə yekunlaşdırıcı test tapşırıqları** ........ **206**

**Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının birinci mərhələsi üçün tapşırıq nümunələri** ........ **213**

**Ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının ikinci mərhələsi üçün test tapşırığı nümunələri** ........ **246**

**I hissə –** YENİ TƏHSİL PROQRAMI (KURİKULUM) ÜZRƏ
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI

İbrahimov Saməddin Həsən oğlu
Hüseynova Arzu Hüseyn qızı
Osmanova Flora İsmayıl qızı
Abdulov Nəriman Şükür oğlu
Zərbəliyev Zinan Mayıl oğlu

**II hissə –** TEST TAPŞIRIQLARI

Əhmədzadə İsmayıl Əhməd oğlu
Vəliyeva Mehriban Hidayət qızı
Əliyeva Ruhəngiz Kamil qızı
İbrahimov Saməddin Həsən oğlu
Ellazov Fazil Cavad oğlu
Hüseynov Mühəddin Əbülfət oğlu
Əsədov Ədalət İxtiyar oğlu

**AZƏRBAYCAN DİLİ**

(ümumi təhsil müəssisələrinin 9-cu sinfi üçün vəsait)

Kitab “Abituriyent” jurnalı redaksiyasında
yığılmış, səhifələnmiş və redaktə olunmuşdur.
Fiziki çap vərəqi 33. Çapa imzalanmışdır 22.08.17
Azərbaycan dili seriyası üzrə tiraj 15 000.

**© DİM – “Abituriyent” – 2017**